# AZƏRBAYCAN TARİXİ





10

Dərslik














LAYİHƏ

# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

Təvəkkül Əliyev, Pərviz Ağalarov, Niyaməddin Quliyev,
Elşən Qasımov, Faiq Babayev, Elnur Hüseynov,
Kamran Əsədov, Rafiq Məmmədov

# AZƏRBAYCAN TARİXİ

# 10

*Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün*
*Azərbaycan tarixi fənni üzrə*
**DƏRSLİK**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB
BAKI 2018

LAYİHƏ

# MÜNDƏRİCAT

## AZƏRBAYCAN QƏDİM DÖVRDƏ

Giriş ............ 7
1. İbtidai icma cəmiyyəti ............ 9
2. Azərbaycan ərazisində ilk tayfa ittifaqları və dövlət qurumları ............ 14
3. İlk Azərbaycan dövləti – Manna ............ 18
4. Azərbaycan eradan əvvəl VII–IV əsrlərdə ............ 23
5. Atropatena dövləti ............ 27
6. Albaniya dövləti ............ 32
7. Mədəniyyət ............ 36

## AZƏRBAYCAN III–XI ƏSRLƏRDƏ

8. Azərbaycan Sasanilər dövründə ............ 41
9. Girdiman dövləti. Cavanşir ............ 45
10. Azərbaycanın Ərəb xilafətinin tərkibinə daxil olması ............ 48
11. Xilafətin Azərbaycandakı siyasəti ............ 51
12. Azadlıq hərəkatı. Babək ............ 54
13. Şirvanşahlar dövləti. Dərbənd əmirliyi ............ 57
14. Saci, Salari və Rəvvadi dövlətləri ............ 60
15. Şəddadilər dövləti. Tiflis müsəlman əmirliyi ............ 64
16. Erkən orta əsrlərdə sosial-iqtisadi həyat ............ 68
17. Mədəniyyət ............ 72

LAYİHƏ

## AZƏRBAYCAN XI–XV ƏSRLƏRDƏ III


18. Azərbaycan və Səlcuqlar ..... 77
19. Azərbaycan Atabəyləri (Eldənizlər) dövləti ..... 81
20. Şirvanşahlar XI–XIV əsrlərdə ..... 85
21. İntibah mədəniyyəti ..... 89
22. Azərbaycan monqol yürüşləri dövründə ..... 93
23. Azərbaycan Hülakülər dövlətinin tərkibində ..... 97
24. Azərbaycan Cəlairilər və Teymurilərin hakimiyyəti dövründə ..... 101
25. Qaraqoyunlu dövləti ..... 105
26. Ağqoyunlu dövləti ..... 109
27. Şirvanşahlar dövləti XIV əsrin sonları – XV əsrin əvvəllərində ..... 115
28. Şəki hakimliyi. Səfəvilərin Ərdəbil hakimliyi ..... 118
29. XIII–XV əsrlərdə mədəniyyət ..... 122


## AZƏRBAYCAN XVI–XVIII ƏSRLƏRDƏ IV


30. Səfəvilər dövlətinin yaranması və yüksəlişi ..... 127
31. Səfəvilər dövləti XVI əsrin son rübündə ..... 134
32. Səfəvilər dövləti Şah I Abbasın hakimiyyəti illərində ..... 137
33. Səfəvilər dövləti XVII əsrin ikinci yarısı – XVIII əsrin əvvəllərində ..... 142
34. Azərbaycanın sosial-iqtisadi inkişaf xüsusiyyətləri ..... 147
35. Səfəvilər dövründə mədəniyyət ..... 153
36. Azərbaycan torpaqlarının azad olunması uğrunda mübarizə. Nadir şah ..... 157
37. Quba xanlığının birləşdirmə siyasəti ..... 163
38. Şəki xanlığı. Car-Balakən camaatlığı ..... 167


LAYİHƏ

39. Qarabağ xanlığı ........ 171
40. Naxçıvan və İrəvan xanlıqları ........ 175
41. Cənub xanlıqları ........ 178
42. Ağaməhəmməd şah Qacarın mərkəzləşdirmə siyasəti ........ 182
43. Xanlıqlar dövründə sosial-iqtisadi həyat ........ 186
44. Xanlıqlar dövründə mədəniyyət ........ 190

## ƏLAVƏLƏR

Əlavə mənbələr ........ 193
Terminoloji lüğət ........ 196
İstifadə edilmiş ədəbiyyat ........ 199

**Şərti işarələr:**

- Giriş
- Açar sözlər
- Mövzuda araşdırma məqsədilə verilmiş suallar
- Mövzuda araşdırma məqsədilə verilmiş tapşırıqlar
- Mənbə
- Mövzunun sonunda verilmiş sual və tapşırıqlar

LAYİHƏ

## GİRİŞ

Əziz şagirdlər! Sizə təqdim olunan bu dərslik xronoloji cəhətdən Azərbaycan tarixinin çox böyük bir mərhələsini – ən qədim zamanlardan XVIII əsrin sonunadək olan dövrünü əhatə edir. Burada əsas tarixi məlumatlar 4 bölmə üzrə 44 paraqrafda verilmişdir. Həm bölmə, həm də paraqrafların əvvəlində ümumi istiqamətləndirici girişdən istifadə olunmuşdur. Dərslik müəllifləri həcm baxımından paraqraflar arasındakı tarazlığı qorumağa çalışmışlar. Belə ki ayrı-ayrı yarımbaşlıqlara ayrılan paraqrafların hər biri, əsasən, 4-5 səhifədən ibarətdir. Dərslikdə siz ölkəmizin tarixi inkişaf yollarından, mədəni-təsərrüfat həyatından, torpaqlarımızı ələ keçirməyə çalışan dövlət və xalqların məkrli siyasətindən, müstəqilliyin və dövlətçiliyin möhkəmlənməsi uğrunda əsrlər boyu xalqımızın apardığı mübarizədən bəhs edən materiallarla tanış olacaqsınız.

Paraqrafların içərisində və ya sonunda mövzu ilə bağlı mənbələr təqdim olunur. Bu mənbələr keçmişdə yaşamış hökmdarların daş və gil lövhələr üzərinə həkk etdirdikləri təsvir və mixi yazılı sənədlərdən, antik müəlliflərin, orta əsr səyyah və tarixçilərinin yol qeydləri və əsərlərindən, qanun toplularının parçalarından ibarətdir. Azərbaycan tarixində baş vermiş hadisələrin bərpasında bu mənbələrlə yanaşı, xəritə və sxemlər, gündəlik həyatı, döyüş səhnələrini və şəxsiyyətləri əks etdirən miniatürlər, arxeoloji tapıntıların və memarlıq abidələrinin fotoşəkilləri də mühüm rol oynayır. Tarix dərsliklərini əvəzedilməz mənbə kimi xəritələrsiz təsəvvür etmək olmaz. Tarixi xəritələr insanların siyasi və mədəni-təsərrüfat həyatındakı dəyişiklikləri əks etdirir, hadisələrin baş verdiyi zamanla məkan arasındakı əlaqələri müəyyən etməyə imkan verir. Siz mənbələr üzərində çalışmaqla keçmiş haqqında təsəvvürlərinizi genişləndirə, həm də tarixçi-tədqiqatçı kimi öz bacarıqlarınızı nümayiş etdirə bilərsiniz.

Dərslikdə verilən xronoloji cədvəl və diaqramlar tarixi hadisələri daha yaxşı mənimsəməkdə sizə kömək edəcəkdir. Mətndə rastlaşdığınız yeni söz və ya anlayışlar xüsusi şrift və kursivlə verilib. Onların izahı ilə həm paraqrafların daxilində, həm də dərsliyin sonunda verilən lüğət vasitəsilə tanış ola bilərsiniz. Paraqrafların sonunda sizə mürəkkəblik dərəcəsinə görə müxtəlif sual və tapşırıqlar ünvanlanıb. Onlar mövzunu öyrənməyinizə, danışılan məsələ haqqında müzakirə açıb fikir mübadiləsi aparmağınıza kömək edəcək, əlavə məlumatlar əldə etmək üçün sizi başqa informasiya vasitələrinə yönəldəcəkdir.

Sizə "dünyanın siyasi xəritəsi"ndə müstəqil dövlət kimi öz önəmli yerini tutan ölkəmizin – Azərbaycanın tarixinə bələd olmaq, onu öyrənmək yolunda uğurlar arzulayırıq!

LAYİHƏ



# I. AZƏRBAYCAN QƏDİM DÖVRDƏ

*Ölkəmizin müxtəlif guşələrində rast gəlinmiş ilk insan düşərgələrində aparılan tədqiqatlar sübut edir ki, Azərbaycan dünyanın ən qədim insan məskənlərindəndir. E.ə. IV–III minilliklərdə erkən sivilizasiyaların təşəkkül tapdığı məkanlardan olan İkiçayarasında gedən proseslər Urmiyaətrafı tayfaların dövlət quruculuğu yolunda ilkin təcrübə əldə etmələrinə imkan vermişdir. Azərbaycan ərazisində ilk dövlət qurumlarının meydana gəlməsi də həmin bölgənin mədəniyyət mərkəzləri arasındakı əlaqələrin inkişafı ilə bağlı idi.*

*Bir tərəfdən, sosial-iqtisadi inkişaf, qonşu ölkələrlə əlaqələrin genişlənməsi, digər tərəfdən isə, Assuriya və Urartu kimi qüdrətli Şərq dövlətlərinin işğalçılıq siyasəti Azərbaycanın cənubunda – Urmiya gölü ətrafında yaşayan tayfaların birləşib Manna kimi güclü bir dövlət yaratmalarına səbəb olmuşdu. Ölkəmizin ərazisində ilk quldar dövlət olan Manna uzun müddət müstəqillik uğrunda mübarizə aparmış və buna nail olmuşdur. O, dövlətçilik tariximizin özülündə dayanıb sonrakı mərhələlərdə tarix səhnəsinə çıxan digər dövlətlərimiz üçün örnəyə çevrilmişdir. Midiya və Əhəməni imperiyalarının hökmranlığı dövründə belə, Urmiyaətrafı torpaqlarda yaşayan əhali mədəni səviyyəsini qoruyub saxlaya bilmişdir.*

*E.ə. IV əsrdə Azərbaycanın şimalında Albaniya, cənubunda isə Atropatena dövlətləri yarandı. Bununla ölkəmizin tarixində qədim dövlətçilik ənənələri daha da möhkəmləndi. Mürəkkəb geosiyasi mühitə baxmayaraq, bu dövlətlərin inkişafı və yüksəlişi Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynadı.*

*Qədim dövrdə Azərbaycan ərazisində ticarət və sənətkarlıq mərkəzləri olan erkən şəhərlər meydana gəlmiş, əhali müxtəlif yazı sistemləri ilə tanış olmuş və zəngin mədəniyyət yaratmışdır.*

LAYİHƏ



1

# İBTİDAİ İCMA CƏMİYYƏTİ

*Cəmiyyət tarixində ən uzun sürən mərhələ ibtidai icma quruluşudur. Yaşı milyon illərlə ölçülən bu zaman kəsiyində Azərbaycanın da öz yeri vardır. Ölkəmizin ərazisində bütün tarixi dövrlərə aid yaşayış məskənlərinə rast gəlmək mümkündür. Bu qəbildən olan Azıx, Qobustan, Kültəpə, Göytəpə və digər abidələr dünyanın elmi mərkəzlərində yaxşı tanınır.*

*İbtidai icma, Azıx mağarası, Qobustan təsvirləri, Neolit inqilabı, ilkin şəhər mərkəzləri, əmək bölgüsü, mülki bərabərsizlik*

**Azıxdan başlanan həyat.** Azərbaycan ərazisində insanlar ən qədim zamanlardan yaşayırlar. Təsadüfi deyildir ki, ölkəmizdə ilk insanın təşəkkülündən e.ə. XII minilliyədək olan mərhələni əhatə edən **Paleolit** (Qədim Daş) dövrünə aid 40-a yaxın abidə aşkar edilmişdir. Qarabağda Azıx və Tağlar, Qazaxda Damcılı və Daşsalahlı, Lerikdə Buzeyir, Naxçıvanda Qazma, Kəlbəcərdə Zar, Mingəçevir yaxınlığında Qaraca belə abidələrdəndir.



*Azıx mağarasının planı*

Füzuli şəhərinin yaxınlığında, Xocavənd rayonu ərazisində yerləşən Azıx mağarası dünyanın ən qədim mağara düşərgələrindəndir. Nəhəng qayaların altında olan mağara şimaldan cənuba doğru 250 metrədək uzanır. Görkəmli alim Məmmədəli Hüseynovun 20 ilə yaxın apardığı tədqiqatlar göstərmişdir ki, Azıx mağarasında və onun ətrafındakı Quruçay dərəsində həyat təxminən 2 milyon il əvvəl başlanmışdır.

?

*Azərbaycan ərazisində çoxlu qədim insan düşərgələrinin olması nə ilə bağlıdır?*



*M.Hüseynov*

Arxeoloji qazıntlar zamanı Azıx mağarasında böyük ocaq yeri aşkar edilmişdir. Bu, Qədim Daş dövründə insanların oddan istifadəetmə bacarıqlarını göstərir. İşıq və istilik mənbəyi olan odun köməyi ilə qədim insanlar qida hazırlayır, soyuqdan qorunur, vəhşi heyvanları mağaralardan çıxarır, onların yaşayış məskənlərinə soxulmasının qarşısını alırdılar. 1968-ci ildə Azıx mağarasında 350–400 min il bundan əvvəl yaşamış ibtidai insanın (azıxantropun, yəni Azıx adamının) daşlaşmış alt çənə sümüyü tapılmışdır. Bu tapıntı dünyanın ən qədim insan məskənlərindən birinin Azərbaycan olduğunu təsdiq edir. Azıx mağarasından tapılan kobud çapacaqlar arasında çay daşlarından hazırlanmış və ağırlığı 4-5 kq olan iri alətlər vardır. Belə alətlər parçalamaq və doğramaq üçün əlverişli idi.



LAYİHƏ

Ovçuluqla əlaqədar çaxmaqdaşı və vulkanik şüşədən (obsidian) itiuclu silahlar düzəldilirdi. Paleolit dövrünün ortalarında Azıx və Tağlar mağaralarının sakinləri məhz bu silahların köməyi ilə 25 növdən çox heyvan ovlaya bilmişlər. Daha çox maral, ayı və dağ keçisi ovlanırdı. Xırda kəsici alətlərdən sümük və ağac işləmədə, qaşovlardan isə gön işləmədə istifadə edilirdi.



***Çaxmaqdaşı və obsidiandan alətlər (Göytəpə, Tovuz rayonu)***

? *Sizcə, daş alətlərdən daha hansı məqsədlə istifadə olunurdu?*

Cəmiyyət tarixinin erkən pillələrində ibtidai insanlar ayrı-ayrı birliklər halında yaşayırdılar. "Ulu icma" adlanan belə kollektivlər möhkəm, daimi deyildi. Qədim insanlar gündəlik tələbatlarını ödəmək, vəhşi heyvanlara qarşı mübarizə aparmaq üçün birgə yaşamağa məcbur idilər. Uzun müddət davam edən ***Ulu icmanı*** Qədim Daş dövrünün sonlarında (Üst Paleolit) ***qəbilə icması*** və ya nəsli icma əvəz etdi. Bu, alimlərin "ağıllı adam" (Homo sapiens) adlandırdıqları yeni insan növünün meydana gəlməsi ilə bağlı idi. İnsanların qan qohumluğuna əsaslanan və ana xətti ilə müəyyən edilən birliyi – qəbilə icması ulu icma ilə müqayisədə daha möhkəm, mütəşəkkil kollektiv idi. Cəmiyyətdə, əsasən, anaxaqanlığının hakim olduğu bu yaşayış forması Tunc dövrünə qədər mövcud olmuşdur.

? *İnsanları birgə yaşamağa vadar edən daha hansı səbəbləri göstərə bilərsiniz?*

**On minillik tarixi yaşadan abidə.** Azərbaycan ərazisindəki dünya əhəmiyyətli qədim insan düşərgələrindən biri də Qobustandır. Bu abidə Bakı şəhərindən 55 km cənubda, Xəzər dənizinin sahillərində yerləşir. Burada **Mezolit – Orta Daş** dövründən (e.ə. XII–VIII minilliklər) başlanan həyat on min ildən artıq davam etmişdir.

Qobustanı dünyaya tanıdan buradakı qayalar üzərinə həkk edilmiş minlərlə təsvirdir. Onların arasında insan və heyvan rəsmləri, ov və müasir "Yallı" oyununu xatırladan rəqs səhnələri vardır. Mezolit dövrünün ən böyük kəşfi olan ox və kamanla silahlanmış ovçu təsvirləri də diqqəti cəlb edir. Qədim Qobustan sakinləri ovçuluq və yığıcılıqla bərabər, balıqçılıqla da məşğul olur, ağacın içini oyaraq qayıqlar düzəldirdilər.

Qobustanda içərisində adamlar, burun hissəsində isə günəş təsviri olan qayıq rəsmləri var. Bu rəsmlər gəmiçiliyin tarixini araşdıran məşhur Norveç alimi Tur Heyerdalın marağına səbəb olmuşdur. O, XX əsrin sonlarında bir neçə dəfə Azərbaycana səfər edərək Qobustanda tədqiqatlar aparmış və belə bir nəticəyə gəlmişdir: "Azərbaycan gəmiçiliyin meydana gəldiyi ən qədim diyardır".



***Qədim sakinlər və burnunda günəşin əksi olan qayıq rəsmi (Qobustan)***

? *Azərbaycan Respublikasının ərazisində dünya əhəmiyyətli hansı abidələri tanıyırsınız?*

*Yerli, respublika və dünya əhəmiyyətli abidələri fərqləndirin.*



LAYİHƏ

**Neolit inqilabı.** Mezolit dövründən sonra gələn mərhələ **Neolit – Yeni Daş dövrü** adlanır. E.ə. VIII minilliyin sonlarından VI minilliyin ortalarına qədər davam edən bu dövrdə ibtidai cəmiyyətin təsərrüfat həyatında çox mühüm yeniliklər baş vermişdir. Naxçıvanda, Gəncə-Qazax bölgəsində, Təbriz ətrafında, Qobustanda, son illər isə Tovuz rayonundakı Göytəpə, Ağcabədi rayonundakı Kamiltəpə yaşayış yerlərində Neolit dövrünə aid sümükdən və daşdan düzəldilmiş toxalar, oraq dişləri, çəkic, balta və s. alətlər tapılmışdır. Bu alətlər istehsal təsərrüfatının yarandığını, əkinçilik və maldarlığın meydana gəldiyini göstərir. Təsərrüfatın inkişafı ilə əlaqədar əhalinin böyük bir hissəsinin oturaq həyata keçməsi onların arasında müxtəlif sənət sahələrinin meydana gəlməsinə zəmin yaratmışdır. Saxsı qabların hazırlanması Neolit dövrünün ən böyük nailiyyətlərindən idi. Bu dövrdə insanlar daş alətləri cilalamağı və deşməyi öyrənmiş, toxuculuqla məşğul olmuşdular. Bütün bunlar ibtidai cəmiyyət tarixində əsl inqilabi dəyişikliklər idi.



*Kamiltəpə yaşayış yeri. Neolit dövrü (Ağcabədi rayonu)*

**Metalla ilk tanışlıq.** Dulusçuluq sənətinin yaranması, saxsı qab istehsalı Azərbaycanda metallurgiyanın meydana gəlməsində mühüm rol oynadı. Gil qab düzəldən ustalar getdikcə daha yüksək istilik əldə etməyi öyrəndilər. Mis onların diqqətini cəlb edən ilk metal oldu. Gədəbəy və Daşkəsən rayonlarında, Qarabağın dağlıq hissəsində zəngin mis yataqları aşkarlandı. Ocaqdakı istinin təsirindən tez əriyən və yeni forma alan mis yumşaq materialların (parça, dəri) emalında istifadə olunan alətlərin düzəldilməsi üçün əlverişli idi. Misdən iynə, biz, balıq tutmaq üçün qarmaqlar hazırlanır, muncuq, üzük, qolbaq kimi müxtəlif bəzək əşyaları düzəldilirdi. Mis emalının başlanması ilə səciyyələnən tarixi mərhələ mis-daş mənasını verən **Eneolit** dövrü adlanır. Azərbaycanda bu dövrə – e.ə. VI–IV minilliklərə aid çoxlu yaşayış məskənləri aşkar edilib öyrənilmişdir. Buradakı evlər çiy kərpic və möhrədən tikilirdi.

Eneolit dövründə torpağı toxa ilə yumşaldırdılar. Buna görə də o dövrün əkinçiliyini "toxa əkinçiliyi" adlandırırlar. Taxılı dişləri dəvəgözü daşı və çaxmaqdaşı lövhələrindən düzəldilən oraqla biçirdilər.



*Toxa ilə yerin şumlanması*

LAYİHƏ

**Tunc dövrü.** E.ə. IV minilliyin ikinci yarısında Eneolit dövrünü Tunc dövrü əvəz etdi. Bu, tuncun – yeni metalın adı ilə bağlı idi.

? *Sizcə, tunc necə əldə olunurdu?*

Təxminən iki min il davam etmiş **Tunc dövrü** üç mərhələyə ayrılır: *Erkən*, *Orta* və *Son* Tunc dövrü. *Erkən Tunc dövrü* Azərbaycanda Kür-Araz mədəniyyəti kimi də səciyyələnir. Bu dövrdə toxa əkinçiliyi xış əkinçiliyi ilə əvəz olundu. Köçmə (yaylaq) maldarlığı meydana gəldi. Əkinçiliyin maldarlıqdan ayrılması ilə Birinci böyük ictimai əmək bölgüsü baş verdi. Təsərrüfatda kişi əməyi ön plana keçdi və Eneolit dövrü üçün səciyyəvi olan anaxaqanlığının yerini ataxaqanlığı tutdu. Tunc dövrü məskənlərində bir neçə qəbilənin birləşdiyi tayfalar yaşayırdı. Evlər çiy kərpicdən və daşdan inşa olunurdu. Babadərviş (Qazax), Kültəpə (Naxçıvan), Sərkərtəpə (Xaçmaz) yaşayış yerlərində xüsusi ibadət evlərinin tikildiyi müəyyən edilmişdir.



***Boya naxışlı qab. Tunc dövrü (Şahtaxtı, Naxçıvan)***

? *İbtidai insanların dini təsəvvürləri haqqında nə bilirsiniz?*



***Müdafiə divarı. Tunc dövrü (Nərgiztəpə, Xocavənd rayonu)***

Azərbaycanda e.ə. III minilliyin axırlarından başlayan Orta Tunc dövrü 600 ilə yaxın davam etmişdir. Bu dövr əmlak və sosial bərabərsizliyin artması, möhkəmləndirilmiş yaşayış yerlərinin, zəngin avadanlıqlı dəfn abidələrinin, böyük tayfa ittifaqlarının yaranması ilə səciyyələnir. Sənətkarlıq başqa istehsal sahələrindən ayrılıb müstəqil sahəyə çevrilmiş, İkinci böyük ictimai əmək bölgüsü baş vermişdi. Azərbaycanda ilkin şəhər mərkəzlərinin yaranması da bu dövrə təsadüf edir. Naxçıvanda (II Kültəpə, Oğlanqala), Urmiya ətrafında (Göytəpə) və Qarabağda (Üzərliktəpə) tədqiq olunan bir sıra yaşayış məskənləri Qədim Şərqin ilkin şəhər mərkəzlərinə xas xüsusiyyətlərə malik idi.

LAYİHƏ

Tunc dövrünün sonlarında Azərbaycanda dulusçuluq sənəti yeni inkişaf mərhələsinə qədəm qoydu. Saxsı qabların istehsalında ayaqla hərəkətə gətirilən dulus çarxından geniş istifadə olunur, qabların üzərinə müxtəlif üsullarla (cızma, yapma, boyama və s.) naxışlar vurulurdu.

Metalişləmə sənəti də inkişaf edirdi. Tuncdan müxtəlif əmək alətləri, silahlar, bəzək əşyaları düzəldilirdi. E.ə. I minilliyin əvvəllərində dəmirdən istifadə geniş miqyas aldı. Dəmirdən hazırlanan alətlər tunc alətlərdən möhkəm olur, torpağı daha yaxşı becərməyə imkan verirdi. Muğanda Uzuntəpə adlanan yerdə dəmir tiyələri və tunc dəstəkləri olan qılınclar tapılmışdır. Bəhs olunan dövrdə – **Son Tunc və Erkən Dəmir** dövründə Üçüncü böyük ictimai əmək bölgüsü yarandı: tacirlər qurupu sənətkarlardan ayrıldı.

? *Sizcə, adıçəkilən metallardan daha hansı alət və silahlar düzəltmək olardı?*

**İbtidai icma cəmiyyətinin tənəzzülü.** Tunc və Erkən Dəmir dövründə əkinçilik, maldarlıq və sənətkarlıqla yanaşı, müharibə və hərbi iş əsas məşğuliyyətə çevrilmişdi. Ölkəni, əhalini və onun əmlakını yadelli basqınlarından qorumaq məqsədilə müdafiə tikililəri inşa olunurdu. Naxçıvanda, Azərbaycanın digər qərb bölgələrində 100-dən çox “siklopik”, yaxud “təpəgöz” qalaları adlanan tikililərin izləri bu gün də qalmaqdadır.


***Siklopik tikili (Gədəbəy rayonu, Arıqdam kəndi)***

? *Hərbi işin məhz bu dövrdə əsas məşğuliyyətlərdən birinə çevrilməsi nə ilə bağlı idi?*

İcmanın ümumi təsərrüfatının dağılması nəticəsində qəbilə ağsaqqalları varlanmağa başlayırdılar. Ən yaxşı torpaq sahələri, mal-qaranın çoxu onların əlinə keçirdi. İbtidai kollektiv əmək öz əhəmiyyətini itirirdi. Hərbi işlərə rəhbərlik üçün döyüşçülər özlərinə başçı seçirdilər. Müharibələrdə ələ keçirilən qənimətin çoxu da başçıya və ağsaqqallara çatırdı. Artıq onların məzarları sıravi icma üzvlərinin qəbirlərindən fərqlənirdi. Qarabağda Xocalı, Oğuz rayonunda Kərimli və başqa kurqan tipli qəbirlərdə rast gələnən qiymətli əşyalar Azərbaycan ərazisində mülki bərabərsizliyin dərinləşməsindən və ibtidai icma cəmiyyətinin dağılmasından xəbər verir.


***Torpaq qəbir. Erkən Dəmir dövrü (Ağcabədi rayonu)***

*1. Daş dövründə insanlar hansı əmək alətlərindən istifadə edirdilər?*
*2. Sizcə, Daş dövrünün hansı mərhələsi daha böyük yeniliklərlə səciyyələnir?*
*3. Yaşadığınız ərazidə qədim tarix və mədəniyyət abidələri varmı?*
*4. Odun və metalın insan həyatında rolunu izah edin.*
*5. İstehsal və mənimsəmə təsərrüfatına aid fəaliyyət növlərini sadalayın.*
*6. Tur Heyerdalın səyahətləri haqqında referat hazırlayın.*

LAYİHƏ



2

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ İLK TAYFA İTTİFAQLARI VƏ DÖVLƏT QURUMLARI

*E.ə. III-II minilliklərdə Urmiya gölü hövzəsində lullubi, kuti, su, turukki tayfaları, Arazdan şimalda – Naxçıvan və Mil-Qarabağ ərazilərində naxç, gərgər və başqa tayfalar yaşayırdı. Bu tayfalar haqqında ilk məlumatı Şumer dastanları və Şumer-Akkad mixi yazılı mənbələri verir. Böyük tayfa birliklərinin erkən dövlət qurumlarına çevrilməsi də həmin dövrə təsadüf edir. Mixi yazılı mənbələr Şərq ölkələrinin bir neçə minillik tarixini işıqlandırır. Bu yazını İkiçayarasının cənubunda yaşamış qədim şumerlər ixtira etmişlər.*

*tayfa ittifaqları, erkən dövlət qurumları, Aratta, kutilər, lullubilər, Anubanini*

**İlk tayfa ittifaqları.** Keçmişdə Azərbaycanın cənub-qərb torpaqları Mesopotamiyanın inkişaf etmiş quldar cəmiyyətləri ilə qonşuluqda idi. Bu amil ölkəmizin şimalı ilə müqayisədə cənubunda iqtisadi, siyasi və mədəni proseslərin daha sürətlə getməsinə zəmin yaratmışdı. Maldarlığın əkinçilikdən ayrılması, metal emalının inkişafı, izafi məhsul istehsalı, qonşu ölkələrlə əlaqələr insanlar arasında təbəqələşməni dərinləşdirirdi. Münbit torpaqlar və var-dövlət uğrunda şiddətli mübarizə gedirdi. Belə şəraitdə qohum tayfalar birləşib iri tayfa ittifaqları yaradırdılar. Bir-birinin qonşuluğunda yaşayan bu tayfalar ümumi mədəniyyətə malik idilər: onlar bir dildə, yaxud da bir dilin müxtəlif ləhcələrində danışır, eyni tanrılara sitayiş edirdilər.

*Tayfa birləşmələrinin yaranmasını zəruri edən səbəbləri müəyyənləşdirin.*

Urmiya gölü ətrafında kuti, lullubi, hurri və b. böyük tayfa birlikləri formalaşmışdı. Su və turukki tayfaları Lullubi tayfa ittifaqında birləşmişdilər. Zaqros dağlarının qərb ətəklərində “Dağ xalqları” adlanan hurrilər güclü tayfa birliyi yaratmışdılar. Azərbaycan ərazisində yaranan iri tayfa ittifaqları tədricən erkən dövlət qurumlarına çevrilirdi. Onlar müəyyən əraziyə, orduya, xəzinəyə və hökmdara malik olub qonşu dövlətlərlə iqtisadi, siyasi və mədəni əlaqələr saxlayırdılar.



Urmiya gölü hövzəsi e.ə. III–II minilliklərdə



LAYİHƏ

**?** *Ön Asiyanın qədim Azərbaycanla qonşu olan hansı ölkələrini tanıyırsınız?*

**Aratta.** E.ə. III minilliyin birinci yarısında Urmiya gölünün cənub-şərqində meydana gələn Aratta Qədim Şərqin ən qədim dövlət qurumlarından biri olmuşdur. Bu ölkəni *ensi* rütbəsi daşıyan hökmdar idarə edirdi. Şumerdə bu rütbə ali kahinə, hökmdara şamil olunurdu. Arattada hərbi məsələlər məclisdə müzakirə olunsa da, son qərarı hökmdar verirdi.



***Laciverd daşı***

"Enmerkar və Aratta hökmdarı" adlı şumer dastanında göstərilir ki, Aratta İkiçayarasına yaxın dağlıq bir ölkədir. Buradan İkiçayarasına qiymətli metal, tikinti materialları, o cümlədən laciverd daşı (lazurit) aparılırdı. Orta əsr qaynaqlarından məlumdur ki, qiymətli laciverd daşı Azərbaycanda da hasil olunurdu. Aratta əhalisi Şumerlə mal mübadiləsi aparır, məbəd tikintisi ilə əlaqədar ustalar Şumerə çağırılırdı. Əhali əkinçiliklə də məşğul olur, buğda və noxud becərirdilər.

**M** *Təbrizlə Marağa arasında böyük Səhənd dağı yüksəlir. Ətrafında insanlar yaşayır, suları və taxıl zəmiləri də çoxdur. Orada isti su var ki, camaat da yayda bu yerə axışıb gəlir. Dağın başı da həmişə qarla örtülüdür... Orada çoxlu mis, dəmir, malaxit, kuporos və lazurit mədənləri var.*

***Əbdülrəşid əl-Bakuvinin (XIV–XV əsrlər)***
***"Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzəsi" əsərindən***

Arattada müxtəlif tanrılara sitayiş edilirdi. Şumerdəki bərəkət və məhəbbət ilahəsi İnannaya ibadət Arattada da yayılmışdı. İlahə Lama Arattanın mühafizəçisi hesab olunurdu. Dini idarənin başında *maşmaş* adlanan kahin dururdu.



***Kuti hökmdarının tuncdan büstü (e.ə. XXIII əsr)***

**Kuti dövlət qurumu.** E.ə. III minilliyin ikinci yarısında Urmiya gölünün cənub-qərbində Kuti dövlət qurumu yüksəlməyə başladı. O, Akkad dövlətinə qarşı mübarizədə yaranmış və möhkəmlənmiş, hətta Şumer şəhər dövlətlərinin himayədarına çevrilmişdi. İkiçayarasının sakinləri cəsur və döyüşkən kutiləri "dağ ejdahaları" adlandırırdılar. E.ə. XXII əsrin əvvəllərində kutilər Akkad dövlətini süquta uğratdılar. İkiçayarası bir əsrə yaxın müddətdə onların hakimiyyəti altına keçdi. Kuti dövlət qurumunun ərazisi şimalda Urmiya gölünün qərbinə, cənubda isə İran körfəzinə qədər uzanırdı. Kutilər Akkad və Şumerin idarəetmə qaydalarını öyrəndilər. Onlar hakimiyyətin irsən deyil, seçim yolu ilə ötürülməsinə üstünlük verirdilər. Vilayətlərə *canişinlər*[1] təyin olunurdu. İdarəetmədə onlara kifayət qədər müstəqillik verilirdi. Zəbt olunmuş ölkədə



***Kuti hökmdarı Lişir-pirininin qayaüstü relyefinin təsviri (e.ə. XXIII əsr)***

[1] *Canişin* – təyin olunduğu ərazidə hökmdarın (mərkəzi hakimiyyətin) əmr, göstəriş və qanunlarını həyata keçirən məmur



LAYİHƏ



***Anubanininin "Qələbə sütunu" abidəsinin təsviri (e.ə. XXIII əsr)***

idarəçiliyin yerli məmurlara həvalə olunması kutilərin mövqeyini zəiflətdi.

İkiçayarasında sonuncu kuti hökmdarı Tirikanın hakimiyyəti cəmi 40 gün çəkdi. O, üsyan nəticəsində devrildi. Bu hadisədən sonra kutilər Urmiya gölü hövzəsində də əvvəlki qüdrətlərini və mövqelərini itirdilər.

**Lullubi dövlət qurumu.** E.ə. III minilliyin ikinci yarısında Urmiya gölündən cənubda Lullubi dövlət qurumu meydana çıxdı. Xırda hakimləri özünə tabe edən hökmdar İmmaşqun qaynaqlarda "Lullu (bum) ölkəsinin padşahlar padşahı" adlanır.

O dövrdə Akkad dövləti işğal yolu ilə öz ərazilərini genişləndirməyə çalışırdı. Bol sərvətə və zəngin təbiətə malik qədim Azərbaycan torpaqları da Akkad hökmdarlarının diqqətini cəlb edirdi. Lakin güclü ordu yaradan Lullubi hakimləri bu təcavüzün qarşısını aldılar və ölkənin azadlığını qoruya bildilər. Anubanininin hakimiyyəti illərində Lullubi dövlət qurumu daha da qüvvətləndi, ölkənin ərazisi xeyli genişləndi. Mixi yazı ilə tərtib olunmuş "Qələbə sütunu" adlı kitabədə Anubanini öz uğurlarından bəhs edir.

? *Qədim dünyanın hansı ölkələrində mixi yazıdan istifadə olunurdu?*

Dağlıq ərazidə yaşayan lullubilər taxıla ehtiyac duyurdular. Onlar Mesopotamiya şəhərləri ilə ticarət əlaqəsi qurur, mal-qaranı taxıla dəyişirdilər.



***Şumer bazarına mal aparanlar (e.ə. III minilliyin ortaları)***

Lullubilər də kutilər kimi Səma, Günəş, Ay, Bərəkət və Məhəbbət tanrılarına sitayiş edirdilər. Anubanininin "Qələbə sütunu" abidəsində Səma tanrısı Anum başda olmaqla bu tanrıların akkad dilində adları çəkilir.

M *Anubanini, qüdrətli çar, Lullubumun çarı öz təsvirini və ilahə İştarın təsvirini Batır dağında qoydurdu. Kim bu təsvirləri və yazını məhv etsə, qoy Anum və Antum, (ilahi) Enlil və (ilahi) Ninlil, (ilahi) Adad (ilahə) və İştar... ağır lənətləsinlər, qoy onun nəslini kəssinlər.*

***Anubanininin (e.ə. XXIII əsr) Sarıpulda, Zöhab şəhəri yaxınlığında akkad dilində tərtib olunmuş qayaüstü yazısından***

? *Sizcə, "Qələbə sütunu" üzərindəki yazıları kim məhv edə bilərdi?*



LAYİHƏ

E.ə. III minilliyin sonunda Kuti və Lullubi dövlət qurumları süquta uğrayıb xırda vilayətlərə parçalandılar. Turukkilər Urmiya gölü ətrafında mühüm siyasi qüvvəyə çevrildilər.

Kuti, lullubi, su (şubar) və digər qonşu tayfaları birləşdirən turukkilər müstəqil siyasət yeritməyə başladılar. Bu isə qonşu Babil, Assuriya kimi qüdrətli dövlətlərin xoşuna gəlmirdi. Onlar tez-tez Urmiyaətrafı ərazilərə yürüşlər edir, buradakı əhalini əsarət altına almağa çalışırdılar. Lakin düşmən hər dəfə yerli tayfaların güclü müqaviməti ilə rastlaşırdı. Assurlarla toqquşmada qalib gələn turukkilər hətta düşmənin Şuşarra vilayətini ələ keçirmişdilər. Babil hökmdarı Hammurapinin dövründə (e.ə. XVIII əsrdə) bu cəsur tayfalar Babil ərazisinə daxil olaraq orada özlərinə məskən salmışdılar. E.ə. II minilliyin sonlarında Assuriyaya qarşı aramsız mübarizə qədim Azərbaycan tayfalarının vahid dövlət halında birləşməsinin zəruri olduğunu göstərdi.

M

*Adad-Nerari, parlaq hökmdar, qəhrəman, ilahilərin canişini, şəhərlərin banisi, kaşşilərin, kutilərin, lulumelərin (lullubilərin) və şubarilərin qüvvətli ordusunu qıran, yuxarıda və aşağıda bütün düşmənləri məhv edən, ...Turikki və Niqimxi ölkələrinin bütün hüdudlarına kimi kutilərin geniş ölkəsinin, dağ və təpələrinin hakimlərinin hamısını fəth edən...*

***Assuriya hökmdarı I Adad-Nerarinin (e.ə. 1307–1275) inşaat yazısı***



***Akkad hökmdarı Naram-Suenin stelası[2]. E.ə. XXIII əsr (Paris, Luvr muzeyi)***

*Akkad hökmdarı Naram-Suenin Urmiya ətrafına uğurlu hərbi yürüşü müvəqqəti xarakter daşıyırdı. Kuti hökmdarlarının yazılı mətnlərinə görə, o, acı məğlubiyyətlə də üzləşirdi. Düşmənlərinə (lullubilər də daxil olmaqla) qarşı onun üç dəfə göndərdiyi qoşundan bir nəfər döyüşçü belə salamat qayıtmamışdı. Naram-Suenin düşmənləri "ummanmanda" ("Manda qoşunu") adlanırdı.*

*Mənbədəki məlumatın təbliğat xarakteri daşıdığını əsaslandırın.*

?

*1. Urmiya gölü ətrafında hansı qədim tayfalar yaşayırdı?*
*2. Lullubilərin qüdrətini hansı mənbələr təsdiq edir?*
*3. Kutilər İkiçayarasında hansı idarəetmə üsullarından istifadə edirdilər?*
*4. Arattanın təsərrüfat həyatını təsvir edin.*
*5. Mətndə verilmiş mənbələri müqayisə edin.*
*6. Anubanini və Naram-Suenə aid təsvirlər əsasında referat hazırlayın.*

[2] *Stela* – dik daş, üzərində yazılar, təsvirlər olan daş sütun

LAYİHƏ



# 3

## İLK AZƏRBAYCAN DÖVLƏTİ – MANNA

*Manna dövləti Urmiya gölü hövzəsində, Araz çayından cənubdakı Azərbaycan torpaqlarında mövcud olmuşdur. Yarandığı vaxtdan güclü qonşu dövlətlərin hücumlarına məruz qalmasına baxmayaraq, iki yüz ildən çox müddətdə müstəqilliyini qoruyub saxlaya bilmişdir. Müəyyən səbəblərdən e.ə. VI əsrdə süquta uğrasa da, Azərbaycan xalqına dövlətçilik ənənəsini miras qoymuş ilk dövlətimizdir.*

*vilayət, canişin, mərkəzləşdirilmiş dövlət, İranzu, Ahşeri*

**Dövlətin yaranması.** E.ə. XI–IX əsrlərin birinci yarısında Urmiya gölü ətrafında bir sıra vilayətlər mövcud idi. Onlar ərazi bölgüsünə əsaslanan siyasi qurumlar idilər. Hər vilayətin öz başçısı, mərkəzi – şəhər-qalası var idi. Assuriyalılar bu vilayət hakimlərini tayfa başçılarından fərqləndirərək onları *Şarrani*, yəni hökmdar adlandırırdılar. Vilayətlər arasında ərazisinə görə ən böyüyü və güclüsü Zamua hesab olunurdu. Zamua əvvəllər lullubilərin yaşadığı ərazi olmuş, hətta Manna dövləti yarandıqdan sonra da "Lullubilər ölkəsi" adlanmışdır.




***Manna dövləti***

E.ə. I minilliyin əvvəllərindən Assuriyanın Urmiya bölgəsinə hücumları artmışdı. Müstəqil fəaliyyət göstərən vilayətlər ildən-ilə güclənən bu hücumların qarşısını almaqda çətinlik çəkirdi. Bəzi vilayət hakimləri Assuriya ilə müqavilə bağlayıb xərac ödəməyə məcbur olur, digərləri müqavimət göstərsələr də, məğlub edilirdilər.

*Yadınıza salın: Urmiya gölü hövzəsində əvvəllər hansı tayfa ittifaqları mövcud olmuşdur?*



LAYİHƏ

Vəziyyətin ağırlığı vilayətlərə bir dövlət halında birləşməyin vacib olduğunu göstərirdi. Uzun sürən daxili mübarizədən sonra Zamua hakimlərinin səyi nəticəsində vilayətlər birləşdirilmiş və nəticədə, Manna dövləti yaranmışdı. Manna mənşəcə yerli ad idi. Bu ad əvvəllər Urmiyaətrafı tayfalarından birinə məxsus olmuş, sonralar isə mannalıların yaşadığı ərazilərin hamısına şamil edilmişdir.

Manna adına ilk dəfə **e.ə. 843-cü** ildə Urmiya bölgəsinə hücum etmiş Assuriya hökmdarı III Salmanasarın kitabəsində rast gəlinir. Adətən, Assur hökmdarları hücum etdikləri ölkələrdən qarət etdiklərini bir-bir sadalayırdılar. Amma bu kitabədə qarət-talan haqqında heç bir məlumata rast gəlinmir. Görünür, mannalılar yaxşı müdafiə olunmuş, düşmən ordularını ölkəyə buraxmamışdılar. E.ə. 829-cu ildə III Salmanasarın sərkərdəsinin hücumu zamanı ilk dəfə Manna hökmdarının adı çəkilmişdir: **"Mən Mannalı Udakinin məskənlərinə yaxınlaşdım..."** Həmin kitabədə hökmdar şəhəri adlandırılmış İzirtunun – Mannanın paytaxtının da adı çəkilir.

**?** *Sizcə, hansı amillər Urmiya gölü hövzəsində vahid dövlətin yaranmasına daha güclü təsir göstərmişdir?*

**Mannanın dövlət quruluşu və idarə olunması.** Eradan əvvəl yaranmış bütün dövlətlər kimi, Manna da ictimai quruluşuna görə quldar, siyasi quruluşuna görə isə monarxiya dövləti olmuşdur. Mannada hökmdar hakimiyyəti qəbilə-tayfa başçılığından yaransa da, e.ə. VIII əsrdən irsi keçməyə başlamışdır. Ağsaqqallar Şurasının mövcudluğu Manna dövlətinin ibtidai cəmiyyətdən sinifli cəmiyyətə yenicə keçdiyini göstərir. Lakin bu dövrdə Ağsaqqallar Şurası yalnız hökmdar yanında məsləhətçi orqan kimi fəaliyyət göstərirdi. Son qərarı və qanunları hökmdar verirdi.

E.ə. VIII əsrdən başlayaraq, Manna dövləti mərkəzləşdirilmiş qaydada idarə olunurdu. Vilayətləri hökmdar tərəfindən təyin olunmuş canişinlər idarə edirdi. Əhalinin əsas dili qədim türk dili idi.

**?** *Sizcə, vahid və mərkəzləşdirilmiş dövlətin hansı üstün cəhətləri vardır?*

**İranzu. Mərkəzləşdirilmiş dövlətin yaranması.** Assuriyanın basqınlarının davam etdiyi bir vaxtda, e.ə. IX əsrin sonlarında Manna yeni bir təhlükə ilə – Urartu dövlətinin hücumları ilə üzləşdi. Hər iki dövlət Manna torpaqlarını ələ keçirmək üçün kəskin mübarizə aparırdı. E.ə. VIII əsrin birinci yarısında Urartunun Mannaya yürüşləri daha da artdı. Lakin Manna təslim olmayıb inadla müqavimət göstərir, imkan düşdükcə cavab zərbələri endirirdi. Məhz Urartuya qarşı aparılan müharibələr Mannanın özünü əsl dövlət kimi tanıtmasına və qüvvətlənməsinə səbəb oldu.


*Manna hökmdarının təsviri*

Mannanın güclənməsi hökmdar İranzunun (e.ə. 740–719) adı ilə bağlıdır. İranzu hakimiyyətə gəldiyi zaman qarşısında iki əsas vəzifə dayanırdı: Manna vilayətlərini birləşdirib mərkəzi hakimiyyəti gücləndirmək və xarici hücumların qarşısını almaq. Birinci məsələ İranzunun daxili siyasətinin əsasını təşkil edirdi. Ölkənin təsərrüfa-

LAYİHƏ



*Mannalı döyüşçü*

tını, iqtisadiyyatını tənzimləmək, vahid xarici siyasət yürütmək üçün mərkəzləşdirilmiş idarəetmə sistemi yaradılmalı idi. Məsələni çətinləşdirən o idi ki, Manna dövləti yaranandan sonra da bir sıra vilayət hakimləri müstəqilliklərini saxlamışdılar. İranzu vilayətləri mərkəzi hakimiyyətin dayağına çevirmək üçün hakimlərin yerinə canişinlər təyin edirdi. Beləliklə, İranzunun hakimiyyəti dövründə Mannada mərkəzləşdirilmiş dövlət və canişinlik sistemi yarandı.

İranzunun qarşısında duran ikinci məsələ daha mürəkkəb idi. Eyni vaxtda iki güclü düşmənə qarşı mübarizə aparmağın çətinliyini anlayan İranzu Assuriya ilə yaxınlaşdı. Bir neçə cəbhədə müharibə aparan Assuriyanın da güclü dövlətin – Mannanın dostluğuna ehtiyacı var idi. Beləliklə, İranzunun hakimiyyəti dövründə Assuriya ilə Manna arasında müttəfiqlik münasibətləri yarandı. Assuriya ilə Urartu arasında uzun sürən inadlı mübarizə e.ə. 735-ci ildə Assuriyanın qələbəsi ilə başa çatdı. Bu qələbədə Mannanın da həlledici rolu olmuşdur. Urartunun zəifləməsindən istifadə edən İranzu düşməndən azad edilmiş vilayətləri Mannanın tərkibinə qaytarır, hər yerə öz canişinlərini təyin edirdi. Bu dövrdə Manna Azərbaycanın bütün cənub torpaqlarını öz hakimiyyəti altında birləşdirdi. İranzunun hakimiyyəti illərində Manna Qədim Şərqin güclü dövlətlərindən birinə çevrildi.

*Manna dövlətinin yürütdüyü xarici siyasətə münasibət bildirin.*

**İki od arasında.** Urartu Mannanın güclənməsi və Urmiya hövzəsində mövqelərinin itirilməsi ilə barışmaq istəmirdi. Mannaya qarşı açıq hücuma keçməyə cürət etməyən Urartu başqa siyasətə əl atdı. Urartu hökmdarı I Rusa keçmiş vilayət hakimlərini və canişinləri İranzu əleyhinə qaldırmaqla Mannanı daxilən zəiflətməyə çalışırdı. İranzunun mərkəzləşdirmə siyasəti nəticəsində hakimiyyətdən məhrum olmuş keçmiş vilayət hakimləri əvvəlki dövrə qayıtmaq istəyirdilər. Bəzi yeni canişinlər isə öz ərazilərində müstəqil olmaq arzusu ilə Urartunun əsl məqsədini anlamadan onun tərəfinə keçdilər. Əvvəlcə Zikertu, ardınca daha bir neçə vilayət Mannadan ayrıldı. E.ə. 719-cu ildə isə Şuandahul və Durdukka şəhərləri üsyana başladı. Vəziyyətin ağırlığı İranzunu Assuriyadan kömək istəməyə məcbur etdi. Bu isə Mannanın siyasi vəziyyətini daha da ağırlaşdırdı. Mannada öz mövqeyini gücləndirmək istəyən Assuriya dərhal vəziyyətdən istifadə etdi. Assuriya hökmdarı II Sarqon hücuma keçərək üsyançı şəhərləri və vilayətləri darmadağın edib, əhalisinin bir hissəsini Assuriyaya köçürtdü. Ərazi və şəhərlər isə İranzunun hakimiyyətinə qaytarıldı. Bu hadisələr Mannada birmənalı qarşılanmadı.

*Siz İranzunun Assuriya hökmdarı II Sarqondan kömək istəməsini necə qiymətləndirirsiniz?*

Belə gərgin bir vaxtda İranzu vəfat etdi. Hakimiyyətə onun böyük oğlu Aza (e.ə. 718–716) gəldi. Aza da atasının Assuriyaya arxalanmaq siyasətini davam etdirdi. Lakin Azanın ölkədə sabitlik yaratmaq, mərkəzi hakimiyyəti möhkəmləndirmək səyləri nəticə ver-

LAYİHƏ

mədi. Aza Uauş (indiki Səhənd) dağında Urartu tərəfinə keçmiş canişinlərlə döyüşdə öldürüldü. I Rusa hücuma keçib Mannanın şimal, şimal-qərb vilayətlərini qarət edərək iyirmi iki Manna qalasını ələ keçirdi. Hakimiyyətə gəlmiş Azanın qardaşı Ullusunu çıxılmaz vəziyyətdə qalıb Urartu meyilli qüvvələrin tərəfinə keçdi və I Rusa onu Manna hökmdarı kimi tanıdı. Əvəzində Ullusunu I Rusanın işğal etdiyi ərazilərin Urartuya verilməsi ilə razılaşmalı oldu. Mannanın Urartu ilə yaxınlaşması Assuriyanın Urmiya hövzəsindəki mövqelərinə təhlükə yaradırdı. Assuriya onunla ittifaqda olan Mannanın düşmənləri sırasına keçməsinə imkan verməmək üçün e.ə. 716-cı ildə hücuma keçdi. Bu yürüş nəticəsində Urartu meyilli qüvvələr məğlub edildi. Ullusunu isə Assuriyanın siyasi ağalığını tanımaqla hakimiyyətdə qaldı.



***Manna qalası***

M

*II Sarqonun növbəti ildə yürüşü Manna üçün daha müsbət nəticələr vermişdi. Sarqonun kitabəsindəki məlumata görə, "Mannalı Ullusunu yanıma gəldi... Mən Rusanın əlindən aldığım 22 qalanı və 2 möhkəmləndirilmiş şəhəri ona verdim...". "Əllərimi qaldırıb tanrım Assura yalvardım ki, Mannalılar ölkəsinin qisasını alsın... Uauş dağında, o yerdə ki onlar Azanın meyitini tullamışdılar, mən qatillərin dərisini soydum və mannalılara göstərdim. Hiddətimdən... Mannalılar ölkəsində hökmdar şəhəri İzirtunu quzğun kimi aldım... Mən onları əfv etdim, Ullusununun günahından keçdim və onu atasının taxtında əyləşdirdim".*

***II Sarqonun kitabəsi***

?

*Nə üçün II Sarqon Azanın qisasını almaq istəyirdi?*

II Sarqonun ən uğurlu yürüşü e.ə. 714-cü ildə baş vermişdir. Bu yürüş vaxtı Mannanın Sirdakka şəhərində iki dövlət arasında müqavilə bağlanır. Müqaviləyə görə, Manna xərac ödəməli, əvəzində Assuriya işğal olunmuş Manna ərazilərini azad etməli idi. II Sarqon verdiyi vədi həyata keçirdi. Bu yürüş nəticəsində Mannanın Urartu tərəfindən tutulmuş bütün vilayətləri azad edildi. Dəhşətli məğlubiyyətlərdən sonra I Rusa özünü öldürdü. Qüdrəti sarsılmış Urartu bir daha özünə gələ bilməyib süqutuna qədər (e.ə. 590-cı il) öz ərazisindən kənara çıxmadı. Manna isə ərazilərini daha da genişləndirdi, əvvəllər Urartu tərəfindən tutulmuş Urmiya gölündən şimaldakı əraziləri də öz hakimiyyəti altına aldı. Bütün vilayətlər vahid mərkəz ətrafında birləşdirildi.

?

*Ullusununun xarici siyasətinin dəyişkən olmasını nə ilə izah edə bilərsiniz?*

Ullusunudan sonra da Manna güclü dövlət olaraq qalırdı. E.ə. VII əsrin birinci yarısında Ahşerinin hakimiyyəti dövründə Manna o qədər güclənmişdi ki, artıq Assuriya torpaqlarına hücum edirdi. Bu dövrdə Mannanın güclənməsinin əsas səbəblərindən biri türk tayfalarının Qara dəniz sahillərindən Ön Asiyaya gəlmələri ilə bağlı idi. Müxtəlif mənbələrdə kimmer, iskit və sak adlandırılan, at belində döyüşən bu cəngavər tayfalar Ön Asiyanın tarixində dönüş yaratdı. Ahşeri Mannanın şimal sərhədi yaxınlığında yerləşmiş



Layihə

bu tayfalarla dostluq münasibətləri yaratmış, onları öz ölkəsində yerləşdirərək ordusunu gücləndirmişdi. Assuriya mənbələrində Ahşerinin İskit hökmdarı İşpakayla müttəfiq olduğu göstərilir.

*Ahşerinin hakimiyyəti dövrünə təsadüf edən və Assuriya hökmdarının öz tanrılarına ünvanlanan sorğularından biri: "Assur rəisləri Midiya ölkəsindən xərac toplamağa gedəndə Mannalılar onlara hücum edəcəklərmi?"*

***S.M.Qaşqayın "Manna dövləti" əsərindən***

*Sizcə, bu sorğudan hansı nəticəyə gəlmək olar?*

Ahşeri Midiyada Assuriya əleyhinə qalxan üsyançılara da kömək göndərmişdi. Birləşmiş qüvvələr düşməni məğlub edib Midiyadan qovdu. Assuriya hökmdarları danışıqlar və hədiyyələrlə iskitlərin bitərəfliyinə nail oldular. E.ə. VII əsrin ortalarında Assuriya hökmdarı Aşşurbanipal (e.ə. 668–627) Manna üzərinə yürüşə başladı. Baş vermiş döyüşdə Assuriya qalib gəldi. İzirtu yandırıldı, bir sıra vilayətlər talan edildi. Manna əhalisi Ahşeriyə qarşı üsyan qaldırdı. Üsyan nəticəsində Ahşeri öldürüldü. Ahşeri əleyhinə üsyana qalxanların bir qismi Assuriya ilə ittifaqın tərəfdarı olan əyanlar idi. Hakimiyyətə Ahşerinin oğlu Ualli gəldi. O, Assuriya ilə münasibətləri qaydaya saldı. E.ə. VII əsrin sonlarında Midiya və Babil dövlətləri birləşərək Assuriyaya qarşı müharibəyə başladı. Birləşmiş qüvvələrin Assuriya üzərində qələbələri bu dövlətin süqutu ilə nəticələndi. Manna bu dəfə də xarici siyasətdə səhvə yol verdi. O öz ordu hissələrini Assuriyaya köməyə göndərdi. Midiya və Babil üçün Manna onların qəddar düşməninin müttəfiqi idi. Az sonra güclənmiş Midiya tarix səhnəsində tək qalmış Mannanı özünə tabe edə bildi. Manna dövləti e.ə. 590-cı ildə süqut etdi.

**MANNADA ƏHALİNİN SOSİAL TƏRKİBİ**

| Əyanlar | Sənətkarlar | Kəndlilər | Qullar |
|---|---|---|---|

Mannanın təsərrüfatında əkinçilik və maldarlıq əsas yer tuturdu. Yazılı mənbələrdə Mannada iri taxıl anbarları haqqında məlumat verilir. Həsənli yaşayış məskənində tapılmış iri şərab küpləri üzümçülüyün də inkişaf etdiyini göstərir. Assur və Urartu yazılarından Mannada heyvandarlığın – maldarlığın geniş yayıldığını görmək olur. Subi vilayətində atçılıq inkişaf etmiş, xüsusi at təlimçiləri olmuşdur. Manna əhalisi oturaq həyat tərzi sürmüşdür. Həsənli və Ziviyədə tapılmış məmulatlar isə sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyini göstərir.

*1. E.ə. VII əsrin birinci yarısında hansı amillər Mannanın güclənməsinə təsir göstərmişdi?*
*2. İranzu ilə Ahşerinin siyasətini müqayisə edin, oxşar və fərqli cəhətləri müəyyənləşdirərək bu hökmdarların fəaliyyətlərini qiymətləndirin.*
*3. Manna dövlətinin Azərbaycan dövlətçilik tarixindəki rolunu və əhəmiyyətini müəyyən edin.*
*4. Mannanın timsalında dövlətçiliyin itirilməsinin mənfi nəticələrini göstərin.*

LAYİHƏ



4

# AZƏRBAYCAN ERADAN ƏVVƏL VII–IV ƏSRLƏRDƏ

*Cəngavər İskit tayfalarının tarix səhnəsinə çıxması Yaxın Şərq xalqlarının həyatında dönüş yaratdı. Onların fəaliyyəti Ön Asiyada, o cümlədən Azərbaycan ərazisində qüvvələr nisbətinin dəyişməsinə, qədim dövlətlərin – imperiyaların dağılmasına, yenilərinin yaranmasına təkan verdi. Özləri ilə yeni silahlar, döyüş üsulu, yeni mədəniyyət gətirmiş bu xalq yazılı mənbələrdə müxtəlif adlarla tanınsa da, soykökü etibarilə qədim türk xalqı idi.*

*İskit, İşpakay, Kaştariti, Kiaksar, Herodot, satrap*

M

*"İskitlər köçəri xalq olub, əvvəlcə Asiyada yaşayırdılar. Sonralar müharibə apardıqları massagetlər tərəfindən sıxışdırılıb Raha (Volqanın qədim adı) çayını keçmiş kimmerlərin torpaqlarına (Qara dəniz sahillərinə) gəlmişlər..."*

***Herodotun "Tarix" əsərindən***

**İskit (İşquz) şahlığı.** Məlum olduğu kimi, türk xalqlarının ana vətəni Mərkəzi Asiya – Altay dağları sayılır. Köçəri həyat sürən iskitlər ana vətəndən – Altaydan qərbə doğru hərəkət edərək Qara dənizin şimal sahillərinə gəlmiş və burada digər türkdilli kimmerlərin yaxınlığında məskunlaşmışlar. E.ə. VII əsrin əvvəllərində Qafqaz və Ön Asiya istiqamətində yürüşə birinci Kimmer tayfa birliyi başlamışdır. Kimmerlərdən az sonra Xəzər sahili boyunca cənuba hərəkət edən iskitlər Dərbənd keçidindən adlayaraq Cənubi Qafqazın şərq hissəsinə – Azərbaycana daxil olmuşlar. Kimmer-iskit axınları Azərbaycana türk tayfalarının ilk böyük gəlişi hesab olunur. Kimmer tayfa birliyinin başçısı Tuqdamme idi. Kimmerlər Cənubi Qafqazdan Kiçik Asiyaya doğru hərəkət etdilər. İskit tayfa birliyinə isə İşpakay rəhbərlik edirdi. Kür və Araz çayları arasında məskunlaşan iskitlər yerli alban, kaspi, uti tayfalarını öz ətrafında birləşdirdilər. **E.ə. VII əsrin birinci yarısında Kür və Araz çayları arasındakı ərazilərdən Urmiya gölünün şimal-qərbinədək uzanan torpaqlarda İskit – İşquz (İç Oğuz) şahlığı yarandı**. Yerli tayfalar hesabına döyüşçülərinin sayını artıran İşpakay yeni yürüşlərə başladı.

?

*Sizcə, e.ə VII əsrdə türk tayfalarının Azərbaycan torpaqlarına gəlişinin nəticələrini necə ümumiləşdirmək olar?*

Arazdan cənuba keçmiş iskitlər (Assuriya mənbələrinə görə – "işquzlar") mannalı soydaşları tərəfindən yaxşı qəbul edilmiş, onların arasında dostluq münasibətləri yaranmışdı. Hökmdar Ahşeri ilə ittifaq quran İşpakay Manna ərazisindən keçərək Assuriya üzərinə hücuma başladı. Süvari alaylarının sürətli hücumları ilə üzləşən Assuriya ordusu ilk döyüşlərdə məğlub olub geri çəkilmək məcburiyyətində qaldı.

Bu xəbərlər Assuriya zülmü altında olan xalqlarda ümid və inam yaratdı. Ahşeri Mannanı müstəqil elan edib Assuriyanın sərhəd qarnizonlarına hücuma başladı.

LAYİHƏ

Midiyada müstəqillik uğrunda hərəkat genişləndi. Lakin İşpakayın ölümü Assuriyanı darmadağın olunmaqdan xilas etdi.

*Azərbaycana ilk türk axınlarının Ön Asiya xalqlarının tarixində oynadığı rolu necə dəyərləndirə bilərsiniz?*

Çətin vəziyyətə düşmüş Assuriya hərbi uğursuzluqlarını diplomatik yolla həll etməyə çalışırdı. İskit şahlığı ilə Assuriya arasında müttəfiqlik münasibətləri quruldu. Bu münasibətlər İskit hökmdarı Partatua və onun oğlu Madinin dövründə daha da möhkəmləndi.

Lakin bu güclü türk dövləti bir qədər sonra zəiflədi və Midiya dövlətinin zərbələri nəticəsində süquta uğradı.

*Müharibə, yoxsa diplomatiya? Assuriya və İskit hökmdarlarının münasibətlərinə əsaslanaraq siyasi münaqişələrin həllində bu iki vasitəni müqayisə edin.*

**Midiya (Mada) dövləti.** Midiya tayfaları Mannadan cənub-şərqdə, İran yaylasının mərkəzində yaşayırdı. Midiyalılar haqqında ilk məlumatlar e.ə. IX əsrdə Assuriya mənbələrində verilmişdir. Assuriya mənbələrində bu ölkə Matay, Maday, Amaday şəklində xatırlanır. E.ə. IX–VIII əsrlərdə Midiya ərazisində yaranan kiçik siyasi birləşmələr – vilayət hakimləri tezliklə Assuriyadan asılılığa düşdü. E.ə. 673-cü ildə müstəqillik uğrunda başlanan xalq hərəkatına Kaştariti rəhbərlik edirdi. Kaştaritinin İskit (işquz) şahlığı və Manna ilə ittifaq yaratması üsyançılara bir neçə cəbhədə fəaliyyət göstərmək imkanı verirdi. **E.ə. 672-ci ildə Kaştaritinin parlaq qələbəsi Midiyanın Assuriya əsarətindən həmişəlik azad olması, yenidən müstəqillik qazanması ilə nəticələndi. E.ə. 653-cü ildə Kaştariti iskit ordusu ilə döyüşdə həlak oldu. Bu qələbə İskit dövlətinin yüksəlişinin zirvəsi oldu.**




***Midiya imperiyası (e.ə. VII əsrin sonu – e.ə. VI əsrin ortaları)***

*E.ə VII əsr Manna və Midiya dövlətlərinin tarixləri arasında hansı oxşarlıqlar tapmaq mümkündür?*

*“İskit çarı Madi midiyalılara qalib gəldi... Bundan sonra 28 il müddətində iskitlər Asiya üzərində hökmranlıq etdilər...”*

***Herodot İskit çarı haqqında***

*Mənbəyə əsaslanaraq Midiyada İskit ağalığının hansı illəri əhatə etdiyini müəyyənləşdirin.*

İskitlər Midiyanın dövlətçiliyini tamamilə məhv etmədilər. Kaştaritidən sonra hakimiyyətə gəlmiş Kiaksar Midiyada İskitlərin ağalığına son qoydu. O, dövləti gücləndirmək üçün islahatlar apardı, kiçik vilayət hakimliklərini tamamilə ləğv etdi. Kiaksar daimi



LAYİHƏ



*İskit və Midiya döyüşçüləri*



*İskitlərin ox ucluqları. E.ə. VII–VI əsrlər*

nizami ordu və iskitlərin döyüş taktikasına əsaslanan süvari-atıcı hissələri yaratdı. Bu tədbirlərdən sonra Kiaksar Babil dövləti ilə ittifaq qurub Assuriyaya qarşı mübarizəyə başladı. Müttəfiqlər iki istiqamətdən Assuriya üzərinə hücuma keçdilər.

E.ə. 612-ci ildə Midiya və Babil orduları Assuriya ordusunu məğlub etdi, onun əsas paytaxtını – Nineviyanı tutaraq dağıdıb yandırdılar. Assuriya bir dövlət kimi e.ə. 605-ci ildə süqut etdi. Assuriyanın ərazisi qaliblər arasında bölüşdürüldü. Bundan sonra Kiaksar e.ə. 590-cı ildə Manna, Urartu və İskit – İşquz dövlətlərini tamamilə ləğv edib ərazilərini Midiyaya birləşdirdi. Midiya imperiyaya çevrildi.

*İskit və midiyalı döyüşçülərin geyimləri barədə məlumat toplayın və onları şəkil əsasında fərqləndirməyə çalışın.*

*Midiya imperiyası yaranana qədər hansı dövlət Ön Asiyanın ən güclü dövləti hesab olunurdu?*

**ƏHALİNİN SOSİAL TƏRKİBİ**

**Əyanlar** → **Azad icmaçılar** → **Qullar**

**MİDİYANIN İDARƏ OLUNMASI**

**Hökmdar** → **Satrap-canişin**, **Ordu**

Kaştaritinin dövlət idarəçiliyində başladığı dəyişikliklər əsasında nəsli əyanlar (tayfa başçıları və vilayət hakimləri) müstəqil hakimiyyətlərini itirsələr də, əslində, saray əyanlarına çevrildilər. Qalibiyyətli müharibələr isə ölkəyə qul axınına səbəb oldu.

*Sizcə, ölkəyə qulların gətirilməsi azad təsərrüfatçıların vəziyyətinə necə təsir göstərə bilərdi?*

**Midiya dövlətinin süqutu.** Astiaqın (e.ə. 585–550) hakimiyyəti dövründə işğallar dayandı. Hərbi qənimətlər hesabına yaşayan hərbi əyanlar və peşəkar döyüşçülər bu vəziyyətdən narazı idilər. Digər tərəfdən, Astiaq yeni yaranan zərdüştilik dininin kahinləri sayılan maqlarla yaxınlaşırdı. Onun sarayında yer almış yeni dinin təbliğatçıları köhnə dinlərə və tanrılara qarşı mübarizə aparmaqla yanaşı, cəmiyyətin inkişafı üçün ümumi bərabərlik yaradılması fikrini də önə çəkirdilər.

LAYİHƏ

Yeni dini təlim aşağı təbəqələrin mənafeyinə uyğun gəldiyindən əhali arasında sürətlə yayılırdı. Midiya əyanları isə yeni dini özləri üçün təhlükə sayırdılar. Hakimiyyət dövrü uzandıqca Astiaqla əyanlar arasında ziddiyyətlər də artırdı. Astiaqa qarşı açıq çıxış etməyə cürəti çatmayan Midiya əyanları onu nəvəsi II Kirin əli ilə hakimiyyətdən devirməyi qərara aldılar. II Kir (Kuruş) Astiaqın Fars vilayətinin başçısına ərə verdiyi qızı Mandananın oğlu idi. E.ə. 553-cü ildə II Kirin başçılığı altında üsyan başladı. Həlledici anda Midiya əyanlarının xəyanəti özünü göstərdi. E.ə. 550-ci ildə Midiya məğlub oldu. Ekbatan hücumla alındı. Şəhər II Kirin əmri ilə qarət edildi, əhalisinin bir hissəsi qula çevrildi. Midiya dövləti süquta uğradı. Hakimiyyət farsların əlinə keçdi. Midiyanın yerində Əhəməni fars dövləti yarandı və tez bir zamanda imperiyaya çevrildi.

**?** *Sizcə, Midiya dövlətinin süqutunda hansı amillər həlledici rol oynamışdır?*

**Azərbaycan Əhəmənilərin hakimiyyəti dövründə (e.ə. 550 – e.ə. 330-cu illər).**

Şərqdə Hindistan, qərbdə Misirə kimi uzanan nəhəng Əhəməni imperiyasının tərkibinə Azərbaycan torpaqları da daxil idi. Belə böyük imperiyanı nəzarətdə saxlamaq üçün Əhəməni şahları ərazini satraplıqlara (canişinliklərə) bölmüşdülər. Böyük səlahiyyətlərə malik olan satraplar əhalidən illik vergi yığır, müharibə vaxtında döyüşçülər toplayırdılar. Farslar bütün türkdilli köçəriləri *sak* adlandırırdılar. Sak-iskit-oğuz tayfaları çox döyüşkən olduqlarından Əhəməni şahları apardıqları bütün müharibələrdə onların qüvvələrindən istifadə edirdilər. Əhəmənilərin Azərbaycanın şimal torpaqları üzərində hakimiyyəti nominal (şərti) xarakter daşımışdır. Əhəməni satrapları daha çox vergi toplayır, əhalinin daxili işlərinə, adət-ənənələrinə qarışmırdılar. Əhəməni hakimiyyəti dövründə, xüsusilə Şimali Azərbaycanda sosial təbəqələşmə gücləndi. Ölkə əhalisinin siyasi proseslərə qatılması, maliyyə vergi sisteminin tətbiqi, iri yaşayış məskənlərinin sayca artması iqtisadi və siyasi inkişafa səbəb olmuşdur. Artıq e.ə. IV əsrin sonlarında Azərbaycanın şimalı müstəqil dövlətin yaranması ərəfəsində idi.



***Şəmkir rayonunun Qaracəmirli kəndində tapılmış Əhəməni dövrünə aid saray kompleksi***



***Sarayın bərpa edilmiş şəkli***

*1. Əhəməni işğalı Azərbaycan tarixinə necə təsir göstərmişdir?*
*2. İskit çarlığı ilə bağlı təqdimat hazırlayın, mənbələrə əsasən onların hərəkət coğrafiyasını dəqiqləşdirin.*
*3. Əvvəlki siniflərdə aldığınız tarixi biliklərə əsasən Azərbaycana yürüşlər etmiş digər türk boyları ilə iskit-kimmer axınlarını müqayisə edin, fərqli və oxşar cəhətləri müəyyənləşdirməyə çalışın.*
*4. İskit şahı İşpakay və Midiya hökmdarı Kiaksarın fəaliyyətini müqayisə edin.*
*5. Kaştaritinin, Kiaksarın və Astiaqın hakimiyyətləri dövründə Midiyada baş vermiş dəyişiklikləri müəyyənləşdirin.*

LAYİHƏ



5

# ATROPATENA DÖVLƏTİ

*Atropat[1] ölkələr fəth edən müzəffər sərkərdə olmamışdır. O, ağır, qeyri-müəyyənlik hökm sürdüyü bir dövrdə xalqını yadelli işğallardan xilas edib, ölkəsini əsarətdən qurtarıb müstəqil dövlət yaradan bacarıqlı, dərin düşüncəli dövlət xadimi kimi tarixdə qalmışdır. Atropatın adı ilə Atropatena adlanan ərazilər VII əsrdən etibarən Azərbaycan adlandırılmağa başlamış, xalqımızın və dövlətimizin adına çevrilmişdir.*

*Atropat, Makedoniyalı İsgəndər, Parfiya dövləti, Artabazd, Roma, Ariobarzan*

?

*Adları şəxs və soy adlarından yaranmış hansı dövlətləri tanıyırsınız?*

**Dövlətin yaranması.** E.ə. 331-ci ildə Əhəməni dövlətinin taleyini həll edən Qavqamela döyüşündə İran ordusunun sağ cinahına Midiya satrapı Atropat başçılıq edirdi. Döyüşün əvvəlində Atropatın başçılıq etdiyi sağ cinah makedoniyalıları sıxışdırmağa nail oldu. Lakin döyüşün qızğın vaxtında Makedoniya hökmdarı İsgəndər manevr edərək özünün süvari dəstəsi ilə İran ordusunun mərkəzinə həmlə etdi. Əhəməni hökmdarı III Daranın bu gözlənilməz hücumdan qorxaraq qaçması döyüşün və İran imperiyasının taleyini həll etdi. Bu döyüşdən sonra İsgəndər Əhəməni imperiyasının əsas şəhərlərini və paytaxt Persopolu müqavimətsiz ələ keçirdi. Qavqamela döyüşündən sonra Atropat öz hərbi dəstələri ilə Midiya satraplığının mərkəzi Ekbatana qayıtmayıb, zərdüştilik dininin əsas mərkəzi sayılan Qazaka şəhərinə getmişdi. Az sonra Ekbatana qaçıb gələn III Dara burada yenidən qoşun toplamağa cəhd etdi. O, Atropatı da öz qoşunu ilə ona qoşulmağa çağırsa da, Midiya satrapı bu çağırışa cavab vermədi.



***Atropat***

?

*Sizcə, Atropat III Daraya qoşulmaqdan niyə imtina etmişdi?*

Belə olduqda III Dara ölkənin şərqinə hərəkət etdi. Lakin yolda öz adamları tərəfindən öldürüldü. Beləliklə, Əhəməni imperiyası tamamilə dağıldı. İmperiya üzərində hakimiyyəti ələ alan İsgəndər e.ə. 330-cu ildə fərman verib ölkəni idarə edən bütün canişinləri (satrap) vəzifəsindən azad etdi.

E.ə. 328-ci ildə İsgəndər Atropatı yanına çağırıb onu yenidən Midiyanın satrapı təyin etdi. O, xalq arasında böyük nüfuza malik Atropatı özünə yaxınlaşdırmaqla işğal edilmiş

[1] *Atropat* – Qədim İran dillərində "odun qoruduğu" və ya "odun, alovun sahibi" mənasını daşıyırdı.



LAYİHƏ

ərazidə möhkəmlənməyə çalışırdı. Amma İsgəndər Əhəməni dövründəki Midiya satraplığını iki yerə bölmüşdü. Cənubi – Böyük Midiyanı (mərkəzi Ekbatan) özündə saxlayıb, Şimali – Kiçik Midiyanı (Qədim Mannanı) Atropatın hakimiyyətinə vermişdi. Buna səbəb mühüm ticarət yollarının Ekbatandan keçməsi, digər tərəfdən isə Cənubi Midiyanın imperiyanın şərq vilayətləri ilə əlaqələrində əsas rol oynaması idi. Atropatın apardığı quruculuq işləri xalq arasında onun nüfuzunu artırmışdı. E.ə. 327-ci ildə İsgəndər Hindistana yürüş etdi. O, ölkəni tərk edən kimi, Midiya satraplığı istisna olmaqla, İranda hərc-mərclik başladı. Makedoniyalıların özbaşınalığına qarşı yaranan narazılıq az sonra üsyana çevrildi. Hərəkatın başçısı midiyalı Bariaks idi. İsgəndərin bu üsyana görə xalqı cəzalandıra biləcəyini nəzərə alan Atropat onu yatırdı, Bariaksı isə əsir götürdü.

*Atropatla Bariaksı müqayisə edin. Onların fəaliyyəti barədə müzakirə aparın.*


**Amazon qadın döyüşdə**

Yürüşdən qayıdan İsgəndər qanunsuzluğa yol verən hakimləri edam etdirdi. Atropat İsgəndərin Hindistan yürüşündən sonra öz vəzifəsində qalan yeganə satrap idi. O, İsgəndəri hörmətlə qarşılayıb şərəfinə ziyafət verdi, ona məşhur Midiya atlarını hədiyyə etdi.

M

*"Midiyanın satrapı Atropat İsgəndərə yüz amazonka[2] qadın bağışlamışdı. Onlar kişi süvarilər kimi geyinmişdilər. Amma əllərində nizə əvəzinə təbərzin[3] və yüngül qalxan tutmuşdular..."*

***Yunan alimi Arrian Atropat haqqında***

İsgəndər Atropata makedoniyalılarla qohum olmağı təklif etmişdi. Buna görə də Atropat öz qızını İsgəndərin ən etibarlı sərkərdəsi Perdikkiyə ərə verdi. E.ə. 323-cü ildə İsgəndər vəfat etdi. İmperiyanın idarə edilməsi Perdikkiyə tapşırıldı. Bu, Atropatın mövqeyini daha da möhkəmləndirdi. E.ə. 321-ci ildə Perdikkinin öldürülməsindən sonra Kiçik Midiya Atropatın hakimiyyəti altında qaldı. İsgəndərin imperiyasının dağılması nəticəsində bir neçə dövlət yarandı. Bu dövlətlərin əksəriyyəti yunan-Makedoniya əsilli sərkərdələr tərəfindən idarə olunurdu. **Onların arasında yerli əhalinin nümayəndəsi tərəfindən əsası qoyulan yeganə dövlət Atropatın adını daşıyan Atropatena oldu.**

M

*"Midiya iki hissəyə bölünür. Mərkəzi Ekbatan olan hissə Böyük Midiya adlanır... ikinci hissə Atropat Midiyasıdır; o, adını öz ərazisini Böyük Midiya kimi makedoniyalıların hakimiyyəti altına düşməsinə imkan verməmiş sərkərdə Atropatdan götürür... indiki dövrdə də hakimiyyət onun nəslindən olanlara məxsusdur".*

***Strabonun "Coğrafiya" əsərindən***

*Atropatena dövlətinin yaranmasının tarixi əhəmiyyətini izah edin.*

?

*Azərbaycan tarixində müstəqil dövlət yaratmış hansı şəxsləri tanıyırsınız?*

[2] *Amazonka* – Yunan mifologiyasına görə, Kiçik Asiyada, Qafqazda məskunlaşmış döyüşkən qadınlar
[3] *Təbərzin* – ikiağızlı balta



LAYİHƏ

**Atropatena dövlətinin quruluşu və idarə olunması.** Atropatena ictimai-siyasi quruluşuna görə quldar monarxiya dövləti idi. Dövləti Atropatilər sülaləsi idarə edirdi.

**Ərazi.** Atropatena, əsasən, Cənubi Azərbaycanı və Şimali Azərbaycanın bəzi cənub ərazilərini əhatə etsə də, özünün qüdrətli vaxtlarında daha geniş əraziyə malik olmuşdur.

M *"Atropatenanın ən qüdrətli və ən müdrik hökmdarı, atropatilər və qonşu xalqlar üzərində hökmranlıq edən Artabazanın vaxtında dövlətin sərhədləri qərbdə Fasisdən (Rioni çayı Gürcüstanda) yuxarıya Pontun (Qara dəniz) üzərinə yüksəlir, şərqdə isə o, Hirkan (Xəzər) dənizinə qədər çatır".*

***Yunan tarixçisi Polibi Atropatena haqqında***

*Mənbəyə əsasən müasir xəritədə Artabazanın dövründə Atropatenanın hansı əraziləri əhatə etdiyini müəyyənləşdirin.*

Atropatenanın paytaxtı zərdüştilik (atəşpərəstlik) dininin mərkəzi sayılan Qazaka şəhəri olmuşdur. Antik dövr müəllifləri Atropatenada Fraaspa, Fanaspa və Aqnazana şəhərləri haqqında da məlumatlar vermişlər.

**Atropatenanın əhalisi və təsərrüfat həyatı.** Antik dövr müəllifləri Atropatenanın qədim əhalisi ilə yanaşı, burada maq, kadusi, müq (muk) və kaspi tayfalarının da məskunlaşdıqları barədə məlumat verirlər.

Əhalinin əsas məşğuliyyəti ənənəvi olaraq əkinçilik və maldarlıq olmuşdur. Digər təsərrüfat sahələri arasında atçılıq xüsusilə qeyd edilməlidir. Atropatenada yetişdirilən atlar bütün Şərqdə məşhur idi. Çində onları "Səma atları" adlandırırdılar. Sənətkarlıq sahələri arasında dulusçuluq və metalişləmə əsas yer tuturdu.

**Atropatena e.ə. III–I əsrlərdə.** Atropatenanın cənub qonşusu əvvəllər Selevki (Suriya) dövləti, e.ə. II əsrdən etibarən isə Parfiya dövləti olmuşdur. Hindistandan Aralıq dənizi sahilinə qədər ərazini əhatə edən Selevki dövlətində e.ə. 223-cü ildə hakimiyyətə gələn III Antiox gözlənilmədən Atropatenaya hücum etdi.

? *Makedoniyalı İsgəndərin imperiyasının dağılması nəticəsində yaranmış hansı dövlətləri tanıyırsınız?*
*Atropatenanı bu dövlətlərdən nə fərqləndirirdi?*

Atropatena hökmdarı Artabazan müharibəyə hazır olmadığından Selevki dövlətindən asılılığı qəbul etdi. Lakin e.ə. 190-cı ildə III Antioxun Maqneziya döyüşündə romalılara məğlub olması nəticəsində Atropatena öz müstəqilliyini bərpa etdi. E.ə. II əsrin ikinci yarısından başlayaraq, Parfiya və onunla müttəfiq olan Atropatena Romanın Asiyanın içərilərinə doğru irəliləməsinə qarşı mübarizəyə başladılar. Atropatena və Parfiya Romaya yunan-Makedoniya istilaçılarının varisi kimi baxdıqlarından vahid cəbhədən çıxış edirdi.

*Sizcə, Şərq–Asiya və Qərb–Avropa arasındakı toqquşmalara dövlətlər, yoxsa mədəniyyətlər arasında olan qarşıdurma kimi baxmaq lazımdır?*
*Fikirlərinizi faktlarla sübut etməyə çalışın.*

Strabon "Coğrafiya" əsərində yazırdı: "Atropatena hərbi qüvvə baxımından çox güclü ölkədir, çünki o, döyüşə 10 min süvari, 40 min piyada çıxara bilər".

Roma Kiçik Asiyanı tamamilə zəbt edib Suriya və Fələstində möhkəmlənmişdi. **Lakin e.ə. 53-cü ildə sərkərdə Krassın başçılıq etdiyi Roma ordusu Karra şəhəri yaxınlığındakı döyüşdə Parfiya tərəfindən darmadağın edildi.** Döyüşdə Parfiya ordusunun

LAYİHƏ

tərkibində atropatenalı döyüşçülər də fərqlənmişdilər. Romanı tamamilə Asiyadan çıxarmağa çalışan Parfiya e.ə. 38-ci ildə baş vermiş döyüşdə məğlub oldu. Romanın Şərq vilayətlərinin hakimi sayılan Antoni bu qələbədən ruhlanaraq komandanlığı öz üzərinə götürüb e.ə. 36-cı ildə 100 minlik ordu ilə yürüşə başladı. Parfiya və onun müttəfiqi Atropatena hökmdarı Antoninin Parfiyanın paytaxtı Ktesifona hücüm edəcəyini gözlədiklərindən qüvvələrini Mesopotamiyada cəmləşdirmişdilər.

**Fraaspanın qəhrəmancasına müdafiəsi.** Strabonun Atropatena hökmdarlarının qış iqamətgahı adlandırdığı Fraaspa e.ə. 36-cı ilin payızında Antoninin ordusu tərəfindən mühasirəyə alındı. Bütün əhali mübarizəyə qalxaraq əsas qüvvələr gələnədək şəhəri müdafiə etdi.

M

*"Fraaspada mühasirəyə alınmış midiyalılar (atropatenalılar) düşərgə istehkamlarına basqın edərək ön xətdə dayanmış Roma döyüşçülərini qorxudub geri oturtmuşdular. Bundan qəzəblənən Antoni qorxaqlıq etmiş əsgərlərin hər on nəfərdən birini edam etdirdi".*

***Plutarxın "Müqayisəli tərcümeyi-hallar" əsərindən***

Özlərini şəhərin müdafiəsinə çatdıran Parfiya və Atropatena süvariləri Antoninin mühasirə qurğuları və maşınlarını qoruyan dəstəsinə həmlə edib 10 min romalını məhv etmiş, bütün maşınları sındırmışdılar.

Məğlubiyyətdən sarsılan Antoni geri çəkilməyə məcbur oldu. Atropatena ordusu geri çəkilən romalıları Kiçik Asiyayadək təqib edib ona ağır zərbələr vurdu. Ümumiyyətlə, Antoni Atropatenada 35 min döyüşçü itirdi.



***Fraaspanın müdafiəsi***

Atropatena hökmdarı Artabazd qələbə münasibətilə keçirdiyi bayramda əldə edilmiş qənimətin arasında Roma legionlarının bayraqlarını da xalqa nümayiş etdirmişdi. Bu qələbədən sonra müttəfiqlər arasında münasibətlər pozuldu. Buna səbəb Parfiyanın Atropatenanı işğal edib öz tərkibinə birləşdirmək istəyi idi. Münasibətlərin pisləşməsi



LAYİHƏ

Atropatenanın xarici siyasətində dəyişikliyə səbəb oldu. Artabazd Romanın mütləq hakiminə çevrilmiş Oktavianla diplomatik əlaqələr yaradaraq oğlu Ariobarzanı Romaya göndərmişdi. Oktavian Atropatena ilə müttəfiqliyi yüksək qiymətləndirir, ona Romanın Asiyada əsas dayağı kimi baxırdı. Ariobarzan Roma imperatoru Oktavian Avqustun hakimiyyəti dövründə 10 il Romada yaşamışdı.

*Artabazdın xarici siyasətini dəyərləndirin.*

Artabazdın vəfatından sonra Oktavian e.ə. 20-ci ildə Ariobarzanın Atropatenada hakimiyyətə gəlməsinə kömək etdi. O, Atropatenanın qonşuluğunda, Kiçik Asiyada yaşayan ermənilər üzərində hakimiyyəti də Ariobarzana vermişdi.

M

*"...Bundan sonra ayrılan və üzə duran, oğlum Qay tərəfindən ram edilən həmin xalqı (erməniləri) mən (Oktavian) atropatenalıların padşahı Artabazdın oğlu çar Ariobarzanın ixtiyarına verdim..."*

***"İlahi Avqustun əməlləri" adlanan kitabədən***

?

*Sizcə, ermənilər üzərində hakimiyyətin Oktavian tərəfindən Ariobarzana verilməsinin səbəbi nə ola bilərdi?*

Ariobarzanın hakimiyyəti I əsrin əvvəllərinə kimi davam etmişdir. Roma tarixçisi Tasit Ariobarzanı "Cismani gözəlliyi və görkəmli mənəvi keyfiyyətləri ilə fərqlənən bir midiyalı" kimi səciyyələndirirdi. Əvvəlcə Ariobarzanın, az sonra Oktavianın həyatdan getmələri Parfiyanın fəallaşmasına təkan verdi.

Parfiya Atropatenanı öz nüfuz dairəsinə qaytarmaq üçün bütün iqtisadi və siyasi vasitələrdən istifadə edirdi. Eranın 20-ci ilində Atropatilər sülaləsinin sonuncu nümayəndəsi Ariovastın ölümündən sonra Parfiya Atropatenanı tutaraq dövlətçiliyinə son qoydu. Atropatena bir ərazi kimi Parfiya Arşakilər sülaləsinin süqutuna qədər onun tərkibində qaldı.



***Ariobarzan***

?

*1. İki dövlət arasında manevr etməklə müstəqilliyini qorumağa çalışan hansı Azərbaycan hökmdarlarını tanıyırsınız?*
*2. Dövlət müstəqilliyini qorumaq üçün hansı amillər vacibdir?*
*3. Atropatı sərkərdə və hökmdar kimi dəyərləndirib haqqında referat hazırlayın.*
*4. Atropatena dövlətinin süqutunun səbəblərini müəyyənləşdirin.*
*5. Manna və Atropatena dövlətlərini Venn diaqramında müqayisə edin.*

LAYİHƏ



6

# ALBANİYA DÖVLƏTİ

*Albaniya Şimali Azərbaycan ərazisində yaranan ilk dövlətimizdir. Quldarlıq dövründə e.ə. IV–III əsrlərdə meydana gəlmiş, güclü dövlətlərin hücum və işğallarına sinə gərərək dövlətçiliyini VIII əsrin əvvəllərinə qədər qoruyub saxlaya bilmiş, inkişaf etmiş feodal dövləti kimi tarix səhnəsindən silinmişdir.*

*Alban tayfaları, Antik müəlliflər, Oroys, Kozis, Pompey*

**Albaniya dövlətinin yaranması.** Şimali Azərbaycanın Kür və Araz çayları arasındakı ərazisi e.ə. VII əsrdə İskit (İşquz) türk dövlətinin tərkibində olmuşdur. E.ə. VI–IV əsrlərdə bu ərazilərin bir hissəsi əvvəlcə Midiyanın, sonra isə Əhəməni dövlətinin tərkibinə daxil edilmişdir. Böyük dövlətlərin tərkibində olduğu zamanlarda Şimali Azərbaycanda yaşayan tayfalar və tayfa birləşmələri Ön Asiyadakı siyasi proseslərə qatılaraq yürüş və müharibələrdə iştirak etməklə hərbi təcrübə qazanmışlar. Əhəməni dövründə ölkədə maliyyə-vergi sisteminin tətbiqi, ticarət əlaqələrinin genişlənməsi, iri yaşayış məskənlərinin yaranması Şimali Azərbaycanda sinifli cəmiyyətin yaranmasını sürətləndirmişdi. Artıq e.ə. IV əsrin sonlarında Şimali Azərbaycanda yaşayan tayfalar bir ad altında – alban tayfaları kimi birləşmişdi. Bütün bunlar Əhəmənilərin hakimiyyətinə son qoymuş Makedoniyalı İsgəndərin imperiyasının dağıldığı dövrdə Şimali Azərbaycanda da e.ə. IV əsrin sonlarında müstəqil Albaniya dövlətinin yaranmasına gətirib çıxardı.




**Azərbaycan (e.ə. IV–I əsrlər)**

*Albaniya dövləti bundan əvvəl öyrəndiyiniz Azərbaycan dövlətlərindən hansı cəhətlərinə görə fərqlənirdi?*

**Ərazi.** Albaniya dövlətinin ərazisi şimalda Qafqaz dağlarına, cənubda Atropatenaya, şərqdə Xəzər sahillərinə, qərbdə Göyçə gölü ətrafına və İberiyaya (Gürcüstana) qədər çatırdı.



LAYİHƏ

**Albaniyanın şəhərləri və vilayətləri.** I əsrdə yaşamış romalı alim Böyük Plini Albaniyanın paytaxtının Kabalaka (Qəbələ) olduğunu qeyd edirdi. Coğrafiyaçı Klavdi Ptolomey Albaniyada 29 şəhərin mövcudluğu haqqında yazır, onların arasında Qəbələ, Şamaxı, Alban çayı hövzəsində Albana şəhərinin adını çəkirdi.

> *"Albaniyanın Kambisena vilayəti iberlərlə həmsərhəddir. İberiyadan Albaniyaya yol susuz və daşlıq Kambisena vilayətinin içindən Alazan çayına doğru gedir. Albanlar ölkəsinə Kaspiana vilayəti də daxildir, onun və dənizin adı kaspi tayfasının adından götürülüb. Albaniyanın Uti vilayətində Ayniana və Anariaka şəhərləri yerləşir".*
>
> ***Strabonun "Coğrafiya" əsərindən***

> *Qədim dövrdə Azərbaycanda yaranmış şəhərlərdən hansılar müasir dövrə qədər qalmışdır?*

**Dövlət quruluşu və idarə olunması.** Albaniya dövlətini hökmdar idarə edir, həm də ordu başçısı sayılırdı. Antik dövrün digər müəllifləri Plutarx və Dion Kassi bildirirdilər ki, Roma sərkərdəsi Pompeyin yürüşü vaxtında Alban ordusuna hökmdar Oroys başçılıq edirdi. E.ə. IV–III əsrin əvvəllərində Albaniyada başqa ölkələrdən gətirilən pullardan istifadə olunurdu.



***Alban hökmdarlarının kəsdirdiyi gümüş pullar***

> *"İndiki zamanda alban tayfalarına bir hökmdar başçılıq edir, amma əvvəllər hər tayfanın öz hökmdarı var idi".*
>
> ***Strabonun "Coğrafiya" əsərindən***

E.ə. III əsrin birinci yarısından Albaniya hökmdarları öz pullarını kəsdirməyə başladılar. Bu, Albaniya dövlətinin müstəqilliyini, iqtisadi cəhətdən gücləndiyini və hökmdar hakimiyyətinin möhkəm əsaslara malik olduğunu göstərirdi. Antik dövr müəllifləri Albaniyada əyanların bir neçə qrupa bölündüyünü və dövlət idarəçiliyində müəyyən vəzifələrdə çalışdıqlarını göstərirlər. Onların verdiyi məlumatlardan ölkədə quldarlıq münasibətlərinin mövcud olduğu, hökmdarın və əyanların təsərrüfatlarında qul əməyindən istifadə edildiyi aydınlaşır. Amma Albaniyada quldarlıq həmin dövrdə digər dövlətlərdə olduğu qədər geniş yayılmamışdı. Əsas istehsalçı təbəqə azad insanlar idi.

> *Göstərilənlərə əsasən, Albaniya dövlətinin siyasi və ictimai quruluşu barədə hansı nəticəyə gəlmək olar?*

**Albaniyanın təsərrüfatı.** Təsərrüfat sahələri arasında əkinçilik və maldarlıq əsas yer tuturdu. Düzən ərazilərdəki əkin sahələri çaylar vasitəsilə suvarılırdı. Antik müəlliflər albanların maldarlığa daha meyilli olduqlarını yazırlar. Onlar atçılıq və dəvəçiliyin də geniş yayıldığını xəbər verirlər. Arxeoloji tapıntılar Albaniyada üzümçülüyün – şərabçılığın inkişaf etdiyini göstərir. Albanların bağçılıq, bostançılıq, balıqçılıqla da məşğul olmaları barədə məlumatlar vardır.



***Mina naxışlı tunc sancaq. Antik dövr (Qalatəpə, Ağcabədi rayonu)***

LAYİHƏ

Arxeoloji qazıntılar nəticəsində əldə edilmiş maddi tapıntılar Albaniyada sənətkarlığın bir çox sahələrinin – toxuculuğun, dulusçuluğun, dəmirçiliyin, zərgərliyin yüksək səviyyədə inkişaf etdiyini sübut edir. Dövlətin yaranmasından sonra ticarət əlaqələri genişlənmişdi. Beynəlxalq ticarət yollarının Albaniyadan keçməsi sənətkarlığın səviyyəcə yüksəlməsinə müsbət təsir göstərmişdi. Ölkədaxili ticarətdə puldan geniş istifadə olunurdu.

? *Şərq və Qərb ölkələrini birləşdirən hansı ticarət yolu Azərbaycandan keçirdi?*

**Xarici düşmənlərə qarşı mübarizə.** E.ə. I əsrdə Kiçik Asiyanın çox hissəsini ələ keçirən Roma dövlətinin şərq istiqamətində hücumları genişlənirdi. E.ə. 66-cı ildə Roma sərkərdəsi Pompey Qafqaz istiqamətində yürüşə başladı və Kür çayına çatıb burada düşərgə saldı. Albaniya hökmdarı Oroys düşmən ordusunun ölkə daxilinə girməsinə imkan verməkistəməyib 40 minlik ordu ilə hücuma keçdi. Albanların cəsarətlə döyüşməsinə baxmayaraq, daha yaxşı silahlanmış, böyük hərbi təcrübəyə malik olan romalılar qalib gəldilər. Albanlarla sazişə gələn Pompey İberiya istiqamətində hərəkət etdi. Albaniya dövləti qüvvələrini yenidən cəmləşdirib Roma ordusunun arxasınca irəliləyərək Kür çayının qollarından olan Qanıx çayı sahilində mövqe tutdu. Vəziyyətin Roma ordusu üçün təhlükəli olduğunu görən Pompey e.ə. 65-ci ildə yenidən Alban ordusuna doğru yürüş etdi.



***Kozis və Pompey döyüş zamanı***

M *"Alban ordusu 60 min piyada, 12 min süvaridən ibarət idi. Amma onlar pis silahlanmışdılar. Onlara Oroysun qardaşı Kozis başçılıq edirdi. Döyüşdə Kozis Pompeyə hücum edib ona mizraq atdı. Pompeyin əynindəki zireh onu xilas etdi. Pompey nizə ilə cavab zərbəsi endirib Kozisi ölümcül yaraladı".*

***Plutarxın "Müqayisəli tərcümeyi-hallar" əsərindən***

*Albanların məğlub olmasının səbəblərini izah edin. Fikrinizi əsaslandırmağa çalışın.*

Döyüş yenə romalıların qələbəsi ilə başa çatdı. Bu döyüş haqqında məlumat verən Appian yazır: "...əsir götürülən albanların arasında kişilərdən az yara almayan çoxlu qadın var idi". Ordusuna bir neçə gün dinclik verən Pompey yenidən yürüşə başladı. O, Albaniyanın daxili vilayətlərini ələ keçirib Xəzər sahilinə çıxmağa çalışırdı. Oroys əsas qüvvələrlə geri çəkilsə də, mübarizəni dayandırmadı. O, taktikanı dəyişdirib romalılara qarşı partizan müharibəsi aparırdı.

? *Partizan mübarizəsinin xarakterik cəhətləri hansılardı? Tarixdə hansı dövlətlərdə baş qaldırmış partizan hərəkatlarını tanıyırsınız?*



LAYİHƏ

Pompey albanların güclü müqavimətini görüb yürüşü dayandırdı. O, Albaniya hökmdarından yanına gəlməsini tələb etsə də, Oroys məktub və hədiyyələr göndərməklə sülh təklif etdi. Pompey sülh sazişini qəbul edib geri qayıtdı. E.ə. 36-cı ildə Antoni Şərqə böyük yürüşü vaxtında öz sərkərdəsi Kanidini Cənubi Qafqaz üzərinə göndərmişdi.

M

*“Kanidi İber hökmdarına qalib gəlib onu öz müttəfiqinə çevirərək qonşu Albaniyaya hücum etdi. Ağır döyüşdə Kanidi Alban hökmdarı Zoberin ordusuna qalib gəldi. İberiya hökmdarı kimi Zober də Romaya sadiq qalacağına, onun müttəfiqi kimi hərəkət edəcəyinə söz vermişdi...”*

***Dion Kassi Kanidinin Albaniyaya yürüşü haqqında***

I əsrdə Parfiyanın Atropatenanın müstəqilliyinə son qoymasından sonra Albaniya hökmdarları cənubdan gələn təhlükədən qorunmaq üçün Roma ilə əlaqələri gücləndirdilər.

M

*“Alban, iber və midiya hökmdarları öz səfirləri vasitəsilə bizim dostluğumuzu istəyirlər”.*

***Roma imperatoru Oktavian Avqustun kitabəsindən***

?

*Sizcə, bu mənbələr əsasında Roma ilə Albaniya arasındakı münasibətlər haqqında hansı fikrə gəlmək olar?*

I əsrdə Romanın Albaniya ilə münasibətlər saxladığını göstərən digər yazılı mənbə Qobustanda tapılmışdır.

Roma imperiyası da Parfiyaya qarşı mübarizədə Albaniya və İberiyadan istifadə etməyə çalışırdı. I əsrdə yaşamış sərkərdə və tarixçi İosif Flavinin məlumatına görə: “İmperator Tiberi iber və alban basilevslərinə (hökmdarlarına) Parfiya hökmdarı Artabanla müharibəyə başlamaları üçün xeyli pul göndərmişdi...” II əsrdə Roma imperatoru Adrian alban hökmdarlarına qiymətli hədiyyələr göndərmişdi. Albaniyanın Roma ilə siyasi-iqtisadi əlaqələri III əsrin ortalarına kimi davam etmişdi.



***Qobustan kitabəsi***

**İMPERATOR DOMİSİAN SEZAR AVQUST GERMANİK LİVİ MAKSİM XII LEGİON**

***Qobustan kitabəsinin oxunuşu***

Şimali Qafqazda və Don çayı ətrafında yaşayan alan tayfaları I–III əsrlərdə Dərbənd və Dəryal keçidlərindən Cənubi Qafqaza və Ön Asiyaya yürüşlər edirdilər. Bu yürüşlərdə əsas məqsəd qarət-talan yolu ilə qənimət ələ keçirmək idi. Alanların ən güclü yürüşlərindən biri 72–74-cü illərdə olmuşdur. Albaniyadan keçən alanlar Atropatenanı idarə edən Parfiya canişininin qüvvələrini məğlubiyyətə uğradaraq ölkəni qarət etmiş, böyük qənimətlə geri qayıtmışdılar. Cənubdan Parfiyanın, qərbdən Romanın təzyiqlərinə baxmayaraq, Albaniya alban hökmdarlarının səyləri nəticəsində dövlətçiliyini və ərazi bütövlüyünü qorumağa nail oldu.

?

*1. E.ə. I əsrdə Albaniyada yazı mədəniyyətinin olmasını hansı faktla sübut edə bilərsiniz?*
*2. Sizcə, Qobustandakı latın dilli kitabə nə ilə əlaqədar yarana bilərdi?*
*3. Qədim dövrdə Azərbaycanda mövcud olmuş dövlət qurumları və dövlətlərə həsr olunmuş xronoloji cədvəl tərtib edin.*
*4. Albaniyanın I əsrdə Roma imperiyası ilə yaxınlaşmasının səbəbini müəyyənləşdirin.*

LAYİHƏ



# 7

## MƏDƏNİYYƏT

*Qədim dövrdə əcdadlarımız öz yaşayış və müdafiələri üçün zəruri olan tikililəri yaratmaqla memarlıq sənətinin təməlini qoymuşlar. Hazırlanan hər növ məişət və yaşayış nümunələrinə bədii görkəm və bəzək də verilmişdir.*

*Həsənli, Ziviyə, din, yazı, zərdüştilik, "Avesta", ellin mədəniyyəti, Kerifto*

**Yazı.** Azərbaycan ərazisində yazının yaranma tarixi çox qədim dövrlərə gedib çıxır. Onun əlifbadan əvvəlki dövrü piktoqrafik (şəkli yazı) və ideoqrafik (fikrin rəmzlərlə ifadə olunması) yazı ilə səciyyələnir. Müxtəlif şəkil və simvollar əsasında formalaşdırılan təsvir vasitəsilə müəyyən məlumatların verilməsi ilk yazı hesab olunur. Belə məlumatları yazıya çevirməkdə əsas məqsəd baş vermiş hadisələri yadda saxlamaq zərurəti idi. Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı tapılmış qədim əşyaların, saxsı qabların üzərində heyvan, bitki, insan şəkilləri az deyildir. Azərbaycanda piktoqrafik yazı nümunələri Qobustan, Qazax, Gədəbəy və Naxçıvanda qeydə alınmışdır. Təkcə Qobustanda 720 qayaüstü rəsmdə 6 mindən çox təsvir vardır.



***Qobustanda qayaüstü təsvir***

*Sizcə, Qobustandakı təsvirləri yazı növü hesab etmək olarmı?*

Qədim Azərbaycan ərazisində əhali e.ə. III minillikdə mixi yazı ilə tanış idi. Ziviyədən tapılmış gümüş sini üzərində həkk olunmuş bir çox işarələr Mannada yerli əhalinin yazı tipinin olduğunu təsdiq edir. Bu işarələr heroqlif hesab olunur.



***Manna yazısı***

Midiya ərazisindən üzərində mixi yazılar olan gümüş qablar tapılmışdır. Albaniya əhalisi latın əlifbası ilə tanış idi. Antik müəlliflər e.ə. 65-ci ildə Albaniya hökmdarı Oroysla Pompey arasında mövcud olmuş məktublaşma barədə məlumat verirlər.

*Azərbaycanda qədim yazı sisteminin olması nədən xəbər verir?*



LAYİHƏ

**Memarlıq və incəsənət.** Ölkəmizin Şərq və Qərb sivilizasiyalarının qovşağında yerləşməsi, regionda baş verən siyasi və sosial-iqtisadi proseslər Azərbaycan ərazisində mədəniyyətin inkişafına böyük təsir göstərmişdir.

Cənubi Azərbaycanda Amerika arxeoloqu Robert Daysonun rəhbərlik etdiyi ekspedisiyanın iranlı arxeoloqlarla birlikdə 1956-cı ildən etibarən apardığı arxeoloji qazıntılar nəticəsində Urmiya gölünün cənub sahilində Həsənli, ona yaxın ərazidə isə Ziviyə yaşayış məskəni aşkar edilmişdir.



*Robert Dayson qızıl camla*

Həsənli və Ziviyə tapıntıları Mannada metalişləmə sənətinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Qədim Azərbaycan ərazilərində toxuculuq aparıcı sənət sahəsi olmuşdur. Həsənlidən tapılan müxtəlif parça qalıqları toxuculuqda qoyun yunundan istifadə olunduğunu təsdiq edir. Mannalı döyüşçülər öz toxucuları tərəfindən hazırlanmış uzun və dizə çatan libas da geyinmişlər.

? *Azərbaycan ərazisində toxuculuq və sənətkarlığın inkişafının səbəbi nə idi?*

Azərbaycanın müxtəlif bölgələrinə təşkil edilmiş arxeoloji ekspedisiyalar zamanı alban mədəniyyətinin incəliklərini özündə əks etdirən külli miqdarda maddi mədəniyyət nümunələri aşkarlanmışdır. Arxeoloji ekspedisiyalar arasında Mingəçevir, Şamaxı, Qəbələ və Qax ekspedisiyaları öz məhsuldarlığı ilə diqqəti cəlb etmişdir. Azərbaycan arxeoloqları tərəfindən Qarabağda daşdan yonulmuş 19 insan heykəli qeydə alınmışdır. Bu heykəltəraşlıq abidələri qədim zamanlarda Qarabağın dağlıq və düzənlik hissələrinin vahid etno-mədəni məkana daxil olduqlarını təsdiq edir.

Albaniyada yaşayış məskənləri, əsasən, çay kənarlarında, münbit torpaqlara malik, strateji cəhətdən əlverişli sahələrdə yerləşirdi. Bəzi məskənlər xüsusi qazılmış dərin xəndəklərlə də qorunur (Qəbələ, Qalagah, Şortəpə), daşdan hörülən müdafiə hasarları (Qırlar), yaxud torpaq səd və ya xəndəklə (Şortəpə) dövrələnirdi. Bu ərazilərdə kiçik otaqlarla yanaşı, Qədim Şərq memarlığına məxsus formalarda tikilmiş, böyük, sütunlu salonları olan saray tipli binalar da vardı.



*Həsənli camı*



*Həsənli*

LAYİHƏ

**Din.** Arxeoloji qazıntılar nəticəsində aşkar edilən maddi mədəniyyət nümunələri, ayrı-ayrı əşyalar və onların üzərindəki təsvirlər Manna əhalisinin dini görüşləri haqqında müəyyən məlumatlar verir. Həsənlidən tapılan qızıl camın üzərində qatır və öküzlər qoşulmuş arabalarda tanrılar – Günəş, Ay tanrıları və Tufan (Külək – Yağış) tanrısı təsvir olunmuşdur. Camın üzərindəki Tanrılar cəng arabalarında ətəyi uzun, qolu qısa olan saçaqlı geyimlərdədir, saçları bellərinə qədər uzanır. Baş geyimlərində isə qanadlara və buynuza bənzər çıxıntılar vardır. Kahinlər və xidmətçilər onlara qurbanlıq qoyunlar gətirirlər. Beləliklə, Həsənli qızıl camından aydın olur ki, Manna əhalisi, əsasən, səma cisimlərinə və təbiət hadisələrinə sitayiş etmişlər.




***Həsənli camının açıq forması***

*Təsvirlərdə hansı tanrıların olduğunu müəyyən edin.*

*Arxeoloji qazıntılar zamanı Həsənli və Ziviyədən tapılmış əşyalar üzərindəki təsvirlər nəyi göstərir?*

Zəngin təbii-coğrafi şəraitə malik olan Atropatena ərazisi tarixən insanın formalaşmasında dünyada ilkin məskənlərdən biri olmuşdur. Bu ərazi cəmiyyət tarixinin müxtəlif dövrlərini özündə əks etdirən abidələr diyarıdır. Atropatenalılar Zərdüştün yaratdığı zərdüştilik dininə sitayiş edirdilər. Bu dinin kahinləri *maq* adlanırdı.



***Zərdüştiliyin rəmzləri***

**Zərdüştilik dini haqqında.** Tarixi rəvayətə görə, zərdüştilik dini e.ə. VII əsrin ikinci yarısı – VI əsrin əvvəllərində yaşamış Zərdüştün adı ilə bağlı olmuşdur. Zərdüştilik dini insanları təkallahlığa çağırırdı. Bu dini Zərdüşt yaratmışdı, zərdüştiliyin müqəddəs kitabı "Avesta"dır. Zərdüştilik dininə İranda və Orta Asiyada sitayiş edilirdi. Bu dində oda pərəstiş olduğundan ona atəşpərəstlik də deyilir. Rəvayətə görə, "Avesta"nın ilkin variantı Makedoniyalı İsgəndər Persopolda Əhəmənilərin sarayını yandırarkən məhv olmuşdu. Bu müqəddəs kitabın dövrümüzə qədər gəlib çatmış hissələri İranda Sasanilər sülaləsi dövründə yenidən toplanmışdır. Fransız alimi Anketil Düperron Hindistanda yaşayarkən buradakı insanların bəzilərinin əllərində Avestanın nüsxələri olduğunu görür.

LAYİHƏ

O buradan kitabın bir neçə hissəsini alıb fransız dilinə çevirərək Avropada çap etdirmişdi. Zərdüştilik dinində od, su, torpaq müqəddəs sayılır. Bu dinə görə, Xeyir (Hörmüz) və Şər (Əhrimən) bir-biri ilə mübarizə aparır, lakin sonda Xeyir qalib gəlir. Hazırda zərdüştiliyə inananların sayı 100 mindən çoxdur. Hindistanda (parslar) və İranda (gəbrlər) bu dinə daha çox inanırlar. Zərdüştilik dininin mərkəzi müqəddəs şəhəri Cənubi Azərbaycanda yerləşən Atropatena dövlətinin paytaxtı Qazaka olmuşdur. Buradakı baş məbədi bizanslılar məhv etmişdir. Atropatenada zərdüştiliyin dini ayinlər əsasında yaranmış təlim-tərbiyə üsulu mövcud olmuşdur.

? *Sizcə, Atropatenada zərdüştiliyin geniş yayılmasının səbəbi nə idi?*

Bu dövrdə saray, atəşgah və ailə məktəbləri mövcud idi. Sasanilərin hakimiyyəti dövründə isə təhsil ocaqlarına ölkənin iqtisadi-ictimai inkişafı ilə əlaqədar olaraq ibtidai məktəblər və müəyyən peşə məktəbləri əlavə edilmiş oldu.

Atropatena ərazisindəki Kerifto məbədi ətrafda yaşayan əhalinin bayramlar keçirmək, dini ayinləri yerinə yetirmək və qurban vermək üçün toplaşdıqları yer idi. Arxeoloji qazıntılar nəticəsində tapılmış Keriftodakı yazının mətni burada Herakla sitayişin olduğunu sübut edir. Deməli, eramızdan əvvəl Atropatena əhalisi yunan, yəni ellin mədəniyyəti ilə tanış idi və əhali gündəlik həyatda yunan tanrılarına da sitayiş edirdi.

Qədim yunan alimi Strabonun məlumatına görə, albanlar Zevs – Göy, Helios – Günəş, Selena – Ay yunan tanrılarına sitayiş edirdilər. Antik müəllifin dediyinə görə, albanlar Selenaya üstünlük verirdilər.



***Kerifto məbədi***

? *Qədim Azərbaycanda ellin mədəniyyəti nə zamandan yayılmağa başlamışdır?*

1. *Ellin mədəniyyətinin Atropatenaya təsiri hansı abidədə özünü göstərir?*
2. *Atropatenalıların və albanların dini inancları arasında hansı fərqləri görürsünüz?*
3. *Qədim Azərbaycan ərazisində memarlığın inkişafına hansı amillər təsir göstərirdi?*
4. *Qədim dövr insanların həyat tərzindəki dəyişikliklərin mədəniyyətdə əks olunmasını mənbələr əsasında təqdim edin.*
5. *Qədim Azərbaycanda istifadə olunmuş yazı sistemləri haqqında məlumat toplayın.*

LAYİHƏ



# II. AZƏRBAYCAN III–XI ƏSRLƏRDƏ

*Yeni eranın ilk əsrlərində Avropa və bir çox Şərq ölkələrindən fərqli olaraq, Azərbaycanda quldarlıq münasibətləri dərin kök sala bilməmişdi. Təsərrüfat işlərində, xüsusilə əkinçilikdə qul əməyindən deyil, azad icmaçı kəndlilərin əməyindən daha çox istifadə olunurdu. Artıq III–IV əsrlərdən etibarən burada kəndli-feodal (mülkədar) münasibətləri bərqərar olmağa başladı. Bu dövrdə Albaniya müstəqilliyini saxlasa da, Atropatena dövlətçiliyini itirib Parfiyadan və Sasani dövlətlərindən asılı vəziyyətə düşdü.*

*Erkən Orta əsrlərdə – III–XI əsrlərdə Azərbaycan ərazisi, əvvəllər olduğu kimi, yenə də tez-tez yadelli hücumlara məruz qalırdı. Şimal tayfalarının basqınları ara vermirdi. Qərbdən isə Roma və onun siyasi varisi olan Bizans imperiyası, eləcə də onların himayə etdikləri digər işğalçılar Azərbaycana basqın edirdilər. III əsrdə tarix səhnəsinə çıxan Sasani imperiyası da Cənubi Qafqaz, o cümlədən Azərbaycan uğrunda mübarizəyə qoşuldu. Şimal tayfalarının qarşısını almaq məqsədi daşıyan məşhur Dərbənd səddi də Albaniya ərazisində Sasanilər tərəfindən inşa edilmişdir. Bu dövrdə Qafqazda yeni din – xristianlıq yayılmış, Albaniyada hətta dövlət dini səviyyəsinədək yüksəlmişdi. Ərəb yürüşlərindən sonra isə Azərbaycanda islam dini geniş vüsət aldı, ölkədəki dini pərakəndəliyə, qarşıdurmaya əsasən son qoyuldu.*

*IX əsrin birinci yarısında Babəkin başçılıq etdiyi Xürrəmilər hərəkatı Ərəb xilafətinin dayaqlarını sarsıtdı. Bundan sonra ölkəmizdə dövlətçilik ənənələri yenidən bərpa olundu, bir sıra müstəqil dövlətlər yarandı. Azərbaycan İntibah mədəniyyətinin əsası da məhz bu dövrdə qoyuldu.*

LAYİHƏ



8

# AZƏRBAYCAN SASANİLƏR DÖVRÜNDƏ

*III–VII əsrlərdə Azərbaycanın taleyi öz dövrünün ən güclü dövlətlərindən biri olan Sasani imperiyası ilə bağlı olmuşdur. Bu zaman Atropatena həmin dövlətin dini mərkəzi rolunu oynamışdır. Albaniya isə qismən özünüidarə hüququnu saxlamışdır.*

*Sasanilər, qavar, nəhəng, Bərdə, xristianlıq, zərdüştilik, Mani təlimi, Məzdək*

**Feodalizm quruluşu. Sasanilər dövləti.** Bir çox dövlətlərin orta əsrlər tarixi, ilk növbədə, feodalizm quruluşu ilə bağlıdır. Azərbaycan ərazisində feodal istehsal münasibətləri quldarlığın geniş yayıldığı ölkələrlə müqayisədə daha erkən, artıq III əsrdə yaranmağa başlamışdı. Həmin vaxtdan etibarən Azərbaycan ərazisində Erkən orta əsrlər dövrü başlanır. Feodalizmin ilkin vaxtlarında Azərbaycanda dövlət mülkiyyəti xüsusi feodal mülkiyyətindən üstün idi. Feodal münasibətləri inkişaf etdikcə torpaqlar tədricən feodal nəsillərinin əlinə keçirdi. Bu zaman Azərbaycan ərazisində əkinçilik, maldarlıq, sənətkarlıq inkişaf edir, yeni şəhərlər salınır, qədim şəhərlər isə daha da çiçəklənirdi.

? *Feodalizm quruluşunu quldarlıq quruluşundan əsas etibarilə nə fərqləndirirdi?*

226-cı ildə İranda hakimiyyətə gəlmiş Ərdəşir 651-ci ilə qədər varlığını qoruyan Sasanilər dövlətinin əsasını qoydu. Sasanilər dövlətinin mövcud olduğu müddətdə Azərbaycan ərazisi bu və digər dərəcədə həmin dövlətlə bağlı olmuşdur.

**Albaniyanın və Atropatenanın ərazisi.** Bu dövrdə Albaniya şimalda Qafqaz dağlarından cənubda Araz çayına, qərbdə İberiyadan şərqdə Xəzər dənizinə qədər olan bir ərazini əhatə edirdi. Albaniya inzibati-ərazi baxımından vilayətlərə – *qavarlara* və əyalətlərə – *nəhənglərə* bölünürdü. Albaniyanın Kürün sol sahilindəki ərazisi on bir qavardan ibarət idi. Onlardan daha əhəmiyyətliləri Qəbələ, Şəki və Kambisena hesab olunurdu. Sol sahil Albaniyasına Lpina və Çola da daxil edilmişdi.




*Azərbaycan IV–VII əsrlərdə*



LAYİHƏ

Albaniyanın Kürün sağ sahili hissəsi isə Arsax, Uti, Paytakaran və Sünik adlanan dörd iri nəhəngdən ibarət idi. Onların da hər biri qavarlara bölünürdü.

*Kürün sağ və sol sahillərinə aid əraziləri xəritədə müəyyənləşdirin.*

Qədim Atropatena torpaqları isə Sasani dövlətinin mövcud olduğu bütün dövrdə onun tərkibində olmuş və Adurbadaqan (hərfən "odun himayəsində olan ölkə") adlanmışdır. Erkən Sasani dövründə Adurbadaqanın sərhədləri, çox güman ki, Parfiya dövlətinin tərkibindəki Atropatenanın sərhədlərinə uyğun gəlmişdir. Sasanilər dövlətində Adurbadaqan əvvəllər dövlətin şəhrlərindən[1] biri idi.



***Nəqşi-Rüstəm kitabəsi***

I Şapurun (241–272) hakimiyyəti dövrünə aid olan, Nəqşi-Rüstəmdə aşkar edilmiş kitabədə Sasanilər dövlətinin şəhrləri arasında Adurbadaqanın, Albaniyanın da adları çəkilir. Bu zaman Adurbadaqan (Cənubi Azərbaycan) da imperiyanın başqa yerləri kimi idarə olunurdu. Sasanilərin dövründə vilayətləri, əsasən, Sasani sarayından təyin olunan məmurlar idarə edirdi.

*Atropatena Parfiyanın tərkibində hansı şəkildə mövcud olmuşdur?*

Sasani şahı I Xosrov Ənuşirəvanın (531–579) VI əsrin ortalarında keçirdiyi inzibati islahatlar nəticəsində dörd iri canişinlik – *kust* (tərəf, cəhət) yaradıldı. Bu zaman həm Albaniya, həm də Cənubi Azərbaycan "Azərbaycan kustu"nun, yəni Şimal canişinliyinin tərkibində idi.



***I Xosrov Ənuşirəvanın metal pulu***

**Albaniya Sasanilər dövründə.** Eramızın I əsrindən etibarən Albaniyada Parfiya Arşakilərinin bir qolu olan alban Arşakiləri hakimiyyətdə idilər. VII əsrin alban tarixçisi Moisey Kalankatlı bu sülalədən olan on hökmdarın adını çəkir. Albaniyanın ilk arşaki hökmdarı I Qoçaq Vaçaqan ölkənin bütün vilayətlərini birləşdirdi və mərkəzləşmiş dövlət yaratdı. III–V əsrlərdə Albaniya artıq mərkəzləşmiş feodal dövlət idi. Bu dövlətdə hökmdar ölkənin qanunvericisi, baş hakimi, hərbi qüvvələrin baş komandanı hesab edilirdi.

*Mərkəzləşdirilmiş feodal dövləti dedikdə nə başa düşülür?*

IV əsrin son rübündə bütün Cənubi Qafqaz Bizans və Sasanilər dövlətləri arasında nüfuz dairələrinə bölündü. Bu zaman Albaniya Sasanilər dövlətinin təsiri altında idi. Alban hökmdarı Urnayr (313–371) İran şahı II Şapurun müttəfiqi kimi Sasani–Roma müharibələrində iştirak etmiş, 359-cu ildə Amid və 371-ci ildəki Dzirav döyüşlərində Sasanilərin tərəfində döyüşmüşdü.

*Amid və Dzirav döyüşləri barədə daha nə bilirsiniz?*

[1] *Şəhr* – ölkə və ya vilayət deməkdir.



LAYİHƏ

Alban tarixçisinə görə, o, “böyük müharibələrdə sələflərinin şanlı adına varis çıxaraq Ermənistanın içərilərində qələbə bayrağı sancan rəşadətli ər” idi.[2]

444-cü ildə hakimiyyətə gəlmiş II Vaçe Bərdə (Partav) şəhərini saldırdı, paytaxtı Qəbələdən ora köçürdü. II Vaçenin hakimiyyəti İrana qarşı mübarizə ilə əlamətdar idi. O özü 457–463-cü illərdəki azadlıq hərəkatına başçılıq etdi. Bu hərəkatı yatıran Sasanilər Albaniyanı, təxminən, 30 il ərzində hökmdara malik olmaq hüququndan məhrum etdilər. Həmin dövrdə ölkə Sasani canişini – mərzban tərəfindən idarə olunurdu.

487-ci ildə alban taxtına alban Arşaki sülaləsinin son nümayəndəsi III Mömin Vaçaqan çıxdı. Onun hakimiyyət dövrü Albaniyanın siyasi və mədəni-dini dirçəlişi kimi səciyyələndirilə bilər. O, əvvəlcə ölkədə dini birliyə nail olmağa çalışdı və 488-ci ildə Aquendə[3] (indiki Ağdam rayonunun ərazisi) kilsə məclisi çağırdı. Həmin kilsə məclisində mühüm qərarlar qəbul edildi. Aquen məclisinin qərarları Erkən Orta əsrlər Albaniyası haqqında dövrümüzə gəlib çatmış yeganə tarixi-hüquqi sənəddir. Onun əsasında müxtəlif ictimai təbəqələrin sosial və hüquqi münasibətləri haqqında təsəvvür əldə etmək mümkündür. III Vaçaqan Aquen məclisini Albaniyanın müstəqilliyinin möhkəmləndirilməsi üçün müstəqil alban kilsəsinin dayaqlarını gücləndirmək məqsədilə çağırmışdı. Aquen qanunları xristianlığın feodal əsaslarını nizamlamış, bununla da, Albaniyada feodal münasibətlərinin daha da inkişaf etməsinə yardım göstərmişdi.

III Vaçaqandan sonra 510-cu ildən etibarən Albaniya yenə Sasani mərzbanları tərəfindən idarə olunurdu. Alban Arşakiləri dövründə Albaniyanın siyasi quruluşunu mərkəzləşdirilmiş feodal dövləti kimi xarakterizə etmək olar.

M

*“Aqvan (Alban – red.) hökmdarı Vaçaqanın vaxtında dindarlar və yepiskoplar, ruhanilər və köməkçilər, azatlar və ramiklər (qara camaat) arasına narazılıq düşmüşdü. Belə olduqda hökmdar [kilsə] yığıncağı: böyük bir divanxana çağırmaq arzusuna düşdü”.*

***Moisey Kalankatlının “Alban tarixi” əsərindən***

?

*III Mömin Vaçaqan Alban dövlətçiliyinin mənafeyi baxımından xristianlıqdan necə istifadə edirdi?*

**Dini baxışlar.** Hələ eramızın ilk əsrlərində Albaniyada ilk xristian icmaları yaranmışdı. Xristianlığı Qüdsdən, Suriyadan gələnlər yayırdı. Həvari (apostol)[4] dövrü kimi tanınan bu dövr IV əsrə qədər davam etmişdir. İkinci (yunanpərəst) mərhələ 313-cü ildə Urnayrın xristianlığı dövlət dini elan etməsi ilə başlayır. Urnayr monoteist (təktanrılı) din olan xristianlığın köməyi ilə alban dövlətini daha da gücləndirməyə və zərdüştiliyin yayılmasının qarşısını almağa çalışırdı. Onun varisləri də həmin siyasəti davam etdirməklə məşğul idilər. Bununla belə, Albaniya ərazisində xristianlıqla yanaşı, zərdüştiliyin, bütpərəstliyin və başqa dinlərin də ardıcılları var idi.



***İsa peyğəmbər 12 həvarisi (apostol) ilə***

[2] Azərbaycan tarixi. 7 cilddə, II cild, səh. 54.

[3] *Aquen şəhəri* – Orta əsrlərdə Bərdədən Dəbilə (Divinə) gedən ticarət yolunda, indiki Ağdam rayonunun Boyəhmədli kəndi yaxınlığındakı Govurqala yaşayış yerinin ərazisində yerləşmişdir.

[4] *Apostol* – yunanca elçi, səfir deməkdir.

LAYİHƏ

Ümumiyyətlə, islam dininin meydana gəlməsinə qədər mövcud olmuş dinlər arasında məhz xristianlıq bir çox mənəvi, əxlaqi və s. yanaşmalar baxımından islama daha yaxın din hesab olunur. Təsadüfi deyildir ki, islam dini yəhudiləri, xristianları "əhli-kitab" (yəni Allah tərəfindən göndərilmiş müqəddəs kitablara inananlar) sayır və başqa dinlərin nümayəndələri ilə müqayisədə onlara daha çox hörmət etməyi məsləhət görür. Azərbaycan ərazisində xristian dini müəyyən qədər yayılmış, hətta Albaniya xristianlığın dövlət dini səviyyəsində qəbul olunduğu ilk dövlətlərdən biri olmuşdur.



***Şəki rayonu, Kiş kəndindəki məbəd***

*Xristianlıqla islamın oxşar və fərqli cəhətlərini müəyyən edin.*

Atropatena ərazisində isə o dövrdə aparıcı din zərdüştilik idi. Atəşpərəstlər üçün müqəddəs və ən şərəfli od məbədi sayılan Adurquşnasp Azərbaycan ərazisində, indiki Təxti-Süleymanın yerində yerləşirdi. Sasani şahları, ənənəyə görə, həmin məbədə ziyarətə getməli və orada ibadət etməli idilər. Bu məbəd dövlət və dinin birliyinin rəmzi idi.

?

*Atropatena ərazisi Sasani dövlətində hansı nöqteyi-nəzərdən mərkəz rolu oynayırdı?*

III əsrdə Sasani dövlətində Mani adlı şəxsin əsasını qoyduğu təlim və hərəkat geniş yayılmışdı. Bütün dinləri vahid bir dinlə əvəz etmək istəyən Mani öz təlimində bəzi dinlərin elementlərini birləşdirməyə çalışmışdı. Mani təlimi bir çox dini cərəyanlara, həmçinin V–VI əsrlərdə yayılmış məzdəkilər hərəkatına güclü təsir etmişdi.

V əsrin sonlarında Məzdək tərəfindən əsası qoyulmuş hərəkat hər hansı şəxsi mülkiyyətin inkarına və bərabərliyin təbliğinə yönəlmişdi. Məzdəkilər, maniçilərdən fərqli olaraq, xeyirin şər üzərində qələbəsinə inanırdılar.

?

*1. Sizcə, quldarlıqla müqayisədə feodalizm quruluşunun mütərəqqiliyi nədədir?*
*2. Atropatenanın Sasani dövləti üçün əhəmiyyəti barədə nə deyə bilərsiniz?*
*3. Aquen kilsə məclisinin qərarları Alban dövlətçiliyi üçün hansı əhəmiyyətə malik idi?*
*4. Xristianlıq hansı cəhətlərinə görə İslama nisbətən yaxın din hesab olunur?*
*5. Azərbaycan ərazisində İslam dininə qədər hansı dinlər və dini təlimlər yayılmışdı?*
*6. Xəritə əsasında Albaniyanın ayrı-ayrı qavar və nəhənglərindən ibarət cədvəl tərtib edin.*

LAYİHƏ



9

## GİRDİMAN DÖVLƏTİ. CAVANŞİR

*Azərbaycan tarixinin VII əsrdəki parlaq siması olan Cavanşir heyrətamiz diplomatik məharət sahibi kimi tanınırdı. O dövrdə mövcud olmuş əsas sivilizasiyaların toqquşması məhz onun yaşadığı yerdə – Qafqazda baş vermiş, Cavanşir öz dövlətini bu toqquşmalardan xilas etməyi bacarmışdı.*

*Mihranilər, Girdiman, Varaz Qriqor, Cavanşir, işxan*

**Mihranilərin hakimiyyətə gəlməsi.** Feodal Mihranilər nəsli Albaniyada VI əsrin sonu – VII əsrin əvvəllərində siyasi üstünlüyə nail oldu. Moisey Kalankatlıya görə, Mihranilər nəslinin başçısı Mihr siyasi təqibdən yaxa qurtarmaq üçün İrandan Albaniyanın Girdiman vilayətinə gəlmişdi. Mihr və onun davamçıları tədricən bütün Albaniyanı özlərinə tabe edə bildilər. Bu sülalə Albaniyanın müstəqilliyi siyasətini yürüdürdü. Mihranilər artıq 630-cu ildən etibarən Albaniyanın böyük knyazları kimi fəaliyyət göstərirdilər.



***Sasani–Bizans müharibəsi***

**Albaniya Sasani–Bizans və Sasani-ərəb müharibələri dövründə.** 624–628-ci illərdə Albaniya Sasani–Bizans müharibələrinin döyüş meydanına çevrildi. Bu dövrdə Albaniya hələ də Sasani mərzbanları tərəfindən idarə edilirdi. Girdiman hakimi Varaz Qriqor özünü Bizans imperatoru İraklinin vassalı elan etmişdi. 629-cu ildə Bizansla bağlanmış sülhə görə Albaniya Sasani təsir dairsində qalsa da, əslində, 629–630-cu illərdə xəzərlər Albaniyanı işğal etdilər. Lakin az sonra Xəzər xaqanlığındakı daxili qarşıdurma xəzərlərin Albaniyadakı ağalığına son qoydu. Bu zaman ölkəmizin müstəqilləşməsinə Bizansla Sasanilərin öz aralarında müharibə apararaq zəifləmələri də kömək etmişdi. Beləliklə, alban taxt-tacı Varaz Qriqorun (630–642) əlinə keçdi.

*629-cu il sülhünə görə Sasanilərin təsiri altında qalsa da, Albaniyada həmin ildən etibarən Sasani mərzbanlarının hakimiyyətinə nə üçün son qoyuldu?*

LAYİHƏ



*Kadisiyyə döyüşü*

Ərəblərin Sasanilər üzərinə ilk hücumları zamanı Varaz Qriqor öz oğlu Cavanşiri Sasanilərin köməyinə göndərdi. 636-cı ildəki **Kadisiyyə döyüşündə** göstərdiyi qəhrəmanlığa görə Cavanşir Sasani şahı III Yəzdigərd tərəfindən mükafatlandırıldı. 637-ci ildə alban sərkərdəsi altı ay ərzində Sasanilərin ərəblər tərəfindən mühasirəyə alınmış paytaxtı Ktesifonun müdafiəsində iştirak etdi. Sasani dövlətinin müqəddəratının həll olunduğunu başa düşən Cavanşir vətəninə qayıtdı.

? *Cavanşir ərəblərə qarşı niyə sona qədər vuruşmadan Albaniyaya qayıtdı?*

O hələ Varaz Qriqorun sağlığında Albaniyanın ilk böyük *işxanı*[1] oldu. Moisey Kalankatlıya görə, "İran müharibələrindən qələbə ilə qayıdan Cavanşir hökmdarın sərəncamı ilə Albaniyanın bütün işlərinə rəhbərlik edirdi..." O, ölkəyə hücum edən Sasani feodallarına qarşı uğurla mübarizə aparırdı.



*Cavanşir*

**Albaniya Cavanşirin hakimiyyəti dövründə.** 642-ci ildən etibarən Cavanşir Girdiman knyazlığına, yaxud Alban dövlətinə başçılıq etməyə başladı.

Ərəblər Sasani dövlətini məhv etdikdən sonra Cavanşir Bizansla münasibətlərini yaxşılaşdırdı. Moisey Kalankatlının verdiyi xəbərə görə, o, 654-cü ildə Bizans imperatoru II Konstantinlə görüşdü və ondan padşahlıq xələti və "İsanın həyatverici xaçının bir parçası"nı aldı.

M *"Sənə, Girdimanın hakimi və Aqvanın knyazı... hökmdar Cavanşirə, xilaskar xaçın xeyirxahlığı və iltifatı olsun və bizim Avqust hökmdar adımızdan sənə sevgili barışıq salamı göndəririk. ...biz və bizdən sonra gələn uşaqlarımız səninlə və sənin nəsli varislərinə səmimi, pozulmaz sevgi ilə nəsildən-nəslə yüzillər boyu mərhəmətdə bulunacağıq".*

***Bizans imperatoru Konstantinin Cavanşirə məktubu.***
***Moisey Kalankatlının "Albaniya tarixi" əsərindən***

? *Konstantinin Cavanşirə müsbət münasibətini nə ilə izah edə bilərsiniz?*

662-ci ildə Cavanşir Albaniyaya basqın edərək Kür çayını keçmiş xəzərləri məğlub etdi. Moisey Kalankatlının verdiyi xəbərə görə, bu zaman o, xəzərlərin başçısına demişdi: "Get, Çolanın (yəni Dərbəndin) qapılarından geri qayıt və bir də buraya gəlmə!" Buna baxmayaraq, xəzərlərin 664-cü ildəki yürüşündən sonra Cavanşir vassallığı qəbul

[1] *İşxan* – Erkən Orta əsrlərdə Albaniyada hakim idi.



LAYİHƏ

edərək onlarla sülh bağladı. O, xəzərlərlə əlaqələrini möhkəmləndirmək üçün xaqanın qızı ilə ailə qurdu.

Cavanşir xilafətlə münasibətlərində də kifayət qədər çevik siyasət yürüdürdü. Əməvilər sülaləsinin hakimiyyətə gəlməsindən sonra o, Bizansdan nisbətən uzaqlaşaraq Xilafətlə münasibətlərini nizama salmağa çalışırdı. 667 və 670-ci illərdə Cavanşir iki dəfə Xilafətin paytaxtı Dəməşqə gedərək xəlifə Müaviyə ilə görüşdü. Albaniya bu zaman rəsmən Xilafətə tabe olan dövlət elan edilsə də, Cavanşir ölkənin daxili müstəqilliyini qoruyub saxlaya bildi. Eyni zamanda o, Xilafət hakimiyyətini qəbul edərkən Albaniyanın öz xəzinə gəlirlərinin ⅔ hissəsini ərəblərə verməsi məsələsində dəyişikliyə nail oldu və həmin vergini ⅓ miqdarına qədər azalda bildi.



*Cavanşiri təsvir edən tunc buxurdan[2] (Sankt-Peterburqdakı Ermitaj muzeyi)*

**Beləliklə, qonşuları, həmin dövrün güclü dövlətləri olan Sasani və Bizans imperiyaları, Xəzər xaqanlığı və Ərəb xilafəti ilə münasibətlərdə Cavanşir müdrik və tarazlaşdırılmış siyasət yürütməklə öz dövlətinin əmin-amanlığını uğurla qoruya bildi. Daha kiçik dövlətin başçısı olan Cavanşir həmin dövlətlərin bilavasitə başçıları ilə görüşmüş, onlarla sıx əlaqələr qurmağı bacarmışdı.** Lakin bizanspərəst yerli hakimlərin bir qismi 681-ci ildə sui-qəsd nəticəsində onu öldürdü.

? *Cavanşirin xarici siyasətindəki dəyişikliyi nə ilə izah etmək olar?*

Alban taxtına Cavanşirin qardaşı oğlu Varaz Tiridat çıxdı. Ərəb xəlifəsi onu Alban padşahlığının hökmdarı elan etdi. Varaz Tiridatın 705-ci ildə ərəblər tərəfindən aradan götürülməsindən sonra Albaniya vassallıq mövqeyindən də məhrum oldu və beləliklə, alban dövlətçiliyinə son qoyuldu.



*Cavanşir qalasının təsviri (İsmayıllı rayonu)*

1. *Girdiman knyazlığı nə üçün həmçinin Alban dövləti kimi qiymətləndirilir?*
2. *Cavanşir hansı dövlətlərlə əvvəl düşmən, sonra isə dost münasibətlərdə olmuşdur?*
3. *Sizcə, Cavanşirin məhz bizanspərəst yerli hakimlər tərəfindən öldürülməsinin səbəbi nə ola bilərdi?*
4. *Alban dövləti müəyyən fasilələrlə, təxminən, neçə əsr mövcud olmuşdur?*
5. *Sizcə, ərəb xəlifəsi Müaviyə Cavanşirin vaxtilə ərəblərə qarşı vuruşmasına baxmayaraq, onu nə üçün yüksək səviyyədə qəbul etmişdi?*
6. *Cavanşirin xarici siyasətini müasir Azərbaycanın xarici siyasəti ilə müqayisə edin. Oxşar və fərqli cəhətləri müəyyənləşdirin.*

[2] *Buxurdan* – tüstüsü xoş ətirli bitkilərin yandırıldığı qab



Layihə



10

# AZƏRBAYCANIN ƏRƏB XİLAFƏTİNİN TƏRKİBİNƏ DAXİL OLMASI

*Azərbaycan islam dininin ərəblərdən sonra qəbul edildiyi ilk ölkələrdən biri kimi tarixə düşmüşdür. Azərbaycan xalqı islam sivilizasiyasının tərkib hissəsinə çevrilərək onun nailiyyətlərindən bəhrələndi və ona öz töhfələrini verdi.*

*Ərəb xilafəti, İsfəndiyar ibn Fərruxzad, cizyə, "Qapılar qapısı"*

**Cənubi Azərbaycanın ərəblərin tabeçiliyinə keçməsi.** Xəlifə Əbu Bəkrin hakimiyyəti dövründə, 633-cü ildə ərəb qoşunları İraq və Şam ərazilərinə daxil oldu. Ərəblərin məqsədi yeni ölkələri özlərinə tabe etməklə yanaşı, həm də islam dinini yaymaq idi. Beləliklə, bir çox xalqların, o cümlədən azərbaycanlıların həyatında köklü dəyişikliklərin əsası qoyuldu.

642-ci ildə Nəhavənd və Həmədanı ələ keçirən ərəblər üçün Sasani dövlətinin Xəzərsahili vilayətlərinə, o cümlədən Azərbaycana hücum etmək imkanı yarandı.

?

*Ərəblər Azərbaycanı tabe etməmişdən əvvəl hansı dövləti tarixin səhnəsindən silməli oldular?*

Vac-ruz adlı yerdə (Həmədanla Qəzvin arasındakı vadi) ərəblərin qalib gəldiyi bir vuruşmada azərbaycanlı döyüşçülərə Azərbaycan mərzbanı İsfəndiyar ibn Fərruxzad başçılıq edirdi. 643-cü ildə isə ərəb qoşunları Azərbaycana daxil oldular. Ərdəbil yaxınlığında Cərmidan dağı yanındakı döyüşdə ərəblər qalib gəldilər. Onların daha bir qələbəsindən sonra İsfəndiyar sülh müqaviləsi bağlamalı oldu. Bu müqaviləyə görə, Azərbaycan əhalisi "imkanları daxilində" can vergisi – *cizyə* ödəməli idi.

M

*"Qadınlar və uşaqlar, həmçinin yaşamaq üçün vəsaiti olmayan ağır xəstələr, dünya malından heç nəyi olmayan zahidlər bu vergidən azad olunur..."*

***Ət-Təbərinin "Tarix ər-rusul və-l-müluk" əsərindən***

Ərəblər Azərbaycanın bütün əhalisinə, onun düzlərində, dağlarında, ucqar və sərhəd yerlərində yaşayanlara, onların əmlakına, dini icmalarına, qanun və qaydalarına aman verməyi öhdələrinə götürürdülər.

644–645-ci illərdə azərbaycanlılar ərəblərə qarşı üsyan qaldırdılar. Xəlifə Osmanın göndərdiyi qoşun Azərbaycanın cənub hissəsini tabe etdi və köhnə müqavilə bərpa olundu.



***Dərbənd qalası***

LAYİHƏ




*Azərbaycan Ərəb xilafəti dövründə (VII əsrin birinci yarısı – IX əsrin ikinci yarısı)*

**Ərəblərin Şimali Azərbaycanı tabe etmələri.** Cərmidan döyüşü ərəblərin şimala – Albaniyaya, Qafqaza yolunu açdı. Ərəblər Bab ül-Əbvab ("Qapılar qapısı") adlandırdıqları, mühüm strateji əhəmiyyətə malik Dərbəndin üzərinə elə həmin il hücuma keçdilər. Dərbənd hakimi və Sasanilərin şimal sərhədlərinin mərzbanı olan Şəhriyar mənasız qırğına yol vermədən ərəblərlə danışıqlara girdi. O, keçidin müdafiəsində duran yerli sakinlərin Xilafət ordusunda xidmət etdiklərinə görə cizyə vergisindən azad edilmələri şərtilə ərəblərə tabe oldu.

LAYİHƏ

Muğan əhalisi 644-cü ildə bağlanmış müqaviləyə görə, ərəblərin hakimiyyətini qəbul etdi. Ət-Təbəri yazır ki, müqavilənin şərtlərinə görə, "gərək hər həddi-büluğa çatan bir dinar və ya onun dəyərində cizyə ödəməli, müsəlmana qarşı səmimi olmalı, [azanda] ona yolunu göstərməli, bir gün bir gecə evində saxlamalı idi. Lakin onlar üz döndərib əhdi pozsalar, axırıncı fitnəkaradək hamını təslim etməsələr, onlara aman olmayacaqdı".

?

*Cizyə vergisi kimlərdən alınırdı?*

Lakin ərəblərin Azərbaycana 643–644-cü illərdəki ilk yürüşü onların xəzərlərə məğlub olmaları ilə başa çatdı. Bu yürüş nəticəsində ərəblər tarixi Azərbaycan ərazisinin cənubunu və Xəzərin qərb sahillərinin yalnız Dərbəndə qədər olan hissəsini tuta bildilər. 644-cü ildən etibarən Tiflis də Xilafətin tərkibinə daxil oldu və müsəlmanların tabeliyinə keçdi.

M

*"Xəlifə: Sən Allah, Azərbaycan haqqında əlaqəniz, təlaşınız və xatirəniz nədir?*
*Müşaviri: Ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri ilə qarışmış və təkmilləşmişlər".*

***İbn Hişam, VIII–IX əsrlərin ərəbdilli tarixçisi,***
***Xəlifə I Müaviyə ilə onun müşaviri əl-Cürhuminin söhbətindən***

?

*Sizcə, nə üçün müşavir Azərbaycanın türk torpağı olmasını xüsusi vurğulayırdı?*

Ərəblər Dərbəndə qədər olan torpaqları tutduqdan sonra 653-cü ildə Bələncər yaxınlığında xəzərlərə məğlub oldular. On ildən artıq müqavimət göstərməsinə baxmayaraq, Azərbaycanın şimal hissəsi də Ərəb xilafətindən asılı vəziyyətə düşdü. Bütün Azərbaycanı özlərinə tabe etmiş ərəblər ilk illər yalnız vergilərin alınması ilə kifayətlənir, ölkənin daxili həyatına elə də çox müdaxilə etmirdilər.



***Azərbaycan döyüşçüsü***

Beləliklə, ilk ərəb hücumlarından sonra Azərbaycanın cənubu – Adurbadaqan bilavasitə Xilafətin tərkibinə daxil oldu. Daha sonra ölkənin şimalı – Albaniya isə öz daxili müstəqilliyini qoruyub saxlasa da, Xilafətdən asılı vəziyyətə düşdü.

**Ərəblərin uğurlarının səbəbləri.** İstər yeni torpaqları tutmaqda, istərsə də ərəblərə yeni dini yaymaqda silahdan daha çox islam ehkamları xidmət etmişdir. İslamın yayıldığı ilk dövrlərdə müsəlmanlar zəbt etdikləri torpaqların sakinlərinə kifayət qədər xoş münasibət bəsləyirdilər. Bu xüsusiyyətlər onları, demək olar ki, tarixin bütün işğalçılarından xeyli fərqləndirirdi.

Buna görə də ərəblərin ilk yürüşləri zamanı islam ehkamlarına sadiqlikləri müxtəlif ölkələrlə yanaşı, Azərbaycanın əhalisinin də onlara nisbətən az müqavimət göstərmələrinin səbəbi kimi qiymətləndirilməlidir.

?

*1. Sizcə, orta əsrlərdə yaşamış bir sıra müəllifləri nəyə görə ərəb yox, ərəbdilli adlandırmaq daha doğrudur?*
*2. Ərəb xilafətinin xristianlara olan münasibətini müasir tolerantlıq siyasəti ilə müqayisə edin.*
*3. Müsəlmanların islamın yayılmasının ilk dövrlərindəki uğurlarının səbəblərini izah edin.*

LAYİHƏ



# XİLAFƏTİN AZƏRBAYCANDAKI SİYASƏTİ

*Sasani imperiyasının bütün səylərinə baxmayaraq, zərdüştilik Şimali Azərbaycanda hakim dinə çevrilmədi. Azərbaycanın cənub və şimal torpaqları ilk dəfə vahid bir dinin – islam dininin təsiri altında birləşmişdir.*

*Arran, amil, əmir, qazı, əmirlik, mahal, məntəqə*

**Ərəb-xəzər müharibələri.** VIII əsrin əvvəlləri Ərəb xilafətinin ən qüdrətli dövrü idi. Bu zaman ərəblərin Azərbaycanda möhkəmlənməsinə xəzərlər ciddi maneçilik törədirdi. Ərəblərlə xəzərlərin mübarizəsi Azərbaycan torpaqlarında da gedirdi. Bu zaman müvəffəqiyyət onlardan gah birinin, gah da digərinin tərəfində olurdu. Məsələn, 722-ci ildə ərəblər xəzər şəhəri Bələncəri tutmuş, 731-ci ildə isə xəzərlər yürüş edərək Cənubi Azərbaycandakı Savalan dağı yaxınlığında qələbə çalmışdılar. Xəzərlərin Azərbaycan ərazisinə bir əsrdən çox arası kəsilməyən yürüşlərinə yalnız VIII əsrin axırlarında son qoyuldu.

M

*"Deyirlər ki, xəzərlərin böyük [xaqanı] onun ölkəsinə Mərvanla (birlikdə) girən adamların sayı, onların silahları və hərbi qüvvələri haqqında xəbər alanda onun ürəyi qopdu və dəhşətə gəldi. Buna görə də Mərvan onun yaxınlığında olanda və ona elçi göndərib ya islamı, ya da müharibəni seçməyi təklif edəndə, o, cavab verdi: "Mən islamı qəbul edirəm, məni ona (islama) yönəldə bilən adam göndər". [Mərvan] elə də etdi və [xaqan] islamı qəbul etdi və Mərvanla dostlaşdı, o [isə] onu öz vilayətində hakimlikdə saxladı".*

***Ərəbdilli müəllif Əl-Bəlazurinin "Ölkənin fəthi kitabı"ndan***

*Mənbəyə əsasən ərəblərin nə üçün Xəzər xaqanlığının varlığına son qoymadığını müəyyənləşdirin.*



***Xilafət ordusunun piyada və süvari döyüşçüləri (VIII əsrin ortaları)***



***Xəzər döyüşçüləri***

LAYİHƏ

*Ərəb xilafətinin və Xəzər xaqanlığının qarşıdurmasının Azərbaycan tarixindəki rolu barədə fikir yürüdün.*

**Azərbaycanın xilafət dövründəki ərazisi.** Ərəblərin Qafqaza hücumları nəticəsində oradakı ölkələrin tarixi-coğrafi ərazi bütövlüyü saxlansa da, inzibati adları dəyişdirildi. İlk vaxtlar Adurbadaqan, Albaniya və qonşu torpaqlar yeni yaranmış Ərəb xilafətinin beş vilayətindən birini təşkil edirdi. Ərəblər VIII əsrin əvvəllərində Qafqazda öz hakimiyyətlərini bərqərar etdikdə bir dövlət kimi sıradan çıxan Albaniya Arran adlı vilayətə çevrildi. Sasanilərin hakimiyyətinin sonlarında Albaniya və Atropatena ilə birlikdə dövlətin bütün Şimal kustunu əhatə edən Azərbaycan (Adurbadaqan) adı ərəblərin hakimiyyəti zamanı şimalda Dərbənddən, cənubda Zəncana qədər olan tarixi Azərbaycan ərazisinə aid edilməyə başladı. X əsrin müəllifi İbn Havqəl öz xəritəsində Dərbənddən Gilanadək olan ərazini Azərbaycan adlandırmışdı. Başqa bir xəritədə o, Cənubi Azərbaycanı – Adurbadaqanı Arrandan – Albaniyadan Araz çayı ilə ayırır.

Ərəblərin gəlişinə qədər Cənubi Azərbaycanın mərkəzi Ərdəbil, ərəb–xəzər müharibələrinin başlanmasından sonra Marağa oldu. Arranın baş şəhəri isə Qafqazdakı ərəb canişinliyinin yeni iqamətgahı olan Bərdə idi.

*VII əsrdəki Azərbaycan torpaqları ilə müasir Azərbaycan Respublikasının ərazisini müqayisə edin.*

**Xilafətin idarəetmə sistemi.** Ərəblərdə *amil* titulu, əsasən, vergi yığılmasına nəzarət edən qulluqçulara verilirdi. Lakin ərəb işğallarının ilk dövründə tabe edilmiş torpaqlarda vergi yığılmasına xüsusi önəm verildiyindən mülki və hərbi hakimiyyət çox vaxt eyni adamın əlində cəmləşirdi. Bu zaman amil (vergilərə nəzarət edən) və *əmir* (hərbi başçı) titulları bir növ *vali* (canişin) titulunu əvəz edirdi. Sonrakı illərdə isə əmir, amil, həmçinin *qazı* (hakim) vəzifələri ayrı-ayrı adamlara həvalə olunurdu.



***Ərəb xilafətinin 707–708-ci ildə Arranda zərb edilmiş gümüş dirhəmi***

Ərəblər işğal etdikləri bir çox yerlərdə, o cümlədən Azərbaycanda keçmiş yerli hakimlərə, din xadimlərinə kifayət qədər dözümlü münasibət göstərirdilər.

M

*“Keçmiş Sasani mərzbanı ərəblərə tabe olduqdan sonra da özünün Ərdəbildə yerləşən keçmiş iqamətgahını saxlayır, yığılan vergiləri isə Xilafət xəzinəsinə göndərirdi”.*

***Ərəbdilli müəllif Əl-Bəlazurinin “Ölkənin fəthi kitabı”ndan***

*Ərəblərin özlərindən əvvəlki dövlət və din xadimlərinə dözümlü münasibətinin səbəbləri haqqında fikir yürüdün.*

Ərəblər ələ keçirdikləri iri şəhərlərdə, sərhəd zonalarında əsgəri hissələrin, qarnizonların yerləşdirilməsinə də xüsusi diqqət yetirirdilər. Məsələn, Dərbənddə onlar xəzərlərin qarşısını almaq üçün güclü qarnizon yerləşdirmişdilər. Sonralar Kasak (Qazax) kimi şəhərə çevrilmiş hərbi düşərgələr də yaradılırdı.

LAYİHƏ

Xilafətin şimal sərhədlərinin möhkəmləndirilməsi ərəblərin fəal köçürmə siyasəti ilə yanaşı baş verirdi. Ərəblərin Azərbaycandakı köçürmə siyasəti IX əsrin birinci rübünə qədər davam etdi. Onların bu siyasətinin izləri müasir Azərbaycanda, əsasən bəzi yer adlarında özünü büruzə verir.

**AZƏRBAYCANIN XİLAFƏT DÖVRÜNDƏKİ İNZİBATİ BÖLGÜSÜ**

**Əmirlik** → **Mahal** → **Məntəqə** → **Kənd**

Hər bir əmirlik **12 mahala**, hər mahal **12 məntəqəyə** və hər məntəqə də **12 kəndə** bölünürdü.

? *Ərəblərin köçürmə siyasəti, ilk növbədə, hansı məqsədi güdürdü?*

**Azərbaycanda din.** Ərəblər istər Ərəbistanda, istərsə də başqa torpaqlarda, o cümlədən Azərbaycanda, əsasən, bütpərəstləri zorla müsəlmanlaşdırmağa çalışır, "Əhli-Kitab" hesab etdiklərinə və atəşpərəstlərə öz etiqadlarını saxlamalarına can vergisi – *cizyə* ödəmək şərtilə icazə verirdilər.

? *Ərəblər niyə məhz bütpərəstləri müsəlmanlaşdırmağa çalışırdılar?*

Tədqiqatçılar belə hesab edirlər ki, yeni din olan islam Sasani dövlətinin qeyri-iranlı əhalisi, o cümlədən azərbaycanlılar arasında daha tez yayılmışdır. Əl-Bəlazuri göstərir ki, Cənubi Azərbaycan əhalisi artıq xəlifə Əlinin dövründə (656–661) islamı qəbul edərək "Qurani-Kərim" oxuyurdu.



***"Qurani-Kərim"***

?

*1. Ərəblərdən əvvəl Azərbaycan torpaqları hansı dövlətlərin tərkibində idi?*
*2. Xilafətin idarəetmə sistemi ilə bağlı cədvəl tərtib edin.*
*3. Müasir Azərbaycanda ərəb mənşəli yer adlarına nümunələr göstərməyə çalışın.*
*4. İslamın azərbaycanlılar arasında kifayət qədər tez yayılmasını izah etməyə çalışın.*

LAYİHƏ



12

## AZADLIQ HƏRƏKATI. BABƏK

*Mərkəzi Azərbaycan olan bir hərəkat öz dövründə dünyanın ən güclü bir neçə dövlətindən biri hesab edilən Ərəb xilafətini ciddi şəkildə sarsıtdı. Bu hərəkat Xilafət rəhbərliyinin ilkin islami dəyərlərdən uzaqlaşdığı dövrə təsadüf etmişdi.*

*azadlıq hərəkatı, Müsafir, xürrəmilik, Babək, Bəzz, Həştadsər, Afşin*

**Ərəblərin siyasətindəki dəyişikliklər.** Xilafət ərazisində əvvəllər Əməvilərə, sonralar isə Abbasilərə qarşı yönələn müəyyən müxalifətçi şüarlara Azərbaycan əhalisi də qoşulurdu. Əməvilər, həmçinin Abbasilər sülalələrindən olan xəlifələr islami dəyərlərə heç də çox sadiqlik nümayiş etdirmirdilər. Hakimiyyətləri əllərindən çıxmış yerli feodalların vəziyyəti də VIII əsrin əvvəllərindən etibarən müxtəlif etirazların sayının artmasına gətirib çıxardı. Ərəb hakimiyyətinin yerli əhali ilə ərəblər arasında fərqlər qoyması, xüsusilə vergi siyasətinin getdikcə sərtləşməsi də ciddi səbəb hesab edilə bilər.

VIII əsrin ortalarında Əməvilərə qarşı Azərbaycanda baş vermiş hərəkata beyləqanlı Müsafir rəhbərlik etmişdi. Xilafətin mərkəzində hakimiyyət uğrundakı dini-siyasi mübarizədən istifadə edən bir sıra yerli feodallar, o cümlədən də Müsafir ərəb ağalığından azad olmağa çalışırdılar.

*Əməvilərin və Abbasilərin islami dəyərlərdən uzaqlaşmalarını hansı faktlar təsdiq edir?*

**Xürrəmilər hərəkatı.** Azərbaycan ərazisində Xilafətə qarşı ən fəal mübarizə isə Xürrəmilərin, xüsusilə Babəkin adı ilə bağlıdır. Xürrəmilər ideologiyasında islami dəyərlərlə yanaşı, zərdüştilik elementlərinə də rast gəlinirdi. Xürrəmilərin islam dininə qarşı çıxış etmələri



*Bəzz qalası*

LAYİHƏ

barədə fikir söyləyən müəlliflərin əksəriyyəti Xilafətin saray tarixçiləri olmuşlar. Əslində, bu hərəkat islam dininə qarşı deyil, Abbasilərin Azərbaycanda yeritdiyi ağır vergi siyasətinin və məmur özbaşınalığının əleyhinə yönəlmişdi. Xürrəmilər ədalətli cəmiyyət və sosial bərabərliyin yaradılması uğrunda mübarizə aparırdılar. Bu, xalq azadlıq hərəkatı idi. Feodal zülmünə qarşı çıxan Xürrəmilər həm də Azərbaycanın istiqlaliyyəti uğrunda vuruşurdular. Xürrəmilər hərəkatının iştirakçıları, əsasən, kəndlilər olsa da, şəhər əhalisi, həm də yerli feodalların bir qismi bu mübarizəyə qoşulmuşdular.

**?** *Xürrəmilər daha çox kimə və nəyə qarşı mübarizə aparırdılar?*

Mənbələrdə "əl-müxəmmirə" *(qırmızı geyinənlər)* adı ilə təqdim olunan Xürrəmilərin 778 və 808-ci illərdəki çıxışları uğursuzluqla nəticələndi. Başçıları Cavidan və Əbu İmran arasındakı ədavətin hökm sürdüyü Xürrəmilər 816-cı ilə qədər mərkəzi hakimiyyətə qarşı yalnız xırda çıxışlarla yadda qalmışdılar. Həmin ildə hər iki rəhbərin ölməsindən sonra hərəkata Bilalabad kəndində doğulmuş, Cavidanın yaxın silahdaşı Babək (əsl adı Həsən) başçılıq etməyə başladı. Ərdəbildən şimal-qərbdə indiki Qaradağ vilayətində yerləşən Bəzz şəhər-qalası Xürrəmilərin istinadgahı idi.



***Babək***

**Babək.** Babəkin başçılığı ilə üsyan Bəzzin ətrafındakı ərazilərə yayıldı. Xilafətdən narazı olan bir sıra yerli feodallar da Babəkə qoşulmuşdular. Məzdəkiliyə əsaslanan Xürrəmi ideologiyası Babəkin başçılığı ilə yeni siyasi rəng aldı və sərt mübarizə xəttinə üstünlük verildi. Qısa müddətdə Babəkin qoşunlarının sayı o dərəcədə artdı ki, təkcə süvarilər 20 min nəfərə çatdı.

**?** *Babək xürrəmilərin əvvəlki rəhbərlərindən nə ilə fərqlənə bildi?*

**M** *"...Xürrəmilərə qarşı ən fəal, qətiyyətli və dəyanətli adamını göndər, onu pul, silah, süvari və piyada qoşunla təchiz etdir. Əgər xürrəmilərə qarşı mübarizə uzanarsa, onda onların üzərinə bütün dostların və köməkçilərinlə birlikdə özün get".*

***Xəlifə Məmunun öz varisi Mötəsimə nəsihəti.***
***Ət-Təbərinin "Tarix ər-rusul və-l-müluk" əsərindən***

**?** *Xəlifənin öz varisinə belə nəsihət etməyə nə məcbur etmişdi?*

Azərbaycanın cənub torpaqlarının çoxu ərəblərdən azad olundu və üsyan ətraf ərazilərə də yayılaraq azadlıq müharibəsinə çevrildi. Şimali Azərbaycanı və müasir İranın bir çox əyalətlərini üsyan dalğası bürüdü. Hətta Xilafətin bir sıra tanınmış xadimləri də Babəkin gücü ilə hesablaşaraq onunla müttəfiqlik edirdilər.

Xəlifə əl-Məmunun 819-cu ildən etibarən Babəkə qarşı göndərdiyi ordular çox vaxt Xürrəmilər tərəfindən məğlub edilirdi. 829-cu ildə Həştadsər dağı yaxınlığında 30 minə yaxın ərəbin məhv edilməsi ilə başa çatan döyüş Babəkin parlaq qələbəsi idi.

LAYİHƏ

Xəlifə əl-Mötəsimin dövründə hərəkat daha geniş əraziləri əhatə etdi. Yeni xəlifə imkanlarını səfərbər etdi və 833-cü ildə Xürrəmilər Həmədan yaxınlığında ciddi məğlubiyyətə uğradılar. Hətta Bizansla aparılan uzunmüddətli müharibə dörd il müddətinə (833–837) donduruldu və Xilafət bütün qüvvələrini Babəkə qarşı səfərbər etdi.

*Ərəblərin xürrəmilərə qarşı mübarizəyə xüsusi əhəmiyyət vermələrinin səbəbi nə idi?*

Babək təkcə üsyan başçısı kimi yox, siyasi xadim, hətta dövlət başçısı kimi də qiymətləndirilə bilər. Belə ki onun hakimiyyəti müəyyən müddət ərzində kifayət qədər geniş ərazilərdə tanınırdı. Bu zaman həmin torpaqlar, təbii ki, Babək və onun təyin etdiyi şəxslər tərəfindən idarə olunurdu.

*Babəki dövlət başçısı kimi qiymətləndirmək olarmı? Fikrinizi əsaslandırın.*

Xürrəmilərlə vuruşacaq ərəb qoşunlarına 835-ci ildə baş komandan təyin edilmiş Afşin Heydər ibn Kavus sistemli şəkildə hərəkət etməyə başladı. O, Xürrəmilərin dağıtdığı qalaları bərpa edir, nizam-intizamı gücləndirir, Babəkin bəzi yaxın silahdaşlarını sui-qəsd yolu ilə aradan götürtdürürdü. Bir çox müttəfiqləri də Babəkdən uzaqlaşmağa başlamışdı. 836-cı ildə Xürrəmilər Həştadsər dağı yaxınlığında yeni bir qələbə qazansalar da, 837-ci ildə Bəzz ərəblər tərəfindən alındı. Mübarizənin şiddətini Böyük Səlcuq imperiyasının vəziri Nizamülmülkün Bəzzin alınması zamanı 80 mindən çox Xürrəminin məhv olunması haqqındakı məlumatı göstərir.

Babək Bəzzdən çıxaraq Bizansa tərəf yönəlsə də, keçmiş tərəfdarı, alban knyazı Səhl ibn Sumbat tərəfindən xaincəsinə ələ keçirilərək ərəblərə təhvil verildi. 838-ci ildə Samirədə, xəlifənin hüzurunda edam edilən Babək bu zaman görünməmiş mətanət və dözümlülük nümayiş etdirdi.

Babək tərəfdarları 20 ildən artıq bir müddət ərzində ərəblərin 225 min döyüşçüsünü və çoxlu sərkərdəsini məhv edə bildi və ərəb dövlətinin parçalanma prosesini sürətləndirmiş oldu. Babəkin ardıcılları sonralar da Xilafətə qarşı baş vermiş çıxışların iştirakçısı oldular.

*Sizcə, Babək xəyanət nəticəsində ərəblərin əlinə keçməsə idi, mübarizəsini necə davam etdirə bilərdi?*

*“Sən mənim yolumla getsəydin və öz sülalənin (xanədanın) varisi olsaydın, onda vərəsəlik sənə keçə bilərdi, onda bir neçə gün qabaq sən, həqiqətən, mənim oğlum sayılırdın. ...Bəlkə də, mən bu gündən sonra çox yaşamadım, amma mən hökmdar (malik) adını daşıyıram və mən harada olsam, yaxud mənim barəmdə harada nə danışsalar, – yenə də mən hökmdar olaraq qalıram. ...sən mənim oğlum deyilsən, çünki qırx il miskin qul kimi ömür sürməkdənsə, bir gün ağa kimi yaşamaq daha yaxşıdır” .*

***Babəkin ərəblərdən aman istəməsini ona təklif edən oğluna cavabı.***
***Ət-Təbərinin “Tarix ər-rusul və-l-müluk” əsərindən***

*Babəkin hansı keyfiyyətləri onu görkəmli bir şəxsiyyət hesab etməyə imkan verir?*

1. *Ərəbdilli mənbələrin Xürrəmilər haqqındakı məlumatlarına nə üçün tənqidi yanaşmaq lazımdır?*
2. *Sizcə, Azərbaycanın ərəb əsarətinə qarşı mübarizənin mərkəzlərindən birinə çevrilməsinin səbəbi nə idi?*
3. *Babəkin oğluna verdiyi cavabdan onun haqqında hansı nəticələrə gəlmək mümkündür?*
4. *Babəkin dövlət başçısı sayılmasının lehinə və əleyhinə fikirlər yürüdün.*

LAYİHƏ



13

## ŞİRVANŞAHLAR DÖVLƏTİ. DƏRBƏND ƏMİRLİYİ

*IX əsrdə xilafətə tabe olan ölkələrdə azadlıq mübarizəsi genişləndi. Feodal münasibətləri inkişaf etdi. İri feodallar mərkəzi hakimiyyətə tabe olmaq istəməyib öz müstəqilliklərini elan etməyə başladılar. Belə bir şəraitdə Abbasilər xilafətinin parçalanması nəticəsində Azərbaycanda da bir sıra yerli dövlətlər yarandı. Bunlardan ən uzunömürlüsü Şirvanşahlar dövləti idi. Bundan başqa, Azərbaycanda Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Dərbənd əmirliyi və başqa feodal dövlətləri də yaranmışdı.*

*Bab ül-Əbvab, Haşim İbn Suraka, Yezid ibn Məzyəd, slavyan, xərac, məlik, vəliəhd, I Fəribürz*

**Şirvanşahlar dövləti (861–1538).** Azərbaycanın şimal-şərqində yaranmış bu dövləti ərəb mənşəli Məzyədilər sülaləsi idarə edirdi. Onları bura vaxtilə ərəb xəlifələri canişin qismində göndərmişdilər. Məzyədilərin görkəmli nümayəndələrindən biri Yezid ibn Məzyəd idi. O, böyük nüfuza malik idi. Arranda mərkəzi Bərdə olan yarımmüstəqil feodal dövləti – əmirlik yaratmışdır. Onun oğlu Məhəmməd 859-cu ildə iqamətgahı Gəncəyə köçürdü. Bu, Məzyədilərin nüfuzunu artırdı. Onlar Azərbaycanda möhkəmləndilər. IX əsrin 60-cı illərində Heysəm ibn Xalid özünü Şirvanın müstəqil hakimi elan etdi və xilafətin mərkəzi hakimiyyəti ilə əlaqəni kəsdi. Beləliklə, 861-ci ildə Şirvanşahlar dövləti yarandı.

M

*“Şirvanın hökmdarı Məzyədilər sülaləsindən Heysəm ibn Xalid olmuşdu. 861-ci ildə Xəlifə Mütəvəkkilin ölümü Xilafətdə iğtişaşlara səbəb oldu. Bundan istifadə edən Heysəm ibn Xalid 247-ci (861–862) ildə Şirvanı müstəqil dövlət elan edərək şirvanşah titulunu qəbul etdi”.*

***Lütfullah Münəccimbaşının “Cəmi ət-döval” əsərindən***

?

*IX əsrdə Azərbaycanda feodal dövlətlərinin yaranması nəyin nəticəsi idi?*

Orta əsr mənbələri Azərbaycanın dilbər guşələrindən olan Şirvan əyalətinin gözəl iqlimi, zəngin sərvəti, əlverişli coğrafi-strateji mövqeyi haqqında maraqlı məlumatlar verir. Onun ərazisi qədimdən əkinçilik və maldarlıq üçün əlverişli idi. Şirvan ərazisi karvan ticarət yolunun üzərində yerləşdiyindən Şimal ölkələri ilə Cənub ölkələri arasında vasitəçi rolunu oynayırdı. Bu ərazi hərbi-strateji cəhətdən də əhəmiyyətli idi. Şirvan torpağı ölüm və dəhşət gətirən yadelli istilaçıların hücumlarına nisbətən az məruz qalırdı. Təbii ki, bu, qonşu əyalətlərlə müqayisədə Şirvanda təsərrüfatın canlanmasına və məhsuldar qüvvələrin inkişafına daha yaxşı təsir göstərirdi. Bu mənada A.A.Bakıxanovun yazdığı kimi, “xoş havası, yaylaqları, otlaqları, şirin bulaqları və hər tərəfə axan çoxlu çayları... dəniz və Kür çayı sahilindəki geniş məhsuldar çöllərdə bol taxıl zəmiləri, meşələri, bağları olan Şirvan” Azərbaycanın



LAYİHƏ

digər əyalətlərindən fərqlənirdi. Yeddi əsrə yaxın bir müddətdə mövcud olan Şirvanşahlar dövlətinin yaranması Azərbaycanın başqa yerlərində də qədim dövlətçilik ənənələrinin dirçəlməsinə təsir göstərdi, şimaldan Azərbaycan ərazisinə basqın edən yadellilərin hücumlarına qarşı mübarizəni asanlaşdırdı.

Zaman-zaman xarici basqınlara məruz qalsa da, bu dövlət öz varlığını qoruyub saxlamağa nail oldu. 910-cu ildə slavyan (rus) dəstələri Sarı adasını qarət etsələr də, Şirvanşah qoşunları tərəfindən darmadağın edildilər. X əsrdə bu dövlət öz ərazisini genişləndirdi. Şamaxı, Qəbələ, Bərdə, Şabran, Dərbənd əmirliyi, Şəki və Sənariyyə əraziləri Şirvanşahlar dövlətinə birləşdirildi.



Azərbaycan X–XI əsrlərdə

? *Müasir Azərbaycan Respublikasının hansı rayonları keçmiş Şirvanşahlar dövlətinin ərazisində yerləşir?*

**Yadellilərin ölkəyə yürüşü.** Slavyanlar 1032–1033-cü illərdə alan və sərir[1] tayfaları ilə birlikdə paytaxt Yezidiyyəni (Şamaxı) qarət etsələr də, Dərbənd hakimi tərəfindən məğlub edildilər. XI əsrin ortalarında Cənubi Qafqaz Səlcuq türkləri tərəfindən işğal olundu. 1066-cı ildə I Fəribürz (1063–1096) daxili istiqlaliyyətini saxlamaq şərtilə Səlcuqların vassalına çevrildi və hər il sultanın xəzinəsinə 40 min dinar xərac verməli oldu. Vassal halına salındıqdan sonra "şirvanşah" titulu ləğv edildi. Onun hakimləri məlik adlandılar. Səlcuqların tənəzzülü dövründə, XI əsrin sonunda Şirvanşahlar dövləti yenidən müstəqil oldu.

*Şirvanşahlar dövlətinin ərazisinə slavyan və Səlcuq yürüşlərinin fərqli nəticələrini müəyyən edin.*

**Şirvanşahlar dövlətində idarəetmə.** Şirvanşahların hakimiyyəti mütləq hesab olunurdu. Şahın hakimiyyəti varislərə irsən keçirdi. Varis əvvəlcə böyük oğlu, əgər şahın oğlu yoxdursa, qardaşı sayıla bilərdi. Bir qayda olaraq, əyalətləri şahzadələr idarə edirdilər. Dövlətin inzibati və maliyyə işlərinə vəzir baxırdı. Şahlıq kimi vəzirlik vəzifəsi də çox vaxt atadan oğula irsən keçirdi. Saraydakı mühüm vəzifələrdən biri də *hacib*[2] idi. Onlar saraydakı işləri tənzimləyirdilər. Bir sıra dövlətlərdə olduğu kimi, Məzyədilərin də iki növ qoşunu vardı. Əsas qoşun şahın xüsusi qvardiyasından ibarət idi. Bundan əlavə, iri feodalların və vilayət hakimlərinin xüsusi qoşun dəstələri olurdu.

[1] *Sərir* – Dağıstanda yaşayan xalq

[2] *Hacib* – xidmətçi, qapıçı. Orta əsrlərdə Yaxın Şərq ölkələrində sarayda ən yüksək vəzifələrdən biri. Saray mərasimlərinin təşkilində mühüm rol oynayırdı.



LAYİHƏ

Hər iki növdən olan qoşunun əsas hissəsini süvarilər təşkil edirdi. Süvariləri atla təmin etmək üçün şahın ilxısında 40 min at saxlanılırdı. Ordu yerli sənətkarların hazırladığı silahlarla təmin edilirdi. Qoşun yalnız müharibə zamanı Şirvanşahın göstərişi ilə bir yerə toplanırdı. Döyüşlərdə orduya ya şahın özü, ya da vəliəhdi komandanlıq edirdi.



***Bakı şəhərinin görünüşü***

*Şirvanşahlar dövlətində idarəetmə sxemini qurun.*

**Dərbənd əmirliyi.** Ərəblər Azərbaycanı işğal etdikdən sonra Dərbəndi Bab-ül-Əbvab *(Qapılar qapısı)* adlandırdılar. Uzun müddət bu şəhəri xəlifənin təyin etdiyi ərəb sərkərdələri idarə edirdilər. Onların əsas vəzifəsi şimaldan olan hücumların qarşısını almaq idi. IX əsrin ortalarına qədər bu vəzifə yerinə yetirilirdi. Lakın 869-cu ildə Xilafətin mərkəzində türklərin qiyamından istifadə edən Haşim ibn Suraka Dərbəndin müstəqil idarə edilməsinə nail oldu. Onun adı ilə dövləti idarə edənlər Haşimilər sülaləsi adlandı. İri feodallar da Dərbənd hakimini müdafiə edirdilər. Hakimiyyət irsən keçirdi. 988-ci ildə Dərbənd əmirliyi Şirvanşahlar dövlətindən asılı vəziyyətə düşsə də, daxili müstəqilliyini qoruyub saxlamışdı. 1075-ci ildə Şirvanşah I Fəribürzün dövründə Dərbənd əmirliyi Şirvanşahlar dövlətinə birləşdirildi.



***Narınqala. Dərbənd***

*Ərəblər nə üçün Dərbəndi “Qapılar qapısı” adlandırmışdılar?*

1. Yadelliləri Şirvana yürüş etməyə vadar edən nə idi?
2. Şirvanşahlar dövlətinin uzun müddət mövcud olmasının əhəmiyyəti nədən ibarət idi?
3. Müasir Azərbaycan Respublikası ilə Şirvanşahlar dövlətinin coğrafi mövqeyini müqayisə edin.
4. Dərbənd əmirliyi ilə Şirvanşahlar dövləti arasında müqayisə aparın.

LAYİHƏ



# 14

## SACİ, SALARİ VƏ RƏVVADİ DÖVLƏTLƏRİ

*Ərəb xilafətinin tənəzzülü dövründə Araz çayından cənubdakı Azərbaycan torpaqlarında yeni feodal dövlətləri yarandı. Həmin dövlətlərdən ikisi Azərbaycanı vahid halda birləşdirdi. Bu isə, öz növbəsində, ölkəmizin iqtisadi və siyasi tərəqqisinə gətirib çıxartdı. X əsrdə Azərbaycan ərazisinin vahid halda birləşdirilməsi iqtisadi, siyasi, mədəni inkişafa təkan verdi.*

*Əbu Sac Divdad, Ərdəbil, Qanunnamə, Mübarəki, Əbulhica, Əhər, Bərdə, naib*

**Sacilər dövlətinin yaranması (898–941).** IX əsrdə xilafətə qarşı mübarizə şəraitində Azərbaycanda meydana gələn feodal dövlətlərdən biri Sacilər dövləti idi. Xilafətin zəifləməsi nəticəsində vilayət hakimləri ilə yanaşı, ayrı-ayrı sərkərdələrin də nüfuzu artır, mövqeyi güclənirdi. Belə sərkərdələrdən biri də əslən Mərkəzi Asiya türklərindən olan Əbu Sac Divdad olmuşdur. Xəlifənin apardığı mübarizələrdə sədaqəti və Bizansa qarşı döyüşlərdə qəhrəmanlığı ilə Xəlifənin etibarını qazanan Əbu Sac Divdad Azərbaycana hakim təyin edilir və bununla da yeni sülalənin əsası qoyulur. Bu sülalənin nümayəndələri afşin titulu daşıyırdılar.

M

*“242-ci (856), ya da 244-cü (858) ildə Xəlifə Mütəvəkkil Əbu Sac Divdadı Məkkəyə gedən yola nəzarətçi təyin etmişdi. Əla xidmətinə görə 251-ci ildə Xəlifə onu 5 dəst şərəfli geyimlə mükafatlandırdı. Mədain şəhərindəki üsyanı da yatırdarkan Əbu Sac böyük məharət göstərdi. Öz hərbi qabiliyyətini Əbu Sac 251-ci (865) ildə Mesopotamiyada, Vasit və Bağdad şəhərləri arasında yerləşən Carca şəhəri yaxınlığında baş verən döyüşdə nümayiş etdirdi. Həmin ildə Əbu Sac Xilafətə qarşı türk hərbi dəstələri tərəfindən qaldırılmış qiyamı yatırtdı. O, üsyançı dəstələri dağıtdı və təhrikçiləri həbs etdi”.*

***Ət-Təbərinin “Tarix ər-rusul və-l-müluk” əsərindən***

?

*Xəlifələrin türk sərkərdələrinin xidmətindən istifadə etməsi nəyi göstərir?*

Sacilər Azərbaycanın qərb torpaqlarını ələ keçirməyə çalışan erməni və gürcü hakimlərini məğlubiyyətə uğradıb özlərindən asılı vəziyyətə salmışdılar. Dövlətin əsasını Əbu Sac Divdadan oğlu Məhəmməd ibn Əbu Sac qoymuşdur. O, 893-cü ildə Marağa hakimliyini və Dəbili ələ keçirdi, Gürcüstana uğurlu yürüşlər etdi. Böyük qənimətlə geri qayıtdı. Bu qələbələr Məhəmmədin şöhrətini artırdı, qonşu dövlətlər ondan çəkinməyə başladılar. “898–900-cü illərdə onun adına pul da kəsilirdi. Məhz bu tədbirlərinə görə Sacilər dövlətinin yaranması Məhəmməd ibn Əbu Sacın adı ilə bağlanılır.

Məhəmməd ibn Əbu Sacın ölümündən sonra hakimiyyətə Yusif ibn Əbu Sac gəldi. Onun dövründə dövlət daha da gücləndi və 912-ci ildən başlayaraq xilafət xəzinəsinə xərac göndərilməsini dayandırması ilə Sacilər dövləti Xilafətin asılılığından çıxdı.

LAYİHƏ

*Dövlət müstəqilliyinin hansı əlamətləri var?*

Yusif ibn Əbu Sac da qardaşı kimi gürcü hakiminin qoşunlarını məğlub edib Kaxetiyanı ələ keçirdi. Onun dövründə Şirvanşahlar dövləti də Sacilərdən asılı vəziyyətə düşdü. Beləliklə, Azərbaycan torpaqlarını vahid dövlətin tərkibində birləşdirən Yusif tezliklə Rey şəhərini də Samanilərdən aldı və hakimiyyətini daha geniş ərazilərə yaya bildi.

Dövlətin sərhədlərini möhkəmləndirmək üçün Yusif Dərbənd səddini təmir etdirdi. 917-ci ildə Yusif ibn Əbu Sac müstəqil siyasət yürütməsi səbəbi ilə xəlifənin ona qarşı göndərdiyi ordunu məğlub etdi. O bu qələbədən sonra öz adına pul kəsdirərək Xilafətdən asılı olmadığını bir daha nümayiş etdirdi. Bu amil Sacilərin müstəqil bir dövlət kimi Abbasi xilafətindən asılı olmadığını göstərirdi.



***Bərdədə Yusif ibn Əbu Sacın adına zərb edilmiş pul***

Azərbaycan torpaqlarının vahid dövlət halında birləşdirilməsi təsərrüfatın canlanmasına, şəhərlərin, sənətkarlığın, ticarətin və mədəniyyətin inkişafına xeyli zəmin yaratdı. Yusif ibn Əbu Sacın maliyyə və vergi sahəsindəki siyasəti ölkədə iqtisadiyyatın dirçəlməsinə və əhalinin artmasına təkan verdi.

*Azərbaycanın vahid dövlət halında birləşdirilməsinin əhəmiyyətini izah edin.*

Bütün bunlar Azərbaycan türk xalqının formalaşması prosesinin sürətlənməsinə müsbət təsir göstərdi. Yusif ibn Əbu Sacın ölümündən sonra ölkəni feodal ara çəkişmələri bürüdü. Nəticədə Azərbaycan yenidən müharibə meydanına çevrildi və Sacilər dövləti süqut etdi.

**Salarilər dövlətinin yaranması.** Azərbaycanda yaranmış vəziyyətdən istifadə edən Salari sülaləsinin nümayəndəsi Mərzban ibn Məhəmməd Saci hökmdarı Deysəmə qalib gəldi. O, 941-ci ildə Sacilərin paytaxtı Ərdəbili tutub yeni dövlətin əsasını qoydu (941–981). Şirvanşahlar dövlətini özündən asılı vəziyyətə saldıqdan sonra Dərbəndi ələ keçirdi. Şərqi Gürcüstanı özünə tabe etdi. Dövlətin sərhədləri bir az da genişləndi. Xəzər dənizində ticarət gəmiləri üzməyə başladı. Azərbaycan torpaqları yenidən vahid dövlət halında birləşdirildi.

*Mərzban ibn Məhəmmədin fəaliyyətini dövr baxımından qiymətləndirin.*

Siyasi sabitliyin yaranması ölkə daxilində kənd təsərrüfatının, sənətkarlıq və ticarətin inkişafına əlverişli şərait yaratdı. İqtisadi yüksəliş, təsərrüfatın inkişafı, Şərq ölkələri ilə ticarət əlaqələrinin genişlənməsi Salarilər dövlətinin qonşu ərazilərdə hərbi-siyasi nüfuzunun artmasına da müsbət təsir göstərirdi. Mərzban ibn Məhəmməd feodal özbaşınalıqlarının qarşısını almaq məqsədilə Qanunnamə hazırladı, vergi işində qayda-qanun yaratdı. Vilayətlərdən alınan vergini nizama saldı, maliyyə işlərinə nəzarəti və diqqəti artırdı. Onun dövründə, əsasən, aşağıdakı vergilər toplanırdı:

– torpaq və əmlak vergisi;

– asılı ölkələrin hakimlərindən alınan illik xərac.

Salarilərin qoşunu muzdlu süvari dəstələrdən və piyada hissələrdən ibarət idi.

*"Qanunnamə" əhalinin güzəranına necə təsir etmişdi?*

LAYİHƏ

**Bərdə faciəsi.** 944-cü ildə slavyanlar bu dəfə Şirvana və Xəzər sahillərinə deyil, Arranın mərkəzi Bərdəyə hücum etdilər. İstilaçıların Bərdəni seçməsi təsadüfi deyildi. Bərdə haqqında məlumat verən orta əsr müəllifləri Bərdəni iqtisadi, siyasi, mədəni inkişafına, təbii-coğrafi mövqeyinə, gözəl iqliminə və sərvətlərin zənginliyinə görə onun IX–X əsrlərdə təkcə Qafqazda deyil, Yaxın və Orta Şərqdə ən çox inkişaf etmiş şəhər hesab edirdilər. Ona görə də Bərdənin zəngin sərvəti rusların diqqətini daha çox cəlb edirdi.




*Azərbaycan X əsrdə*

Ruslar Xəzər dənizi ilə cənuba doğru üzərək Kürün mənsəbinə çatdılar, oradan da çay vasitəsilə keçib Bərdə yaxınlığındakı Mübarəki deyilən kənddə sahilə çıxdılar. Gəmiləri burada saxlayıb Bərdəni mühasirəyə aldılar. Salari hökmdarının Bərdədəki naibi tabeliyində olan qoşunla döyüşə girdi. Sayca üstün olan və yaxşı silahlanmış rus drujinaları döyüşdə qalib gələrək şəhəri tuta bildilər. Əhalini incitməyə və qarət etməyə başladılar. Bir çoxları şəhəri tərk etməyə məcbur oldu. Mərzban ibn Məhəmməd topladığı 30 minlik qoşunla Bərdəni xilas etməyə gəldi. Şəhərin müqəddəratı həll edildiyi bir vaxtda Mosul hakiminin ölkənin cənubuna doğru irəliləməsi xəbəri Mərzban ibn Məhəmmədi, dövlətin paytaxtı təhlükə altına düşdüyü üçün geriyə, Salmasa doğru dönməyə məcbur etdi.

Əhali isə ruslara qarşı mübarizəni dayandırmadı. Xalqın möhkəm iradəsi düşmənin ümidlərini sarsıtdı. Digər tərəfdən, slavyanların içərisində xəstəliklərdən ölənlərin sayı döyüş meydanında ölənlərin sayından çox idi. Ələ keçirdikləri qənimətlə kifayətlənən slavyanlar 945-ci ildə oranı tərk etməli oldular. Amma onların hücumu Bərdənin sonrakı taleyinə ağır təsir göstərdi. Salari hakimi əsas diqqətini dövlətin paytaxtı Ərdəbilə verdiyindən Bərdənin bərpasına qayğı göstərə bilmədi. Digər tərəfdən, Şəddadilər dövlətinin paytaxtı olan Gəncə şəhəri ticarət və mədəniyyət mərkəzinə çevrilməklə tərəqqi edir və Bərdəni kölgədə qoyurdu.

**?** *Ərəblərin, slavyanların Bərdəyə xüsusi diqqət yetirməsinin səbəbi nə idi?*

**Dövlətin tənəzzülü.** 957-ci ildə Mərzban ibn Məhəmməd öldü. Onun ölümündən sonra oğlanları və qardaşı Vəhsudan arasında hakimiyyət uğrunda gedən mübarizə nəticəsində Salarilər dövləti zəiflədi və parçalandı. Mərzbanın oğlu İbrahimin hakimiyyəti (962–981) dövründə səltənətin əvvəlki şöhrətini bərpa etmək cəhdləri özünü

LAYİHƏ

doğrultmadı. Xəzinəyə daxil olan mədaxil kəskin surətdə azaldı. Məzyədilər, Dərbənd və Gəncə vilayəti Salari dövlətinin tərkibindən çıxdı. Belə bir şəraitdə Əhər, Marağa və Təbriz hakimi Rəvvadilər nəslindən olan Əbülhica X əsrin 80-ci illərində Salari İbrahimi məğlub edib əsir aldı və paytaxt Ərdəbili tutmaqla dövləti süquta uğratdı.

*Salarilər dövlətinin tənəzzülünün səbəblərini izah edin.*

**Rəvvadilər dövlətinin yaranması (981–1065).** Ərəblərin hakimiyyəti zamanı xəlifələr Azərbaycanda etnik dayaq yaratmaq üçün buraya bir çox ərəb nəsillərini köçürmüşdülər. Onlar, əsasən, Marağa, Təbriz, Qaradağ və Əhər bölgəsində məskunlaşmışdılar. Hələ VIII əsrin sonlarında yerli əhali ilə qaynayıb-qarışdıqdan sonra Azərbaycanın cənubunda Rəvvadi əmirliyi yaradılmışdı. 981-ci ildə Salariləri məğlub edən Rəvvadi Əbulhica hakimiyyəti ələ aldı. Beləliklə, Rəvvadilər dövlətinin əsası qoyuldu. Vaxtilə Salarilər dövlətinin əlində olan Azərbaycanın cənub torpaqları Rəvvadilərin hakimiyyəti altına keçdi. Dövlətin paytaxtı Ərdəbildən Azərbaycanın qədim və zəngin şəhəri olan Təbrizə köçürüldü. Bu zaman Təbriz iqtisadi, siyasi və mədəni cəhətdən Ərdəbilə nisbətən xeyli tərəqqi etmişdi. Təbrizin təbii-coğrafi mövqeyi paytaxt şəhəri üçün daha münasib idi. Rəvvadilər dövlətinin ərazisi, əsasən, indiki Cənubi Azərbaycanı əhatə edirdi.

?
*Təbriz şəhərinin paytaxt olmasının əhəmiyyəti nədə idi?*

**Dövlətin inkişafı və tənəzzülü.** Əbülhicanın varislərindən olan Vəhsudanın dövründə ölkə daxilində bir sıra tədbirlər həyata keçirildi. 1028-ci ildə sultan Mahmud Qəznəvi tərəfindən məğlub edilmiş oğuzlardan 2000 ailə Azərbaycana üz tutdu, Rəvvadi hökmdarı Vəhsudan onları dostcasına qəbul etdi. Onun bu addımı regionda Azərbaycan türklərinin mövqeyini daha da gücləndirdi. 1042-ci ilin oktyabrında Təbrizdə güclü zəlzələ baş verdi. Mənbələrin məlumatına görə, zəlzələ nəticəsində bir çox binalar və qalalar dağıldı, 40 mindən artıq adam öldü, şəhərin müdafiə qabiliyyəti zəiflədi. Ətrafdakı qala qapıları uçub-dağıldığından Vəhsudan Təbrizi tərk edib başqa qalaya köçdü. Şəhərin bərpa işləri başa çatdırılmamış Sultan Toğrulun başçılıq etdiyi Səlcuq türkləri Təbrizə hücum etdilər. Hücuma hazır olmayan Vəhsudan müqavimət göstərə bilmədi. Ərəb tarixçisi İbn əl Əsirin yazdığına görə, Səlcuq hakimi Sultan Toğrul bir sıra qələbələrdən sonra 1054-cü ildə Təbrizi tutdu. Səlcuqlara tabe olan Rəvvadilər tədricən müstəqilliklərini itirdilər. 1065-ci ildə Səlcuq sultanı Alp Arslan Rəvvadilər dövlətinin varlığına son qoydu.

?
*Rəvvadilər sülaləsinin tənəzzülünün səbəblərini nədə görürsünüz?*

?

*1. Sacilər nəslinin nümayəndələrinin siyasətindəki oxşarlıq nədədir?*
*2. Hakimiyyətin irsən keçməsi dövlətin gələcək taleyinə necə təsir edir?*
*3. Nə üçün IX–XI əsrlər Azərbaycan tarixində feodal dağınıqlığı kimi qeyd olunur?*
*4. Saci, Salari, Rəvvadi dövlətlərinin ərazilərini xəritəyə əsasən müqayisə edin.*
*5. Sacilər və Salarilər dövlətlərini Venn diaqramında müqayisə edin.*



LAYİHƏ



15

# ŞƏDDADİLƏR DÖVLƏTİ. TİFLİS MÜSƏLMAN ƏMİRLİYİ

*Ərəb xilafətinin tənəzzülü dövründə Cənubi Qafqazda meydana gələn dövlətlərdən biri də Şəddadilər dövləti idi. Şəddadilər Tiflis müsəlman əmirliyi ilə birlikdə Azərbaycanın qərb torpaqlarının xristian bloku ölkələrindən müdafiə olunmasında mühüm rol oynadılar. Gəncə şəhəri isə İslam dünyası ilə xristian dünyası arasında strateji qalaya çevrilmişdi.*

*Ləşkəri, Fəzl ibn Məhəmməd, Xudafərin körpüsü, Didqori, Cəfərilər, Tiflis*

**Şəddadilər dövlətinin yaranması (971–1088).** X əsrin ikinci yarısında Azərbaycanda meydana gələn müstəqil feodal dövlətlərdən biri də paytaxtı Gəncə olan Şəddadilər dövləti idi. Əslində, Şəddadilər dövləti Salarilərin dövründə və onların ərazisində meydana gəlmişdi. Salari hakimi Mərzban ibn Məhəmmədin varisləri arasında hakimiyyət uğrunda mübarizənin qızışdığı şəraitdə dövlət xeyli zəiflədi. Ona tabe olan feodal əyanları içərisində müstəqillik meyilləri gücləndi. Belə feodallardan biri Məhəmməd ibn Şəddad idi. O, fürsətdən istifadə edərək 951-ci ildə Dəbili tutdu və özünü müstəqil elan etdi. Lakin o, burada möhkəmlənə bilmədi. Onun ölümündən sonra böyük oğlu Ləşkəri Gəncəyə gəldi və 971-ci ildə Salari hökmdarı İbrahimin Gəncədəki naibini qovaraq burada hakimiyyəti ələ keçirdi və Şəddadilər dövlətinin əsasını qoydu. Ləşkəri az müddət ərzində Bərdəni və Şəmkiri də öz dövlətinə birləşdirdi.




***Azərbaycan X əsrin sonu – XI əsrin birinci yarısında***

?

*Xəritədə Dəbil əmirliyinin ərazisini göstərin və indi həmin ərazidə hansı dövlətin yerləşdiyini müəyyənləşdirin.*



LAYİHƏ

**Dövlətin güclənməsi.** Fəzl ibn Məhəmmədin (985–1030) hakimiyyəti dövründə Şəddadilər dövləti daha da gücləndi. O, Gəncə ətrafındakı feodal mülklərini ləğv etdi, Beyləqanı Şəddadilər dövlətinə birləşdirməklə mərkəzi hakimiyyəti möhkəmləndirdi. Gürcü və xəzərlərə qarşı uğurlu müharibələr apardı. Fəzl ibn Məhəmməd Şirvanşahlar dövləti ilə qohumluq əlaqəsi, Azərbaycanın cənubunda hökmranlıq edən Rəvvadilərlə və Tiflis müsəlman əmirliyi ilə dostluq əlaqələri saxlayırdı. O, uğurlu xarici siyasətlə yanaşı, ölkənin daxili işləri ilə məşğul olmağı da unutmur, sənətkarlığın, ticarətin, mədəniyyətin inkişafına qayğı göstərirdi. Ticarət və hərbi məqsədlə Araz çayı üzərində Xudafərin körpüsünün (1027) salınması da onun adı ilə bağlı idi. Müstəqil siyasət yürüdən Şəddadi hökmdarı Gəncədə öz adına pul kəsdirmişdi.

**?** *Xudafərin körpüsünün tikilməsinin əhəmiyyətini izah edin və xəritədə göstərin.*

Yarandığı vaxtdan Bizansın himayə etdiyi erməni-gürcü hakimlərinə qarşı mübarizə aparan Şəddadilər dövləti XI əsrin 30-cu illərində ərazisində oğuz türklərinin məskunlaşması ilə hərbi gücünü daha da artırdı. Bizans, erməni, gürcü feodallarının Azərbaycanı işğal etmək planları puça çıxdı. Şəddadilərin görkəmli hakimlərindən olan Əbüləsvar Şavurun dövründə (1049–1067) dövlət daha da gücləndi. Şavur iqtisadi, ictimai həyatda, xüsusilə orduda bir sıra faydalı islahatlar keçirərək Gürcüstanla və Şirvanşahlarla müharibələr apardı.



*Gəncənin qala qapıları*

O, 1062-ci ildə Alanların yürüşündən müdafiə olunmaq məqsədilə Gəncənin ətrafına xəndək qazdırıb qala divarları çəkdirdi. Onun tapşırığı ilə Dəmirçi İbrahim 1063-cü ildə Gəncənin qala qapılarını düzəltdi. Lakin siyasi vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq Şavur hakimiyyətinin sonunda Səlcuq dövlətinin vassalığını qəbul etməyə məcbur oldu.

**?** *Əbüləsvar Şavurun Şəddadilər dövlətinin tarixində rolunu necə qiymətləndirirsiniz?*

**Dövlətin tənəzzülü.** Şəddadilər dövlətinin axırıncı əmiri olan III Fəzlin dövründə (1074–1088) Səlcuq dövləti ilə münasibətlər kəskinləşdi. Səlcuq türkləri Şəddadilərin daxili müstəqilliyini özləri üçün təhlükə hesab edirdilər. Ona görə də Səlcuq sultanı I Məlikşah öz sərkərdəsi Buğanı qoşunla Gəncəyə göndərdi. Buğa 1088-ci ildə Gəncəni tutdu və Şəddadilər dövlətinin tarixi sona çatdı. I Məlikşah Gəncəyə öz əmirini hakim təyin etdi. Az sonra Şəddadilərin bütün ərazisi ələ keçirildi.

LAYİHƏ



Köhnə Gəncə



Yeni Gəncə

**Tiflis müsəlman əmirliyi.** İslam dini bölgəyə gəlişindən etibarən indiki Gürcüstan torpaqlarında da yayılmağa başlamışdı. VIII əsrin 30-cu illərində ərəblər Şərqi Gürcüstana yiyələndikdən sonra Tiflis şəhərini əmirliyin mərkəzinə çevirdilər.



Tiflisdə müsəlman hamam kompleksi

Əvvəllər bütün Şərqi Gürcüstan Tiflis əmirinə tabe idi. Sonralar Xilafətin zəifləməsi nəticəsində buradakı ərəb əmirliyinin ərazisi Tiflis və ətraf ərazilərlə məhdudlaşdı. IX əsrdən etibarən əmirliyin müstəqillik uğrunda mübarizəsi başlandı və 80-ci illərdə onlar buna nail oldular. 1121-ci ildə baş vermiş Didqori döyüşü nəticəsində 1122-ci ildə Tiflis müsəlman əmirliyi ləğv edilərək Gürcüstan dövlətinin tərkibinə qatıldı. Tiflis əmirliyi dövründə hakimiyyət ardıcıl olaraq 3 sülalənin – Şüeybilər, Şeybanilər və Cəfərilər sülalələrinin əlində cəmləşmişdi.

? *Tiflis müsəlman əmirliyi necə yaranmışdı?*

Ərəb coğrafiyaşünası əl-İstəxri qeyd edir ki, “Arranda Bərdə, Bab ül-Əbvab və Tiflisdən böyük” şəhər yoxdur. Tiflis Arranın şəhəri hesab edilirdi. O, Bərdə və Dərbənd qədər böyük olmasa da, “çox məhsuldar, meyvəsi və əkin sahələri bol olan yer” idi.

? *Ərəb coğrafiyaşünasının Tiflis şəhəri haqqında dediklərini necə qiymətləndirirsiniz?*

LAYİHƏ



***Tiflis şəhərinin görüntüsü***

M

*“Qardaşlar (Ləşkəri və Fəzl – red.) göz yaşları ilə qucaqlaşdılar. “İndi sən salamatsan, – Ləşkəri qardaşına dedi, – Bəs hansı ağılsız sənə ürəyimi bu cür yaralamağı məsləhət gördü?” Fəzl ona cavab verdi: “Şəhərin sakinləri bir fikrə gəlib bizə tabe olmağa hazırdılar”. Ləşkəri Fəzlə qaytardı ki, “qardaşım, atamız Dəbildə necə hərəkət etdiyini yaxşı bilirsən. Biz artıq 20 ildir ki, dünyanı gəzib dolanırıq və heç yerdə bizi qəbul etmirlər, yeməkdən doymuruq. Əgər biz bu ölkəyə getsək, onun hakimi ilə birləşməli olacağıq, onda isə bizi mühasirəyə salıb məhv edəcəklər, çünki qoşunumuz azsaylıdır. Onda bizi kim xilas edə bilər? Belə şəraitdə vədlərin çoxu yalan çıxa bilər. Aldığımız dərslər kifayətdir”. Fəzl cavab verdi: “İnsan yüksək məqsədlərə can atmalıdır. Əgər o məqsədə nail olursa, onun arzuları gerçəkləşir. Əgər də məqsədə çata bilmirsən, xəcalət çəkmək lazım deyil”. Ləşkəri Fəzlin sözlərini bəyəndi və o, qardaşının təklifini qəbul etdi. Fəzl Gəncəyə qayıtdı, ağsaqqalları şəhər darvazası qarşısına topladı və onları and içməyə məcbur etdi. O vaxt şəhər başçısı tacir Yüsif əl-Qəzzaz olmuşdu. Fəzl onunla və onun tərəfdarları ilə müqavilə bağladı. Gəncəlilər and içdi ki, Fəzl və onun qardaşı Gəncədə qalarsa, darvazanı onlara açarlar, Salarilərin canişinini isə həbs edib onlara təhvil verəcəklər. Ondan sonra Yüsif əl-Qəzzaz bir dəstə igidlər toplayıb silahlandıraraq onlarla canişinin sarayına daxil olub canişini həbs etdi. Sonra şəhər darvazasını açdılar, Ləşkəri ibn Məhəmməd şəhərə daxil olub əmir taxtına çıxdı”.*

***Lütfullah Münəccimbaşının “Cəmi ət-döval” əsərindən***

*Mənbə əsasında qardaşların dialoqunu şərh edin.*

?

*1. Fəzl ibn Məhəmmədin dövləti möhkəmləndirmək üçün atdığı addımlar hansılardır?*
*2. Nə üçün Tiflis şəhərini Arranın şəhərləri sırasında qeyd edirlər?*
*3. Oğuz və Səlcuqların Şəddadilər dövlətinin ərazisinə gəlməsinin əhəmiyyətini izah edin.*
*4. Şəddadilər dövlətini Salarilər və Şirvanşahlar dövlətləri ilə müqayisə edin.*

LAYİHƏ



16

# ERKƏN ORTA ƏSRLƏRDƏ SOSİAL-İQTİSADİ HƏYAT

*Azərbaycanın əlverişli iqliminin, təbii imkanlarının və zəhmətkeş əhalisinin olması kənd təsərrüfatının yaxşı inkişafına zəmin yaradırdı. Yeni kanal və arxların çəkilməsi isə quru iqlim şəraitində daha çox məhsul götürülməsinə imkan verirdi.*

*texniki bitkilər, vəqf, mülk, icma, divan, xalisə, gezit, xaraq, xərac, cizyə, xüms, zəkat*

**Kənd həyatı.** III–XI əsrlərdə əhalinin əsas məşğuliyyəti əkinçilik, maldarlıq, bağçılıq idi. Əkinçilik məhsullarından buğda, arpa, çəltik, vələmir və s. daha geniş yayılmışdı. Taxılı iri gil küp qablarda və xüsusi toxunmuş səbətlərdə saxlayırdılar. Ərəb coğrafiyaşünasları Əbu Duləf və əl-İstəxri etiraf edirdilər ki, bağlarımızda yetişən ləziz meyvələrin bir çoxuna *(gilas, nar, heyva, əncir, zeytun, tut və s.)* dünyanın bir çox ölkələrində təsadüf edilmir.



***Pambıqçılıq***

Texniki bitkilərdən pambıq, kətan becərilirdi. Mil, Muğan, Şirvan və cənub bölgələrində pambıq daha çox əkilirdi. Şəkidə, Şirvanda, Bərdədə xam ipəyə, ondan hazırlanmış parçalara böyük maraq vardı. Kənd təsərrüfatının inkişaf etmiş sahələrindən biri də maldarlıq idi. Yaşıl meşələrin, şirin sulu çayların və sərin bulaqların, otu bol olan qışlaqların olması iri və xırdabuynuzlu mal-qara, at, dəvə, qatır və s. saxlamağa imkan verirdi. Mənbələrin birində təkcə Şirvanşah I Fəribürzün ilxısında 4000 baş at olduğu qeyd edilir. Azərbaycanın dəniz və çay sahili ərazisinin əhalisi balıqçılıqla da məşğul olurdu. Arıçılığın inkişafına xüsusi diqqət yetirilirdi.

?

*Əkinçilik və maldarlığın inkişafına təkan verən əsas amillər hansılardır?*

**Şəhər həyatı.** Erkən Orta əsrlərdə sənətkarlığın və ticarətin inkişafı ilə əlaqədar şəhərlər çoxalır və böyüyürdü. Azərbaycanda hər birində 10 minə qədər əhali yaşayan Ərdəbil, Sərab, Miyanə, Təbriz, Marağa, Naxçıvan, Gəncə, Bakı, Dərbənd, Şəki və başqa şəhərlər var idi. Şəhər əhalisi sənətkarlıq və ticarətlə yanaşı, əkinçilik və bağçılıqla da məşğul olurdu. Az miqdarda mal-qara da saxlanırdı. Azərbaycanın orta əsr şəhərlərinin hamısı zahiri görünüşcə bir-birinə bənzəyən qala divarları ilə əhatə olunurdu.

LAYİHƏ

Şəhərlərin ətrafına hasarlar çəkilir, xəndəklər qazılırdı. Qala divarları, əsasən, daşdan və ya çiy kərpicdən hörülürdü. Bütün müsəlman şəhərlərində olduğu kimi, Azərbaycan şəhərlərində də bazar meydanı və onun yanında Cümə məscidi olurdu. Dövrün ən böyük şəhərlərindən biri olan Bərdə slavyanların qarətindən sonra əvvəlki şöhrətini, mövqeyini itirdi. Şəddadilər dövlətinin paytaxtı Gəncə şəhəri isə Qafqazın iri ticarət və mədəniyyət mərkəzinə çevrildi. Burada gözəl saraylar, əzəmətli məscidlər, mədrəsələr, karvansaralar, hamamlar, zərbxanalar, dövrün digər gözəl mədəniyyət abidələri tikilirdi. Azərbaycanın qərb torpaqlarına, Gürcüstana və Qara dəniz sahillərinə gedən ticarət yolu Gəncədən keçirdi. Gəncə sənətkarlarının hazırladığı məmulatlar, gözəl ipək parçalar, xalçalar, xalılar Səlcuq sultanlarının saraylarını bəzəməklə bərabər, dünya bazarlarına da çıxarılırdı. Ən böyük liman şəhəri Dərbənd idi.



***Bərdə şəhərinin maketi, VII–IX əsrlər***

?

*Orta əsrlərdə şəhərlərin inkişafı nə ilə əlaqəli idi?*

Şəhərlərdə yaşayan əhalinin başlıca məşğuliyyəti sənətkarlıq və ticarət idi. Sənətkarlar yun, kətan və ipəkdən istifadə edərək müxtəlif parçalar hazırlayırdılar. İpək istehsalı geniş yayılmışdı. Azərbaycan orta əsrlərdə dünyada ipəkçiliyin əsas vətənlərindən biri idi. Bərdə şəhəri ipəkçilik mərkəzi kimi daha çox fərqlənirdi. Dərbənddə istehsal edilən kətan parça qonşu ölkələrə aparılırdı.

Azərbaycan zəngin faydalı qazıntılara malik idi. Sənətkarlar dəmir, qızıl, gümüş, mis və başqa metallardan cürbəcür əşyalar düzəldirdilər. Müxtəlif növ saxsı və şüşə qablar istehsal olunur və bəzək əşyaları da hazırlanırdı.



***Orta əsr müsəlman şəhərində bazar meydanı***

?

*Erkən Orta əsrlərdə sənətkarlıq və ticarətin inkişafına təsir edən amillər hansılar idi?*

Müxtəlif istiqamətlərə gedən ticarət yolları Azərbaycan ərazisindən keçirdi. Ticarət həm quru, həm də su yolları vasitəsilə həyata keçirilirdi. Xilafət dövründə Bərdə şəhəri ərəblərin şimalla tranzit ticarətinin mərkəzinə çevrildi. Burada məşhur Kürki bazarı salınmışdı. Xarici ölkələrlə ticarətdə Hindistan və Çin xüsusilə fərqlənirdi. Çünki qədim İpək yolunun Azərbaycandan keçən hissəsi daha işlək idi. Dünya bazarına ipək, pambıq parça, boyaq maddələri, neft, təzə və qurudulmuş meyvə, balıq və s. çıxarılırdı.

*Erkən Orta əsrlərdə dünya bazarlarına çıxarılan Azərbaycan məhsulları ilə müasir dövrdəki ixrac məhsullarını müqayisə edin.*

LAYİHƏ

**Feodal torpaq mülkiyyətinin formaları.** Orta əsrlərdə Azərbaycanda, dünyanın bir çox başqa yerlərində olduğu kimi, feodal münasibətlərinin hökm sürməsi ilə bağlı torpaq əsas istehsal vasitəsi rolunu oynayırdı. Buna görə də feodal münasibətləri inkişaf etdikcə torpaq mülkiyyəti formaları müxtəlif xarakter alırdı. Sasanilərin dövründə Azərbaycan ərazisində feodal torpaq mülkiyyətinin iki əsas forması var idi:

*1. Dastakert – nəsli, yəni irsi;*

*2. Xostaq – şərti.*

Sasani I Xosrov Ənuşirəvanın (531–579) dövründə boş qalmış torpaqlar hesabına şərti torpaq mülkiyyət forması yarandı.

Zərdüşt kahinləri Sasani dövlətində xüsusi yer tutduqları üçün onların ixtiyarına da torpaq verilirdi.

Xilafət dövründə 5 torpaq mülkiyyət növü var idi:

1. *Torpaqların bir hissəsi dövlətə məxsus idi. Bu cür torpaqlar **divani** adlanırdı. Onlardan əldə edilən gəlir xəzinəyə daxil edilirdi.*
2. *Ölkədə iri feodalların və onların vassallarının əlində olan torpaqlar **mülk** (əmlak) adlanırdı. Xilafət dövründə belə mülk sahibləri malik adlanırdı və torpaqdan istədiyi kimi istifadə edə bilərdi.*
3. *Dövlətə göstərdiyi xidmətə görə verilən torpaq **iqta** adlanırdı. Şərti xarakter daşıyırdı. Divan torpaqlarından verilirdi.*
4. *Məscidlərə, müqəddəs yerlərə, ruhani idarələrinə, xeyriyyə cəmiyyətlərinə məxsus torpaqlar **vəqf** adlanırdı. Onlar yalnız icarəyə verilə bilərdi.*
5. *Mülkiyyət formalarından biri **icma** idi. Əslində, kənd icmasının özünün torpağı olmurdu. Onların istifadə etdiyi torpağın sahibi dövlət idi.*

IX–XI əsrlərdə torpaq mülkiyyət formasında cüzi dəyişiklik edildi. Dövlət torpaqları: divani-dövlətə məxsus olan gəliri birbaşa xəzinəyə gələn torpaqlara və xalisə (xass) – ayrı-ayrı hökmdarların və sülalələrin mülkiyyətində olan torpaqlara bölündü. Xilafət dövründəki digər topraq mülkiyyət növlərinə toxunulmadı.

*Sasani dövrü, xilafət dövrü və IX–XI əsrlərdə mövcud olan torpaq mülkiyyət formalarını müasir dövrdə Azərbaycanda mövcud olan torpaq mülkiyyət formaları ilə müqayisə edin.*

**Vergilər.** Müasir dövrdə vergilər müəyyən edilmiş qanun çərçivəsində təsərrüfat subyektlərindən və əhalidən dövlət tərəfindən alınan icbari ödənişlər kimi təyin olunur. Onların toplanmasında əsas məqsəd dövlət xərclərinin ödənilməsi idi. Ona görə də vergilər, demək olar ki, ilk dövlət qurumlarının meydana gəlməsi ilə yaranmışdı. Orta əsrlərdə, dövlət idarəçiliyi inkişaf etdikcə toplanan vergilərin formaları, miqdarı daxili və xarici şəraitdən asılı olaraq dəyişirdi.


***Sasani pulu (Drahma)***

Sasanilər dövründə Azərbaycanda 2 əsas vergi növ var idi: **Xaraq** – torpaq vergisi olub, məhsulla alınırdı. Torpaq vergisi əkin sahəsinin şəhərə yaxın və uzaqlığından, məhsuldarlığından asılı olaraq təyin edilirdi. **Gezit** – can vergisi idi, bütün vergi verən əhalidən ildə bir dəfə toplanırdı.

LAYİHƏ

Xilafət dövründə vergi sistemi Sasani dövrünə uyğunlaşdırılmış, lakin ayrı-ayrı adamlardan deyil, bütün icmadan alınırdı. Əsas vergi **xərac** – torpaq vergisi idi. O, torpağı olanlardan məhsulla alınırdı. **Cizyə** – can vergisi idi. Müsəlman olmayan kişilərdən orduda xidmət etmədiklərinin müqabilində pulla alınırdı. Xilafət dövründə dini vergilər də var idi. **Xüms** – daşına bilən əmlakdan müxtəlif mülkiyyət və qənimət növlərindən alınan vergi idi. **Zəkat** (sədəqə) – maldarlığa, ticarət və sənətkarlığa, əkinçilik və meyvəçiliyə görə alınırdı. Şikəstlərin, əlacsızların ehtiyacı zəkatdan ödənilirdi. **Fitrə** isə ailənin hər bir yaşlı üzvündən Ramazan ayında bayram günü alınır və paylanırdı. Bu vergi növü ancaq varlı şəhərlilərdən alınırdı. IX–XI əsrlərdə torpaqdan istifadə müqabilində kəndlilərdən alınan vergi **üşr** (ondabir) adlanırdı.



***Abbasilərin qızıl pulu (1 dinar)***

*III–XI əsrlərdə mövcud olan vergi növlərinə aid cədvəl qurun və onları müasir dövrdə mövcud olan vergilərlə müqayisə edin.*

M

*Əl-İstəxri Azərbaycanın ayrı-ayrı bölgələrindən bəhs edərkən onun təbiəti, o cümlədən çayları, gölləri və dağları haqqında da məlumat verir. O, Azərbaycan ərazisində olan çaylardan dördünün – Kür (əl-Kürr), Araz (ər-Rass), Səfidrud və Samur çaylarının adlarını qeyd edir. Əl-İstəxri bu çaylardan yalnız ikisinin – Kür və Araz çaylarının gəmilərin hərəkəti üçün yararlı olduğunu göstərir. Müəllif yazır ki, hər iki çayın suyu şirindir. Araz çayı Muğana çatdıqdan sonra Kürə qovuşur və birlikdə dənizə tökülür. O yazır ki, Ərdəbillə Zəncan arasında yerləşən Səfidrud çayı gəmiçilik üçün yararlı deyil və kiçikdir.*

***Əl-İstəxrinin "Əl-məsalik va-l-məmalik" əsərindən***

*Əl-İstəxrinin verdiyi məlumatı şərh edin.*

?

*1. Sizcə, dənli bitkilərin texniki bitkilərə nisbətən daha çox becərilməsi nə ilə əlaqədardır?*
*2. Azərbaycanda orta əsr şəhər memarlığının xarakterik cəhətləri hansılar idi? Onları Avropa şəhərlərinin odövrkü memarlığı ilə müqayisə edin.*
*3. Orta əsrlər Azərbaycan şəhərlərində əhalinin həyat tərzini müasir dövrlə müqayisə edin.*

LAYİHƏ



# 17

## MƏDƏNİYYƏT

*Feodalizmin yaranması ilə Azərbaycan ərazisində mədəniyyətin inkişafı yeni mərhələyə qədəm qoydu. Azərbaycanda mədəniyyətin inkişafına tarixən ərazidə baş verən siyasi və hərbi hadisələr, eyni zamanda Azərbaycanın Şərqlə Qərbin qovşağında yerləşməsi təsir edib. Sasanilərin və ərəblərin dövründə vahid halda olan Azərbaycan ərazisində həm də vahid mədəniyyət formalaşdı. Sonradan yaranan müstəqil dövlətlər dövründə də bu ənənə davam etdi.*

*Alban əlifbası, Dərbənd səddi, "Kitabi-Dədə Qorqud", Cavanşir qalası*

**Yazı.** Atropatenada Sasani dövlətində tətbiq edilən pəhləvi yazı sistemindən istifadə edilirdi. III əsrdə Albaniyadan Romaya göndərilmiş sənəd və V əsrə aid fərman albanların yazı mədəniyyətindən xəbər verir. V əsrin əvvəllərində albanların 52 hərfdən ibarət əlifbası olmuşdur. Alban tarixçisi Moisey Kalankatlı yazısı olan xalqlar içərisində midiyalıları və albanları xüsusi qeyd etmişdir: "Yazıya malik olan xalqlar budur: yəhudilər, romalılar (bunların yazısından bizanslar da istifadə edirlər), ispanlar, yunanlar, midiyalılar və albanlar". Uzun müddət elmi, bədii, publisistik əsərlər, kargüzarlıq sənədləri alban dilində yazılmışdır.



**Mingəçevirdən tapılmış və üzərində alban yazısı olan daş abidə**

Ərəblər Sasanilər dövlətinin mövcudluğuna son qoyduqdan sonra bu ərazilərdə yeni yazıdan istifadə olunmağa başladı. Ərəb əlifbası türk dilləri üçün mükəmməl əlifba olmasa da, XX əsrin əvvəllərinə qədər bu əlifbadan Azərbaycanda geniş istifadə edilmişdir.



**Nəqşi-Rüstəmdə pəhləvi dilində yazı**

*Albaniyada hansı yazı növlərindən istifadə olunurdu?*

**Memarlıq.** Ərəb istilasından sonra Azərbaycanda islam dininin yayılması ilə bağlı memarlığın da inkişaf yönü dəyişdi. Memarlıqda yeni tipli binaların – məscid, mədrəsə, türbə, karvansara və s. tikilməsi əsas xətt oldu. Bu dövrdə islam dini ilə bağlı tikililərlə yanaşı, Qafqaz Albaniyasının bəzi əyalətlərində xristian məbədləri, müdafiə istehkamları inşa edilirdi. Bunlardan indiki İsmayıllı rayonu ərazisində salınmış Cavanşir qalası və Qazax rayonunun Yuxarı Əskipara kəndi yaxınlığındakı qala kompleksi diqqəti cəlb edir.

LAYİHƏ

Ümumiyyətlə, islamdan öncəki və sonrakı dövrlərdə Azərbaycan ərazisində inşa edilmiş alban tikililəri memarlığın inkişafında önəmli rol oynamışdır. Azərbaycanın şimalında – Albaniyada erkən orta əsrlərdə Şirvan və Samur sədləri inşa edilmişdi.

**ERKƏN ORTA ƏSRLƏRDƏ ALBAN MEMARLIQ ABİDƏLƏRİ**

- Dərbənd səddi
- Alazan çayı sahilində Torpaqqala
- İsmayıllı ərazisində Cavanşir qalası
- Ağdam ərazisində Govurqala
- Ağdərə ərazisində Çarabkert qalası
- Xocavənd ərazisində Amaras monastırı
- Laçın ərazisində Ağoğlan məbədi
- Şabran ərazisində Çıraqqala

? *Sizcə, Şirvan və Dərbənd səddi hansı məqsədlə inşa edilmişdir?*

**VII–X ƏSRLƏR AZƏRBAYCAN MEMARLIQ NÜMUNƏLƏRİ**

- 920-ci ildə Şamaxının Sündü kəndində tikilmiş günbəzli məscid
- Lerikdə Oğlanqala
- Naxçıvanda Əlincə qalası (IX əsr)
- Bərdədə Tərtər çayı üzərində körpü

? *Orta əsr memarlıq nümunələrinin dövrün öyrənilməsində nə kimi rolu vardır?*

Ərəb xilafətinin yüksəlişi dövründə Azərbaycan memarlığının inkişaf mərkəzi Bərdə şəhəri idi. Mənbələrdə "bu yerlərin Bağdadı" adlandırılan Bərdədə geniş tikinti işləri aparılmış, çoxlu məscid və başqa dini binalar, karvansara, bazar, hamam və s. tikilmişdi.

? *Bərdə şəhərini Bağdadla müqayisə edin. Nə üçün Bərdə "bu yerlərin Bağdadı" adlandırılırdı? Fikirlərinizi bildirin.*

**Xalçaçılıq.** 2010-cu ilin noyabr ayında UNESCO-nun "Qeyri-maddi Mədəni İrs" siyahısına salınmış Azərbaycan xalçaları çox qədim tarixə malikdir. Hələ VII əsr alban tarixçisi Moisey Kalankatlı Albaniyada xalça istehsalı və zadəganların məişətində bunlardan istifadə edilməsi barədə məlumat verir. VII əsr Çin səyyahı Xuan-Tes-ank Azərbaycanı iri xalça istehsalı mərkəzi adlandırır. Bunu arxeoloji tədqiqatlar da sübut edir. Ölkəmizdə VII əsrə aid toxuculuq dəzgahı, yun iplərin qalıqları, xalçaçının əmək alətləri, keçə, çürümüş xalı və palaz parçaları tapılmışdır. Şahənşah I Xosrova (531–579) məxsus "Xosrovun baharı" adlı xalçanı, demək olar ki, bütün tədqiqatçılar təsvir etmişlər. Bu da təsadüfi deyil ki, həmin süjet sonrakı əsrlərdə inkişaf etdirilmiş və öz inkişafını ***"Dörd fəsil"*** adlanan çoxsaylı Təbriz xalçalarında tapmışdır. Orta əsr mənbələrində Azərbaycan xalçalarının xüsusiyyətlərindən və tiplərindən də bəhs edilir.



*"Dörd fəsil" xalçası*

Layihə

IX–X əsr ərəb tarixçisi ət-Təbəri Azərbaycan xalçalarının yüksək keyfiyyəti barədə məlumat verir. X əsrə aid “Hüdud-əl-Aləm” adlı müəllifi naməlum olan mənbədə qeyd edilir ki, Azərbaycanın Mərənd, Gəncə, Şəmkir şəhərlərində yüksək keyfiyyətli yun məmulatlar istehsal edirdilər. Naxçıvan, Xoy, Muğan, Salmas və Ərdəbildə toxunan xalça və palazlar böyük şöhrət qazanmışdı.

Ərəb səyyahı əl-Məsudi yazırdı ki, Mərənddə, Təbrizdə, Ərdəbildə “Məxfur” adlı xalçalar istehsal edilir. Digər ərəb müəllifi əl-Müqəddəsi gözəl Qarabağ xalçaları, xüsusən “…misli-bərabəri olmayan” Bərdə xalçaları haqqında məlumat verir. Ərəb müəllifi əl-İstəhri Bərdədən Hindistana ixrac edilən qızılı boyaq maddəsi (boyaqotu – marena) barədə, əl-Müqəddəsi, Gövhəl kimi digər müəlliflər isə al-qırmızı boya alınan və hətta Avropaya ixrac edilən “qırmız” adlı xüsusi qurdlar haqqında məlumat verirlər.

**Din.** III–VII əsrlərdə Azərbaycanın cənubunda atəşpərəstlik, şimalında isə çoxtanrılıq, alban türkləri arasında ulu Tanrıya sitayiş – Tanrıçılıq, eləcə də xristianlıq mövcud idi. I Şapurun hakimiyyəti dövründən başlayaraq, Sasani şahları atəşpərəstliyi zorla yaymağa çalışırdılar.

Sasanilərin dini siyasəti atəşpərəstliyi yaymaqla yanaşı, xristianlığın təbliğinin qarşısını almağa və əsarət altına salınmış xalqları itaətdə saxlamağa yönəlmişdi. Hələ I əsrdə Alban torpaqlarında xristianlıq yayılmağa başlamış, IV əsrdə isə rəsmiləşdirilmişdi.

VII–VIII əsrlərdə Qafqazın Ərəb Xilafətinin tərkibinə daxil olması ilə Azərbaycanda islam dini yayılmağa başlamışdı. Bu isə burada islam mədəniyyətinin inkişafına səbəb olmuşdu.



***Atəşgah***



***Kilsə***



***Məscid***

? *Müasir Azərbaycan ərazisində müxtəlif dini ibadətgahların olması nəyi sübut edir?*

**Azərbaycan xalqının təşəkkülü.** Azərbaycan xalqının əcdadları qədim çağlardan çox geniş torpaqları əhatə edən böyük **bir ərazidə** yaşamışlar. Bu ərazinin sərhədləri cənubda Qızılüzən çayından başlayıb, şimalda Dərbənd də daxil olmaqla, Qafqaz dağlarına qədər uzanırdı.

**AZƏRBAYCAN XALQININ TƏŞƏKKÜLÜ**
Dünyanın başqa xalqları kimi, Azərbaycan xalqının da təşəkkülü üçün dörd əsas şərt vacib sayılır.

- **Ərazi birliyi**
- **Dil birliyi**
- **Vahid mədəniyyət**
- **Məhəlli iqtisadi əlaqələrin mövcudluğu**

Əlbəttə ki, yuxarıdakı şərtlərin yetişməsi üçün əsrlərlə vaxt lazım gəlmişdir.

LAYİHƏ

*Xalqın təşəkkülü üçün lazım olan şərtlər hansılardır?*

1300 il bundan əvvəl türklərin yaşadıqları bütün torpaqlarda yayılmış "Kitabi-Dədə Qorqud" dastanı xalqımızın ana qaynağıdır.

"Kitabi-Dədə Qorqud" dastanında cərəyan edən hadisələr tarixi Azərbaycan torpaqlarında baş vermişdir. Dastana görə, Oğuz türkü üçün Vətən, Yurd ən müqəddəs anlayış idi.

Dastan onun yayıldığı geniş ərazidə **vahid dildə** – türk dilində danışan böyük bir xalqın yaşadığını sübut edir.

Hiylə ilə qələbə qazanmaq, aman diləyəni öldürmək, qaçanı qovmaq oğuz türklərinə yad idi. Namus, ismət oğuz qadınları üçün çox müqəddəs sayılırdı.



***Dədə Qorqud***



***"Kitabi-Dədə Qorqud"un Vatikan nüsxəsi***



***"Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsi***

*"Kitabi-Dədə Qorqud" dastanı hansı ərazilərdə yayılmışdı? Bu dastanın Azərbaycana aid olduğunu sübut edin.*

**Ümumi mədəniyyətin** formalaşmasında isə islam dininin yayılması misilsiz rol oynadı. İslam dini türk və qeyri-türk etnoslarının vahid xalq kimi formalaşması və ümumi mədəni dəyərlər əsasında birləşməsi üçün zəmin yaratdı.

***III–IX əsrlərdə Azərbaycan torpaqlarının vahid şəkildə əvvəlcə Sasani dövlətinin, sonralar isə Ərəb Xilafətinin tərkibinə daxil edilməsi, həmçinin karvan yollarının buradan keçməsi bütün ölkədə ümumi iqtisadi əlaqələrin möhkəmlənməsinə səbəb oldu.***

***XI əsrdə oğuz türklərinin Azərbaycana kütləvi axınları nəticəsində xalqımızın formalaşması prosesi başa çatdı.***

1. *VII əsrdə yayılmış islam dini xalqın həyat tərzinə nə kimi təsir göstərdi? Dastana əsasən fikirlərinizi bildirin.*
2. *"Kitabi-Dədə Qorqud" dastanında hansı qəhrəmanları tanıyırsınız?*
3. *Alban əlifbası, ərəb əlifbası və latın qrafikalı Azərbaycan əlifbasını müqayisə edin. Oxşar və fərqli cəhətləri müəyyənləşdirin.*
4. *III–XI əsrlərdə Azərbaycan mədəniyyətinin inkişafına təsir göstərən amilləri təhlil edərək dəyərləndirin.*
5. *III–XI əsr mədəniyyətini dövrlərə bölməklə Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirin.*
6. *VII əsrdən etibarən Azərbaycan mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi referat hazırlamaqla təqdim edin.*
7. *"III–XI əsrlərdə Azərbaycanda din" adlı təqdimat hazırlayın.*

LAYİHƏ



# III. AZƏRBAYCAN XI–XV ƏSRLƏRDƏ

XI əsrin ortalarında səlcuq türklərinin Mərkəzi Asiyadan Qafqaz və Ön Asiya istiqamətində yürüşləri bu bölgələrin siyasi xəritəsini dəyişdi, Avropa səlibçilərinin Şərq ölkələri üzərinə hücum planlarını alt-üst etdi. Rəvvadilər və Şəddadilər dövlətlərinin süqut etməsi, Şirvanşahlar dövlətinin isə asılı vəziyyətə düşməsi ilə Azərbaycan da Böyük Səlcuq imperiyasının tərkibinə daxil edildi. Lakin bu imperiyanın ömrü uzun olmadı və onun parçalanması nəticəsində ayrı-ayrı feodal dövlətlər – Atabəyliklər yarandı. Azərbaycan Atabəyləri (Eldənizləri) dövləti onların arasında xüsusilə seçilməyə başladı və tezliklə böyük əraziləri əhatə etdi. Bu dövrdə Azərbaycanda təsərrüfat və mədəniyyət canlandı.

XIII əsrin 20-ci illərində başlanan monqol yürüşləri İntibah dövrünü yaşayan Azərbaycanın sosial-iqtisadi inkişafına ağır zərbə vurdu. Çiçəklənən orta əsr şəhər və kəndlərimizin çoxu tənəzzülə uğradı, əhalini içməli su ilə təchiz edən arx və kanallar dağıdıldı. Yalnız Hülakü hökmdarı Qazan xanın islahatlarından sonra ölkədə müəyyən dirçəliş baş verdi. Bu dövlətin süqutu ilə vəziyyət yenidən ağırlaşdı: Azərbaycan şimaldan Qızıl Ordu xanı Toxtamışın, cənubdan Əmir Teymurun, cənub-qərbdən isə Cəlairi hakimlərinin yürüşlərinə məruz qaldı. Şirvanşah I İbrahim belə mürəkkəb şəraitdə ağıllı, uzaqgörən siyasət yeridib ölkəsini dağılmaqdan, əhalini isə qırğınlardan xilas etdi.

XV əsr Azərbaycan tarixində Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması və yüksəlişi dövrü kimi səciyyələnir. Lakin ara müharibələri və daxili çəkişmələr bu qüdrətli Azərbaycan dövlətlərinin uzun müddət tarix səhnəsində qalmalarına, onların mərkəzləşmiş dövlətlərə çevrilmələrinə imkan vermədi.

LAYİHƏ



18

# AZƏRBAYCAN VƏ SƏLCUQLAR

*Azərbaycan Asiyadan Avropaya qədər geniş əraziləri vahid halda birləşdirən Səlcuq imperiyasına tabe olduqdan sonra burada vahid xalqın formalaşması prosesi başa çatdı. Səlcuq imperiyasının tərkibində olduğu müddətdə Azərbaycan önəmli siyasi, iqtisadi və mədəni mərkəzlərdən birinə çevrildi.*

*Toğrul bəy, Nişapur, Vəhsudan, Əbüləsvar Şavur*

**Azərbaycanın Böyük Səlcuq imperiyasının tərkibinə daxil olması.** Azərbaycan qədim dövrlərdən türklərin, o cümlədən oğuzların ana vətəni olmuşdur. Türk tayfalarının üçüncü axını olan Səlcuqların gəlişi ilə Azərbaycan xalqı Cənubi Qafqazda başlıca etnik və siyasi amilə çevrildi.



**Səlcuq dövlətinin gerbi**

XI əsrin ortalarında Mərkəzi Asiyadan Aralıq dənizinə, Dərbənd keçidindən İran körfəzinə qədər geniş bir ərazidə Böyük Səlcuq imperiyası yarandı. Səlcuqların adı oğuz türklərinin Qınıq tayfasından olan və X əsrdə islam dinini qəbul edən türk sərkərdəsi Səlcuqla bağlıdır.




Böyük Səlcuq imperiyası
Bizans imperiyası

LAYİHƏ



*I Toğrul (1038–1063)*

*Miniatürə əsasən, Səlcuqların geyim və silahları haqqında fikirlər bildirin.*

Qəznəlilər tərəfindən sıxışdırılan Səlcuqlar XI əsrdə qərbə doğru hərəkət etməli oldular. Bu zaman onların əsas hədəfi Bizans idi. Səlcuqların başçısı Toğrul bəyin 1015-ci ildə verdiyi əmrlə qardaşı Çağrı bəy kəşfiyyat yürüşünə çıxaraq Bizans qoşununa qalib gəldi. Bu qalibiyyət nəticəsində Van gölü hövzəsi, Naxçıvan və ətrafındakı Azərbaycan torpaqları nəzarət altına alındı. Xorasanda məskən salan Səlcuqlar 1038-ci ildə paytaxtı Nişapur olan ilk Səlcuq dövlətini yaratdılar. I Toğrul (1038–1063) 1040-cı ildə sultan elan edildi. Həmin ildə keçirilən Mərv qurultayında qərbə və şərqə doğru yeni hərbi yürüşlərə başlamaq qərara alındı. Səlcuqlar dövlətinin paytaxtı 1043-cü ildə Nişapurdan Reyə köçürüldü.



***1040-cı il mayın 23-də Mərv yaxınlığında Səlcuqlarla Qəznəlilər arasında baş verən Dəndənəkan döyüşü. Miniatür***

Azərbaycan ərazisi Səlcuqların yürüş etdiyi istiqamətlərdən biri oldu. Qərbi İranı və Azərbaycanın cənub ərazilərini İbrahim Yınalın başçılığı altında olan qüvvələr tabe etdi. Sərkərdə Kutalmış isə öz qoşunu ilə Xəzərin cənubu ilə hərəkət edərək Araz çayını keçdi və Arana daxil oldu. Bundan sonra Şəddadilərlə birləşən Kutalmış Bizans ordularına qarşı uğurlu əməliyyata başladı.

*Səlcuqların Azərbaycan ərazilərinə yürüş istiqamətlərini xəritədə göstərin.*



LAYİHƏ

1048-ci ildə Səlcuq-Azərbaycan qoşunu Şərqi Anadoluda uğurlu əməliyyatlar həyata keçirərək Bizansa ciddi zərbə vurdu.

Rəvvadi hökmdarı Vəhsudan müqavimətin əhəmiyyətsiz olduğunu görüb 1054-cü ildə Səlcuqlara tabe oldu.

Azərbaycan şəhərlərinin – Xoy və Salmasın əhalisinin müqaviməti heç bir nəticə vermədi. Şəddadi hökmdarı Əbüləsvar Şavur Səlcuqlarla saziş imzaladı. Bu sazişin şərtlərinə görə Şəddadilər Səlcuq türkləri ilə birlikdə Bizansa və erməni-gürcü feodallarına qarşı mübarizə aparmalı idilər.



***Alp Arslan dövrünün qızıl pulu, dinar***

Azərbaycan ərazilərinin asanlıqla Səlcuqlar tərəfindən tutulmasının bir neçə səbəbi var idi. İlk növbədə, Azərbaycanda yaşayan əhali Səlcuqların soydaşları idi, yəni hər ikisi türk idilər. Bundan başqa, Səlcuq türklərinin Azərbaycana yürüşü zamanı burada vahid dövlət yox idi. Yerli əhali Bizans-erməni-gürcü feodallarına qarşı mübarizədə Səlcuqlara uğurlu müttəfiq kimi baxırdı.

*Səlcuqlarla Şəddadilər arasında imzalanmış sazişin nəticələrini müzakirə edin.*

?

*Səlcuqlar hansı Azərbaycan dövləti ilə ittifaqda idi?*



***Səlcuq sərkərdəsi Qaratəkin yürüşdə***

Rəvvadi və Şəddadilərin Səlcuqlara tabe olmasından sonra Azərbaycan ərazisində müstəqil xarici siyasət yeridən yeganə dövlət Şirvanşahlar idi.

Səlcuq sərkərdəsi Qaratəkin 1066-cı ildə Şirvanşahlar üzərinə hücuma keçdi və I Fəribürzü asılı hala salıb onu Şirvanşah titulu daşımaqdan məhrum etdi. Bununla da, Azərbaycan bütövlükdə Səlcuq imperiyasının tərkibinə qatıldı.

M

*"Məlikşah çox dindardır. Alimlərə hörmət edən, kasıblara yardım edən, xalqına ədalət bəxş edən bir cahan hökmdarıdır".*

***Nizamülmülkün "Siyasətnamə" əsərindən***

*Mənbə əsasında I Məlikşahı müsəlman Şərqinin digər hökmdarları ilə müqayisə edin.*

LAYİHƏ

Səlcuq İmperiyası Yaxın və Orta Şərqin yalnız sosial-iqtisadi və mədəni həyatında deyil, eyni zamanda hərbi-siyasi tarixində mühüm rol oynamışdır. XI əsrin sonlarından başlayan səlib yürüşləri zamanı onlara ağır zərbələr endirən səlcuqlar son nəticədə türk və islam dünyasına böyük xidmət göstərmiş, katolik kilsəsi və Qərbi Avropa dövlətlərinin Şərqlə bağlı istilaçı planlarının həyata keçirilməsinə imkan verməmişdilər.



***Səlcuqların səlibçilərlə mübarizəsi***

Səlcuq türklərinin Cənubi Qafqaza gəlməsi Bizansın bu torpaqlarda möhkəmlənmək cəhdlərinin qarşısını aldı. Bizansa arxayın olub Azərbaycanın qərb torpaqlarını ələ keçirməyə çalışan gürcü və ermənilərin qəsbkarlıq planları puça çıxdı. Bununla da, türk və islam amili Cənubi Qafqazda, o cümlədən Azərbaycanda qəti olaraq möhkəmləndi.

M

*“Bir dəfə Alp Arslan namaz qılan vaxtı qabağına imzasız bir şikayət məktubu atırlar. Məktubla tanış olan sultan Xacəni çağırıb belə deyib: "Əgər doğru söyləyirlərsə, əxlaqını düzəlt, iftiradırsa, onları bağışla və bu kimi şeylərə vaxt tapmamaları üçün mühüm işlərlə məşğul elə".*

***Nizamülmülkün “Siyasətnamə” əsərindən***

?

*Bu mənbədə Alp Arslanın xarakterinin hansı xüsusiyyəti öz əksini tapıb?*

?

*1. Səlcuqlar yürüş edəndə Azərbaycanda hansı dövlətlər var idi?*
*2. Azərbaycanda hansı dövlətlər Səlcuqlara tabe olmayıb müqavimət göstərib?*
*3. Səlcuqların yürüşlərinin Azərbaycan üçün nəticələri hansılardır?*
*4. Səlcuq dövlətinin paytaxtı olmuş şəhərləri sadalayın.*
*5. Səlcuqlar islamı nə zaman qəbul etmişlər?*
*6. Səlcuq yürüşlərinin Azərbaycan üçün əhəmiyyətini müəyyən edin.*

*7. Azərbaycan dövlətlərinin Böyük Səlcuq İmperiyasının tərkibinə daxilolma ardıcıllığını sadalayın.*



LAYİHƏ



19

## AZƏRBAYCAN ATABƏYLƏRİ (ELDƏNİZLƏR) DÖVLƏTİ

*Səlcuq imperiyasının tənəzzülü dövründə meydana gələn müstəqil sultanlıqlar öz növbəsində yeni dövlətlərin yaranmasına səbəb oldu. Bu dövlətlərin yaradıcıları Səlcuq sultanlarının keçmiş qulamları idilər. Həmin dövlətlərin hakimləri, adətən, Səlcuqların vəliəhd şahzadələrinin (məliklərin) tərbiyəçilərindən olurdu ki, onlara da atabəy ("atahakim") deyirdilər.*

*Atabəy, Şəmsəddin Eldəniz, hacib, "Böyük Atabəy", İraq Səlcuq sultanlığı*

**Eldənizlər dövlətinin yaranması.** Eldənizlər dövlətinin yaranması Azərbaycan atabəyi Şəmsəddin Eldənizin adı ilə bağlıdır. O, cavanlıqda İraq Səlcuq sultanlığının hökmdarı II Toğrulun sarayında xidmət etmişdi. Eldəniz heç vaxt saray fitnə-fəsadlarına uymamış, hökmdarına daim sədaqətli olmuş, buna görə də əmir rütbəsinədək yüksələ bilmişdi. Məhz bu zaman o, Sultan II Toğrulun azyaşlı oğlu Arslanşahın atabəyi təyin edilmişdi.




*Azərbaycan Atabəyləri (Eldənizlər) dövləti (1136–1225-ci illər)*

1136-cı ildə Sultan Məsud Arranı iqta kimi Atabəy Şəmsəddin Eldənizə bağışladı. İqamətgahı Bərdədə yerləşən Eldəniz tezliklə yerli əmirləri öz tərəfinə çəkdi və sultana xidmət asılılığından çıxdı. Tədricən o, demək olar ki, bütün Azərbaycana yiyələndi və xırda hakimləri özünə tabe etdi.

*Şəmsəddin Eldənizin hakimiyyətə gedən yolunu təsvir edin.*

1160-cı ildə İraq Səlcuq sultanlığında əmirlərin qəsdi nəticəsində sultan devrilərək öldürüldükdən sonra onun taxt-tacına Eldənizin səyi nəticəsində qəyyumluq etdiyi oğulluğu Arslanşah çıxarıldı. Atabəy Şəmsəddin Eldəniz İraq sultanlığı taxtının əsl sahibi oldu. Bu zamandan etibarən "Böyük Atabəy" adlandırılan Şəmsəddin yeni dövlət hakimiyyətinin nüfuzunu möhkəmləndirməyə başladı.



*Şəmsəddin Eldəniz*

LAYİHƏ

XII əsr müəllifi Sədrəddin əl-Hüseyninin dediyinə görə, “əsl hökmdar Atabəy Eldəniz idi. Sultan Arslanşahın isə yalnız adı hökmdardır”.

*Sizcə, Eldənizi nə üçün “Böyük Atabəy” adlandırmışdılar?*

XII əsrin 60-cı illərində Şəmsəddin Eldəniz böyük bir ərazini, o cümlədən Qəzvin, Fars, Ərdəbil, Nişapur, Həmədan, Gilan, Mazandaran, İsfahan, Rey, Mosul, Diyarbəkir, Şirvan, Kirman və Xuzistanı tabe etmişdi. Ümumiyyətlə, o, Qafqaz dağlarından Fars körfəzinədək uzanan böyük ərazini öz hakimiyyəti altına almışdı. Əl-Hüseyninin məlumatına görə, onun mülkləri “Tiflis qapılarından Məkranadək uzanırdı”. 1161-ci ilin avqustunda gürcü qoşunları, çar III Georgi başda olmaqla, Eldənizlərin hakimiyyəti altında olan ərazilərə soxuldular. Həmin dövrdə Arranın tərkibində olan Ani şəhərini ələ keçirən gürcü qoşunları 1163-cü ildə Eldəniz tərəfindən məğlub edildilər.



***Atabəy Eldənizin adına kəsilmiş mis pul***

*Xəritədə Şəmsəddin Eldənizin Atabəylər dövlətinə birləşdirdiyi əraziləri müəyyən edin.*

Eldəniz Gürcüstana daxil oldu, bir ay sonra Dəbil şəhərini onların əlindən aldı və III Georgini ağır məğlubiyyətə uğratdı. 1175-ci ilin avqustunda Eldənizin əmri ilə onun ordu hissələri Cahan Pəhləvanın başçılığı altında gürcülərə qarşı daha bir yürüş etdilər. Nəticədə gürcülər məğlub oldular. Bu məğlubiyyətdən sonra onlar Aniyə, eləcə də Eldənizlərin tabeliyində olan başqa torpaqlara olan iddialarından əl çəkdilər.

**Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti dövrü (1175–1186).** Eldənizin vəfatından sonra hakimiyyətə onun böyük oğlu Məhəmməd Cahan Pəhləvan keçdi. Cahan Pəhləvanın hakimiyyəti dövründə Eldənizlər dövləti iqtisadi və siyasi cəhətdən daha da qüvvətləndi. Cahan Pəhləvan sonuncu Səlcuq sultanı III Toğrulun (1176–1194) atabəyi idi. III Toğrul Cahan Pəhləvanın qəyyumluğu altında Naxçıvanda yaşayırdı. Cahan Pəhləvan Azərbaycanın idarəsini qardaşı Qızıl Arslana tapşırdı və oğlu Əbu Bəkrin atabəyi təyin etdi.



***Məhəmməd Cahan Pəhləvanın adına kəsilmiş mis pul***

Dövlətin paytaxtı Həmədan olduğu vaxtda Təbriz Qızıl Arslanın iqamətgahı idi. Cahan Pəhləvan, sonralar isə Qızıl Arslan Eldənizlər dövlətinin siyasi dayağını möhkəmlətmək məqsədilə Səlcuq sultanlarının payladıqları iqta torpaqlarını öz tərəfdarları olan feodallar arasında bölüşdürdülər. Cahan Pəhləvan yeni iqta torpaqları almış bu əmirlərin köməyi ilə 50 minlik mükəmməl süvari ordu təşkil etdi.

*Məhəmməd Cahan Pəhləvan hakimiyyəti möhkəmləndirmək üçün hansı tədbirləri gördü?*



LAYİHƏ

*"Atabəy Cahan Pəhləvanın inzibatçılıq bacarığı və sərt tələbkarlığı nəticəsində dövlət idarəçiliyinin bütün şəbəkəsi möhkəm nizam-intizama tabe edildi. Atabəyin onillik hakimiyyəti dövründə ölkə xaricdən heç bir təzyiqə məruz qalmadı. Məhz onun hakimiyyəti dövründə gürcülər onun tələblərini qəbul edərək onunla sülh bağladılar".*

***Ziya Bünyadovun "Azərbaycan Atabəyləri dövləti" kitabından***

*"Dövranın hakimi Atabəy bütün.*
*Kəsmişdir dünyadan kökünü zülmün".*

***Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında Məhəmməd Cahan Pəhləvan haqqında***

*Mənbələr əsasında Məhəmməd Cahan Pəhləvanın hökmdar kimi xarakterik xüsusiyyətlərini müəyyən edin.*

Cahan Pəhləvan bir neçə dəfə Gürcüstana yürüş etdi. Bir sıra qonşu ölkə hökmdarları Eldənizlər dövlətinin nominal hakimiyyətini qəbul edərək Cahan Pəhləvanın adına xütbə oxutdurdular. Əhər məlikləri öz sikkələrində Eldənizlərin də adını zərb etdirdilər. Cahan Pəhləvan ayrı-ayrı vilayətlərin idarəsini oğulları arasında bölüşdürdü. Onun hakimiyyəti dövründə Eldənizlər dövlətində ticarət, sənətkarlıq, elm və mədəniyyət daha da inkişaf etdi.

**Qızıl Arslanın hakimiyyəti dövrü (1186–1191).** Məhəmməd Cahan Pəhləvanın ölümündən sonra hakimiyyətə qardaşı Qızıl Arslan keçdi. O, mərkəzi hakimiyyətə tabe olmaq istəməyən feodallara qarşı mübarizə apardı. Səlcuq sultanı III Toğrulu ciddi nəzarətdə saxlayan Qızıl Arslan dövləti müstəqil idarə edirdi. 1190-cı ildə Həmədan yaxınlığındakı döyüşdə III Toğrulu məğlub edib, onun mülklərini və iqta yerlərini özünün tərəfdarlarına payladı.



***Qızıl Arslan***

Yaranmış qarışıqlıqdan istifadə edən Şirvanşahlar müstəqilliyə səy göstərirdilər. Buna yol verməmək üçün Qızıl Arslan Şirvana hücum edərək Şamaxını tutdu. Şirvanşah I Axsitan Eldənizlər dövlətinin vassallığını yenidən qəbul etməyə məcbur oldu.

1191-ci ildə Qızıl Arslan xəlifənin razılığı ilə özünü sultan elan etdi. Tabelikdən çıxan vilayətləri hakimiyyətindən asılı vəziyyətə saldı.

*Qızıl Arslanın sultan titulu qəbul etməsi nəyi göstərir?*

Eldənizlər dövləti Dərbənddən İsfahanadək geniş bir ərazini əhatə edirdi. Qızıl Arslanın hakimiyyəti dövründə dövlətin siyasi vəziyyətinin möhkəmlənməsi ölkənin iqtisadi və mədəni inkişafı üçün əlverişli şərait yaratdı. Lakin bu vəziyyət uzun sürmədi, iqta torpaqlarından məhrum olmuş narazı Səlcuq əmirlərinin sui-qəsdi nəticəsində Qızıl Arslan öldürüldü.

**Əbu Bəkrin (1191–1210) və Özbəyin (1210–1225) hakimiyyəti dövrləri.** Qızıl Arslanın ölümündən sonra hakimiyyətə Cahan Pəhləvanın oğlu Əbu Bəkr keçdi. Əbu Bəkrin dövründə feodal çəkişmələri nəticəsində Eldənizlər dövlətinin tənəzzülü başladı. 1194-cü ildə Xarəzmşah Təkəş hücum edərək Xorasan, Rey və Həmədan vilayətlərini tutdu. 1197-ci ildə Həmədan uğrunda vuruşmada Xarəzmşahları məğlub edən Əbu Bəkr qardaşı Özbəyi ora hakim təyin etdi. Siyasi sabitliyin olmaması Əbu Bəkrin hakimiyyəti dövründə feodallar arasında çəkişməni daha da kəskinləşdirdi.



LAYİHƏ

Əbu Bəkrin vəfatından sonra hakimiyyətə qardaşı Özbək keçdi. Özbəyin hakimiyyəti dövründə Eldənizlər dövlətinin tənəzzülü daha da gücləndi. Feodal çəkişmələrinin davam etməsi, müharibələr, mərkəzi hakimiyyətin getdikcə zəifləməsi ölkənin iqtisadi inkişafına ağır təsir göstərdi, onun müdafiə qabiliyyətini xeyli azaltdı. Belə bir şəraitdə monqolların Azərbaycana ilk yürüşü nəticəsində daha da zəifləyən Eldənizlər dövləti 1225-ci ildə Xarəzmşahın oğlu Cəlaləddinin Təbrizi tutması ilə süqut etdi.

*Dövlətin süqut etməsinə hansı amillər təsir göstərdi?*

*XII–XIII əsrlərdə Eldənizlərin dövlətlərarası münasibətləri ilə bağlı sxemi tamamlayın.*




*Eldənizlər dövləti ilə bağlı diaqramı tamamlayın.*




1. *XII əsrin 30-cu illərində Atabəylər dövlətinin geosiyasi mövqeyini dəyərləndirin.*
2. *Atabəylər dövlətinin XII əsrin 60-cı illərində dövlətlərarası münasibətlərdə mövqeyini şərh edin.*
3. *Atabəylər dövlətinin inkişafında XII əsrin 70-ci illərində diqqəti çəkən xüsusiyyətləri dəyərləndirin.*
4. *Atabəy Şəmsəddin Eldənizi I Toğrulla müqayisə edin və dəyərləndirin.*
5. *Məhəmməd Cahan Pəhləvan haqqında topladığınız məlumatlar əsasında referat hazırlayın.*

LAYİHƏ



20

# ŞİRVANŞAHLAR XI–XIV ƏSRLƏRDƏ

*Azərbaycanda qədim dövlətçilik ənənələrinin qorunub saxlanılmasında Şirvanşahların xüsusi rolu olmuşdur. XI əsrdə hakimiyyətə gələn və XIV əsrə qədər Şirvanşahlar dövlətini idarə edən Kəsranilər sülaləsinin hakimiyyəti tarixi hadisələrlə zəngin olmuşdur. Qeyd olunan dövrlərdə çoxsaylı yadelli hücumlara məruz qalmasına baxmayaraq, Şirvanşah hökmdarlarının yüksək idarəçilik bacarığı dövlətin uzun müddət mövcudluğuna şərait yaratmışdır.*

*I Fəribürz, IV David, Tamar, Cəbə, I Axsitan*

**Şirvanşahlar yeni sülalənin hakimiyyəti dövründə.** XI əsrin əvvəllərində Məzyədilər sülaləsini Kəsranilər əvəz etdikdən sonra ölkənin idarəçiliyində o qədər də ciddi dəyişikliklər baş vermədi. Bu əsrdən etibarən Şirvanşahların ərazisi yadelli basqınlara və yürüşlərə daha çox məruz qalmağa başladı.

1030-cu ildə Şirvanşahlar dövləti dənizdən rusların hücumlarına məruz qaldı. I Mənuçöhr onları Bakı yaxınlığında qarşıladı. Ruslarla vuruşmada çoxlu şirvanlı həlak oldu. Sonra ruslar Kürlə üzüyuxarı üzərək Araza çatdılar. Mənuçöhr rusların hərəkətini dayandırmağa çalışaraq Arazın qabağını bəndlə kəsib onların Arazla irəliləməsinin qarşısını aldı.

*Rusların Azərbaycana ilk yürüşləri nə vaxta təsadüf edir?*

Səlcuqlar 1066-cı ildə Şirvanı özlərinə tabe etməklə Azərbaycanın işğalını başa çatdırdılar. I Fəribürz Şirvanşah titulundan məhrum edildi. Lakin Səlcuq türklərinin hakimiyyəti dövründə də Azərbaycanın dövlətçilik ənənələri aradan qaldırılmadı. Çox keçmədi ki, Şirvanşahlar dövləti yenidən dirçəldi.

**Xarici siyasətdə dəyişiklik.** Şirvanşahlar dövləti XI əsrin ikinci yarsından Səlcuqlara tabe olsa da, artıq XII əsrin əvvəllərində Şirvan hökmdarları II Mənuçöhr və I Afridun yenidən tarixi ərazilərini müstəqil idarə etməyə başladılar. Bu dövrdə gürcü hakimləri Yaxın və Orta Şərqdə böyük gücə çevrilmiş Səlcuqlarla mübarizə aparmaq üçün Şirvanşahlarla müttəfiq olmağa çalışırdılar. Gürcü çarı IV David bu niyyətini həyata keçirmək üçün Bizans imperatoru Aleksey Komnin və qıpçaq türklərinin hökmdarı Atrak xanla ittifaqa girmişdi. Gürcülər Səlcuqlara qarşı Şirvanşahlardan istifadə etməklə Səlcuq türklərini Cənubi Qafqazdan sıxışdırıb çıxarmağa çalışırdılar ki, gələcəkdə Azərbaycanın qərb torpaqlarını ələ keçirmək niyyətlərini həyata keçirəndə heç bir qüvvə onlara mane olmasın. Gürcülərin Azərbaycanın tarixi qərb torpaqlarını ələ keçirmək planlarına erməni feodalları

LAYİHƏ



*III Mənuçöhr*

da dəstək verirdi. XI əsrdə Avropada başlayan səlibçilərin yürüşü də gürcü və erməni feodallarını ümidləndirmişdi. Belə ki Bizans Avropa qapılarını açaraq səlibçilərin Səlcuqlarla toqquşmasına nail olmuşdu. Lakin Səlcuq türklərinin yerli türklərlə qaynayıb-qarışması onların bu niyyətlərinin həyata keçməsinə mane oldu.

Şirvanşah hökmdarı I Afridunun Səlcuqlarla ittifaqını pozmamağını bəhanə edən Gürcü çarı IV David 1120-ci ildə böyük ordu ilə Şirvan ərazilərinə basqın edərək Qəbələni ələ keçirib bu qədim Azərbaycan şəhərini qarət etdi.

Cənubi Qafqazda böyük nüfuza sahib olan Səlcuq türkləri 1121-ci ildə Tiflisdən 40 km aralıda, Didqori adlı yerdə gürcülər, qıpçaq türkləri, osetinlər və Qərbi Avropa səlibçilərinin birləşmiş qüvvələri ilə həlledici döyüşə girdilər. XI əsrin II yarısından özündən güclü Səlcuq dövlətinə vergi verməyə məcbur qalan Gürcü çarları bu döyüşlə asılılığa son qoymaq istəyirdilər. Gürcü knyazı IV David Səlcuqları Gürcüstandan qovmaq, VIII əsrdən Tiflisətrafı əraziləri idarə etmiş müsəlman əmirliyinə son qoymaq üçün bir-birinin ardınca strateji tədbirlər görmüşdü. Didqori döyüşü Səlcuq türklərinin məğlubiyyəti ilə nəticələndi və bu məğlubiyyət Tiflisin müqəddəratını həll etdi. Belə ki VIII əsrin 30-cu illərində yaranmış Tiflis müsəlman əmirliyi 1122-ci ildə ləğv olundu və gürcülərin əlinə keçdi. XII əsrin 20-ci illərində Şirvan–Gürcüstan münasibətlərinin yaxınlaşmasına Şirvanşah III Mənuçöhrün həyat yoldaşı Tamara ilə yanaşı, Səlcuq türklərinin zəifləməsi də təsir göstərmişdi. Gürcülərlə həm qohumluq, həm də ittifaqa arxalanan III Mənuçöhür 1066-cı ildən etibarən mövcud olan Səlcuq asılılığına son qoyaraq onlara illik bac ödəməkdən imtina etdi.

**?** *Sizcə, Şirvanşahların Səlcuqlarla ənənəvi ittifaqı pozması düzgün addım idimi?*

Onun bu addımı İraq Səlcuq hökmdarı Sultan Mahmudun Şirvana yürüş etməsi ilə nəticələndi. 1123-cü ildə baş verən bu yürüş uğursuz oldu. Yaranmış əlverişli siyasi şəraitdən istifadə edən IV David 1124-cü ildə Azərbaycan torpaqlarına yenidən yürüş etdi. Şamaxını ələ keçirən gürcü hökmdarı öz qarnizonunu burada qoyub geri qayıtdı. Lakin onun 1125-ci ildə ölməsi gürcü qoşunlarının Şirvanı tərk etməsi ilə nəticələndi. Bundan sonra III Mənuçöhr Şirvan ərazisində öz hakimiyyətini bərpa edə bildi.

**Şirvanşahların Qafqazın qüdrətli dövlətinə çevrilməsi.** XII əsrin ortalarında Azərbaycan Şirvanşahlar dövləti Cənubi Qafqazda ən qüdrətli siyasi amilə çevrilmişdi.

1160-cı ildə III Mənuçöhrün ölümündən sonra onun oğulları arasında taxt-tac mübarizəsi başladı. Eldənizlərin köməyi ilə hakimiyyətə gələn I Axsitan (1160–1196) Tamarın Şirvanı Gürcüstana birləşdirmək cəhdinin qarşısını aldı. O, Səlcuq türkləri ilə dostluq münasibətlərini bərpa etdi. Gürcüstan çarlığı ilə dostluq münasibətləri davam etdirildi.

1173-cü ildə Şirvanşahın hərbi qüvvələri mərkəzi hakimiyyətə qarşı qiyamı yatırmaqda gürcü çarı III Georgiyə kömək etdi.

1175-ci ildə Şirvanşahlar dövləti slavyanların hücumuna məruz qaldı. Bu hücumun dəf edilməsində III Georginin gürcü qoşunları Şirvanşahlara yaxından kömək etdi.

LAYİHƏ

1192-ci ildə baş vermiş güclü zəlzələ nəticəsində Şamaxı dağıldı. Bu hadisədən sonra paytaxt Bakıya köçürüldü.

M

*"Şirvanşah və Əmir Mirman çarəsiz vəziyyətə düşdülər. Belə ki Şirvan ölkəsi o vaxt Allahın qəzəbinə düçar oldu: yerin silkələnməsindən Şəmaxiyyə şəhərinin divarları və qalaları uçulub dağıldı. Hər şey məhv oldu, eləcə də Şirvanşahın arvadı və uşaqları həlak oldular. Onlar bundan xəbər tutduqda ağlayıb başlarına kül sovurdular, ətraflarına baxdıqda Allahdan başqa bir köməkçi və xilaskar görmədilər".*

***Sara Aşurbəylinin "Şirvanşahlar dövləti (VI –XVI əsrlər)" əsərindən***

?

*Zəlzələ Şamaxının siyasi-iqtisadi və mədəni həyatına necə təsir göstərdi?*

**Şirvanşahların yadelli basqınlara məruz qalması.** XIII əsrin 20-ci illərində Azərbaycan yeni istilaçıların – monqolların hücumuna məruz qaldı. 1221-ci ildə Təbriz, Sərab, Beyləqan, Gəncə və Tiflis şəhərlərinə hücum etdikdən sonra monqolların növbəti hədəfi Şirvan və onun mərkəzi Şamaxı şəhəri oldu. Monqollar Şamaxını tutub qarət etdikdən sonra Dərbənd keçidindən keçib Monqolustana qayıtmaq istədilər. Lakin Dərbənd son dərəcə möhkəmləndirildiyindən onlar buna müvəffəq ola bilmədilər. Bu zaman monqol sərkərdələri hiylə işlədərək Dərbəndin yanından keçən dağ yolunu tapıb Azərbaycanı tərk etdilər.

M

Monqolların Şirvana birinci yürüşü zamanı Şamaxı əhalisi demişdi: "Onsuz da, qılıncdan xilas ola bilməyəcəyik, elə isə yaxşısı budur, möhkəm dayanıb, heç olmasa, şərəflə ölək".

***İzzəddin İbn əl-Əsirın "Əl-kamil fi-t-tarix" əsərindən***

*Mənbə əsasında 1221-ci ildə monqolların Şamaxıya yürüşünü şərh edin.*



***Monqolların yürüşü. Miniatür***

LAYİHƏ

1225-ci ildə Xarəzmşah Cəlaləddin böyük ordu ilə Cənubi Qafqaza hücum etdi. Gürcülərin yetmiş minlik ordusunu darmadağın edərək ölkələrini qarət etdi. Sonra o, Azərbaycana daxil oldu və Gəncəni tutdu. Hələ I Axsitanın dövründən Xarəzmşahların artmaqda olan qüdrətini görən Şirvanşahlar onlarla dostluq münasibətləri yaratmağa çalışırdılar. Cəlaləddinin Şirvana hücumunu bilən Şirvanşah I Guştəsb diplomatik addımlar atmağa başladı. Xarəzmşah Cəlaləddinin 1227-ci ildə Şirvana yürüşü zamanı Şirvanşah III Fəribürz uğurlu diplomatik siyasəti ilə ölkəsinin müstəqilliyini qoruyub saxlaya bildi. 1231-ci ildə Azərbaycan ikinci dəfə monqolların hücumuna məruz qaldı.

?

*Şirvanşah hökmdarları I Fəribürz və III Fəribürzün hakimiyyətləri dövrünü müqayisə edin.*

1239-cu ildə Şirvanın işğalı başa çatdı. 1258-ci ildə yaranmış Hülakülər dövləti qısa müddət ərzində bütün Azərbaycanı özündən asılı vəziyyətə saldı. II Axsitan da itaətkarlıq göstərməklə Şirvanı dağıntıdan xilas etdi. Hülakülərin vassalı kimi hakimiyyətini davam etdirən Şirvanşahlar öz adlarından pul kəsdirməkdə davam etsələr də, artıq təmtəraqlı titullarını göstərmir, öncə monqol xanının adını çəkirdilər. Şirvanşahlar Hülakü hökmdarlarının bütün səfərlərində nizami qoşun dəstələri ilə iştirak edirdilər.

XIV əsrin 30-cu illərində Hülakülər dövlətinin zəifləməsindən istifadə edən Şirvanşahlar daxili müstəqilliklərini bərpa etdilər. 1345-ci ildə hakimiyyətə gələn Kavus ibn Keyqubad Hülakülərin süqut etməsindən sonra daha da fəallaşdı. Onun Təbriz üzərinə yürüşləri Cəlairi Şeyx Üveysin narahatlığına səbəb oldu.

M

*"Şirvanşah Kavus sultan Üveysin öz üzərində ali hakimyyətini tanımır və ona xərac vermirdi".*
***Sara Aşurbəylinin "Şirvanşahlar dövləti (VI–XVI əsrlər)" əsərindən***

1367-ci ildə Şirvana yürüş edən Şeyx Üveys Şirvanşahları özünə tabe etdi. Kavusdan sonra taxta çıxan Huşəng (1372–1382) dövləti möhkəmləndirmək üçün bir sıra addımlar atdı. Muğan ərazisi Şirvanşahlara tabe edildi. Lakin hakimiyyətinin sonlarında Huşəngin əhaliyə qarşı qəddar davranışı, xırda feodalların və kəndlilərin narazılığına səbəb oldu.

?

*1. Şirvanşahlar dövlətinin Azərbaycan tarixində oynadığı rolu müəyyən edin.*
*2. Şirvanşahların daxili və xarici siyasəti haqqında referat hazırlayın.*
*3. Şirvanşahların XI–XIII əsrlərdə regionda siyasi mövqeyini aydınlaşdırın.*
*4. XI–XIII əsrlərdə Şirvanşahların ərazisinə edilmiş yürüşlər barədə xronoloji cədvəl hazırlayın.*
*5. XI–XIII əsrlərdə Şirvanşahların geosiyasi mövqeyinə dair qrafik və diaqramlar tərtib edin.*

LAYİHƏ



21

## İNTİBAH MƏDƏNİYYƏTİ

*Avropada XIV–XVII əsrlərdə baş vermiş İntibah dövrü Azərbaycanda bir neçə əsr əvvələ təsadüf edir. Belə ki IX–XII əsrlərdə hökmdarlar tərəfindən himayə olunan şairlər və memarlar dünya mədəniyyətinin inciləri sırasına daxil olan qiymətli əsərlər yaratdılar.*

*Bəhmənyar, Xətib Təbrizi, Nizami Gəncəvi, "Xəmsə", Xudafərin körpüsü, Əcəmi Əbubəkr oğlu*

**Elm.** Hələ IX əsrdən Azərbaycanda başlamış mədəni yüksəliş XI–XII əsrlərdə elm, maarif və ədəbiyyatın yüksək səviyyəyə çatmasına şərait yaratdı. Ölkədə dünya elminin önündə gedən alimlər yetişdi. İntibah dövründə Azərbaycanda Məkki əl-Bərdəyi kimi alim, İbn Sinanın tələbəsi olmuş Bəhmənyar və dini görüşlərinə görə 32 yaşında ruhanilər tərəfindən qətlə yetirilmiş Eynəlqüzzat Miyanəçi kimi filosof yaşamışdır.



**Bəhmənyar**

*Azərbaycanda intibahın Avropadan daha əvvəl baş verməsinin səbəblərini nədə görürsünüz?*

*"Bir dəfə İbn Sina dəmirçixanada olarkən Bəhmənyar ora gəlib od istəyir. Dəmirçi deyir: "Qab gətir, içərisinə od qoyum, apar". Bəhmənyar ovcuna bir qədər torpaq töküb deyir: "Odu bu qaba qoy". Bəhmənyarın dərrakəsini görən İbn Sina onu özünə şagird götürür".*

***Əl-Xansarinin "Rahat əl-cənnat fil-əhval əl-üləma va-s-sadat" əsərindən***

İbn Sina Bəhmənyar haqqında yazırdı: "O mənə oğuldan artıq istəklidir. Mən ona təlim-tərbiyə vermiş və bu səviyyəyə gətirib çıxarmışam".

*İbn Sina və Bəhmənyarın elmə verdiyi töhfələrin nədən ibarət olduğunu araşdırın.*



**Memar Əcəmi**

Məşhur dilçi Xətib Təbrizi Suriyada təhsil almış, sonra Bağdadda məşhur Nizamiyyə mədrəsəsində 40 il dərs demişdir. O, bütün islam dünyasında ədəbiyyatşünaslıq və dilçilik sahəsində ensiklopedik biliyə malik ən görkəmli alimlərdən biri idi. Fazil Fəriddin Şirvani XII əsrin məşhur astronomu idi.



**İbn Sina**

**Memarlıq.** Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndəsi Memar Əcəminin inşa etdiyi abidələr İntibah dövrü memarlığının ən gözəl nümunələridir. XII əsrdə Memar Əcəmi ilə yanaşı, Məsud Davudoğlu adlı memar da yaşamışdır.

LAYİHƏ

## XI əsrin abidələri

1027-ci ildə salınmış Xudafərin körpüsü





1063-cü ildə İbrahim Osman oğlu tərəfindən hazırlanmış Gəncənin Qoşa Qala qapıları

? *Xudafərin körpüsünün strateji və tarixi əhəmiyyəti nə idi?*

M *Möminə xatun türbəsində yazılıb: "... bu türbəni dünyanın elmli, adil məliki, böyük qalib Şəmsəddin Nüsrət əl islam və əl müslimin Cahan Pəhləvan atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəniz ...dünyanın və dinin cəlalı, islamın və müsəlmanların namusu Möminə xatunun xatirəsinə tikməyi əmr etdi!.."*

***Cəfər Qiyasinin "Nizami dövrünün memarlıq abidələri" əsərindən***

## "Mühəndislər şeyxi" adlandırılan Əcəmi Əbubəkr oğlu tərəfindən Naxçıvanda inşa edilən abidələr

Yusif ibn Küseyr türbəsi



Möminə xatun türbəsi



Qoşa minarə



Cümə məscidi



Darülmülk

Təsviri qalmayıb

? *Naxçıvanda XII əsrə aid memarlıq abidələrinin çox olmasının səbəbi nədir?*

## XII əsrdə ucaldılmış müdafiə tikililəri

Ağsu çayı sahilində Buğurd qalası



Bakıda Mərdəkan qalası



Bakıda memar Məsud Davudoğlu tərəfindən ucaldılan Qız qalası



Şamaxıda Gülüstan qalası



? *XII əsrdə müdafiə qalalarının tikilməsinin üstünlük təşkil etməsinin səbəbi nə idi?*

LAYİHƏ

XII əsr Naxçıvan memarlığı üslubunda Marağada Göy günbəz, Urmiyada Üç günbəz türbələri, Culfada sərdabələr ucaldılmışdı.



*Göy günbəz türbəsi, Marağa*



*Əlincəçay Xanəgahı, Culfa*



*Üç günbəz türbəsi, Urmiya*

**Ədəbiyyat.** XI–XII əsrlərdə ədəbiyyatda İntibah baş verdi. Bu dövr ədəbiyyatın ən yüksək zirvəsində Nizami Gəncəvinin (1141–1209) yaradıcılığı durur. Nizami Gəncəvi Gəncədə anadan olmuş, bütün həyatı boyunca orada yaşayıb-yaratmışdır.

? *Nizami Gəncəvi yaradıcılığının tarixi proseslərlə əlaqəsi nədən ibarətdir?*

Nizami Gəncəvi təhsilini Gəncədə mədrəsədə almış, daha sonra şəxsi mütaliə yolu ilə o dövrün elmlərini mükəmməl öyrənmiş, xüsusən də Yaxın Şərq xalqlarının şifahi və yazılı ədəbiyyatına yaxından bələd olmuşdur. Ana dilindən başqa, ərəb və fars dillərini də mükəmməl bilən şairin yunan dili ilə tanış olduğu, həmçinin qədim yunan tarixi və fəlsəfəsini, astronomiya, tibb və həndəsə elmlərini yaxşı mənimsədiyi əsərlərindən aydın görünür. Atabəy hökmdarı Qızıl Arslan Nizami Gəncəviyə Həmdünya adlı kənd bağışlamışdı.



*Nizami Gəncəvi*

? *Qızıl Arslanın Nizami Gəncəviyə göstərdiyi diqqətin səbəbini nədə görürsünüz?*

İntibah dövründə Əbül-Üla Gəncəvi, Mücirəddin Beyləqani, Fələki Şirvani, İzzəddin Şirvani, Qivami Gəncəvi, Qətran Təbrizi, Məhsəti Gəncəvi, Xaqani Şirvani və başqaları bu dövrün məşhur şairləri idilər. İntibah dövrünün ən böyük və mühüm nailiyyəti türk dilinin bütün ölkə ərazisində vahid ünsiyyət vasitəsinə çevrilməsi oldu.



*Qətran Təbrizi*

LAYİHƏ

**“Xəmsə”**
**Nizami Gəncəvi**

| “Sirlər xəzinəsi” (1174–1175) | “Xosrov və Şirin” (1180) | “Leyli və Məcnun” (1188) | “Yeddi gözəl” (1197) | “İsgəndərnamə” (1200–1203) |
|---|---|---|---|---|
|  |  |  |  |  |
|  |  |  |  |  |

*“Yeddi gözəl” əsərindəki gözəllərin hansı ölkələrdən olduğunu araşdırın.*

1. *Gəncə qala qapılarının inşasının dövr üçün əhəmiyyəti nə idi və mədəniyyət tariximizlə nə kimi əlaqəsi var?*
2. *XI–XII əsrlərə aid hansı ədəbiyyat xadimlərini tanıyırsınız?*
3. *XI–XII əsrlər Azərbaycan mədəniyyətini Avropa mədəniyyəti ilə müqayisə edin.*
4. *Nizamiyyə mədrəsəsində alimlərimizin dərs deməsinin üstünlüyünü izah edin və bu üstünlüyü mədəniyyətin inkişafında baş vermiş proses kimi qiymətləndirin.*
5. *Memar Əcəmi haqqında topladığınız materiallara əsasən referat hazırlayın.*
6. *İntibah mədəniyyətini Türk-islam mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirib təqdimat hazırlayın.*

LAYİHƏ




# AZƏRBAYCAN MONQOL YÜRÜŞLƏRİ DÖVRÜNDƏ

*XIII əsrdə Azərbaycan o dövrün böyük istilaçısı Çingiz xan ordularının yürüşlərinə məruz qaldı. Köçəri bütpərəst olan monqollar Azərbaycandakı inkişaf etmiş sivilizasiyaya böyük zərər vursalar da, onun təsiri altında islam dinini qəbul edərək tədricən türkləşdilər.*

*Cəbə, Subutay, Ağsunqurilər, Cəlaləddin, Usta Bəndər, yarlıq, noyon*

**Azərbaycan monqol yürüşlərinin ərəfəsində.** XIII əsrin əvvəlində monqol yürüşləri ərəfəsində Azərbaycan ərazisində vahid mərkəzləşmiş dövlət yox idi, ölkədə feodal pərakəndəliyi hökm sürürdü. Azərbaycanda Eldənizlərin Atabəylər dövləti və Şirvanşahlar dövləti mövcud idi. Marağada Rəvvadilər nəslindən olan yerli Ağsunqurilər sülaləsi (1108–1227) hakimiyyətdə idi. Əhər, Meşkin, Sərab şəhərləri isə Əhər məlikliyinin sərəncamında idi.

XII əsrin sonunda Eldənizlər dövləti öz əvvəlki qüdrətini itirdi. Eldənizlər sülaləsinin üzvləri arasında gedən mübarizələr dövlətin əsaslarını sarsıtdı. Sonuncu atabəy Özbək (1210–1225) feodal qruplarının əlində oyuncağa çevrilmişdi. Dövlət işləri, demək olar ki, onun iştirakı olmadan həll olunurdu.

*Mərkəzləşdirilmiş dövlətin əlamətlərini müəyyən edin.*



***Monqolların kəşfiyyat yürüşü. Miniatür***

LAYİHƏ

**Monqolların Azərbaycana birinci yürüşü.** Mövcud şəraitdən istifadə edən monqollar Azərbaycana ilk dəfə 1220-ci ildə yürüş etdilər. Zəncan, Ərdəbil, Sərab və başqa şəhərləri talan edən monqol sərkərdələri Cəbə və Subutay Təbrizə yaxınlaşdılar. Şəhər möhkəm qala divarları ilə əhatə edildiyindən onu zor gücünə zəbt etməyin çətin olacağını görən monqollar danışıqlar aparmağı lazım bildilər. Eldəniz Özbək də şəhərin müdafiəsinə arxayın olmadığından monqollarla sazişə girməyi üstün tutdu. O, Cəbə və Subutayın yanına elçi göndərərək onlara çoxlu ərzaq, paltar, mal-qara və qızıl verdi. Böyük xərac aldıqdan sonra monqollar qışlamaq üçün Muğana yollandılar. Lakin gürcü çarı IV Georgi ilə Atabəy Özbək arasında hərbi ittifaqın bağlanması barədə məlumat alan Cəbə və Subutay Muğandan Gürcüstana basqın etdilər. Beləliklə, monqollar müttəfiqləri qabaqlaya bildilər və onları ayrı-ayrılıqda məğlubiyyətə uğratdılar. Monqollar 1221-ci ilin əvvəllərində yenidən Gürcüstandan Təbrizə yönəldilər. Şəhər hakimi Şəmsəddin Tuğrayi xərac verməklə yenə də şəhəri qarətdən xilas edə bildi. Monqollar qəflətən Marağaya hücum edib şəhəri ələ keçirdilər və onlara ciddi müqavimət göstərən əhaliyə qanlı divan tutdular. Monqollar üçüncü dəfə Təbrizə yaxınlaşanda Özbək Naxçıvana qaçdı. Şəmsəddin Tuğrayi təbrizliləri mübarizəyə səfərbər etdi. Monqol sərkərdələri şəhər müdafiəçiləri ilə açıq döyüşə girmədən bir daha xərac almaqla kifayətləndilər.

**?** *Nə üçün monqollar Təbriz şəhərini ələ keçirməyə xüsusi diqqət yetirirdilər?*

Beyləqan əhalisi amansız döyüşdən sonra təslim oldu, onlara görünməmiş zülmlər edildi. Monqollar buradan Gəncəyə tərəf üz tutdular, lakin şəhər əhalisinin ciddi müqavimətinə rast gəlib xərac almaqla kifayətləndilər və Gürcüstana getdilər. Gürcüstandan Şirvana soxulan monqollar tezliklə Azərbaycan ərazisini tərk etməli oldular. Onlar 1222-ci ildə Dərbənddən keçərək şimal istiqamətində geri qayıtmağı qərara aldılar. Lakin şəhərin ciddi mühafizə olunduğunu bilən monqollar hiyləyə əl atdılar və Şirvanşaha xəbər göndərib onunla sülh bağlamaq istədiklərini bildirdilər. Şirvanşah bu təklifi qəbul etdi və danışıq üçün on nəfərlik elçi heyəti göndərdi. Monqollar elçilərdən birini öldürdülər və digərlərini məcbur etdilər ki, onları gizli yolla Dərbənddən şimala keçirsinlər. Beləliklə, monqollar öz niyyətlərinə nail oldular və Monqolustana qayıtdılar. Monqolların ilk yürüşü kəşfiyyat məqsədi güdürdü və gələcək işğallar üçün zəmin yaratdı.

**?** *Monqolların birinci yürüşünün Azərbaycan üçün nəticələri nə oldu?*

**Xarəzmşah Cəlaləddinin Azərbaycana yürüşü.** 1225-ci ildə Azərbaycan Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddinin hücumlarına məruz qaldı. Cəlaləddin cənubdan hücuma keçərək Marağa şəhərini tutdu və bir müddət şəhərdə bərpa işləri apardıqdan sonra Təbrizə yürüş etdi. Özbək ailəsi ilə Gəncəyə, sonra isə Əlincə qalasına qaçdı və orada öldü. Onun ölümü ilə (1225-ci il) Azərbaycanda Eldənizlər dövləti süqut etdi. Təbrizlilər düşmənə qarşı mübarizəyə qalxdılar. Onlar 7 gün mərdliklə vuruşdular. Lakin Cəlaləddin şəhər əyanları ilə sazişə girib şəhəri tutdu.



*Xarəzmşah Cəlaləddin*

LAYİHƏ

Gəncə, Beyləqan, Bərdə, Şəmkir və başqa şəhərlər də işğal olundu. Marağanın tutulması nəticəsində 1227-ci ildə Ağsunqurilər dövləti süqut etdi. Şirvanşahlar isə ildə yüz min dinar xərac vermək şərtilə Cəlaləddinin hökmranlığını qəbul etməli oldular.

*Azərbaycanın Xarəzmşah Cəlaləddinin yürüşü ərəfəsindəki və yürüşdən sonrakı siyasi vəziyyətini müqayisə edin.*

Azərbaycanın idarə edilməsi Cəlaləddinin vəziri Şərəf-əl-Mülkün ixtiyarına verildi. Onun Təbrizdə qeyri-qanuni vergilər toplaması şəhər əhalisinin üsyanına səbəb oldu, lakin üsyan yatırıldı. Cəlaləddinə qarşı baş vermiş 1231-ci il Gəncə üsyanı xalq hərəkatının ən yüksək zirvəsi oldu. Sənətkar Bəndərin başçılığı ilə gəncəlilər şəhər hakiminin sarayını dağıtdılar, dövlət məmurları və qulluqçularından bir neçəsini öldürdülər, şəhərdəki Xarəzm qarnizonunu məhv etdilər. Cəlaləddin üsyanı çətinliklə yatıra bildi. Azərbaycanın Xoy, Mərənd, Naxçıvan və d. şəhərlərində də azadlıq hərəkatı geniş vüsət aldı. Azərbaycanda baş verən üsyanlar Cəlaləddinin yaratdığı dövlətin möhkəm əsasa malik olmadığını göstərdi. Bundan istifadə edən monqollar yenidən Azərbaycana soxuldular.

*Azərbaycanda baş vermiş üsyanlara əsasən Cəlaləddinin yaratdığı dövlət barədə fikir yürüdün.*

**Monqolların Azərbaycana ikinci yürüşü.** Cormoğon noyonun başçılığı ilə monqol qoşunları Rey və Həmədan şəhərlərini zəbt etdikdən sonra 1231-ci ildə ikinci dəfə Azərbaycana soxuldular.




*Azərbaycana monqol yürüşləri*

LAYİHƏ

Azərbaycanda mövcud olan vəziyyət düşmənə qəti müqavimət göstərməyə imkan verməsə də, bir sıra şəhərlərdə istilaçılara qarşı kəskin mübarizə getdi. Təbrizi tabe edən monqollar bir çox tanınmış sənətkarları öz paytaxtları olan Qaraqoruma göndərdilər. Monqollar Təbrizdən Gəncəyə yollandılar. Onlar uzun müddət şəhər əhalisinə qarşı vuruşmalı oldular və yalnız 1235-ci ildə şəhəri tuta bildilər. Böyük dağıntıya məruz qalan və xarabalığa çevrilən Gəncə 4 il müddətində bu vəziyyətdə qaldı.



*Monqol döyüşçünün geyimləri*

Şəmkir şəhəri yandırıldı, əhalisi qılıncdan keçirildi. Az sonra Bakı, Tovuz və digər Azərbaycan şəhərləri monqollar tərəfindən işğal olundu. 1239-cu ildə Dərbənd şəhərinin tutulması ilə Azərbaycanın işğalı başa çatdırıldı. İlk yürüşlərindən fərqli olaraq, monqolların ikinci yürüşdə əsas məqsədləri zəbt etdikləri ölkələrdə möhkəmlənməkdən ibarət idi. Odur ki onlar qələbə əldə etdikdən sonra Monqolustana qayıtmadılar və yeni ərazilərdə möhkəmləndilər.

? *Nə üçün monqollar ikinci yürüşdə Azərbaycanın işğalını başa çatdıra bildilər? Fikrinizi əsaslandırın.*

Azərbaycan, eləcə də Cənubi Qafqaz ərazisi 1239–1256-cı illərdə Ali monqol xaqanlığının təyin etdiyi canişinlər tərəfindən idarə olunurdu. Monqol canişinlərinin, xüsusilə Arqun ağanın Azərbaycanda həyata keçirdiyi siyasətin əsas mahiyyəti yerli feodalların – vassalların köçəri monqol əyanlarından asılılığını gücləndirməkdən ibarət idi. Yerli feodallar monqollara xərac və qiymətli hədiyyələr verirdilər. Onlar Ali monqol xaqanlığının tacqoyma mərasimlərində iştirak edirdilər. Hər dəfə Ali monqol xaqanlığına yeni hökmdar seçiləndə yerli feodallara öz malikanələrinin idarəsi üçün yarlıq[1] verilirdi.

*Sasani mərzbanları ilə monqol canişinlərini müqayisə edin.*

1. *Cəlaləddinə qarşı əhalinin narazılığının səbəbləri nədə idi?*
2. *Monqol yürüşlərinin ərəb yürüşlərindən fərqi nə idi?*
3. *Vassallar öz sahiblərinə hansı xidmətləri göstərməli idilər.*
4. *Monqolların birinci yürüşü ilə Xarəzmşah Cəlaləddinin yürüşünü müqayisə edin.*
5. *Şəkillərə əsasən monqol və VII əsr Azərbaycan döyüşçülərinin silahlarını müqayisə edin.*

[1] *Yarlıq* – (türk-monqolca – sərəncam, əmr) xanların verdiyi yazılı fərmandır. Yarlıqlar, əsasən, toxunulmazlıq və imtiyazlar haqqında fərmanlar idi.



LAYİHƏ



23

# AZƏRBAYCAN HÜLAKÜLƏR DÖVLƏTİNİN TƏRKİBİNDƏ

*İlk yürüşlərdən sonra monqolların Azərbaycanda yaratdıqları idarəçilik sistemi uzun sürmədi. İstilaçılar zəbt etdikləri torpaqlara hakimlik uğrunda mübarizəni davam etdirdilər. Qafqaza və Ön Asiyaya yeni yürüşlər başlandı.*

*Yuşmut, Hülakü xan, Cuçi, yam, bayrat*

? *Torpaqlara hakimlik istəyi Ali monqol xaqanlarına hansı imkanlar yarada bildi? Bu yürüşlərin nəticəsi tarixdə hansı izi qoydu?*

**Monqolların Azərbaycana üçüncü yürüşü.** Ön Asiyada, Qafqazda və Kiçik Asiyada hələ də müstəqil fəaliyyət göstərən iri feodal malikanələrinə qarşı Ali monqol xaqanlığı tərəfindən mübarizəyə göndərilmiş monqol şahzadəsi Hülakü xan (1258–1265) 1256-cı ildə Azərbaycanı, 1258-ci ildə Bağdadı istila etdi. 500 ildən artıq hökm sürən Abbasilər xilafəti süquta uğradı. Beləliklə, yeni zəbt edilmiş ərazilər hesabına 5-ci monqol ulusu – Hülakülər (Elxanilər) dövləti yarandı. Həmin dövlət Azərbaycanda bir əsrə yaxın – 1357-ci ilə qədər fəaliyyət göstərdi. Azərbaycan Hülakülər dövlətinin siyasi-inzibati mərkəzinə çevrildi. Müxtəlif dövrlərdə ölkənin paytaxtı Marağa, Təbriz və Sultaniyyə şəhərləri olmuşdur. Arran və Muğan vilayətləri Elxanilər dövlətinin qışlağı, Qarabağ isə yaylağı idi.

*Ulusun nə olduğunu müəyyənləşdirin.*

Hülakü xan geniş əraziyə malik dövlət yaratdıqdan sonra köçəri zadəganlara arxalanaraq dövlətin ali hakimiyyət orqanlarını, hərbi-siyasi idarələri və vilayətləri şahzadələrin və tanınmış əmirlərin arasında böldü. Azərbaycanda köçəri monqol feodalları hakimiyyətə başladılar. Şahzadə Yuşmut Arranın hakimi təyin olundu. Azərbaycanın əksər ərazisində, xüsusilə onun şimal hissəsində monqolların güclü hərbi hissələri məskən saldı. Həmin hərbi qüvvələr Qızıl Ordu xanlarının Hülakülər dövlətinə şimaldan vaxtaşırı hücumlarının qarşısını almağa və sərhədlərin möhkəmlənməsinə xidmət edirdilər. Oturaq əhalinin istismarı və yerli feodalların sıxışdırılması nəticəsində Hülakü xan tezliklə iqtisadi cəhətdən güclü və mərkəzləşdirilmiş dövlət təşkil etdi.

? *Azərbaycanın Hülakülər dövlətinin tərkibinə qatılmasının əhəmiyyəti nədə idi?*



LAYİHƏ



***Hülakü xan və onun arvadı Doqquz Xatun. Miniatür***

Lakin belə vəziyyət çox davam etmədi. Hülakü xanın ölümündən sonra mərkəzi hakimiyyətə qarşı mübarizə başladı. Digər tərəfdən ölkənin xarici vəziyyəti də sabit deyildi. Hülakülər dövləti yarandığı ilk vaxtlardan başlayaraq Azərbaycan ərazisi uğrunda onunla digər monqol dövləti, Cuçi nəslindən olan qızıl ordulular (şimalda) arasında gedən müharibələr ölkənin vəziyyətini sarsıtdı. Azərbaycanı tutmağa can atan Qızıl Ordu xanları dəfələrlə cənuba yürüş etmiş, ölkədə dağıntı törədərək geri qayıtmışdılar. Dağınıqlıq dövrü 1295-ci ildə Qazan xanın (1295–1304) Hülakülər dövlətində hakimiyyətə gəlməsinə qədər davam etdi. Qazan xan yerli feodallara arxalanmaqla köçəri feodalların qüdrətini və iqtisadi qüvvəsini zəiflətmək siyasəti yürütdü. Köçəri əmirlər Qazan xanın siyasətinə qarşı çıxdılar. Lakin Qazan xan bu çıxışları yatıra bildi və mərkəzi dövləti qüvvətləndirdi.

? *Nə üçün Qazan xana qarşı Azərbaycanda qiyam və sui-qəsdlər baş verirdi?*

**QAZAN XANIN İSLAHATLARI**

| Din | Vergi | Rabitə | Məhkəmə | Torpaq | Ticarət |
|---|---|---|---|---|---|

**Din.** Hülakülər dövlətini iqtisadi və siyasi böhrandan xilas etmək üçün Qazan xan ciddi addımlar atdı. O, yerli oturaq feodalları və müsəlman din xadimlərini öz tərəfinə çəkmək naminə islam dinini qəbul etdi. Özünə Mahmud adını götürdü. Onun etiraf etdiyi kimi, "bütün əhalinin müsəlmanlığa razı olması və bütpərəstlikdən üz döndərməsi boş uydurma deyildi". Bu, ciddi siyasi məqsədlər güdürdü. Qazan xan daha sonra bir sıra islahatlar keçirdi. Bu işdə görkəmli alim, həkim, vəzir Fəzlullah Rəşidəddinin böyük rolu olmuşdur. Qazan xan islahatlar keçirməklə əhalinin istismarını nizama salmaq və dövlət gəlirlərinin mütəmadi axınını təmin etmək istəyirdi. O, bu işdə monqol əyanlarının özbaşınalığına son qoymaq, eləcə də sıravi monqollara torpaq malikanələri verməklə onların yaşayışı üçün şərait yaratmaq məqsədi güdürdü.

*Qazan xanın dini islahatının mahiyyətini izah edin.*



LAYİHƏ

**Vergi.** Qazan xan vergilərin növü, miqdarı, toplanması üsulu və vaxtı barədə dəqiq qayda-qanun yaratdı. Vergi verənlərin siyahısı tutuldu, hər bir kəndin, şəhərin ödəyəcəyi vergi məbləği böyük lövhələrdə həkk olunub baxımlı yerlərdə nümayiş etdirildi. Qeyri-qanuni vergilərin toplanması qadağan olundu. Vergilərin yığılması Baş divanın sərəncamına verildi və vilayət hakimlərinin bu işə qarışması qadağan olundu. Vergi toplanması 3 il müddətinə icarəyə verildi. Vergi islahatı kəskin mübarizə şəraitində həyata keçirildi.


*Qazan xanın bütpərəstlikdən islama dönüşü. Miniatür*

*Qazan xanın vergi islahatı ilə ərəblərin vergi siyasətini müqayisə edin.*

**Rabitə.** Qazan xanın rabitə sahəsində həyata keçirdiyi tədbirlər ölkədə vahid rabitə sisteminin yaranmasına səbəb oldu. Onun fərmanına əsasən, bütün əsas yollarda hər 3 fərsəxdən (21 km) bir rabitə dayanacaqları – "yam"lar yaradıldı. Yamlara əmirlər təyin olundu və onlar lazımi qədər qulluqçularla, atlarla təmin olundu. Elçilərin və yam işçilərinin yerli əhalidən vəsait alması qəti qadağan edildi. Mühüm dövlət sənədləri və məktublar bir yamdan digərinə ötürülməklə ünvana çatdırılırdı. Yollarda karvansaralar tikildi və müsafirlərin rəiyyətin evində qalmaları qadağan olundu.

**Məhkəmə.** Ölkədə hökm sürən hüquqi qanunsuzluqları nəzərə alan Qazan xan vəziyyəti nizamlamaq məqsədilə məhkəmə islahatı keçirdi. Əsas diqqət qazı vəzifəsinə layiqli din xadimlərinin təyin olunmasına, məhkəmələrdəki qanunsuzluqlara son qoyulmasına, alqı-satqı işlərində qayda-qanun yaradılmasına yönəldildi. 30 illik tarixə malik iddiaların öz qanuni qüvvəsini itirdiyi elan olundu. Şəhər, mahal, kənd qazılarının səlahiyyətləri dəqiqləşdirildi. Məhkəmə sədri – qazı vəzifəsinə təyin olunanlardan qanuna ciddi əməl edəcəkləri barədə qəbz alınması qaydası tətbiq edildi.


*Hülakü məmuru hökm verərkən. Miniatür*

?

*Məhkəmə və rabitə islahatlarının mütərəqqi cəhətləri nədə idi?*

LAYİHƏ

**Torpaq.** Qazan xanın torpaq islahatının əsas hissəsini monqol qoşunlarına iqta torpaq sahələrinin verilməsi təşkil edirdi. Torpaq sahələri ilə yanaşı, həmin ərazilərdəki kəndlər, suvarma şəbəkələri və s. iqtadarların ixtiyarına keçdi. Qazan xanın 1303-cü ildə verilmiş fərmanı kəndliləri də öz yaşayış yerlərinə təhkim edirdi və onların bir yerdən digərinə keçməsi qadağan olunmuşdu. İqta torpaqları alınıb-satıla, bağışlana və ya başqa şəkildə özgəsinə verilə bilməzdi. Yalnız hərbi qulluq göstərənlər iqta ala bilərdilər. İqtalar iqtadarın ölümündən sonra onun hərbi işi davam etdirən xələfinə çatırdı.

*Torpaq islahatının əsas nəticələrini izah edin.*

**Ticarət.** Qazan xan ticarətin inkişafını təmin etmək məqsədilə vahid pul sistemi yaratdı, çəki və ölçü vahidlərini sabitləşdirdi. Ticarət yollarında və bazarlarda gömrük toplanması, karvanların, yolların və ticarət mərkəzlərinin qorunması üçün əsaslı tədbirlər gördü. Gömrük haqqının toplanması sahəsində də qayda-qanun yaradıldı.

**Hülakülər dövlətinin tənəzzülü.** Qazan xandan sonra hakimiyyətə Məhəmməd Olcaytu gəldi. Onun dövründə dövlət daha da gücləndi. Lakin Məhəmməd Olcaytunun ölümündən sonra feodal ara müharibələri şiddətləndi. 12 yaşlı Əbu Səidin dövlət işlərini müstəqil idarə edə bilməməsi bu prosesə təkan verdi. Elxanilər dövlətinin tənəzzül etməsinin və süqutunun digər səbəbləri ölkədəki dini ayrılıq və monqollar tərəfindən əsarətə alınmış xalqların mübarizəsi ilə bağlı idi. Əbu Səidin dövründə (1316–1335) Elxanilər dövlətini bir müddət Əmir Çoban idarə etdi. Bu, feodalların böyük narazılığına səbəb oldu. 1335-ci ildə Əbu Səidin ölümü dövlətin süqutunu daha da sürətləndirdi. Hakimiyyəti ələ keçirmək uğrunda mübarizədə Cəlairilər, Çobanilər, Şirvanşahlar xüsusilə fərqlənirdi. Bu mübarizədə Çobanilər qalib gəldilər.



***Qazan xana aid gümüş dirhəm (Təbriz)***

*Hülakülər dövlətinin tənəzzülünün səbəblərini göstərin.*

1. *Hülakülər və Qızıl Ordu dövlətləri arasındakı müharibələr XIII əsrdə nə ilə nəticələndi?*
2. *Qazan xanın islahatlar keçirməkdə məqsədi nə idi?*
3. *Erkən Orta əsrlərdə daha hansı hökmdarlar islahatlar keçirmişdilər?*
4. *Monqolların ikinci və üçüncü yürüşünü müqayisə edin.*
5. *Səhifə 95-də verilmiş xəritə əsasında Hülakülər və Qızıl Ordu dövlətlərinin yürüş istiqamətlərini müəyyənləşdirin.*

LAYİHƏ



24

# AZƏRBAYCAN CƏLAİRİLƏR VƏ TEYMURİLƏRİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ

*XIV əsrdə Azərbaycan uğrunda mübarizə daha kəskin xarakter aldı. Vahid mərkəzləşdirilmiş dövlətin olmaması yadellilərin diqqətini Azərbaycana yönəltmişdi. Bu mübarizədə Əmir Teymur qalib gəldi.*

*Çobanilər, Sulduz qəbiləsi, Məlik Əşrəf, Şeyx Üveys, Əmir Teymur, Əlincə qalası*

**Azərbaycanda Çobanilərin hakimiyyəti.** Hülakülər dövlətinin tənəzzülü dövründə Azərbaycanda hakimiyyət uğrunda mübarizəyə qoşulan ən qüdrətli feodal qruplarından biri sulduz qəbiləsindən olan Çobanilər idi. Əmir Çobanın nəvəsi Şeyx Həsən Çobani Cəlairilərə qalib gələrək Məhəmməd Olcaytunun qızı Satıbəy xatunu padşah elan etdi və dövləti onun adından idarə etməyə başladı. Beləliklə, Azərbaycanda və ona qonşu olan ərazilərdə Çobani feodal qrupunun ağalığı yenidən başladı. Çobani Məlik Əşrəfin dövründə 1344-cü ildə Çobani zülmünə məruz qalan Təbriz əhalisi üsyana başladı. Üsyan çətinliklə yatırıldı.

*Hülakülər dövlətinin tənəzzülü dövründə Azərbaycan uğrunda mübarizədə hansı sülalələr iştirak edirdilər?*

Çobani əmirləri özlərini müstəqil elan etmədilər. Ona görə də qonşu dövlətlər tərəfindən rəsmən tanınmadılar, adlarına xütbə oxutmadılar, sikkə zərb etmədilər. Dövlət fərmanlarını isə Elxani hökmdarlarının adından verdilər. Çobani zülmündən qurtarmaq üçün əhali çıxış yolunu Qızıl Ordu xanına müraciət etməkdə gördü. 1357-ci ildə Canı bəy Təbrizə gələrək Çobanilərin hakimiyyətinə son qoydu. Hülakü dövləti süqut etdi. Məlik Əşrəfin edamı isə Çobanilərin “Hülakülər dövlətinin mühafizəsi uğrunda” apardıqları mübarizələrin son nöqtəsi oldu.

**Azərbaycanda Cəlairilərin hakimiyyəti.** Azərbaycanda hakimiyyəti ələ alan Canı bəy oğlu Bərdi bəyi Təbrizdə qoyub Qızıl Orduya qayıtdı. Lakin çox keçməmiş Bərdi bəy atasının ölümü ilə bağlı geri qayıtmalı oldu. Bundan istifadə edən Cəlairi Şeyx Üveys 1359-cu ildə Təbriz şəhərini tutdu. Azərbaycan Cəlairi dövlətinin tərkibinə daxil edildi. Təbriz dövlətin paytaxt şəhərinə çevrildi. 1367-ci ildə Şirvan ərazisi də zəbt olundu. Şeyx Üveysin zamanında mərkəzi idarə sistemi möhkəmləndi, iqtisadiyyatda və təsərrüfatda müəyyən canlanma baş verdi. Şeyx Üveysin ölümündən sonra hakimiyyət uğrunda mübarizə kəskinləşdi. 1410-cu ildə Sultan Əhmədin dövründə Qaraqoyunlu tayfaları Cəlairilərin Azərbaycanda hakimiyyətinə son qoydular.

*Azərbaycanda Cəlairilərin hakimiyyəti dövrünü necə səciyyələndirirsiniz?*

LAYİHƏ

**Azərbaycanda Teymurilərin hakimiyyəti.** Azərbaycanın və qonşu ölkələrin XIV əsrin 80–90-cı illərdəki tarixi Qızıl Ordu xanı Toxtamışın və Əmir Teymurun işğalçı yürüşlərinə qarşı xalq kütlələrinin apardığı gərgin mübarizələrlə diqqəti cəlb edir. Qızıl Ordu xanı Toxtamış 1385-ci ildə 90 minlik ordu ilə Dərbənddən Azərbaycana soxuldu və Təbrizə yaxınlaşdı. Təbrizlilər şəhərin müdafiəsinə qalxdılar, şəhərdə xəndəklər qazıldı. Küçə səngərləri yaradıldı. Toxtamış danışıqlar aparmağa məcbur oldu, tərəflər arasında razılıq əldə edildi. Şəhər əyanları Toxtamışa veriləsi xəracın toplanması ilə məşğul oldular, əhali isə sülhə inanıb silahı yerə qoydu. Bundan istifadə edən Toxtamış qoşununu şəhərə yeritdi. Təbrizlilər 8 gün işğalçıların zülmünə məruz qaldılar, şəhərdə ciddi dağıntılar törədildi, qarətlər edildi. Qadınlar, uşaqlar ayaqyalın, başıaçıq küçələrdə, qarın içində qaldılar. Toxtamışın qoşunu Təbrizdən Marağaya getdi, şəhəri qarət etdikdən sonra iki hissəyə bölünən qoşunun bir dəstəsi Mərənd və Naxçıvan tərəfə, bir dəstəsi isə Əhər yolu ilə irəlilədi. İstilaçılar həmin şəhərləri və ətraf əraziləri də qarət etdikdən sonra Qarabağa gəldilər və orada birləşib Qızıl Orduya getdilər. Azərbaycandan çoxlu qənimət və əsir aparıldı.

Azərbaycan 1386-cı ilin baharında Əmir Teymurun hücumuna məruz qaldı. Teymur "üçillik yürüş" kimi tanınan həmin səfərində Təbrizi tutdu. Cəlairi əmirlərinin bir qismi Əlincə qalasına, bir qismi isə Bağdada getdi. Əmir Teymur Təbrizdən Naxçıvana doğru yürüş etdi və bir müddət Əlincə qalasının ətrafında vuruşduqdan sonra Qarabağa qışlamağa gəldi.




*Toxtamış xanın və Əmir Teymurun Azərbaycana yürüşləri*

*Xəritəyə əsasən Qızıl Ordu xanı Toxtamışın Azərbaycana yürüşünün sxemini qurun.*



LAYİHƏ

*“Ordu Bağdaddan döndüyü vaxt darülmülk Təbrizə doğru yollandı. Təbrizi şərəfləndirdiyi vaxt rəiyyətlərinin və zəiflərin halıyla müqayyət oldu, məzlumların haqqını zalımlardan aldıqdan və hər təbəqədə olan insanları lütf-ü ehsanlarına qərq etdikdən sonra qılıncını yenidən düşmən qanıyla boyamaq və onların vücudunu tamamilə məmləkətdən kənara çıxarmaq istədi. Əmirin himməti asayişi təmin etmək və islam nüfuzunu məmləkətlərdə qaldırmaq və şirk-ü küfrü tamamilə yox etmək qayəsinə yönəlmişdi”.*

***Nizaməddin Şaminin “Zəfərnamə” əsərindən***

*Mənbə əsasında Əmir Teymurun Təbriz şəhərini kimin zülmündən azad etdiyini müəyyənləşdirin.*

O, 1387-ci ildə Toxtamışın Buxara və Səmərqənd şəhərləri üzərinə hücumu ilə əlaqədar Azərbaycanı tərk etməli oldu. Ancaq ölkə artıq Əmir Teymurun canişinləri tərəfindən idarə olunmağa başlamışdı. O, oğlu Miranşahı zəbt edilmiş ərazilərin hakimi təyin etdi. Azərbaycanda hakimiyyəti ələ almağa çalışan feodallar bir tərəfdən Əmir Teymurun canişinlərinə qarşı vuruşur, digər tərəfdən isə öz aralarında mübarizə aparırdılar. Təbriz şəhəri Azərbaycanın açarı hesab edildiyi üçün onun ələ keçirilməsi həm Teymuri əmirləri, həm də yerli feodallar üçün əsas məqsəd idi. Yerli feodallar əsas qüvvələri Əmir Teymura qarşı mübarizəyə səfərbər etmək əvəzinə, bir-birləri ilə vuruşurdular. Bu isə onların qüvvələrini tükəndirirdi. Nəticədə Əmir Teymur 1392-ci ildə Azərbaycana gəldi və Təbrizi tutdu. Hakimiyyət uğrunda mübarizə aparan feodallar öz vilayətlərinə çəkildilər.



***Əmir Teymur***

*Əmir Teymurun Azərbaycana ilk yürüşlərinin nəticələri nədən ibarət oldu?*

Cəlairi əmirləri Əlincə qalasında idilər və Əmir Teymura tabe olmamışdılar. Qala Sultan Əhmədin oğlu Sultan Tahirin başçılığı ilə müdafiə edilirdi. Qalada Cəlairilərin 300-dən yuxarı əsgəri var idi. Əmir Teymur Təbrizdən Bağdada yürüş etdi, oranı talayıb geri qayıtdı və Əlincəyə qoşun göndərdi. Lakin qalanı tutmaq ona bu dəfə də müyəssər olmadı. O, Gürcüstana yürüş etdi, oranı dağıtdı, sonra Şəki vilayətinə soxuldu və yerli hakim Seydi Əlini məğlub etdi. 1395-ci ildə Dərbənddən Qızıl Orduya hücum edən Əmir Teymur Səmərqəndə qayıtdı və Hindistana səfərə çıxdı. Əlincə qalası istisna olmaqla, bütün Azərbaycan Teymurilərin sərəncamında idi. Əmir Teymur Hindistan səfərindən qayıtdıqdan sonra 1399-cu ilin sentyabrında öz ordusu ilə Azərbaycana gəldi və Qarabağda məskən saldı. Azərbaycanın və Cənubi Qafqazın bir sıra vilayət hakimləri, o cümlədən Şəki hakimi Seydi Əhməd Şirvanşah İbrahimin vasitəçiliyi ilə Teymurun hüzuruna getdilər və onunla ittifaq bağladılar. Əmir Teymurun yürüşləri zamanı uzun müddət (14 il) cəsarətlə müdafiə olunan Əlincə qalası 1400-cü ildə təslim oldu. Əmir Teymur bundan sonra Cənubi Qafqazın digər ərazilərinə və Bağdada yürüş etdi, nəticədə Sultan Əhməd öz müttəfiqi Qara Yusiflə Misirə qaçmalı oldu. Az müddətdən sonra

LAYİHƏ

Səmərqəndə qayıdan Əmir Teymur 1405-ci ildə Çinə səfər zamanı öldü. Azərbaycan bu dövrdə Miranşahın oğlu Mirzə Ömər tərəfindən idarə olunurdu, Şirvan isə Şeyx İbrahimin hakimiyyəti altında idi.



***Əlincə qalası. Naxçıvan***

*1. Çobanilər nə üçün Azərbaycanda ayrıca dövlət yarada bilmədilər?*
*2. Təbriz şəhəri hansı Azərbaycan dövlətlərinin paytaxtı olmuşdur?*
*3. Əmir Teymur və Qızıl Ordu xanı Toxtamışı müqayisə edin.*
*4. XIV əsrdə Azərbaycan ərazisinə edilmiş yadelli hücumları barədə xronoloji cədvəl hazırlayın.*



LAYİHƏ




# QARAQOYUNLU DÖVLƏTİ

*Böyük Səlcuq imperiyasının parçalanmasından sonra siyasi mərkəzlərini itirmiş oğuzlar monqol yürüşləri nəticəsində qərbə doğru – Anadoluya sıxışdırıldı. Lakin monqol hakimiyyətinin zəifləməsi, həmçinin Əmir Teymurun türk-müsəlman dünyasını birləşdirmək siyasətinin onun ölümündən sonra iflasa uğraması Azərbaycandan Anadoluya, İraqdan Suriyayadək yayılmış oğuz türkman boylarının yeni siyasi dirçəlişinə şərait yaratdı.*

*Qaraqoyunlular, Qara Yusif, Teymurilər, Cəlairilər, Cahanşah, daxili çəkişmələr, tənəzzül*

**Qaraqoyunlu dövlətinin yaranması. Qara Yusif.** Azərbaycan xalqının etnogenezində yaxından iştirak etmiş Qaraqoyunlu tayfa birliyinə daxil olan oğuz türkman boylarının Azərbaycanda məskunlaşması hələ VII əsrdən başlamışdı. Qaraqoyunlu tayfa birliyinə daxil olan Ağacərilər isə V əsrdən Azərbaycanda məskunlaşmışdılar. Monqol yürüşləri ərəfəsində Xalxal bölgəsini idarə edən Ağacərilər sonradan digər oğuz boyları kimi qərbə doğru çəkilməyə məcbur olmuşdular. Sədlilər Naxçıvan və Sürməlidə məskunlaşmışdılar. Qaraqoyunlu tayfa birliyinin və dövlətinin yaranmasında isə Baharlı tayfası aparıcı rol oynamışdır.




***Azərbaycan Qaraqoyunluların hakimiyyəti dövründə***

LAYİHƏ

Cəlairi sultanı Şeyx Üveysin Təbriz sarayında nüfuzlu əmirlərindən olan Bayram Xoca Baharlı XIV əsrin sonlarında Qaraqoyunlu bəyliyinin əsasını qoydu və hakimiyyətini Ərzincana, Sivasa, Şərqi Anadolunun bir hissəsinə yaydı. Onun oğlu Qara Məhəmmədin Cəlairi Sultan Əhmədlə qohumluq əlaqəsi yaratması isə bəyliyin möhkəmləndirilməsinə hesablanmışdı. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan və Təbriz uğrunda mübarizəyə qoşulan Qara Məhəmməd Əmir Teymurun yürüşləri səbəbindən ciddi uğurlar əldə edə bilmədi.

? *Oğuz boylarının geniş ərazilərə yayılmasının səbəbləri nə idi?*

Qaraqoyunlu dövlətinin yaranması və güclənməsi Qara Məhəmmədin oğlu Qara Yusifin (1389–1420) hakimiyyəti dövrünə təsadüf edir. Qara Yusifin Azərbaycan uğrunda mübarizədə əsas rəqibi Teymurilər, həmçinin Ağqoyunlular və Cəlairilər idi. Teymurilərə qarşı təkbaşına mübarizə aparmağın mümkün olmadığını anlayan Qara Yusif Sultan Əhmədlə ittifaq bağlayır. Ağqoyunlu Qara Yuluq Osman bəy isə onun müttəfiqlik təklifini qəbul etmir. Qara Yusif Osmanlı sultanı İldırım Bəyazidlə də dostluq münasibətləri saxlayırdı. Təsadüfi deyil ki, İldırım Bəyazid Teymurilərlə Bağdad döyüşündəki (1394) məğlubiyyətdən sonra ona sığınmış Qara Yusifi Əmir Teymurun tələbinə baxmayaraq, Teymurilərə təslim etməmişdi.



***Qara Yusif döyüşdə***

Misir sultanına pənah aparan Qara Yusif və müttəfiqi Sultan Əhməd Cəlairi Əmir Teymurun tələbi ilə həbs edildi. Lakin Əmir Teymurun ölümü siyasi hadisələrin axarını dəyişdi. Teymurilər dövlətində başlayan hakimiyyət uğrunda mübarizə Qara Yusif və müttəfiqi Sultan Əhmədin həbsdən azad olunmasına şərait yaratdı. Azərbaycan uğrunda mübarizəyə yenidən qoşulan Qara Yusif teymuri Əbu Bəkri ilk dəfə 1406-cı ildə Naxçıvan yaxınlığında Araz çayı sahilində baş verən döyüşdə, ikinci dəfə isə 1408-ci ildə Təbriz yaxınlığındakı Sərdrud düzündə məğlub etdi. Sərdrud döyüşünün mühüm tarixi əhəmiyyəti var idi. ***Bununla da, Teymurilərin Azərbaycan torpaqlarındakı hakimiyyətinə son qoyuldu və hakimiyyət Qaraqoyunluların əlinə keçdi.***

Qara Yusifin Teymurilər üzərindəki qələbələri, əhali arasında nüfuzunun artması Sultan Əhmədi narahat edirdi. O həmçinin Sultan Əhmədin Həmədan yaylaqlarının ona verilməsi tələbini rədd etmişdi. Bütün bunlar Cəlairilərlə Qaraqoyunlular arasında münasibətləri daha da kəskinləşdirdi. Nəticədə 1410-cu ildə keçmiş müttəfiqlər Təbriz yaxınlığındakı Əsəd qəsəbəsi kənarında qarşılaşdılar. Döyüş Qara Yusifin qələbəsi ilə başa çatdı. Bu qələbədən sonra Azərbaycanın və Ərəb İraqının bütün hakimləri Qara Yusifin hakimiyyətini qəbul etdilər. ***Beləliklə, paytaxtı Təbriz olan Azərbaycan Qaraqoyunlu dövlətinin formalaşması prosesi***



***Qaraqoyunlu bayrağı***

LAYİHƏ

***başa çatdı.*** Azərbaycanın Kür çayından cənubdakı torpaqları, Anadolunun şərq vilayətləri və Ərəb İraqı bu dövlətin tərkibində idi. Oğlu Pirbudağı Azərbaycan əyanlarının, Qaraqoyunlu əmirlərinin məclisində "sultan" elan edən Qara Yusif ali hakimiyyəti öz əlində saxlamışdı. ***Bu dövlətin yaranması ilə oğuzların Azərbaycanda və qonşu ərazilərdə siyasi hakimiyyəti yenidən bərqərar oldu.***

? *Sizcə, Qara Yusifin qələbələrinin səbəbi nədə idi?*
*Qaraqoyunlu dövlətinə daxil olan ərazilərin ölkə üçün strateji əhəmiyyəti nə idi?*

Lakin Şirvanşah I İbrahim Qara Yusifə tabe olmadı. Həmişə tədbirli addımları ilə fərqlənən Şirvan hökmdarı Qaraqoyunluların siyasi gücünü düzgün qiymətləndirməmişdi. O, əvvəlcə Sultan Əhmədi müdafiə etdi. Bu məqsədlə Təbriz yaxınlığındakı döyüş ərəfəsində oğlu Kəyumərsi onun köməyinə göndərmişdi, sonra isə Qara Yusifin barışıq və itaət təklifini rədd etməklə ciddi səhvə yol verdi. 1412-ci ilin payızında Kür çayı sahilində baş verən döyüşdə I İbrahim və onun müttəfiqləri Şəki hakimi Seydi Əhməd və gürcü çarı Konstantinin qüvvələri Qaraqoyunlular tərəfindən darmadağın edildi. Əsir düşən I İbrahim Qaraqoyunlu dövlətindən asılılığı qəbul etdi. Beləliklə, Qara Yusif öz hakimiyyətini Azərbaycanın şimal torpaqlarına da yaymış oldu.

*Qara Yusifin Şirvanşahlar üzərində qələbəsinin əhəmiyyətini qiymətləndirin.*

M *"Qara Yusif müharibə meydanında qaniçən aslan, əyləncə məclislərində isə cövhər saçan bir bulud idi. Ədalət və mərhəməti ilə tanınmış əxlaq yolunda hər kəsdən üstün idi. Zalımları cəzalandırmış, məzlumların rifahına çalışmış, təsərrüfatın inkişafına fikir vermiş, əsgərlərinin maaş və ərzağını müntəzəm olaraq ödəmişdir. Onun üzüyünün qaşında yazılmışdı: "Ədalətlə iş görən hökmdar, zülm edən isə həlak olar".*

***T.Nəcəflinin "Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri" əsərindən***

*Mənbə əsasında Qara Yusifin hökmdar kimi üstün xüsusiyyətlərini müəyyən edin.*

**"Azərbaycan qoşununun tüğyanını yalnız bahadırların həmləsi yatıra bilər".** Qaraqoyunlu dövlətinin yüksəlişi Teymuri hökmdarı Şahruxu narahat edirdi. Qara Yusifin Teymurilərdən mühüm ticarət məntəqələri olan Sultaniyyə və Qəzvini geri alması ilə barışmayan Şahrux onunla bir neçə dəfə döyüşsə də, uğur qazana bilməmişdi. Lakin Qara Yusifin ölümü siyasi proseslərin axarını dəyişdi. Ondan sonra hakimiyyətə gələn Qara İsgəndər 1421-ci ildə Alaşkert yaxınlığında baş verən döyüşdə sayca üstün olan teymuri qoşunlarına məğlub oldu. Sonralar da Qaraqoyunlu dövlətinə qarşı Şirvanşahlar və Ağqoyunlularla əlbir fəaliyyət göstərən Şahrux Azərbaycan üzərində hakimiyyətini qurmağa çalışmış və buna müəyyən qədər nail olmuşdu. Lakin Şahrux burada qoşun saxlamamış, yalnız öz hakimiyyətini yerli hakimlərə tanıtmaqla kifayətlənmişdi.

**Qaraqoyunlu dövləti Cahanşahın hakimiyyəti dövründə.** İsgəndərin ölümündən sonra taxta Cahanşah (1436–1467) çıxdı. Osmanlı sultanı II Mehmet Cahanşahı "Ərəb və Əcəm xaqanlarının sultanı, Türk və Deyləm sultanlarının sahibi" adlandırırdı. Cahanşah Teymuri Şahruxun ölümünə qədər dövləti ondan asılı olaraq idarə edirdi. Lakin Şahruxun ölümü (1447) və Teymurilər dövlətində baş verən hakimiyyət çəkişmələri

LAYİHƏ

Cahanşahın fəallaşmasına şərait yaratdı. Artıq müstəqil siyasət yürüdən Cahanşah dövlətin iqtisadi və hərbi qüdrətini bərpa etmək üçün tədbirlər gördü. O, Osmanlı dövləti ilə hələ atası Qara Yusifin zamanında qurulmuş dostluq münasibətlərini daha da inkişaf etdirdi. Hərbi islahat keçirərək ordunu gücləndirən Cahanşah Kiçik Asiyada əsas rəqibi olan Ağqoyunlularla mübarizədə uğur qazana bilməsə də, XV əsrin 50-ci illərində Əcəm İraqını, İsfahan və Qum şəhərlərini, Yəzd və Kirmanı ələ keçirdi. Teymurilər dövlətindəki daxili çəkişmələrdən istifadə edən Azərbaycan hökmdarı 1458-ci ildə Herata daxil olub Teymurilərin taxtında əyləşdi. Lakin oğlanları Həsənəlinin Təbrizdə, Pirbudağın isə Bağdadda qiyam qaldırması xəbərini alan Cahanşah teymuri Əbu Səidlə 1459-cu ildə sülh bağladı və təzminat alaraq Heratı tərk etməyə məcbur oldu. Tez-tez baş verən qiyamlar, daxili çəkişmələr, əhalinin güzəranını pisləşdirir, dövləti zəiflədirdi. Ağqoyunlular bundan məharətlə yararlandılar. 1467-ci ildə baş verən Muş döyüşündə Cahanşah əsas rəqibi olan ağqoyunlu Uzun Həsən Bayandura məğlub oldu və öldürüldü. Muş məğlubiyyəti Qaraqoyunlu dövlətinin tənəzzülünü sürətləndirdi. 1468-ci ildə Qaraqoyunlu dövləti süqut etdi.



*Cahanşahın hakimiyyəti dövründə inşa edilmiş Göy məsciddən fraqment. Təbriz, 1465*

1. *Qaraqoyunlu dövlətinin yaranmasında aparıcı rol hansı türk boyuna məxsus olmuşdur?*
2. *Sizcə, Qaraqoyunlu dövlətinin yaranmasının əhəmiyyəti nədə idi?*
3. *Qara Yusif Azərbaycan uğrunda mübarizədə hansı qüvvələrlə mübarizə aparmışdı?*
4. *Qaraqoyunlu dövlətinin zəifləməsinin səbəbləri nə idi?*
5. *Qaraqoyunlu dövlətinin Azərbaycan tarixində oynadığı rol barəsində referat hazırlayın.*
6. *Azərbaycanın strateji coğrafi mövqeyinin XIV əsrin sonları – XV əsrdə regionda baş verən hadisələrlə bağlılığını izah edin.*
7. *Qara Yusifin şəxsiyyəti və dövlətçilik fəaliyyəti haqqında təqdimat hazırlayın.*
8. *Qaraqoyunlu dövlətini o vaxta qədər mövcud olmuş orta əsr Azərbaycan dövlətləri ilə müqayisə edin, oxşar və fərqli cəhətləri aydınlaşdırın.*

**9. CƏDVƏLİ TAMAMLAYIN**

| 1408 | 1410 | 1412 | 1467 |
|---|---|---|---|
| | | | |

LAYİHƏ



26

## AĞQOYUNLU DÖVLƏTİ

*Uzun sürən müharibələr, daxili çəkişmələr, iqtisadi tənəzzül Qaraqoyunlu dövlətinin zəifləməsinə səbəb oldu. Yeni güclü hakimiyyətə zərurət daha bir oğuz dövlətinin yaranması ilə nəticələndi. Ağqoyunlu dövləti siyasi səhnəyə çıxdı. Baharlılar nəslinin idarəçiliyindən narazı qalan oğuz boylarının da bir qismi Bayandurların hakimiyyəti altında birləşdilər.*

*Bayandurlar, Uzun Həsən, Saray xatun, diplomatiya, Sultan Yaqub*

**Ağqoyunlu dövlətinin yaranması. Uzun Həsən.** Hələ erkən orta əsrlərdən Azərbaycan torpaqlarında məskunlaşan Ağqoyunlu oğuz türkman boyları sonralar Dəclə və Fərat çaylarının şimalına, Şərqi Anadoluya da yayıldılar. XIV əsrdə Van gölündən qərbdə yerləşən ərazilərdə Ağqoyunlu tayfa ittifaqı yarandı. Tayfa ittifaqının əsasını Bayandurlar nəslindən olan Pəhləvan bəy qoymuşdu. Bayandurların digər məşhur nümayəndəsi Qara Osman bəy isə Diyarbəkri mərkəz seçərək öz adına pul kəsdirmiş, siyasi nüfuzunu genişləndirərək Ağqoyunlu bəyliyini yaratmışdı. Ağqoyunlu bəyliyinin nüfuzunun artmasından narahat olan Osmanlı sultanı İldırım Bəyazid Qara Osmana qarşı mübarizəyə başlayır. Qara Osman isə Əmir Teymurla yaxınlaşaraq əsas rəqibləri olan Osmanlı dövləti və Qaraqoyunlulara qarşı güclü müttəfiq qazanır. Əmir Teymurun Osmanlılar üzərində qələbəsi ona Ağqoyunlu bəyliyinin ərazisini genişləndirməyə imkan vermişdi.




***Ağqoyunlu dövləti XV əsrdə***

*Qara Osmanın siyasi addımlarının nə kimi əhəmiyyəti vardı?*



LAYİHƏ



*Uzun Həsən*

*Müasirləri tərəfindən ucaboylu, fiziki cəhətdən güclü şəxs kimi təsvir olunan Həsən bəy həm də yaxşı təhsil görmüş, dövrünün siyasi hadisələrindən düzgün baş çıxaran bir dövlət xadimi olmuşdur. Türk hərb sənətinin incəliklərini dərindən mənimsəyən Həsən bəy bacarıqlı sərkərdə idi.*
*Xalqa qarşı ədalətli və mərhəmətli davrandığı üçün bütün mənbələrdə adil Sultan kimi tanınırdı.*
*O, yürüşlər zamanı əsir düşənləri azad edir, onlarla ədalətli davranırdı. Bayandurların tamğasını dövlətin rəsmi tamğası kimi zərb etdiyi pulların üzərinə, rəsmi məktublarına və bayraqlarına vuran Uzun Həsən türk (Azərbaycan) dilinə də böyük önəm vermiş, onun əmri ilə müsəlmanların müqəddəs kitabı "Qurani-Kərim" türk dilinə tərcümə edilmişdi. Hazırda onun bir nüsxəsi Məşhəd şəhərində İmam Rza muzeyində saxlanılır.*

Ağqoyunlu bəyliyinin daha da güclənməsi və geniş ərazili dövlətə çevrilməsi tarixdə Uzun Həsən kimi tanınmış Həsən bəy Bayandurun adı ilə bağlıdır.

1453-cü ildə qardaşı Cahangirlə hakimiyyət uğrunda mübarizədən qalib çıxan Həsən bəy Bayandur Ağqoyunlu bəyliyində hakimiyyəti öz əlinə aldı. Qərbdən Osmanlı dövləti, şərqdən isə Qaraqoyunlu dövləti ilə sərhəddə yerləşən Ağqoyunlu bəyliyinin idarə olunması və varlığını qoruması xüsusi siyasi səriştə tələb edirdi. Həsən bəy Şərqdə diplomat qadın kimi şöhrət qazanmış anası Saray (Sara) xatunun da yaxından köməyi ilə bu vəzifənin öhdəsindən məharətlə gəldi.

Azərbaycan uğrunda mübarizədə Qaraqoyunlu Cahanşahı məğlub edən Həsən bəy Bayandur 1468-ci ildə sonuncu Qaraqoyunlu hökmdarı Həsənəliyə də qalib gələrək Təbrizi tutdu. **Beləliklə, paytaxtı Təbriz olan Azərbaycan Ağqoyunlu dövləti yarandı. Diyarbəkirdən Xorasana, Kür çayından İran körfəzinə qədərki ərazilər bu dövlətin tərkibinə qatıldı.** Qonşuluğunda yeni dövlətin yaranması ilə barışmaq istəməyən teymuri Əbu Səidin də qüvvələri Muğanda mühasirəyə alınaraq darmadağın edildi. Bundan sonra əsas rəqib Osmanlı imperiyası idi.

**?** *Osmanlı imperiyası nə üçün Ağqoyunluların əsas rəqibi hesab edilirdi?*

**Ağqoyunlu–Osmanlı münasibətlərinin kəskinləşməsi.** Ticarətə böyük önəm verən Həsən bəy Bayandur Qara dəniz sahilində yerləşən Trabzon krallığı ilə qohumluq əlaqələri quraraq müttəfiq olmuşdu. Bu, Ağqoyunlu tacirlərinə Avropa ölkələri ilə birbaşa ticarət əlaqələri yaratmağa imkan verirdi. Lakin XV əsrin ortalarında Osmanlı sultanı II Mehmetin Konstantinopolu fəth etməsi Kiçik Asiyada qüvvələr nisbətinə və ənənəvi ticarət əlaqələrinə ciddi təsir göstərdi. Kiçik Asiyadakı xristian mülklərini ləğv etmək və Şərqdən gələn ticarət yollarına nəzarəti ələ keçirmək istəyən II Mehmet bu dəfə Ağqoyunlu tacirlərinin Qara dənizə mühüm çıxış məntəqəsi olan Trabzonu hədəfə aldı. Trabzon məsələsi Ağqoyunlu–Osmanlı münasibətlərini daha da kəskinləşdirdi. Öz müttəfiqini müdafiə etmək məqsədilə Qoyluhisarda Osmanlıların ön dəstələri ilə döyüşə girən Həsən bəy Bayandur qalib gəlsə də, yaranmış şəraiti düzgün qiymətləndirərək barışığa gəlmək qərarını verdi. Anası Saray xatunu sülh bağlamaq və II Mehmeti Trabzon üzərinə yürüşdən çəkindirmək məqsədilə onun düşərgəsinə göndərdi. Sülhə razılıq verən II Mehmet Trabzon üzərinə yürüş fikrindən daşınmadı. 1461-ci ildə Bizans imperiyasının son qalığı olan Trabzon krallığı süqut etdi. Qohumluq əlaqələrini əsas gətirən Saray xatun Trabzon xəzinəsinin bir hissəsini II Mehmetdən ala bildi.

**Trabzonun fəthi Ağqoyunlu–Avropa ticarət əlaqələrinə ağır zərbə vurdu, Ağqoyunlu tacirlərinin Qara dənizə birbaşa çıxışı itirildi. II Mehmetlə sülh isə Ağqoyunlu–Osmanlı münasibətlərinə yalnız müvəqqəti sakitlik gətirdi.**

LAYİHƏ

**Avropanın ümid yeri.** Ağqoyunlularla Avropa dövlətləri arasında diplomatik münasibətlər də məhz bu dövrdən başladı. Güclü Ağqoyunlu dövlətinin yaranması Avropa dövlətlərinin təşəbbüsü ilə başlanan diplomatik münasibətlərin daha da genişlənməsinə səbəb oldu. Şərqdən gələn ticarət yolları bu dövlətin ərazisindən keçirdi. Osmanlı dövlətinin Avropa-Asiya tranzit ticarətinə ağır zərbə vuran gömrük siyasəti Ağqoyunlu hökmdarı Uzun Həsəni narazı salmışdı. Venesiya, Polşa, Macarıstan, Neapol krallığı, Kipr və digər Avropa dövlətləri Osmanlı əleyhinə Ağqoyunlu dövləti ilə diplomatik münasibətlər yaratmışdılar. Ağqoyunlu dövləti Avropa dövlətlərinin ümid yerinə çevrilmişdi.


***Saray (Sara) xatun***

*Saray xatun sarayda və rəsmi qəbullarda türk dilində danışırdı. Türk dilinin və ədəbiyyatının inkişafında böyük xidmətləri olmuş, şairləri, ədibləri və elm xadimlərini himayə etmişdir. Saray xatun Anadolu və Azərbaycanda çox sayda maddi-mədəniyyət abidələrinin tikilməsinə imza atmışdır. Onun tikdirdiyi abidələrin bəziləri günümüzə qədər qalıb. Anadolunun Harputta şəhərində Buğday məscidi və Cəmşid hamamı Saray xatunun adını daşıyır. Zaviyənin üzərində "Saray xatun valideyi Uzun Həsən" yazılı kitabə həkk olunub. Saray xatun Avropa dövlətlərinin də diqqət mərkəzində olmuşdur. Venesiya, macar, italyan səfirləri əvvəlcə onunla görüşür, daha sonra Uzun Həsənin hüzuruna çıxırdılar. Saray xatunla razılaşdırılmamış hər hansı bir məsələ Uzun Həsənlə müzakirə olunmurdu. Buna görə də avropalı krallar öz elçilərinə "Saray xatuna ehtiram göstərməyi və Azərbaycanda qəbul edilmiş şəkildə yanaşmağı" tövsiyə edirdilər.*

**?** *Ağqoyunlu və Osmanlı dövlətləri arasında münasibətlərin kəskinləşməsinin hansı səbəblərini göstərə bilərsiniz?*

Venesiya ilə danışıqlar 1472-ci ildə Osmanlı əleyhinə hərbi ittifaqın bağlanması ilə başa çatdı. Venesiya Ağqoyunlu dövlətinə odlu silahlar və mütəxəssislər göndərməli idi. Əldə edilən razılaşmaya uyğun olaraq elə həmin il 20 minlik Ağqoyunlu qoşunu Qaraman bəyliyi ərazisindən Aralıq dənizi sahillərinə çıxdı. Lakin venesiyalılar verdikləri vədə sadiq qalmayaraq silahları gətirmədilər. Geri dönən Ağqoyunlu qoşunu Beyşehir yaxınlığında Osmanlıların üstün qüvvələri tərəfindən məğlub edildi. 1461-ci il sülhü pozuldu, Ağqoyunlu–Osmanlı müharibələrinin növbəti mərhələsi başladı. İlk böyük döyüş 1473-cü ilin avqustun 1-də Fərat çayının sahilində başlandı. Malatya yaxınlığında baş verən bu döyüşdə Uzun Həsənin sərkərdəlik məharəti bir daha üzə çıxdı. Osmanlı ordusunun zərbə qüvvəsini hərbi hiylə ilə Fəratın sol sahilinə keçirən Uzun Həsən Osmanlıların sayı 12 minə çatan bu dəstəsini tamamilə məhv etdi. Ruh düşkünlüyü işərisində geri çəkilən Osmanlıları təqibə başlayan Ağqoyunlu qoşunları Otluqbeli adlı yerdə yenidən döyüşə girdilər. Lakin odlu silahın və yeniçəri həmlələrinin əsas rol oynadığı bu döyüşdə Osmanlılar üstün gəldi. Buna baxmayaraq, II Mehmet də hərbi əməliyyatları davam etdirə bilmədi və onun Azərbaycanı ələ keçirmək planı iflasa uğradı. Bu qələbədən sonra Osmanlı dövləti əsas diqqətini Venesiya və Avropa dövlətləri ilə mübarizəyə yönəltdi. Osmanlı–Ağqoyunlu münasibətləri Uzun Həsənin ölümünə qədər kəskin olaraq qalmışdı.

**?** *Venesiya Ağqoyunlu dövləti ilə hərbi ittifaq bağlasa da, nə üçün sonra ona əməl etmədi?*

Hakimiyyətin sonuna yaxın Uzun Həsən Gürcüstana da yürüşlər etmişdi. 1477-ci ildə gürcü çarı VI Baqratla bağlanan sülhə görə, Tiflis daxil olmaqla, Şərqi Gürcüstan Ağqoyunlu dövlətinə birləşdirilmişdi.

LAYİHƏ

**Durğunluq dövrü.** Uzun Həsənin ölümündən (1478) sonra hakimiyyətə onun oğlu Sultan Yaqub gəldi. Onun 12 illik hakimiyyəti Ağqoyunlu dövlətinin durğunluq dövrü kimi səciyyələndirilir. Qiyam və çıxışları yatıran Sultan Yaqub Osmanlı dövləti ilə toqquşmalardan çəkinmiş, Osmanlı sultanı II Bəyazidlə dostluq münasibətləri yaradaraq əsas diqqətini daxili sabitliyin qorunub saxlanmasına yönəltmişdi. Uzun Həsənin zamanında Səfəvi nəsli ilə olan yaxın münasibətlər Sultan Yaqubun zamanında pozuldu. Səfəvilər nəslinin əhali arasında nüfuzunun artmasından və Şeyx Heydərin dövründə Ərdəbil hakimliyinin güclənməsindən narahat olan Sultan Yaqub onu cəzalandırdı. Ərdəbil hakimliyinə məxsus mülklər müsadirə olundu.

*Ağqoyunlu dövlətində durğunluğun baş verməsinin səbəb-nəticə əlaqələrini dəyərləndirin.*

**Birlik yoxdursa, dirilik də yoxdur.** Sultan Yaqubun ölümündən sonra Ağqoyunlu dövlətinin sabitliyi pozuldu. XV əsrin sonlarında Ağqoyunlu şahzadələri arasında başlanan hakimiyyət uğrunda çəkişmələr dövləti zəiflətdi. Qısa müddətdə hakimiyyətdə olmuş Gödək Əhmədin (1497) dövləti xilas etmək təşəbbüsləri də onun öldürülməsi ilə yarımçıq qaldı. Ağqoyunlu şahzadələri arasındakı çəkişmələrə Əlvənd Mirzə və Sultan Murad arasında 1500-cü ildə imzalanmış Əbhər sazişi ilə son qoyuldu. Bu sazişlə dövlətin parçalanması rəsmiləşdirildi. XVI əsrin əvvəllərində Səfəvilərin zərbələri altında Ağqoyunluların hər iki qolu süqut etdi.



***Ağqoyunlu bayrağı***

M

*“Bir insanın xalqını sevməsi, onun dilinə, tarixi ənənələrinə dəyər verməsi, onun xalqına bağlı və güclü şəxsiyyət olmasından irəli gəlir. Xalqını sevmək, onun mədəniyyətinə dəyər vermək fəzilətlərin ən yüksəyi hesab olunur. Uzun Həsən Oğuz elinə və Bayandur boyuna mənsub olmasından qürur duyurdu. Onun müasiri olan Osmanlı sultanlarında babaları olan Oğuzlara qarşı bir sevgi olsa da, onlardan heç biri türk soyundan olduğunu açıq şəkildə söyləməmişdir”.*

***Faruk Sümerin “Ak-Koyunlular” əsərindən***

?

*Uzun Həsənin Türk olduğu üçün qürur duyduğunu hansı hərəkəti təsdiq edir?*

**XV əsrdə dövlət idarəçik sistemi. Ordu quruluşu.** Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranmasında həlledici rol oğuz-türkman boylarına məxsus olduğundan dövlət idarəçiliyi də Səlcuq imperiyası dövründən formalaşmış ənənəvi sistem üzərində qurulmuşdu. Hülakülər dövründə bu sistemə monqol dövlətçilik elementləri də əlavə olunmuş və təkmilləşdirilmişdi.

**DÖVLƏTİN İDARƏ OLUNMASI**






LAYİHƏ

Hər iki dövlətdə hökmdar *“padşah”* titulu daşısa da, bəzi hökmdarlar *“sultan”* titulu da qəbul etmişdilər. Padşah və ya sultan qeyri-məhdud hakimiyyətə malik idi.

***Əmir ül-üməra,*** adətən, sülalə üzvlərindən və yarımköçəri türk əyanlarından təyin olunurdu. Onlar hökmdardan sonra dövlətdə mühüm mövqeyə malik olub qoşun başçısı idilər. Əmir ül-üməra titulu hökmdar tərəfindən şəxsən verilirdi. Onun hökmü əmirlər və digər hərbi rütbəli məmurlar üçün qanun idi.

***Sədr-əzəm*** (baş sədr) müsəlmanların ruhani başçısı idi. Vəqf əmlakına və dini idarələrə rəhbərlik edən sədr-əzəm vəqfdən gələn gəlirlərə də nəzarət edirdi.



***Ağqoyunlu əsgərinin zirehi***

***Baş vəzir*** dövlətin gəlirlərini və maliyyə sistemini idarə edirdi. Bundan başqa, xarici ölkələrlə əlaqələr də baş vəzirin səlahiyyətlərinə daxil idi. Baş vəzir Ali divana rəhbərlik etdiyindən *sahibi-divan* da adlandırılırdı.

***Ali divan*** hökmdar yanında sarayda vəzifə tutan əyanlardan təşkil olunan məşvərətçi orqan idi.

***Kənqaş*** sülalə üzvlərindən və əmirlərdən təşkil olunan qapalı məşvərət orqanı idi. Dövlətin müharibə, sülh, taxt-taca varislik və s. mühüm dövlət məsələləri burada həll olunurdu.

Qaraqoyunlu və Ağqoyunlu sarayında eşikağası, qapıçı, xəzinədar, möhürdar və b. nisbətən aşağı rütbəli məmurlar da var idi.

Vilayətlərdə məhkəmə və dini işlərə qazılar baxırdı. Məhkəmələr şəriət qanunlarına əsaslanırdı.

? *Tətbiq olunan dövlət idarəçilik sisteminin dövlətin inkişafı üçün nə kimi rolu vardır?*

Qaraqoyunlu Qara Yusif və Ağqoyunlu Uzun Həsənin cəhdlərinə baxmayaraq, mərkəzləşmiş dövlət qurmaq mümkün olmadı. Buna mane olan amillərdən biri vilayətlərdə yarımköçəri həyat tərzi keçirən elatlara nəzarətin tam mümkün olmaması, digəri isə soyurqal sisteminin mövcudluğu idi. Dövlətin gücü daha çox hökmdarın nüfuzundan və onun hərbi uğurlarından asılı olurdu.

? *Sizcə, mərkəzləşmiş dövlətin hansı əlamətləri olmalıdır? Tarixlə bağlı əvvəlki biliklərinizə əsasən fikirlərinizi bildirin.*

Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində ordunun əsasını elatlardan toplanan döyüşçülər təşkil edirdi. Ağqoyunlu dövlətində ordu iki hissədən ibarət idi: elatlardan toplanan qoşunlar və daimi qoşun. Müharibələr zamanı elatlardan toplanan qoşunlar ordunun sayca çox hissəsini təşkil edir, yalnız hərbi əməliyyatlar zamanı dövlətdən maaş alırdılar. Onlara əmirlər başçılıq edirdi. Ağqoyunlu dövlətində “xassə əsgərləri” adlanan daimi qoşunlara illik maaş verilirdi, bu qoşun ordunun özəyini təşkil edirdi. Kəşfiyyat işini “qaravul” adlandırılan dəstələr həyata keçirirdi. Müharibə ərəfəsində vilayətlərdən qoşun toplayan və onların sayını dəqiqləşdirən məmur “təvaçi” adlanırdı.

LAYİHƏ

Hərbi yürüşlərdə ordunu musiqiçilər dəstəsi də müşayiət edirdi. Hücum vaxtı gərənaylar (uzun zurnalar), qələbə qazanılanda isə təbil və nağaralar çalınırdı.



***Ağqoyunlu ordusu yürüşdə. Miniatür***

*Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində orduda aparılmış islahatların nəticəsi nədən ibarət olmuşdur?*



***Ağqoyunlu süvarisi***

XV əsrdə Azərbaycan döyüşçüləri, əsasən, nizə, qılınc, xəncər, ox, kaman və gürzlə silahlanırdılar. Döyüşçülər dəridən və dəmir halqalardan hazırlanmış xüsusi zireh geyinir, süvarilərin atları da dəmir zirehə bürünürdü. Qədim türk ənənələrinə uyğun olaraq yürüşə yollanan döyüşçüləri çox zaman onların ailələri və xidmətçiləri də müşayiət edirdilər.

*Hərbi yürüşə çıxan döyüşçüləri ailələrinin müşayiət etməsinin hansı əhəmiyyəti var idi?*

*1. Ağqoyunlu dövləti Azrəbaycan tarixində hansı əhəmiyyətli rolu oynamışdır?*
*2. Ağqoyunlu–Osmanlı münaqişəsinin əhalinin sosial-iqtisadi həyatına təsiri nədən ibarət oldu?*
*3. Saray xatunun dövlət idarəçiliyindəki rolu haqqında təqdimat hazırlayın.*
*4. Ağqoyunlu bəyliyinin yaranmasını dövr baxımından dəyərləndirin.*
*5. Coğrafi biliklərinizə əsasən Ağqoyunlu dövlətinə daxil olan ərazilərdə hazırda hansı dövlətlərin yerləşdiyini müəyyənləşdirin.*
*6. Uzun Həsən və Qara Yusifin dövlətçilik fəaliyyətlərini müqayisə edin.*

*7. Cədvəli tamamlayın.*

| 1453 | 1461 | 1468 | 1472 | 1473 | 1500 |
|---|---|---|---|---|---|
| | | | | | |



LAYİHƏ



27

# ŞİRVANŞAHLAR DÖVLƏTİ XIV ƏSRİN SONLARI – XV ƏSRİN ƏVVƏLLƏRİNDƏ

*XIV əsrin ortalarında Hülakülər dövlətinin süqut etməsi regionda qüvvələr balansının dəyişməsinə səbəb oldu. Kəsranilərin başçılıq etdiyi Şirvanşahlar dövləti ciddi sınaq qarşısında qalmışdı. Xarici təhlükələrin artması fonunda daxili çəkişmələrin də güclənməsi dövlətin mövcudluğunu şübhə altına alırdı. Məhz belə bir məqamda Şirvanda sülalə dəyişikliyi baş verdi, Şirvanşah I İbrahim Dərbəndinin hakimiyyəti illəri başladı.*

*I İbrahim, Fateh, doqquzluq, mehtər, Dərbəndilər*

**Dərbəndilər sülaləsinin hakimiyyətə gəlməsi.** XIV əsrin 80-ci illərində Şirvanşahlar dövlətində feodal dağınıqlığı daha da gücləndi. Kəsranilər sülaləsindən olan Şirvanşah Huşəngin dövründə əhalinin vəziyyəti daha da ağırlaşdı. Onun siyasətindən təkcə sadə xalq deyil, feodalların da xeyli hissəsi narazı idi. Bunun nəticəsində 1382-ci ildə Şirvanda üsyan başladı. Huşəng öldürüldü. Şirvan feodalları Şeyx İbrahimi (1382–1417) hakimiyyətə gətirdilər. Şeyx I İbrahim yoxsullaşmış əyan nəslindən idi. Həmin vaxt o, Şəki əyalətində xırda torpaq sahələrinə malik idi. Ata-babası vaxtilə Dərbənd hakimi olmuşdu. Ona görə də bu nəsli Dərbəndilər sülaləsi (1382–1538) adlandırırlar. Şirvanşah I İbrahim uzaqgörən dövlət xadimi, bacarıqlı diplomat idi. O, Şirvanın yadelli işğalçılar tərəfindən dağıdılmasına, qarət edilməsinə yol vermək istəmir, dövlətin istiqlaliyyətini təmin etməyə çalışırdı.



*Şirvanşah I İbrahim*

**Teymuri–Şirvan münasibətləri.** Şirvanşahların XIV əsrin sonları – XV əsrin əvvəllərindəki fəaliyyəti bilavasitə fateh Əmir Teymur və Qızıl Ordu xanı Toxtamışla bağlı olmuşdur. İkitərəfli təhlükə qarşısında qalan Şirvanşah I İbrahim mahir siyasət yeridirdi. O nəinki tərəflərin hər ikisinə qarşı, hətta birinə qarşı mübarizə aparmağın çətinliyini və səmərəsizliyini yaxşı dərk edirdi. Ona görə də I İbrahim onların birindən digərinə qarşı istifadə etmək qərarına gəldi. I İbrahim yaxşı bilirdi ki, Şirvan Qızıl Ordu dövləti ilə həmsərhəddir və əgər bu ərazi Toxtamış tərəfindən tutularsa, bu, Şirvanşahların hakimiyyətinə son qoyulması ilə nəticələnər. Əmir Teymur isə Şirvana çox uzaqlardan gəlmişdir və o, uğur qazansa belə, tutduğu ərazilərdə möhkəmlənməsi çox da asan olmayacaqdır. Məhz buna görə I İbrahim Teymurilərlə yaxınlaşmağa üstünlük verdi. O, 1386-cı ildə, Əmir Teymurun Azərbaycana ilk yürüşü zamanı qiymətli hədiyyələrlə Qarabağa gedib fatehlə ittifaq bağladı.

LAYİHƏ

*Şirvanşah I İbrahimin işğalçıların birindən istifadə edərək digəri ilə mübarizə aparmaq siyasətinə oxşar siyasət aparan hökmdarları xatırlayın.*

*Əmir Teymurun tarixçisi Şərəfəddin əl-Yəzdi bu barədə yazırdı: "Şirvan ərazisinin valisi Şeyx İbrahim fatehin hüzuruna layiqli hədiyyələr və müvafiq* ***doqquzluqlar*** *gətirdi, məliklərdən səkkiz qul təqdim etdi". Əmir Teymurun düşərgəsində İbrahimin karvanından yükü qəbul edən* ***mehtər***[1] *soruşub ki: "Qayda üzrə hədiyyə üstündə doqquz qul verirlər, sən niyə səkkizini gətirmisən?" İbrahim deyib ki, "doqquzuncu qul özüməm". Bu hadisə Əmir Teymurun xoşuna gəldi".*

*Sizcə, I İbrahimin Toxtamışla deyil, Əmir Teymurla ittifaq bağlamasını siyasi uzaqgörənlik kimi qiymətləndirmək olarmı?*

Əmir Teymurla aparılan danışıqlar nəticəsində İbrahim Şirvan hakimi kimi tanındı, şimal sərhədlərinin mühafizəsi ona tapşırıldı. Əmir Teymur I İbrahimin simasında Qızıl Ordu xanı Toxtamışa qarşı mübarizədə sadiq müttəfiqini gördü. I İbrahim Əmir Teymurla yaranan əlaqələrdən məharətlə istifadə edib Şirvanı iqtisadi-siyasi və hərbi cəhətdən qüvvətləndirə bildi. I İbrahim öz qoşunu ilə 1395-ci ildə Əmir Teymurun Qızıl Ordu dövlətinə olan yürüşündə yaxından iştirak etdi. Əmir Teymur həmin yürüşdən qələbə ilə qayıtdı.



***Əmir Teymur***

*Əmir Teymurun Qızıl Ordu üzərində qələbəsinin hansı nəticələri oldu?*
*Əmir Teymur Şirvanşah I İbrahimlə münasibətə nə üçün böyük dəyər verirdi?*

I İbrahim Əmir Teymurla Qızıl Ordu xanı Toxtamış arasındakı ədavətdən istifadə edərək Şirvanı düşmən hücumundan qurtardı. Şirvan daxilən müstəqil qaldı. Şirvanşah öz təsirini Qarabağ, Şəki, Dərbənd və Qəbələyə yaymağa müvəffəq oldu. Əmir Teymur Dərbəndin müdafiə istehkamlarını təmir etdirdi və mühafizəsini gücləndirdi. I İbrahim Şəki vilayətinin hakimliyini Seydi Əlinin oğlu Seydi Əhmədə qaytarmaq barədə Teymurdan razılıq aldı. I İbrahimin vasitəçiliyi ilə gürcü çarı VII Georgi Teymurla sülh müqaviləsi bağladı, Azərbaycan–Gürcüstan münasibətləri daha da möhkəmləndi. Həmin vaxtdan etibarən Gürcüstan və Şəki hakimliyi Şirvanşahlar dövlətinin müttəfiqi kimi çıxış edirdilər. Tarix də I İbrahimin siyasətinin düzgün olduğunu təsdiq etdi: Əmir Teymurun ölümü ilə (1405-ci ildə) onun imperiyası parçalandı. Teymurilər tezliklə Azərbaycandan və Şirvandan əl çəkməyə məcbur edildilər.

*I İbrahim Əmir Teymurla qurduğu münasibətlərdən nə əldə etdi?*

**Şirvanşah I İbrahimin birləşdirmə siyasəti.** 1405–1410-cu illər Azərbaycan tarixində gərgin dövrlərdən biridir. Azərbaycanda Şirvanşahlardan başqa Cəlairilər, Qaraqoyunlular hakimiyyətə yiyələnmək, Teymurilər isə hakimiyyəti əldə saxlamaq uğrunda vuruşurdular. Beləliklə, Azərbaycan qeyd olunan dövrdə dörd tərəfin apardığı mübarizə meydanına çevrilmişdi. Teymurilər imperiyası tərkibində hakimiyyət uğrunda mübarizə şəraitində Azərbaycanın bir çox yerlərində (Gəncə, Şəki, Qarabağ, Təbriz,

[1] *Mehtər* – ata baxan şəxs



LAYİHƏ




***Azərbaycan XV əsrdə***

Ərdəbil, Marağa və s. yerlərdə) xalq üsyanları başladı. Yaranmış vəziyyətdən istifadə edən I İbrahim Gəncənin və Qarabağın xeyli hissəsini tutdu. 1405-ci ilin yayında gürcü çarı Konstantin, Şəki xanı Seydi Əhməd və Şirvanşah I İbrahimin birləşmiş ordusu ilə Teymuri Ömərin ordusu arasında Kür çayı sahilində döyüş baş verdi. Teymuri Ömərin ordusu məğlub olaraq Təbrizə qayıtdı. 1406-cı ildə Teymurilərə qarşı Təbrizdə üsyan baş verdi. Təbrizlilər kömək üçün Şirvanşah I İbrahimə müraciət etdilər. I İbrahim 1406-cı ilin mayında Təbrizə daxil oldu. Əhali I İbrahimi mehribanlıqla qarşıladı və onu öz hakimi kimi tanıdı. O, əhalidən alınan vergiləri qaydaya saldı. Beləliklə, qısa müddətə də olsa, Şirvanşah I İbrahim Azərbaycanın böyük bir hissəsini öz hakimyyəti altında vahid halda birləşdirdi. Lakin o, Təbrizdə möhkəmlənə bilmədi. Çünki tezliklə Cəlairi Sultan Əhmədin və onunla ittifaqda olan Qaraqoyunlu tayfalarının hərbi qüvvələri şəhərə yaxınlaşdılar. I İbrahim məcburiyyət qarşısında Təbrizi tərk etməli oldu.

? *Sizcə, Təbriz əhalisinin kömək üçün Şirvanşah I İbrahimə müraciət etməsi nəyin göstəricisidir?*

*1. I İbrahimin Əmir Teymurla münasibətlərini necə qiymətləndirirsiniz?*
*2. Xəritəyə əsasən Şirvanşahlara birləşdirilən əraziləri göstərin.*
*3. Şirvanşah I İbrahimin fəaliyyətini dövr baxımından dəyərləndirin.*
*4. Şirvanşah I İbrahimin və Əmir Teymurun siyasətini müqayisə edin.*

LAYİHƏ



# 28 ŞƏKİ HAKİMLİYİ. SƏFƏVİLƏRİN ƏRDƏBİL HAKİMLİYİ

*Bütün inkişaf etmiş feodal dövlətlər kimi, Azərbaycan da feodal dağınıqlığı dövrü yaşamışdır. Onun şimalında və cənubunda mövcud olmuş pərakəndə feodal dövlət qurumları özünəməxsus inkişaf yolları keçmişdir. Onlardan bəziləri nə qədər uzunömürlü olsalar da, nəticədə vahid dövlətin tərkibinə qatılmış, biri isə mərkəzləşmiş dövlətin beşiyi olmuşdur.*

*Vali, Ərdəbil, sufi, dərviş, mürid, qızılbaş, orden, Səfəviyyə, İsmayıl, qazi*

**Şəki hakimliyi.** Tarixən öz müstəqilliyi uğrunda mübarizə aparan Şəkinin XIII–XIV əsrlərdəki vəziyyəti başqa feodal mülklərindən bir qədər fərqli idi. Dövrün tarixçisi Şəhabəddin Nəsəvi yazırdı ki, 1229-cu ildə Şirvan şəhərləri olan Şəki və Qəbələyə ayrıca vəzir və vali[1] təyin olunmuşdu. Onlar bu şəhərləri birlikdə idarə edirdilər. Şəki bundan sonra XIII–XIV əsrlər boyu istər Hülakülər, istərsə də Cəlairilər dövründə Azərbaycanın tərkib hissəsi kimi qalmış və əksər vaxtlarda Şirvanın nüfuz dairəsində olmuşdur. Fəzlullah Rəşidəddinin yazdığına görə, həmin əsrlərin qovşağında Şəki, Qarabağ, Muğan və Arran onun oğlu Cəlal tərəfindən idarə olunurdu.

*Dövrün tarixçiləri Şəki haqqında hansı məlumatları verirlər?*

XIV əsrin 30-cu illərində Hülakülər dövlətinin tənəzzülü və parçalanması nəticəsində bir sıra müstəqil dövlətlər meydana çıxdı. Azərbaycanın şimalında Şirvanşahlar dövləti ilə yanaşı, Şəki feodalları da daxili müstəqillik əldə etdilər. Şəkidə hakimiyyətə Oyrat nəsli gəldi. Həmin dövrdən başlayaraq, Şəki hakimləri Azərbaycanın siyasi həyatında yaxından iştirak edir, öz müstəqilliklərini mühafizə etmək uğrunda mübarizə aparırdılar.

**Şəki hakimliyi Əmir Teymura qarşı.** Əmir Teymurun yeni yürüşü zamanı Şəki ərazisi Teymurilərin təcavüzünə məruz qaldı. Gürcü qüvvələri ilə ittifaq bağlayan Şəki hakimi Seydi Əli Əlincə qalasına hücum edərək uzun müddət mühasirədə qalan Cəlairi sultanı Tahirə köməklik göstərdi. Teymurilərlə döyüşdə Seydi Əli həlak oldu. Onun yerinə oğlu Seydi Əhməd gəldi. Seydi Əhməd Şirvanşah I İbrahimin himayəçiliyi ilə Əmir Teymurun hüzuruna getdi. O özü ilə qiymətli hədiyyələr apardı və 6000 at verdi. Əmir Teymur Seydi Əhmədi Şəki hakimi kimi tanıdı. Ümumiyyətlə, Şəki hakimliyi XV əsrdə Azərbaycanın siyasi həyatında yaxından iştirak etmiş və müstəqilliyini mühafizə etmək uğrunda mübarizə aparmışdır.

*Teymuri–Şəki münasibətlərini səciyyələndirin.*

[1] *Vali* – islam ölkələrinin idarəçilik sistemində əyalətin və ya başqa inzibati vahidin canişininə uyğun gələn vəzifə



LAYİHƏ

**Səfəvilərin Ərdəbil hakimliyi.** Səfəvilər sülaləsinin yüksəlişi monqol istilası dövrünə təsadüf edir. XIII əsrdə monqolların işğal etdikləri ərazidə sufi-dərviş təriqəti (orden və ya məktəb) yarandı və tezliklə sənətkar və kəndlilər içərisində geniş yayıldı. XIII əsrin sonunda belə dərviş ordenlərindən biri də Azərbaycanın Ərdəbil şəhərində meydana gəlmişdi. Ordenin və şeyxlər sülaləsinin adı XIII–XIV əsrlərdə yaşamış Şeyx Səfiəddin İshaq əl-Musəvi əl-Ərdəbilinin adı ilə bağlı idi. Bütün Ərdəbil əhalisi şeyxin müridləri hesab olunur və onun göstərişlərinə əməl edirdilər. Şiəlik təriqətinə mənsub Səfəvilərin müvəffəqiyyətinə səbəb Ərdəbil şeyxlərinin başçılıq etdiyi hərəkatın ölkənin oturaq əhalisinin tələbini ifadə etməsi idi.


*Şeyx Səfiəddin türbəsi. Ərdəbil*

? *Ərdəbil şeyxləri nə üçün xalq arasında geniş nüfuza malik idilər?*

Sonralar Səfəvi təriqətinə Şeyx Cüneyd (1447–1460), Şeyx Heydər (1460–1488), Şeyx Sultanəli (1488–1494) və Şeyx İsmayıl (1494–1501) başçılıq etmişdir.

XV əsrin ortalarından etibarən Səfəvilər uğurlu yürüşlər həyata keçirərək böyük qənimətlər əldə edir və tədricən Ərdəbildə öz mövqelərini möhkəmləndirirdilər. Bu vaxt Azərbaycanın cənubunda Qaraqoyunlu Cahanşah hökmranlıq edirdi. Onun tələbi ilə Şeyx Cüneyd 1449-cu ildə Ərdəbili tərk etdi. O, Misir, Suriya, Mesopotamiyanı gəzib dolaşdıqdan sonra Diyarbəkirə qayıtdı. Qaraqoyunluların rəqibi Ağqoyunlu Həsən bəy Bayandur (Uzun Həsən) Şeyx Cüneydi səmimi qarşıladı və onunla qohumluq əlaqəsi yaratdı.


*Şeyx Cüneyd məqbərəsi. Qusar*


*Şeyx Heydər türbəsi. Meşkinşəhr*

? *Ağqoyunlu Həsən bəyin Şeyx Cüneydlə qohum olmaqda məqsədi nə idi?*

1460-cı ildə Şeyx Cüneyd Dağıstana və Şirvana yürüş etdi. Şirvanşah I Xəlilullah Qaraqoyunlu Cahanşahla ittifaqa girdi. Samur çayı sahilində döyüşdə Səfəvilər məğlub oldular. Şeyx Cüneyd öldürüldü. Cüneydin oğlu Şeyx Heydər atasının siyasətini davam etdirdi. O, dayısı Həsən bəy Bayandurun qızı Aləmşah bəyimlə evləndi və Ağqoyunlularla qohumluq münasibətini daha da gücləndirdi.

1470-ci ilin əvvəllərində Padşah Uzun Həsən Ərdəbilə gəldi və Şeyx Heydəri təntənəli surətdə ordenin irsi taxtına oturtdu. Şeyx Heydərin vaxtında qazi, sufi dəstələri hərbi qaydada təşkil olunurdu. Onlar on iki imamın şərəfinə başlarına on iki qırmızı zolaqlı çalma qoyurdular. Ona görə də onlara qızılbaşlar deyirdilər.

? *Şeyx Heydər orduda hansı dəyişikliklər etdi?*

XV əsrin 80-ci illərində Şeyx Heydər Dağıstana və Şirvana uğurlu yürüşlər etdi. Bu, Ağqoyunlu Sultan Yaqubu qorxuya saldı. Ona görə də o, Şeyx Heydərin 1488-ci ildə Şirvana yürüşü zamanı Şirvanşah Fərrux Yasara kömək etdi. Şahdağın ətəyində Şirvanşah və Ağqoyunluların birləşmiş qüvvələri ilə qızılbaşlar arasında qanlı döyüş baş verdi. Hər iki tərəf xeyli itki verdi. Şeyx Heydər öldürüldü. Sultan Yaqub Ərdəbili işğal etdi, Şeyx



LAYİHƏ



***Qızılbaş ordusu***

Heydərin oğlanları: Sultanəli, İbrahim və hələ iki yaşı tamam olmamış İsmayılı əsir aldı. Onlar Şiraz yaxınlığında İstəxr qalasında dörd il yarım saxlanıldı.

1492-ci ildə hakimiyyətə gələn Ağqoyunlu Rüstəm Mirzə onları həbsdən azad etdi, Sultanəlini Ərdəbilə qaytardı və onu müstəqil hakim kimi tanıdı. Lakin Sultanəlinin nüfuzunun artması Rüstəm Mirzəni qorxuya saldığı üçün ona qarşı 5000 nəfərlik ordu göndərdi. 1494-cü ildə Sultanəli Ərdəbil yaxınlığında Şəməsi adlanan yerdə Ağqoyunlu qoşunu ilə döyüşdə öldürüldü. Ağqoyunlular yenidən Ərdəbili zəbt etdilər.



***Ərdəbil şəhərinin görünüşü.***
***Alman coğrafiyaşünası İohann Baptist Homannın çəkdiyi şəkil***

? *Ərdəbil hakimliyi ilə Ağqoyunlu münasibətlərinin pozulmasını nə ilə əlaqələndirirsiniz?*



LAYİHƏ

*"Sultan Əlinin qızılbaşları Ərdəbil yaxınlığındakı Şəməsi adlı yerdə darmadağın edildikdən sonra sədaqətli sufilər Şeyx Heydərin oğulları İsmayıl və İbrahimə Ərdəbildə gizlənməyə kömək etdilər. Onların ardınca Heydərin övladlarını hər vasitə ilə tutmaq və məhv etmək tapşırığı almış Eybə Sultanın dəstələri şəhərə daxil oldular. Eybə Sultanın dəstələri həmin hadisələri danışan anonim salnaməçinin dediyinə görə, "Ərdəbil əhalisinə münasibətdə zorakılığa və təzyiqə əl atdılar, qətl və qarətlərə başladılar". İsmayıl anası Aləmşah bəyimin ilk vaxtlar onları gizlətdiyi Şeyx Səfiəddin məqbərəsini tərk edərək Qazi Əhməd Kakuli adlı Səfəvi müridlərindən birinin evinə köçdü və üç gün ərzində orada qaldı.*

*Dördüncü gün İsmayılın dəstəsi Rəştə doğru hərəkət etdi. İsmayılın tərəfdarları Rəşt hakiminin dəvətinə baxmayaraq, onu "Ağ məscid" deyilən yerdə yerləşdirməyi üstün tutdular. Rəştdə olduğu zaman İsmayıla daim məscidin qonşuluğunda yerləşən zərgərlik dükanının sahibi Əmir Nəcm adında yerli sakin qulluq etmişdi.*

*Rəşti də təhlükəsiz hesab etməyən sadiq müridlər İsmayıla Lahicana, Gilanın Biyepiş vilayətinin hakimi Karkiya Mirzə Əlinin sarayına köçməkdə kömək etdilər. Lahicanda İsmayılı və onu müşayiət edənləri mehribanlıqla qarşıladılar və Key Əfridun mədrəsəsi ilə üzbəüz binada yerləşdirdilər. Karkiya Mirzə Əli özünün hörmətli qonaqlarına hər cür diqqət göstərirdi. Tanınmış yerli alimlərdən biri, Şəmsəddin Lahici ərəb və fars dillərini öyrətmək, "Quran"ı oxumaq üçün İsmayılın və onun qardaşının tərbiyəçisi təyin olundu".*

***Oqtay Əfəndiyevin "Azərbaycan Səfəvilər dövləti" əsərindən***

İsmayıl 6 il Lahicanda qaldı. O, həddi-büluğa çatana qədər bütün məsələləri qızılbaş əmirləri həll edirdilər.

*Qızılbaşlar niyə Şeyx İsmayılı qoruyurdular?*

1. *Şəki hakimliyi ilə eyni vaxtda mövcud olan Azərbaycan dövlətləri hansılardır?*
2. *Nə üçün əmir Teymur Seydi Əlinin oğlu Seydi Əhmədi Şəki hakimi kimi tanıdı?*
3. *Qaraqoyunlular nə üçün Ərdəbil şeyxlərinə qarşı mübarizəyə başladılar?*
4. *Ağqoyunlu padşahı Sultan Yaqubun və Rüstəm Mirzənin Ərdəbil hakimliyi ilə bağlı siyasətlərində oxşarlıq nədə idi?*
5. *Ərdəbil hakimlərini Şirvan və Şəkinin hakimləri ilə müqayisə edərək onların daxili və xarici siyasətlərində fərqli cəhətləri müəyyənləşdirin.*

LAYİHƏ



29

# XIII–XV ƏSRLƏRDƏ MƏDƏNİYYƏT

*Yadelli yürüşlərin intensiv xarakter aldığı dövrdə Azərbaycan ərazisinin vahid halda birləşə bilməməsi mədəniyyətin inkişafına da mənfi təsir göstərirdi. Xarici basqınlar zamanı xalqın min illər ərzində yaratdığı maddi-mədəniyyət nümunələri dağıdılır, yararsız hala salınırdı. Bütün bunlara baxmayaraq, əsası İntibah dövründə qoyulmuş elm, memarlıq və ədəbiyyat inkişaf etməkdə idi.*

*Nəsirəddin Tusi, Marağa rəsədxanası, Təbriz Universiteti, Bərdə türbəsi, Şirvanşahlar sarayı*

**Elm, təhsil.** Bu dövrdə dünya şöhrətli Azərbaycan alimi Nəsirəddin Tusinin rəhbərliyi altında 1259-cu ildə Marağada və XIV əsrin əvvəlində Şam-Qazanda tikilmiş rəsədxanalar Şərqdə astronomiya elminin mərkəzinə çevrilmişdi.

? *Müasir dövrdə hansı rəsədxanaları tanıyırsınız?*



**Marağa rəsədxanasının bərpa edilmiş görüntüsü**

Marağa rəsədxanasının fəaliyyətində əvəzsiz rol oynayan N.Tusi Hülakü xanın məsləhətçisi, Abaqa xanın isə veziri olmuşdur. O, "Zic Elxani" ("Elxani cədvəlləri"), "Əxlaqi-Nasiri", "Təhriri Oqlidis" ("Evklidin şərhi") əsərləri ilə elmə böyük töhfələr vermişdir. Böyük alimin qəbri üzərində "Elm ölkəsinin şahı" sözləri yazılmışdır.



**Nəsirəddin Tusi**

? *Sizcə, Nəsirəddin Tusinin elmin müxtəlif sahələrinə aid əsərlər yazması nə ilə əlaqədar idi?*

Məşhur Azərbaycan alimi Məhəmməd Naxçıvani İbn Sina kimi sağlamlığı insanın əqli və fiziki inkişafının əsası hesab edərək ölkədə müalicə evlərinin – "Dar ül-şəfa"ların olması haqqında ətraflı məlumat vermişdir. Azərbaycanın təkcə cənub ərazisində 67 şəfa evi var idi. Ölkədə daruxanalar (apteklər) da fəaliyyət göstərirdi.

Hülakülər dövlətinin baş veziri Fəzlullah Rəşidəddinin məşhur "Came ət-təvarix" ("Tarixlər toplusu") əsərində dünya və Azərbaycan tarixlərinə aid maraqlı məlumatlar verilmişdir. Dövrün digər tarixçiləri Həmdullah Qəzvininin, Şərafəddin Əli-Yəzidinin və başqalarının əsərlərində Azərbaycan tarixinə xüsusi diqqət yetirilirdi.

LAYİHƏ

*"Cami ət-təvarix" əsəri hansı dövrü öyrənmək baxımından əhəmiyyətlidir?*

Təbrizin Rəbi Rəşidi məhəlləsində XIV əsrin əvvəllərində Fəzlullah Rəşidəddin tərəfindən yaradılmış mədrəsə Bağdaddakı Nizamiyyə mədrəsəsindən sonra Şərqdə ikinci ali təhsil ocağı hesab edilirdi. Təbriz ali mədrəsəsində – universitetdə 500-ə qədər alim dərs deyir, 7 min tələbə oxuyurdu. Tələbələrin 6 min nəfəri müxtəlif müsəlman ölkələrindən gəlmişdi. Universitet binası ilə yanaşı, Alimlər və Tələbə məhəllələri, habelə 60 min kitaba malik kitabxana Rəbi Rəşidi məhəlləsində yerləşirdi.

*Təbriz Universitetinin yarandığı əsrdə Avropada hansı universitetlər var idi?*

Coğrafiya sahəsində Zəkəriyyə Qəzvininin, Həmdullah Qəzvininin və Əbdürrəşid Bakuvinin əsərlərini xüsusi qeyd etmək lazımdır.

*Azərbaycan haqqında ilk məlumatı hansı qədim dünya coğrafiyaçısının verdiyini araşdırın.*

Əsirəddin Əndəlüsinin "Türk dilinin dərketmə kitabı" adlanan və 2300 sözü əhatə edən türkcə-ərəbcə lüğəti dilçilik baxımından böyük əhəmiyyət kəsb edirdi.

*Mahmud Kaşğarlı ilə Əsirəddin Əndəlüsinin fəaliyyətində hansı oxşarlıq vardır?*

Təbrizli Fəzlullah Nəimi hürufiliyin banisi idi. Onun "Cavidannamə" adlı əsərində Hürufiliyin nəzəri əsasları əks olunmuşdur. Əslində, bu əsər hürufiliyin proqramı olub Teymurilərin hakimiyyəti əleyhinə çevrilmiş mənəvi-siyasi hərəkat xarakteri daşıyırdı. Onun görkəmli davamçılarından biri – XV əsrin böyük filosofu və şairi İmadəddin Nəsimi idi.



***İmadəddin Nəsimi***

**Memarlıq, incəsənət.** Monqolların ikinci yürüşü nəticəsində dağıdılan Gəncə şəhəri 1239-cu ildən bərpa olunmağa başladı. XIII–XIV əsrlərin qovşağında Sultaniyyə və Mahmudabad şəhərləri salındı. Təbrizdə Elxani vəziri Tacəddin Əlişahın tikdirdiyi "Əlişah məscidi" sonralar Ərk qalası kimi tanınmışdır.



***Ərk qalası***

LAYİHƏ

*Ərk qalasının müasir taleyi ilə bağlı məlumat toplayın və referat hazırlayın.*

Təbrizli usta Yusif ibn Əhmədin 1319-cu ildə düzəltdiyi bədii naxışlı kasa Londonda Viktoriya və Albert muzeyində, Əbdüləziz ibn Şərafəddinin Əmir Teymurun sifarişi ilə 1399-cu ildə düzəltdiyi tiyan isə Sankt-Peterburqun Ermitaj muzeyində saxlanılır.



***Naxışlı kasa***

**Ədəbiyyat.** XIV yüzillikdə Suli Fəqih və Mustafa Zərir kimi Azərbaycan şairləri də “Quran” motivləri əsasında qurulmuş “Yusif və Züleyxa” mövzusunda ana dilində əsərlər yaratmışlar. Elə həmin dövrün sənətkarı Yusif Məddahın “Vərqa və Gülşa” poeması da anadilli epik şeirin gözəl örnəklərindən biri hesab edilir.

XIV əsrin şair və hökmdarı Qazi Bürhanəddinin yaradıcılığını ingilis şərqşünası Eduard Braun türk ədəbiyyatlarında dünyəvi poeziyanın ilk örnəyi elan edərək yüksək qiymətləndirmişdir. Bu dövrdə ədəbiyyatda və ictimai-siyasi fikirdə formalaşmış humanizm prinsipləri xüsusən Seyid İmadəddin Nəsimi yaradıcılığında öz zirvəsinə çatmışdır. XV əsr Azərbaycan ədəbiyyatında bu zamana qədər başqa türk xalqlarının ədəbi dili ilə bir çox cəhətdən müştərək olan Azərbaycan ədəbi dili öz fərqləndirici xüsusiyyətlərini əldə edir.



***Tiyan***

**Xalçaçılıq.** XIV–XV əsrlərdə Azərbaycanın nəfis naxışlı xalça məmulatları Avropaya ixrac edilməyə başlandı. Tez bir zamanda incə ornamentləri ilə Avropa rəssamlarının diqqətini də cəlb edərək onların yaratdığı əsərlərdə öz əksini tapdı. Buna görə də orta əsrlərə aid italyan, Niderland və alman rəssamlarının əsərlərində Şərq xalçalarına rast gəlinir. Bu cür əsərlərə nümunə olaraq aşağıdakıları göstərmək olar:



***Qazax xalçaçılıq məktəbinə aid Borçalı xalçası Karlo Krivellinin “Səmadan xəbər” rəsm əsərində***



***Quba xalçaçılıq məktəbinə aid Zeyvə xalçası (Madonnanın ayağı altında) Yan van Eykın “Madonna” əsərində***



***Qarabağ xalçaçılıq məktəbinə aid Zilli xalçası Hans Memlinqin “Gül dəsti” əsərində***

LAYİHƏ






Mərdəkanda dairəvi qala

Naxçıvanda Gülüstan türbəsi

Nardaran qalası

Ramana qalası

## XIII–XIV əsr Azərbaycan memarlıq abidələri

Bərdə türbəsi

Sultaniyyədə Olcaytu Xudabəndə türbəsi

Qarabağlar kəndindəki memarlıq kompleksində türbə (Baştağ abidəsi)

Bayıl qalası






## XV əsr Azərbaycan memarlıq abidələri

Yaqub Padşahın əmri ilə Təbrizdə tikilən Həşt Behişt sarayı

Bakıda Şirvanşahlar saray kompleksi

Cahanşahın əmri ilə Təbrizdə tikilən Göy məscid

Təbrizdə Həsən Padşah məscidi

Təbrizdə Qeysəriyyə bazarı







*1. Şirvanşahlar dövlətinə aid hansı memarlıq abidələrini tanıyırsınız?*
*2. Sizcə, avropalı rəssamların əsərlərində Azərbaycan xalçalarından nümunələrin verilməsi nə ilə bağlı idi?*
*3. XIV və XV əsrlərin memarlıq abidələrini müqayisə edin.*
*4. N.Tusinin fəaliyyəti barədə təqdimat hazırlayın.*

LAYİHƏ



# IV. AZƏRBAYCAN XVI–XVIII ƏSRLƏRDƏ

*XVI əsrin əvvəlində Azərbaycan tarixində yeni, şanlı bir səhifə açıldı – Şah I İsmayıl Azərbaycan Səfəvi dövlətinin əsasını qoydu. Qısa müddətdə Ərəb İraqı və Diyarbəkirdən Xorasana qədər çox böyük ərazilər Səfəvi hakimiyyəti altında birləşdirildi.*

*Şah I İsmayıl Osmanlı sultanı II Bəyazidlə dostluq münasibətləri qurmuşdu. Lakin Sultan I Səlimin hakimiyyətə gəlməsi ilə bu münasibətlər pozuldu. Uzun sürən Səfəvi–Osmanlı müharibələri başladı. Bu müharibələr hər iki tərəfin hərbi gücünü zəiflətdi, iqtisadi vəziyyətinə ağır zərbə vurdu. Osmanlıların qərbə doğru uğurlu yürüşləri səngidi. Səfəvi dövlətinin şərq sərhədləri üçün təhlükə artdı. Bu iki türk-müsəlman dövləti arasında gedən qanlı müharibə onların düşmənlərini sevindirməyə bilməzdi. Sonralar Şah I Abbasın gördüyü tədbirlər, islahatlar nəticəsində Səfəvilər itirdikləri torpaqları geri qaytarıb öz nüfuzlarını bərpa edə bildilər.*

*XVIII əsrin əvvəllərində Səfəvi imperiyasını xalq çıxışları və üsyanlar bürüdü. Rusların Xəzərsahili vilayətlərə yürüşləri başladı, əfqanlar hücum edib paytaxt İsfahanı tutdular. Yalnız Nadir xan Əfşarın qətiyyəti nəticəsində Səfəvi dövlətinin itirdiyi əraziləri geri qaytarmaq mümkün oldu. 1736-cı ildə Nadir Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyub özünü şah elan etdi. Onun hakimiyyəti illərində aramsız müharibələr, ağır vergilər xalqı ayağa qaldırdı, Azərbaycanı üsyanlar bürüdü. Nadir şahın 1747-ci ildə sui-qəsd nəticəsində öldürülməsi ilə onun qurduğu imperiya da dağıldı.*

*Nadir şahın ölümündən sonra Azərbaycan ərazisində 20-yə yaxın müstəqil feodal dövlət – xanlıqlar meydana çıxdı. Hərbi-siyasi cəhətdən daha güclü olan Quba, Şəki, Qarabağ və Urmiya xanlıqları bütün Azərbaycan torpaqlarını vahid dövlət halında birləşdirməyə səy göstərsələr də, buna nail ola bilmədilər.*

LAYİHƏ



# 30

## SƏFƏVİLƏR DÖVLƏTİNİN YARANMASI VƏ YÜKSƏLİŞİ

*XIII əsrdə Bağdadın tutulması ilə Abbasilər xilafəti süqut etdi. Dini liderin olmaması islam cəmiyyətini ciddi sınaq qarşısında qoydu. Monqolların ilk vaxtlar islam dinini sıxışdırması müsəlman cəmiyyətlərində çoxsaylı təriqətlərin və cərəyanların yaranmasına səbəb oldu. Ərdəbildə şiəliyi təbliğ edən Səfəviyyə təriqəti də məhz bu vaxtdan formalaşmağa başladı. Sonralar bu təriqətin nümayəndələri yeni mərkəzləşmiş dövlətin əsasını qoydular.*

*Ərdəbil hakimliyi, Ərzincan müşavirəsi, İsmayıl, qızılbaş yürüşləri, mərkəzləşmiş dövlət, şah*




***Səfəvilər dövləti Şah I İsmayılın dövründə***

**Təriqətdən dövlətə.** XV əsrdə Səfəvi təriqəti güclü siyasi qüvvəyə çevrilməkdə idi. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin sabitlik yarada bilməməsi, hakimiyyət uğrunda çəkişmələr sosial-iqtisadi vəziyyətə də mənfi təsir göstərdi. Əhalinin güzəranı çətinləşdi. XV əsrin sonlarında mərkəzi hakimiyyətin daha da zəifləməsi sadə xalq arasında Səfəvilərin nüfuzunun artmasına əlverişli şərait yaratdı. 1499-cu ildə Ərdəbil şeyxlərinin varisi İsmayıl Lahicandan Ərdəbilə doğru hərəkətə başladı. Qızılbaş əmirlərinin məsləhəti ilə hərəkətə keçən gənc İsmayılın əsas vəzifəsi "Səfəviyyə" müridlərini qısa müddətdə bir araya toplamaq, Azərbaycanda siyasi hakimiyyəti ələ keçirmək idi. Ərdə-



LAYİHƏ

bildə möhkəmlənə bilməyən İsmayıl Ərzincana yollandı. Yol boyunca qızılbaşlara qoşulanların sayı durmadan artırdı.

**Ərzincandan Şirvana.** Qızılbaşların əsas rəqibləri Ağqoyunlular və Şirvanşahlar idi. 1500-cü ildə Ərzincanda qızılbaşların müşavirəsi toplandı. Müşavirədə ilk zərbənin Şirvanşah Fərrux Yasara vurulması qərarı qəbul edildi. Həmin ilin sonlarında İsmayılın başçılığı ilə qızılbaş qoşunu Gülüstan qalası ətəyindəki Cəbani (Cabanı) düzündə Şirvanşahın qoşunları ilə döyüşə girdi. Sayca az olmalarına baxmayaraq, qızılbaşlar Şirvan qoşununu darmadağın etdilər, Fərrux Yasar isə həlak oldu. 1501-ci ilin yazında şiddətli müqavimətdən sonra Bakı qalası da tutuldu.



***Fərrux Yasarla İsmayıl arasında baş verən döyüş. Miniatür***

? *Sizcə, İsmayılın ilk olaraq Şirvanşahlara qarşı yürüşə başlamasının hansı səbəbləri vardı?*

İsmayılın uğurları ağqoyunlu Əlvənd Mirzəni narahat edirdi. Onun Şirvana qayıtmaq və oranın idarəsi ilə kifayətlənmək təklifini İsmayıl rədd edincə müharibə qaçılmaz oldu. 1501-ci ilin ortalarında Şərur düzündə baş verən döyüşdə qızılbaşlar özlərindən qat-qat üstün olan Ağqoyunlu qoşununu məğlub etdilər. İsmayıl bu döyüşdə şəxsi igidlik və böyük sərkərdəlik məharəti göstərdi. Qızılbaşların qələbə qazanmasının əsas səbəbi müridlərinin öz şeyxləri yolunda ölümə belə hazır olması, mənəviyyatca möhkəm və mətinlikləri idi. Bütün döyüşlərdə şəxsən iştirak edən gənc İsmayıl isə qızılbaşların ilham mənbəyinə çevrilmişdi.



***Şah I İsmayıl***

Ağqoyunluların birinci qolunun süqut etməsi ilə nəticələnən Şərur döyüşündən bir qədər sonra İsmayıl Təbrizə daxil olaraq özünü şah elan etdi. Azərbaycan Səfəvi dövlətinin əsası qoyuldu. 1503-cü ildə isə Fars və Əcəm İraqının hakimi Ağqoyunlu sultan Murad Almabulağı adlı yerdə məğlub edildi. Beləliklə, Ağqoyunlu hakimiyyətinə son qoyuldu. İsmayıl özünü babası Uzun Həsənin siyasi varisi sayaraq qurduğu dövləti Ağqoyunlu sərhədləri daxilində bərpa etməyə çalışırdı. Qısa müddət ərzində Ərəb İraqı və Diyarbəkrdən Xorasana qədər olan vilayətlər yeni dövlətin tərkibinə daxil edildi. 1510-cu il Mərv döyüşündə Şeybani xanı da məğlub edən Şah I İsmayıl Amudəryaya qədər bütün Xorasanı öz hakimiyyəti altına aldı. Səfəvi dövləti geniş ərazili imperiyaya çevrildi.

? *Səfəvilər dövlətinin yaradılmasının mühüm nəticəsi nə oldu?*

**Səfəvi–Osmanlı münasibətləri.** Şah I İsmayılın uğurları onun Osmanlı sultanı tərəfindən hökmdar kimi tanınması ilə nəticələndi. II Bəyazidin dövründə yaradılan mehriban dostluq əlaqələri Sultan I Səlimin hakimiyyətə gəlişi ilə pozuldu. Sultan I Səlim Osmanlı dövlətinin sərhədlərini Şərqi Anadoluya qədər genişləndirmək və Azərbaycandan da

LAYİHƏ

keçən ticarət yollarına nəzarət etmək istəyi Səfəvi–Osmanlı müharibələrinin başlaması-na səbəb oldu. I Səlim müharibə ərəfəsində Macarıstan və Venesiya ilə sülh bağlamış, Şeybanilər tərəfdən yardım vədini almışdı. Şah I İsmayıl da ehtiyat tədbirləri görmüş, Avropa dövlətləri ilə diplomatik əlaqələr yaratmağa başlamışdı. Ağqoyunlu Həsən padşahın siyasətini davam etdirən Səfəvi şahı diplomatik münasibətlərdə əsas diqqəti odlu silah almağa və ticarət əlaqələrini genişləndirməyə yönəltmişdi. Bu məqsədlə portuqallarla danışıqlar aparan Səfəvi şahı onların Hörmüzdə möhkəmlənməsinə də göz yummuşdu. Lakin bütün bunlara baxmayaraq, Osmanlılarla müharibə ərəfəsində Səfəvilərin odlu silah əldə etmək cəhdləri uğursuz oldu.

?

*Sizcə, nə üçün hər iki qüdrətli türk-müsəlman dövləti müharibə ərəfəsində Avropa ölkələri ilə münasibətlərini tənzimləməyə çalışırdı?*

I Səlimin göstərişinə uyğun olaraq üləmaların[1] qızılbaşlara qarşı müqəddəs müharibə – cihad elan etməsi ilə aparılan mübarizəyə dini don geyindirilmiş oldu. Beləliklə, orta əsrlərin iki qüdrətli türk dövləti arasında fasilələrlə iki yüz il ərzində davam etmiş müharibə başlandı.

Tərəflər arasında həlledici döyüş 1514-cü il avqustun 23-də, Maku yaxınlığındakı Çaldıran düzündə baş verdi. Qızılbaşların cəsarətli həmlələrinə və Şah I İsmayılın şəxsi şücaətlərinə baxmayaraq, sonda say çoxluğuna görə və odlu silahların hesabına Osmanlı ordusu qələbə qazandı.



***Şah I İsmayıl Çaldıran döyüşündə. Miniatür***

M

"Yeniçərilər və topçular atəş açmağa başladılar. Top və tüfəng atəşlərindən işıqlı gündüz qaraldı. Qızılbaş ləşkərinin (qoşununun – red.) əksər igidləri qorxu bilmədən özlərini atəş dəryasına vursalar da, tüfəng atəşləri qarşısında çarəsiz qaldılar, öz həyat xırmanlarını yandırdılar".

***İ.Münşinin "Dünyanı bəzəyən Abbasın tarixi" əsərindən***

?

*Yuxarıdakı mənbə Azərbaycan döyüşçülərinin hansı keyfiyyətlərini əks etdirir?*

Təbrizi ələ keçirən Sultan I Səlim burada möhkəmlənə bilmədi. Əsgərlər arasındakı narazılıq dalğası, həmçinin qızılbaşların gücündən ehtiyat edən Osmanlı sultanı geri dönməyə məcbur oldu. Buna baxmayaraq, Mosula qədər Şərqi və Cənub-şərqi Anadolu torpaqları Osmanlıların əlinə keçdi.

M

*"Bizim fanatik ülәmalar bizi xəbərdar etmədilər... Müsəlmanları öldürmək üçün bizi təhrik etdilər... Həqiqət budur ki, biz iranlılarla (azərbaycanlılarla) savaşmayacağıq".*

***Yeniçəri əsgərlərinin I Səlimə ərizəsindən***

*Mənbəni şərh edin.*

Çaldıran döyüşündə ən yaxın silahdaşlarının itirilməsindən sarsılan Şah I İsmayıl da bir daha Osmanlılarla döyüşə girmədi. Sultan I Səlimin ölümü və ondan sonra hakimiyyətə gələn Sultan I Süleymanın daha çox Qərb ölkələri ilə müharibə aparmağa üstünlük verməsi də təsir göstərmişdi.

[1] *Üləma* – müsəlman din xadimləridir.



LAYİHƏ




*Səfəvilər dövləti Şah I Təhmasibin dövründə*

**Vahid Azərbaycan dövlətinin yaradılması prosesinin başa çatdırılması. I Təhmasib.** Şah I İsmayılın vəfatından sonra (1524) hakimiyyətə oğlu Təhmasib gəldi. Onun azyaşlı olması hakimiyyətinin ilk illərində qızılbaş əmirləri arasında çəkişmələrə yol açmışdı. Lakin yaşa dolduqca dövlət idarəçiliyini tamamilə öz əlinə alan Şah I Təhmasib özünü tədbirli və uzaqgörən hökmdar kimi göstərdi. O, ilk növbədə, daxili çəkişmələrə son qoyub qiyamları yatırdı, mərkəzi hakimiyyəti gücləndirdi.

M

*“O ruzigar ki bundan əvvəl görmüş idiniz, getdi. İndi bilin ki, nə yolla rəftar edəcəksiniz... Əmirlərin cidd-cəhdi və qüvvəti, zor işlətmələri ziyandan başqa heç kimə bir şey verməyib. Beləliklə, Allahın rizasını nəzərdə tutmaq, acizlərin, miskinlərin və rəiyyətin rifah halına qalmaq daha vacibdir”.*

***Şah Təhmasibin təzkirəsindən***[2]

?

*Şah I Təhmasibin bu sözlərindən hansı nəticələrə gələ bilərsiniz?*

Bundan sonra diqqətini şimala yönəldən Şah I Təhmasıb II Xəlilüllahın ölümündən sonra Şirvanşahlar dövlətində yaranmış qarışıqlıqdan və özbaşınalıqlardan istifadə etmək qərarını verdi. 1538-ci ildə əvvəlcə qardaşı Əlqas Mirzəni 20 minlik qoşunla Şirvana göndərən I Təhmasib Buğurd qalasının mühasirəsinin uzun çəkməsi xəbərini alıb özü də Şirvana gəldi. Buğurd qalasının müdafiəçiləri top atəşlərindən sonra təslim oldular. Burada saxlanılan Şirvanşah xəzinəsi ələ keçirildi, əyanların əlində oyuncağa çevrilmiş

[2] *Təzkirə* (ərəbcə *zikr*, *yadasalma* mənasındadır) – görkəmli şəxsiyyətlərin həyatından bəhs edən əsərdir.



LAYİHƏ

sonuncu Şirvan hökmdarı Şahrux Təbrizə gətirilərək edam edildi. Şirvanşahlar dövlətinin varlığına son qoyuldu. Əlqas Mirzə Şirvan bəylərbəyi təyin edildi. 1551-ci ildə isə Şəki hakimliyinin müstəqilliyinə son qoyuldu.1548-ci ildə Şirvanda qiyam qaldırmış Əlqas Mirzəni müdafiə edən Şəki hakimi Dərviş Məhəmməd öldürüldü,Toyğun bəy Qacar isə Şəkinin ilk qızılbaş hakimi oldu. Beləliklə, Şah I Təhmasibin uğurlu dövlətçilik siyasəti nəticəsində bütün Azərbaycan torpaqları vahid dövlətin tərkibində birləşdirildi. ***Ölkə vilayətlərinin vahid dövlətin tərkibinə qatılması Azərbaycanın iqtisadi inkişafına müsbət təsir göstərməklə yanaşı, mədəni və etnik birliyi gücləndirdi.***



*Şah I Təhmasib*

? *Sizcə, vahid dövlətin yaradılmasının daha hansı üstünlükləri vardır?*

**Ataların başladığı, oğulların davam etdirdiyi qanlı müharibə.** I Səlimlə ŞahI İsmayılın arasında başlanan müharibə, hərbi əməliyyatlar dayansa da, sülh bağlanılmadığından bitməmişdi. 1534-cü ildə Şah I Təhmasibin Xorasanda özbəklərlə müharibəsindən istifadə edən Osmanlı Sultanı I Süleymanın Azərbaycana hücumu başladı. Təbrizi ələ keçirən Osmanlı qüvvələri burada möhkəmlənə bilmədi. Qışın yaxınlaşması, ərzaq çatışmazlığı, əhalinin şiddətli müqaviməti Sultan I Süleymanı Azərbaycanı tərk etməyə məcbur qoydu. Geri dönən Osmanlı qoşunu Bağdada daxil oldu, beləliklə, Səfəvilər Ərəb İraqını itirdilər. Burada qışlayan Osmanlı qüvvələri 1535-ci ildə növbəti dəfə Azərbaycana yürüş etdi. Şah I Təhmasib sayca üstün və güclü Osmanlı qüvvələrinə qarşı maraqlı taktika hazırlamışdı. Əhali paytaxtdan köçürülmüş, taxıl və əkin sahələri yandırılmış, suvarma kanalları və kəhrizlər torpaqla doldurulmuşdu. Sultan I Süleyman Təbrizi ikinci dəfə tutsa da, Osmanlıların şərqə irəliləyişinin qarşısı Sultaniyyədə alındı. Ərzaqsız qalan və əsgərləri arasında taun xəstəliyi yayılan osmanlı qoşunu Azərbaycanı tərk etməyə məcbur oldu.



*Sultan Süleyman Qanuni*

Müharibə uzandıqca hər iki tərəfdə bir dövlətdən digərinə qaçan narazı şəxslərin də sayı artırdı. Onlar hökmdarları hərbi əməliyyatları davam etdirməyə təhrik edirdilər. Şirvanda qiyam qaldırmış və məğlub edildikdən sonra Sultan I Süleymanın yanına qaçmış Əlqas Mirzə də belələrindən idi. Osmanlıların Səfəvilər üzərinə 1548-ci il yürüşü məhz onun təhriki ilə başlamışdı. Lakin Osmanlılar bu dəfə də uğur qazana bilmədilər. Əlqas Mirzə isə əsir düşərək edam edildi. Sultan I Süleymanın 1554-cü il yürüşü zamanı Osmanlı qoşunu Buğurd qalası yaxınlığında məğlubiyyətə uğradı. Uğur əldə edə bilməyən sultan sülh bağlamağa məcbur oldu. 1555-ci il mayın 29-da Amasiyada bağlanan sülhə görə, Səfəvilər bütün Azərbaycanı və Şərqi Gürcüstanı əllərində saxladılar,

LAYİHƏ

Qərbi Gürcüstan isə Osmanlılara verildi. Bağdad daxil olmaqla Ərəb İraqı Osmanlılara qaldı. ***Beləliklə, Səfəvi–Osmanlı müharibələrinin ilk mərhələsi başa çatdı. Osmanlı dövlətinin ən qüdrətli vaxtında belə Azərbaycan torpaqlarının qorunması və sülhə nail olunması I Təhmasibin ən böyük uğurlarından biri idi.***

*Sizcə, bu müharibəni daha erkən dayandırmaq olardımı? Fikirlərinizi bildirin.*

*“Yüsək məqamlı şah təcrübəli adamlarını göndərərək müxaliflərin (Osmanlıların – red.) gələcəyi yolları Təbrizdən Rum sərhədinədək yandırdı, ot və taxıldan əsər-əlamət qoymadı. Təbriz camaatı kəhrizləri elə bağlamışdı ki, içməli su və başqa ərzaq tapılmırdı”.*

***İ.Münşinin “Dünyanı bəzəyən Abbasın tarixi” əsərindən***

*Mənbəyə əsasən I Təhmasibin bu tədbirlərinə münasibətinizi bildirin.*

Təbrizin osmanlı qoşunları tərəfindən bir neçə dəfə tutulması I Təhmasibi paytaxtı dəyişməyə məcbur etdi. Amasiya sülhündən dərhal sonra paytaxt Osmanlı sərhədlərindən uzaqda yerləşən Qəzvinə köçürüldü.

**Səfəvilər dövlətinin siyasi quruluşu. İdarə sistemi və hərbi qüvvələr.** Səfəvilər dövlətinin siyasi quruluşu Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ənənələrinə əsaslanırdı. Lakin bu dövlətlərdən fərqli olaraq, Səfəvilər sülaləsinin hakimiyyəti dövründə güclü mərkəzləşmiş dövlət qurulmuşdu. Bu dövlət həm də teokratik[3] xüsusiyyəti ilə də seçilirdi. Dövlətin başında dini və dünyəvi hakimiyyəti öz əlində cəmləşdirmiş şah dururdu. Şahın yanında 12 nəfər yüksək mövqe tutan nüfuzlu əmirlərdən ibarət məşvərət orqanı – *Ali məclis* fəaliyyət göstərirdi. Şahdan sonra dövlətdə ikinci nüfuzlu şəxs vəkil hesab olunurdu. O, şahın dini və dünyəvi işlər üzrə tam hüquqlu müavini idi. Səfəvi qoşunlarına *əmir ül-ümərə* başçılıq edirdi. Dövlətin qurulmasında və orduda əsas rolu Azərbaycan qızılbaşları oynadığından bu vəzifə də Azərbaycan türklərinin inhisarında idi. Mülki işlərə, maliyyə məsələlərinə, əsasən, *vəzir* başçılıq edirdi. Dövlət xəzinəsinə nəzarət də onun əlində idi. Vəqf işləri və əmlakının idarə edilməsi isə *sədrin* səlahiyyətinə daxil idi.

**SƏFƏVİLƏR DÖVLƏTİNİN İDARƏETMƏ SİSTEMİ**




Səfəvilər dövründə Azərbaycan ərazisi bəylərbəyliklərə bölünürdü. İlk vaxtlar Azərbaycanda iki bəylərbəylik (Qarabağ və Azərbaycanın cənubunu əhatə edən Təbriz bəylərbəyliyi) yaradılsa da, Şirvanşahlar dövlətinin süqutundan sonra Şirvan bəylərbəyliyi də təsis edildi. Bəylərbəylikləri, adətən, şah sarayına yaxın olan şəxslərdən tə-

[3] *Teokratik hakimiyyət* – dini qanunlara əsaslanan idarəetmə formasıdır.



LAYİHƏ

yin edilən bəylərbəyilər idarə edirdi. Onlar əhalidən toplanan vergiləri mərkəzi xəzinəyə göndərir, müəyyən miqdarda qoşun saxlayırdılar. Bəylərbəyilər şahın əmri ilə bu qoşunların başında yürüşlərdə iştirak etməyə borclu idilər. Bəylərbəyliklər mahallara, mahallar isə kəndlərə bölünürdü. Mahalları naiblər, kəndləri *kəndxudalar,* şəhərləri *kələntərlər* idarə edirdi. Şəhərlərdə asayişi kələntərə tabe olan *darğa* qoruyurdu. Səfəvilərin ordu sistemi də Qaraqoyunlu və Ağqoyunlu dövlətlərindəki ənənələrə əsaslanırdı. Ordunun əsasını Azərbaycan tayfalarından yığılan qızılbaş qoşunu – *çərik* təşkil edirdi. Orduya ümumi rəhbərlik əmir ül-üməranın səlahiyyətində idi. Şahın qızılbaşlardan ibarət xüsusi mühafizə dəstəsinə isə *qorçubaşı* rəhbərlik edirdi.

M

*"Elm, fəzilət, hüsnxət... adət və qayda-qanunları bilməkdə bərabəri olmayan Qazı Cahan Qəzvinini vəzir və sahibi-divan etdim... Böyük mənsəb olduğu üçün külli miqdarda məbləğlər (pul, vəsait – red.) əldə edilirdi, bu da müəyyən ehtiyaclara və ehtiyacı olanlara xərclənməli və çatmalı idi... Özüm həmişə mədaxil və məxaricə nəzər yetirirdim ki, məbadə... bir balaca səhv edib təqsirkar olsalar, şiddətli surətdə cəzalandırılsınlar".*

***Şah I Təhmasibin təzkirəsindən***

*Mənbəyə əsasən Şah I Təhmasibin idarəçilik üsullarını aydınlaşdırın.*

?

1. *İsmayılın dövlətqurma yolunda əsas rəqibləri kimlər idi?*
2. *Səfəvilər dövlətini siyasi quruluşuna görə hansı dövlətlərlə müqayisə edə bilərsiniz?*
3. *Sizcə, Səfəvi dövlətini Qaraqoyunlu və Ağqoyunlu dövlətlərindən hansı əlamətlər fərqləndirir?*
4. *Sultan I Süleymanın yürüşləri zamanı I Təhmasib nə üçün Osmanlı qoşunları ilə birbaşa döyüşdən çəkinmişdi?*
5. *Şah I İsmayılın fəaliyyətini təhlil edib əvvəlki Azərbaycan hökmdarlarının fəaliyyətləri ilə müqayisələr aparın.*
6. *Şah I Təhmasib haqqında referat hazırlayın.*
7. *Səfəvilər dövlətinin yaranmasının əhəmiyyətini müəyyənləşdirin.*
8. *XVI əsrin birinci yarısında Səfəvi–Osmanlı müharibəsinin səbəblərini araşdırın.*

LAYİHƏ



# 31

## SƏFƏVİLƏR DÖVLƏTİ XVI ƏSRİN SON RÜBÜNDƏ

*Şah I Təhmasibin ölümündən sonra oğulları Heydər Mirzə ilə İsmayıl arasında hakimiyyət uğrunda başlanan çəkişmələr mərkəzi hakimiyyətin zəifləməsinə səbəb oldu. I Təhmasibin dövründə yaradılan sabitlik səriştəsiz rəhbərlik ucbatından pozuldu. Osmanlıların da Səfəvilərə qarşı müharibəyə başlaması dövləti böyük təhlükə qarşısında qoydu.*

*daxili çəkişmələr, II İsmayıl, Məhəmməd Xudabəndə, Çıldır döyüşü, İstanbul sülhü*

**Taxt-tac qovğası dövləti zəiflədir.** Ustaclıların müdafiə etdiyi Heydər Mirzə Qəzvində İsmayılın tərəfdarları tərəfindən öldürüldü. Hələ atasının sağlığında ömrünün 20 ilini məhbəsdə keçirən İsmayıl azad edildi və şah elan olundu. II İsmayılın dövləti gücləndirmək üçün əl atdığı kütləvi cəza tədbirləri qızılbaş əyanlarını narazı saldığından şah sui-qəsd nəticəsində öldürüldü. 1578-ci ildə hakimiyyətə qızılbaş əmirlərinin müdafiə etdiyi Məhəmməd Xudabəndə gəldi. Onun hakimiyyəti dövründə (1578–1587) xəzinə boşaldı, mərkəzi hakimiyyət daha da zəiflədi, qızılbaş əmirlərinin müstəqillik meyilləri gücləndi. Üstəlik, şahın vəkili olan arvadı Məhdi Ülyanın Şiraz əyanı Mirzə Salmanın təsiri ilə hakim vəzifələrə "tacikləri" (farsları) gətirməsi qızılbaş əyanlarının narazılığına səbəb olmuşdu.



***Şah Məhəmməd Xudabəndə***

*Sizcə, qızılbaş əmirləri nə üçün Məhəmməd Xudabəndəni müdafiə edirdilər?*

*"İsgəndər şanlı nəvvab (Məhəmməd Xudabəndə – red.) ... əlini böyük inayət və ehsanla açıb xəzinə qapılarını qapamadı və xeyli pul məsrəf etdi... Dövlət adamlarının qəlbini cəzb etmək və onları tamahlandırmaq məqsədilə məmləkətlərə göndərilən bütün əzəmətli əmirlərə şah xəzinəsindən xərclik və onların gözləmədikləri birillik və ikiillik maaşlarını verdilər... Münasib adamların üzünə divanın mənfəət qapıları açıldı və rüşvət rəvac tapdı. Qızılbaş tayfalarının hər birisi öz mətləblərini həyata keçirməklə məşğul olduğundan din və dövlət işlərinə az diqqət yetirirdilər. Nəticədə az vaxt içində şah xəzinələri pul və maldan xali oldu... tayfaların özbaşınalıqları və təkəbbürləri ucbatından ara qarışdı, orduda ikitirəlik yarandı".*

***İsgəndər bəy Münşinin "Dünyanı bəzəyən Abbasın tarixi" əsərindən***

*Mənbəyə əsasən dövləti zəifləndən səbəbləri müəyyənləşdirin.*



LAYİHƏ

Yaranmış əlverşli şəraitdən Osmanlı sultanı III Murad istifadə etmək qərarına gəldi. Osmanlı hərbi qüvvələrinin Van hakimi Xosrov paşanın təhriki ilə qiyam qaldıran kürdlərlə birlikdə Xoya hücum etməsi Amasiya sülhünün pozulması demək idi. Bu hadisə ilə Səfəvi–Osmanlı müharibələrinin ikinci mərhələsi (1578–1590) başlandı. Mustafa Lələ paşanın başçılığı ilə 100 minlik Osmanlı qoşunu Gürcüstan istiqamətinə göndərildi. Səfəvi və Osmanlı qoşunları Çıldır gölü yaxınlığında üz-üzə gəldi. Sayca üstünlükləri və qızılbaş əmirlərinin arasında birliyin olmaması bu döyüşdə Osmanlıların qələbə çalmasına səbəb oldu. Nəticədə Şərqi Gürcüstan itirildi, Osmanlı qüvvələri Şirvana daxil oldular. Şirvanda baş verən qiyam Osmanlıların işini daha da asanlaşdırdı. Qısa müddətdə Kürdən şimalda yerləşən Azərbaycan torpaqları Osmanlıların hakimiyyəti altına keçdi. Osmanlı sultanının tələbi ilə Krım xanları da şimaldan Şirvana daxil oldular. Lakin Krım xanı Adil Gərayın qoşunları 1578-ci ilin noyabrında Ağsu çayı yaxınlığındakı Mollahəsən adlı yerdə məğlub edildi, özü isə əsir düşdü. Dərbənddən başqa bütün Şirvan torpaqları azad edildi. Bu, Səfəvi qoşunlarının böyük uğuru oldu.

**?** *Krım xanları nə üçün Osmanlı yürüşlərində iştirak edirdilər?*

Səfəvilər 1583-cü ildə Niyazabad döyüşündə qalib gəlsələr də, qızılbaş əyanları arasındakı çəkişmələr, mərkəzi hakimiyyətin zəifliyi, xəzinənin boşalması Səfəvilərə müharibədə uğur qazanmağa imkan vermirdi. XVI əsrin 80-ci illərində baş verən hərbi əməliyyatlar nəticəsində Çuxursəəd vilayəti də itirildi. 1585-ci ildə Osmanlı qoşunları Sufiyan döyüşündə Səfəvi şahzadəsi Həmzə Mirzənin qoşunlarına qalib gələrək Təbrizə hücüm etdilər. Şəhər əhalisinin şiddətli müqaviməti Osmanlı paşasını qəzəbləndirdiyindən o, Təbriz tutulduqdan sonra yeniçərilərə şəhəri talan etmək əmri verdi. Təbriz şəhəri viran edildi, məşhur "Qeysəriyyə" bazarı yandırıldı. Lakin bir qədər sonra Həmzə Mirzə Təbrizi azad edə bildi. Müharibəni davam etdirmək Səfəvilər üçün çətin idi. 1586-cı ildə Həmzə Mirzə Osmanlılarla sülh danışıqlarına başladı. Lakin onun sui-qəsd nəticəsində öldürülməsi ilə vəziyyət daha da pisləşdi. Sülh danışıqları dayandırıldı. Hərbi əməliyyatlara başlayan Osmanlı qoşunları, demək olar ki, bütün Azərbaycanı ələ keçirdilər.

**?** *Osmanlı qoşunlarının qələbə qazanmasını hansı amillər asanlaşdırdı?*


*Şah I Abbas*

Özbək hakimləri yaranmış vəziyyətdən istifadə edərək Xorasanı tutdular. Qızılbaş əmirləri zəif xarakterli Şah Məhəmməd Xudabəndədən üz çevirdilər. O, taxtdan uzaqlaşdırıldı. Oğlu Abbas Mirzə şah elan edildi. Şah I Abbas Osmanlılarla müharibənin daha da fəlakətli nəticələr verəcəyini anladığından dövlətin varlığını qorumaq və vaxt qazanmaq üçün sülhə razılaşdı.1590-cı ildə imzalanan İstanbul sülhünə görə, Qaradağ, Ərdəbil, Xalxal və Lənkəran əraziləri istisna olmaqla, Azərbaycan, Şərqi Gürcüstan, həmçinin İranın bəzi qərb torpaqları Osmanlılara verildi.

LAYİHƏ




***Azərbaycan Səfəvilər dövləti Şah Məhəmməd Xudabəndə dövründə***

*1. Sizcə, Şah I Təhmasibin ölümündən sonra taxt-tac uğrunda baş verən çəkişmələrin qarşısını hansı yolla almaq olardı?*
*2. XVI əsrin son rübündə qızılbaş əmirlərinin özbaşınalıqlarının səbəbi nə idi?*
*3. Səfəvilərin Azərbaycan torpaqlarını itirməsini hansı hadisə daha da sürətləndirdi?*
*4. Həmzə Mirzə və Şah I Abbasın fəaliyyətində oxşarlıqlar nədə idi?*
*5. Xəritəyə əsasən Səfəvilərin XVI əsrin son rübündə itirdiyi əraziləri müəyyən edin.*
*6. “Şah Məhəmməd Xudabəndə dövründə Səfəvilər dövləti” mövzusunda referat hazırlayın.*
*7. Səfəvilər dövlətinin XVI əsrin əvvəllərindəki vəziyyəti ilə Ağqoyunluların XV əsrin sonlarındakı vəziyyəti arasında müqayisələr aparın, oxşar və fərqli cəhətləri müəyyən edin.*
*8. Şah I Abbasın Osmanlılarla ağır şərtlərlə sülh bağlamasını zəruri edən amilləri müəyyənləşdirin.*

LAYİHƏ



32

# SƏFƏVİLƏR DÖVLƏTİ ŞAH I ABBASIN HAKİMİYYƏTİ İLLƏRİNDƏ

*16 yaşında hakimiyyətə gələn Şah I Abbasa boş xəzinə, çökməkdə olan dövlət aparatı, ərazilərinin xeyli hissəsini itirmiş dövlət, intizamsız ordu və müharibələrdən dağıdılmış təsərrüfat miras qalmışdı. Hər şey çox ümidsiz görünsə də, gənc hökmdar iradəsi və qətiyyəti hesabına dövləti yenidən dirçəltməyə başladı.*

*böhran, islahatlar, qulamlar, tüfəngçilər, Sınıq körpü döyüşü, Sərab sülhü, Mərənd sülhü, Ərəb İraqı uğrunda mübarizə*

**Güclü hökmdar – güclü dövlət.** İstanbul sülhünün şərtləri Səfəvilər üçün ağır olsa da, bu, Şah I Abbasa ölkə daxilində baş verən qiyamları yatırmaq, dağılmış təsərrüfatı bərpa etmək və mərkəzi hakimiyyəti möhkəmləndirmək imkanı verdi. Bundan əlavə, Səfəvilər dövləti eyni vaxtda iki dövlətlə (Osmanlı və Şeybanilər) müharibə aparmağın çətinliyindən də xilas oldu. Yeni şah yaranmış fürsətdən səmərəli istifadə etməyə başladı.

**İnzibati islahat.** Azərbaycan torpaqlarını Səfəvi dövlətinin tərkibinə qaytarmaq fikrindən əl çəkmədiyini nümayiş etdirən Şah I Abbas 1593-cü ildə mərkəzi Ərdəbil olan Azərbaycan bəylərbəyliyi yaratdı. İstanbul sülhünə görə, Səfəvilərdə qalan Azərbaycan mülkləri bu bəylərbəyliyə daxil edilmişdi. Yeni inzibati vahidin ilk hakimi Zülfüqar bəy Qaramanlı təyin olundu. 1598-ci ildə isə paytaxt qiyam və çıxışlardan uzaq olan İsfahana köçürüldü. Bu addım Səfəvi sarayında İran elementlərinin güclənməsinə şərait yaratdı. Şah paytaxtın köçürülməsindən narazı qalan Qəzvin əhalisinin könlünü almaq məqsədilə İsfahanda türklərdən ibarət "Abbasabad" adlı xüsusi məhəllə saldırdı.



*Şah I Abbas döyüşdə (sağda). Miniatür*

**Hərbi islahat.** İtirilmiş əraziləri geri qaytarmaq üçün, ilk növbədə, ordu gücləndirilməli idi. Bu məqsədlə Şah I Abbas ordu quruculuğuna başladı. 1578–1590-cı illər Səfəvi–Osmanlı müharibəsi zamanı məğlubiyyətlərə gətirib çıxaran tayfa çəkişmələrinə son qoymaq məqsədilə tayfa başçılığında irsilik prinsipi ləğv edildi. İndi bu vəzifəni yalnız şahın rəğbətini qazanmış şəxslər tuta bilərdi. Bununla da hərbi birləşmələrin formalaşmasında qohumluq prinsipi əsaslı şəkildə sarsıdıldı. Qoşun tayfa müxtəlifliyi prinsipi

LAYİHƏ

əsasında təşkil edildi. Qızılbaşlara təkbaşına silah gəzdirmək qadağan olundu. Şah I Abbasın dövründə Səfəvi ordusu, əsasən, iki hissədən ibarət idi: daimi qoşunlardan ibarət nizami hərbi hissələr və müharibələr zamanı vilayətlərdən toplanan ənənəvi qızılbaş qoşunu. Yeni yaradılan və birbaşa şaha tabe olan daimi qoşunlar bunlar idi:

***Qulamlar*** yeniçəri nümunəsində yaradılan qoşun növü idi. Qeyri-müsəlman əhalidən uşaq yaşlarında yığılan və şaha sədaqət ruhunda tərbiyə edilən qulamlar şah ordusunun əsas zərbə gücünü təşkil edirdi.

***Tüfəngçilər*** əhalinin aşağı təbəqəsindən toplanan və sayı 12 min nəfər olan piyada qoşun növü idi.

***Topçular*** hərbi birləşməsində 500 topdan ibarət əsas odlu silah ehtiyatı cəmləşmişdi. Toplardan döyüşlərdə, xüsusilə qalaların alınmasında istifadə olunurdu.

Sayca çoxluq təşkil edən və əsasən, Azərbaycan tayfalarından toplanan süvari qızılbaş qoşunu yenə də Səfəvilərin əsas hərbi gücünü təşkil edirdi. Şah I Abbasın hərbi islahatları nəticəsində Səfəvilərin hərbi qüdrəti bərpa edildi, ordu daha da gücləndirildi. Şah I Abbasın hərbi islahatları həm də qızılbaş əmirlərinin özbaşınalıqlarının qarşısını almağa, ordu intizamını möhkəmləndirməyə yönəlmişdi. Buna baxmayaraq, islahatlardan sonra da Səfəvi ordusunda, eyni zamanda dövlət idarəçiliyində aparıcı mövqelər qızılbaşlara məxsus olaraq qalırdı.



***Səfəvi səyyar topu***



***Səfəvi tüfəngçisi***

?

*Şah I Abbasın hərbi-inzibati islahatlar keçirməkdə əsas məqsədi nə idi?*

M

*“Bütövlükdə İranda, xüsusən sarayda, böyüklər və əyanlar arasında daha çox türkcə danışılır, nəinki farsca... Türkcə danışmağın səbəbi bu deyil ki, iranlılar ona fars dilindən daha artıq dəyər verirlər. Əsas səbəb budur ki, bütün qoşun əslən türk olan qızılbaşlardan təşkil olunmuşdur. Şahın müxtəlif tayfalardan olan qulamları da daha çox türkcə danışırlar və farsca bilmirlər. Buna görə də nəinki əmirlər qoşuna aid məsələləri türkcə çatdırırlar, hətta vaxtının çox hissəsini əsgərlər arasında keçirən şahın özü də dediklərinin başa düşülməsi üçün türkcə danışır. Nəticədə bu dil bütün sarayda, qadınlar və digərləri arasında geniş yayılmışdır”.*

***İtaliya səyyahı Pyetro della Vallenin***
***18 dekabr 1617-ci il tarixdə İsfahandan dostu Mario Eskipanoya yazdığı məktub***

*Mənbəyə münasibət bildirin.*



LAYİHƏ

Şah I Abbas iqtisadi həyatı da canlandırmaq məqsədilə bir sıra addımlar atmışdı. Bəzi yerlərdə əhalinin üzərinə qoyulan vergilər azaldılmış, ölkənin daxili və xarici ticarət məsələləri sahmana salınmışdı. Xəzinənin gəlirləri artırılmışdı. Beləliklə, I Abbasın tədbirləri nəticəsində Səfəvilərin əvvəlki hərbi və iqisadi qüdrəti bərpa edildi.

**Osmanlı hakimiyyəti altında olan Azərbaycan əraziləri.** Osmanlılar işğal etdikləri Azərbaycan torpaqlarında hərbi-inzibati idarə üsulu yaratmışdılar. Ölkə vilayət və bəylərbəyliklərə, onlar isə öz növbəsində sancaqlara bölünürdü. Əhali və torpaqlar siyahıya alınmış, yeni vergilər və mükəlləfiyyətlər tətbiq edilməyə başlanılmışdı. Ərazilər üzrə xüsusi vergi dəftərləri tərtib olunmuşdu. Ənənəvi ticarət əlaqələrinin kəsilməsi, dağıdıcı müharibələr Azərbaycan xalqının güzəranına mənfi təsir etdiyindən əhali çox zaman bu vergiləri ödəyə bilmirdi. Osmanlı hakimiyyəti altında yaşamaq istəməyən əhalinin xeyli hissəsi ölkədən köçmüş, yaşayış məntəqələri boşalmışdı. İqtisadi vəziyyətin ağırlığı, Osmanlıların vergi siyasəti bir sıra yerlərdə üsyanlara səbəb olmuşdu. Osmanlı ərazisində yayılan Cəlalilər hərəkatı Azərbaycana da sirayət etmişdi. Bu hərəkatın ölkəmizdəki nümayəndəsi xalq qəhrəmanı Koroğlu idi. XVII əsrin əvvəllərində Osmanlılara qarşı müharibəyə başlayan I Abbas Cəlalilər hərəkatından da istifadə etmişdi.

**Xarici siyasət.** Şah I Abbasın dövründə Səfəvilər dövlətinin xarici siyasəti üç əsas istiqamət üzərində qurulmuşdu:

1. Osmanlı işğalı altında olan Azərbaycan torpaqlarını azad etmək;
2. Xorasanı Şeybanilərdən geri almaq;
3. Hörmüzü portuqallardan təmizləmək.



***Böyük Moğol elçisinin qəbulu***

İlk zərbə Şeybanilərə vuruldu və Xorasan azad edildi. Osmanlılara qarşı hərbi əməliyyatlara başlamamışdan əvvəl I Abbas da sələfləri kimi Avropa dövlətləri ilə geniş diplomatik əlaqələr qurmuşdu. Almaniya və İspaniya dövlətləri, Moskva knyazlığı öz elçilərini Səfəvi sarayına göndərərək şahı Osmanlılarla müharibəyə təhrik edirdilər. Hətta İspan kralı II Filip bunun müqabilində İran körfəzində portuqallarla mübarizədə Səfəvilərə yardım edəcəyini də vəd etmişdi. İngiltərə ilə də əlaqələr qurulmuşdu. Məhz ingilis donanmasının yardımı ilə Şah I Abbas 1622-ci ildə portuqalları Hörmüzdən və körfəzdən çıxara bildi. Şah Abbasın dövründə Böyük Moğol dövləti ilə də dostluq münasibətləri saxlanılırdı.



LAYİHƏ

Şah I Abbasla Ağqoyunlu hökmdarı Həsən padşahın xarici siyasəti arasında hansı oxşarlıqlar vardır?

**Səfəvi–Osmanlı müharibəsinin növbəti mərhələsi.** XVII əsrin əvvəllərində Osmanlı dövlətini bürümüş üsyanları, yaranmış siyasi vəziyyəti əlverişli hesab edən Şah I Abbas Osmanlılarla müharibəyə başladı. 1603-cü ildə başlanan hərbi əməliyyatlar Səfəvilər üçün uğurla nəticələndi. Əvvəlcə Təbriz, sonra isə Ordubad və Naxçıvan geri alındı. Ordubad əhalisi şəhərin alınmasında yaxından iştirak etdiyi üçün şah onları vergilərdən azad etdi. 1604-cü ildə İrəvan qalasındakı Osmanlı qarnizonu da təslim oldu, az sonra bütün Çuxursəəd vilayətində Səfəvi hakimiyyəti bərpa edildi. Şah I Abbas əsir alınan osmanlı əsgərlərini azad edərək Qarsa getmələrinə icazə verdi. 1606–1607-ci illərdə baş verən hərbi əməliyyatlar nəticəsində Qarabağ və Şirvan əraziləri də Osmanlılardan təmizləndi. 100 minlik Osmanlı ordusunun hücum xəbərini alan I Abbas onlara qarşı ənənəvi "yandırılmış torpaq" takitikasını tətbiq etdi. Osmanlı sərhədlərinə yaxın bölgələrdə ərzaq ehtiyatının məhv edilməsi ilə kifayətlənməyən Səfəvi şahı burada yaşayan əhalini də dövlətin içərilərinə köçürdü. Bu siyasət tarixdə "böyük sürgün" adı ilə məşhurdur. Osmanlı qoşunları bir neçə dəfə Azərbaycana daxil olsa da, uğur qazana bilməyib geri dönməyə məcbur oldu. Nəhayət, 1612-ci ildə iki dövlət arasında Sərab (II İstanbul) sülhü imzalandı. Razılaşmaya görə, 1555-ci il Amasiya sülhünün şərtləri bərpa olundu. Rusların tikdirdiyi Terek qalasının dağıdılması barədə sultan fərmanı verilərdiyi halda Osmanlılar şahın bu işə mane olmamasını da müqavilə şərtlərinə daxil etdilər. Lakin bu sülh tezliklə pozuldu. Şah I Abbasın Şərqi Gürcüstana yürüşlərindən narahat olan Osmanlılar yenidən hərbi əməliyyatlara başladılar.

Səfəvi–Osmanlı münasibətlərində Avropa dövlətlərinin rolunu necə qiymətləndirə bilərsiniz?


Şah Səfi

Həlledici döyüş 1618-ci ildə Sərab yaxınlığındakı Sınıq körpü adlı yerdə baş verdi. Osmanlı qoşunu məğlub olub geri çəkildi. Elə həmin il bağlanmış Mərənd müqaviləsinə görə, Sərab sülhünün şərtləri bərpa edildi. Beləliklə, Səfəvi hökmdarı Azərbaycan torpaqlarının və azad edilən digər Səfəvi ərazilərinin Osmanlılar tərəfindən tanınmasına nail oldu. Şah I Abbas bu sülhə 1622-ci ilə qədər sadiq qalmış, Osmanlı sultanı II Osmanla dostluq münasibətlərini qoruyub saxlamışdı. Lakin II Osmanın öldürülməsi və Bağdadı idarə edən osmanlı hakiminin Səfəvilərə müraciət etməsi vəziyyəti dəyişdi. 1622–1623-cü illərdə Səfəvi qoşunları Bağdad, Kərbəla, Nəcəf, Mosul və Kərkük şəhərlərini ələ keçirdi. Osmanlılarla müharibə yenidən başladı. I Abbas vəfat edərkən (1629) bütün Azərbaycan, Şərqi Gürcüstan, Bağdad da daxil olmaqla Ərəb İraqı Səfəvi dövlətinin hakimiyyəti altında birləşdirildi. Qüdrətli Səfəvi şahı bütün mümkün vasitələrdən istifadə edərək hökmdarı olduğu dövlətin nüfuzunu artırdı, ərazisini genişləndirməyə nail oldu.



LAYİHƏ




*Azərbaycan Şah I Abbasın dövründə*

**Müharibə yekunlaşır.** Şah I Abbasın ölümündən sonra hakimiyyətə gələn nəvəsi Şah Səfi bu uğurları qoruya bilmədi. XVII əsrin 30-cu illərində Osmanlılar Bağdadı geri ala bildilər. Tərəflər arasında danışıqlar 1639-cu ildə Qəsri-Şirin sülhü ilə yekunlaşdı. Sülhün şərtlərinə görə, Səfəvilər Bağdad da daxil olmaqla Ərəb İraqını Osmanlı dövlətinə qaytardı, Zəncir qalasından şərqdə yerləşən ərazilər isə Səfəvilərə verildi. Osmanlılar Səfəvilərdən Van, Qars və Axalsıx qalalarına hücum etməyəcəklərinə dair təminat da aldılar.

***Beləliklə, fasilələrlə yüz ildən artıq davam edən Səfəvi–Osmanlı müharibələri dayandı. Böyük dağıntılara və insan tələfatına səbəb olan amansız müharibələr hər iki türk-müsəlman dövlətini zəiflətdi. Yaxın və Orta Şərqdə Avropa dövlətlərinin nüfuzu artmağa başladı. Hərbi əməliyyatlar, əsasən, Azərbaycan ərazilərində aparıldığından bu müharibələrdən daha çox zərər görən də ölkəmizin əhalisi olmuşdur.***

1. *Sərab sülhünün Səfəvilər üçün əhəmiyyətini necə qiymətləndirə bilərsiniz?*
2. *Şah I Abbasın dövlətçilik fəaliyyətini hansı hökmdarlarla müqayisə etmək olar?*
3. *Sizcə, dövlətin güclü olması üçün hökmdar hansı keyfiyyətlərə malik olmalıdır?*
4. *Şah I Abbasın atası Məhəmməd Xudabəndədən hansi xüsusiyyətləri ilə fərqlənirdi?*
5. *Səfəvi və Ağqoyunlu ordularını müqayisə edin, oxşar və fərqli cəhətləri tapın.*
6. *XVI əsrin 70-ci illərində Səfəvilərin uğursuzluqlarının səbəblərini müəyyən edin.*
7. *Xəritəyə əsasən Şah I İsmayılın zamanındakı Səfəvi sərhədləri ilə I Abbasın dövründəki sərhədləri müqayisə edin.*
8. *I Abbasın dövlətçilik fəaliyyətini əks etdirən referat hazırlayın.*

LAYİHƏ



# 33

## SƏFƏVİLƏR DÖVLƏTİ XVII ƏSRİN İKİNCİ YARISI – XVIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ

*Şah I Abbasın ölümündən sonra onun varisləri dövlətin qüdrətini qoruyub saxlamaqda çətinlik çəkirdilər. Bir tərəfdən daxili idarəetmədə yol verilən səhvlər, digər tərəfdən beynəlxalq vəziyyətin dəyişməsi və Avropa dövlətlərinin Şərqdə müstəmləkəçilik siyasətinin güclənməsi Səfəvilər dövlətinin siyasi və iqtisadi vəziyyətinə təsirsiz ötüşmədi.*

*Şah II Abbas, sabitlik, Çuxursəəd bəylərbəyliyi, sərhəd münaqişəsi, Şah Süleyman, kazak basqınları, İpək yolunun tənəzzülü, Volqa–Xəzər ticarət yolu*




***Təbriz şəhəri 1690-cı ildə, Jan Pitersin rəsmi***

**Səfəvilər dövləti XVII əsrdə. İctimai-iqtisadi həyat və idarəetmə.** Qəsri-Şirin sülhü o vaxta qədər bağlanmış Səfəvi–Osmanlı müqavilələrindən fərqli olaraq iki dövlət arasındakı münasibətlərdə uzunmüddətli sabitliyi təmin edə bildi. Yaranmış sabitlik Azərbaycanın sosial-iqtisadi həyatında müəyyən canlanmaya səbəb oldu. Müharibələr zamanı qonşu ərazilərə səpələnməyə məcbur olmuş əhali tədricən öz yerlərinə qayıdır, iqtisadi əlaqələr bərpa olunur, ölkənin təsərrüfat həyatı dirçəlirdi. Xarici iqtisadi əlaqələrin bərpa edilməsi sənətkarlıq və ticarətin inkşafına müsbət təsir göstərir, bu isə öz növbəsində şəhər həyatının canlanmasına səbəb olurdu. Təbriz şəhəri müharibələr nəticəsində dağıntılara məruz qalsa da, XVII əsrdə siyasi və iqtisadi mövqeyinə görə imperiyanın ikinci şəhəri hesab olunurdu. Təbriz hakimləri bu əsrin sonlarına qədər Səfəvi ordusunun baş komandanı vəzifəsini də icra edirdilər.

? *Sizcə, Təbriz hakiminin baş komandan vəzifəsini də icra etməsi nə ilə bağlı idi?*

LAYİHƏ

Təbriz həm də sənətkarlıq və ticarət mərkəzi kimi şöhrət tapmışdı. Yaxın və Orta Şərqin ən iri bazarı – Qeysəriyyə bərpa edilmişdi. Beynəlxalq ticarət yollarının kəsişdiyi Təbriz şərq və qərb tacirləri üçün əlverişli məntəqə idi.

*Coğrafi və tarixi biliklərinizə əsasən Azərbaycandan keçən beynəlxalq ticarət yollarının istiqamətlərini müəyyən edin.*

XVII əsrdə Azərbaycan inzibati cəhətdən dörd bəylərbəyliyə bölünürdü: Qarabağ (mərkəzi Gəncə), Şirvan (mərkəzi Şamaxı), Çuxursəəd (mərkəzi İrəvan) və Cənubi Azərbaycan torpaqlarını əhatə edən Təbriz bəylərbəylikləri. Bəylərbəyliyə daxil olan mahalları *qolbəyi* idarə edirdi. Daha kiçik inzibati vahidlərin idarəçiləri *sultan* titulu daşıyırdılar. Onlar qolbəyilərə tabe idilər. Ali hərbi-inzibati mövqe tutan şəxslər *xan* adlandırılırdı.



Azərbaycan Səfəvilərin hakimiyyəti dövründə

Səfəvi–Osmanlı müharibələri dövründə bəylərbəyilər hərbi və idarəetmə qabiliyyətləri ilə seçilən, şah sarayına yaxın adlı-sanlı qızılbaş əmirlərindən təyin olunurdu. Lakin hərbi zərurətin aradan qalxdığı sabitlik dövründə bu vəzifəyə bəzən səriştəsiz adamların gətirilməsi yerlərdə ədalətsizlik və rüşvətxorluq hallarına yol açırdı. İdarəçilikdə irsilik prinsipinin də mövcudluğu məmur bürokratiyasının güclənməsinə şərait yaradırdı. Onlar xəzinə gəlirlərinin müəyyən qismini mənimsəyir, müxtəlif üsullarla dövlətdə mövqelərini gücləndirməyə nail olurdular. Bəylərbəyliklərdə maliyyə işlərini mərkəzi hakimiyyət tərəfindən təyin edilən *vəzirlər* yerinə yetirirdilər. Vəzirlər bəylərbəyinin rəhbərliyi altında fəaliyyət göstərsələr də, yalnız mərkəzi divana hesabat verirdilər.

*Bəylərbəylərin hansı səlahiyyətlərə malik olduqlarını yadınıza salın.*

**Qafqaz uğrunda mübarizəyə qoşulan üçüncü ölkə.** XVI əsrdə Kazan və Həştərxan xanlıqlarını işğal edən Moskva çarlığı Xəzər dənizinə də birbaşa çıxış imkanı qazanmışdı. Bu işğallardan sonra Şimali Qafqazda rusların siyasi təsiri güclənməyə başladı. Qafqazın içərilərinə doğru irəliləməyə can atan ruslar XVII əsrin ortalarında Səfəvi sərhədləri yaxınlığında qalalar inşa etməyə başladılar. Bu qalalar hərbi dayaq məntəqələri olub Moskva çarlarının strateji maraqlarına xidmət etməli idi.

LAYİHƏ

Rusların Şimali Qafqazda hərəkətləri Səfəvi sarayında narahatlığa səbəb oldu. Şah II Abbasdan rusların tikdirdiyi qalaları dağıtmaq fərmanı alan Şirvan bəylərbəyi Xosrovun qüvvələri ruslarla mübarizəyə başladı. 1653-cü ildə baş verən silahlı toqquşmalar Moskva çarı Aleksey Mixayloviçi Səfəvilərlə danışıqlara vadar etdi. Kifayət qədər hərbi gücə malik olmayan ruslar Səfəvilərlə hərbi münaqişədən çəkinirdilər. Müharibə Moskva çarlarının iqtisadi maraqlarına da uyğun olmadığından İsfahana rus elçiləri göndərildi və münaqişə 1662-ci ildə dinc yolla həll edildi.

? *Sizcə, hansı amillər Moskva knyazlığının Şimali Qafqazda möhkəmlənməsinə şərait yaratmışdı?*

XVII əsrin ikinci yarısında tarixi İpək yolu öz əhəmiyyətini itirirdi. Böyük coğrafi kəşflərdən sonra başlanan bu proses İpək yolu üzərində yerləşən Şərq ölkələrinin iqtisadi həyatına mənfi təsir göstərdi. Səfəvilər dövləti də böyük maliyyə itkiləri ilə üzləşdi. İtkilərin yerini doldurmağa çalışan Səfəvi şahları Moskva ilə ticarət əlaqələrinə xüsusi diqqət ayırmağa başladılar. Bu, çoxdan bəri Şərq və Qərb ölkələri arasında ipək ticarətini inhisara almağa çalışan Moskvanın da strateji maraqlarına cavab verirdi. Volqa-Xəzər ticarət yolunun canlandırılması həm də artıq geniş əraziyə malik dövlətə çevrilən Rusiyanın Şərq ölkələrinə iqtisadi ekspansiyasına[1] şərait yaradırdı.



**Şah II Abbas**

II Abbasın ölümündən sonra hakimiyyətə gələn Şah Süleyman (1666–1694) Rusiya dövləti ilə müqavilə imzaladı.1667-ci ildə imzalanan bu müqavilədə rus tacirlərinə geniş imtiyazlar verilirdi: onlar səfəvi sülaləsinin hakimiyyəti dövründə Səfəvi dövləti ərazisində gömrüksüz ticarət hüququ və digər imtiyazlar əldə etdilər. Şah Süleymanın fərmanı ilə yerli hakimlərdən rus tacirlərinə xüsusi ehtiramla yanaşmaq tələb olunurdu.

Volqa–Xəzər ticarət yolunun canlanması buraya quldur basqınlarının başlanmasına şərait yaratdı. Bu sahədə rus kazakları xüsusi “fəallıq” göstərirdi. Onların ən böyük qarətçi basqını Stepan Razinin adı ilə bağlıdır. 1668-ci ilin yayında öz gəmiləri ilə Xəzərə enən Razin öz quldur dəstəsi ilə Dərbənddən Gilana qədər sahilboyu yaşayış məntəqələrini qarət etmiş, böyük qənimətlərlə geri dönmüşdü. Rus çarları qətiyyətlə belə yürüşlərin qarşısını almağa çalışırdılar. Ələ keçirilən Razin də sərt cəzalandırılmışdı.

Şah II Abbasın və onun oğlu Şah Süleymanın dövründə Səfəvi şahları qonşu dövlətlərlə sülh şəraitində yaşamağa üstünlük verir, münaqişələrdən qaçmağa və ticarət əlaqələrinin genişləndirilməsinə çalışırdılar. Onlar Səfəviləri Osmanlı dövləti ilə yeni müharibəyə çəkməyə çalışan Avropa və rus elçilərini dəfələrlə öz qəti cavabları ilə məyus etmişdilər.



[1] *Ekspansiya* – dövlətin öz təsir dairəsini genişləndirməsi

LAYİHƏ

*“Onun (Şah Süleymanın) diqqətinə çatdıranda ki, “türklər tərəfdən böyük təhlükə ehtimal olunur, əgər Siz özünüz onlara qarşı səfərbər olmasanız, onlar (Osmanlılar) xristianlarla sülh bağlayan kimi ən gözəl vilayətlərinizə hücuma keçə bilərlər”, – cavabında deyirdi ki, o “bu barədə heç də narahat deyil və İsfahanı belə onlar üçün keçə bilər”.*

***Tofiq Nəcəflinin “Səfəvi–Osmanlı münasibətləri” əsərindən***

*Sizcə, nə üçün əvvəlki Səfəvi şahları Osmanlılarla müharibədən qaça bilməmişdilər? Mənbəyə əsasən fikir yürüdün.*

**İqtisadi tənəzzül və ya sonun başlanğıcı.** XVII əsrin sonlarına doğru Səfəvilər dövləti ağır iqtisadi böhranla üz-üzə qalmışdı. İqtisadi həyatın bütün sahələrini əhatə edən böhranın iqtisadi və siyasi səbəbləri vardı.

**İqtisadi səbəblər:**

1. İpək yolunun əhəmiyyətini itirməsi və ənənəvi ticarət əlaqələrinin zəifləməsi;
2. Dövlətin əsas gəlir mənbələrindən olan ipək ixracatının aşağı düşməsi;
3. Xarici ticarətin zəifləməsi nəticəsində ölkədə yaranan pul qıtlığı, qəlp pulların dövriyyəyə yol tapması;
4. Süni suvarma şəbəkələrinin sıradan çıxması və əkin sahələrinin azalması.

**Siyasi səbəblər:**

1. İdarəçilikdə yol verilən səhvlər, dövlət idarəetmə aparatına səriştəsiz şəxslərin yol tapması;
2. Məmur özbaşınalıqları, mülki bürokratiyanın rüşvətxorluğu.

**Şah Sultan Hüseynin dövləti böhrandan çıxarmaq cəhdləri.** XVII əsrin sonlarında hakimiyyətə gələn şah Sultan Hüseyn (1694–1722) ölkəni düşdüyü böhrandan qurtarmaq üçün bir sıra uğursuz addımlar atdı. Əvvəlcə pul böhranını aradan qaldırmağa cəhd edən şah Ərdəbildə ata-babalarının qəbri üstündəki qızıl, gümüş əşyaları əridib pul zərb etdirdi. Amma bu tədbir səmərə vermədi. Ölkədə maliyyə böhranı getdikcə dərinləşdi, dövlətin gəlirləri azaldı, xəzinə boşaldı. Vaxtının çoxunu eyş-işrətdə keçirən şah bu dəfə xəzinəni doldurmaq üçün vergiləri artırmaq qərarına gəldi. Bu məqsədlə 1699–1702-ci illərdə əhali və əhalinin əmlakı siyahıya alındı. Yeni vergilər tətbiq edilməyə başlandı. Əvvəlkilərdən üç dəfə artıq olan vergilər əhalinin güzəranını daha da çətinləşdirdi. Üstəlik, XVIII əsrin əvvəllərində Azərbaycanı bürüyən quraqlıq dəhşətli aclığa səbəb oldu. Mərkəzi hakimiyyətin zəifləməsi yığılan vergilərin xeyli hissəsinin məmurlar tərəfindən mənimsənilməsinə şərait yaratdı.



*Şah Sultan Hüseyn*

*1716-cı ildə rus dövlətinin Azərbaycandan paytaxta gedən elçisi A.P.Volınski öz gündəliyində yazırdı ki, bəylərbəyilər toplanan vergilərin “yalnız yarpağını şaha göndərirlər, meyvəsini isə özlərinə saxlayırlar. Bu onlarda adət şəklini almışdır”.*

***Azərbaycan tarixi, VII cilddə, III cild***

*Artemi Petroviç Volınskinin bu məlumatı hansı faktı üzə çıxarmağa əsas verir?*



LAYİHƏ

Ağır vergilər, məmur özbaşınalığı şaha və onun yerlərdəki harınlamış məmurlarına qarşı üsyanlara səbəb oldu. XVIII əsrin ilk rübündə imperiyanın hər yerini, o cümlədən Azərbaycanı xalq çıxışları və üsyanlar bürüdü. 1707-ci və 1711-ci illərdə carlılar iki dəfə üsyana qalxdılar. Onlar dövlətin şimal sərhədlərini qorumaq müqabilində xəzinədən maaş alırdılar. Şirvan bəylərbəyinin ödənişi özbaşına olaraq dayandırması onların qəzəbinə səbəb oldu. Şirvandakı narazı əhali də üsyançılara qoşuldu. Üsyanı yatırmağa cəhd edən Şirvan bəylərbəyi Həsənəli xan özü məğlub oldu və öldürüldü.

1709-cu ildə isə əfqan qəbilələri üsyan edib Qəndaharı ələ keçirdilər. Şah Sultan Hüseynin yarıtmaz siyasəti xalqın Səfəvi sülaləsinə etibarını sarsıtmışdı, mərkəzi hakimiyyətdən narazı qüvvələr də fəallaşınca baş verən üsyanları yatırmaq artıq müşkül məsələyə çevrilirdi.

1719-cu ildə Şirvanda Səfəvilər əleyhinə növbəti üsyan baş verdi. Üsyana Müşkür mahalının Dədəli kəndindən olan Hacı Davud başçılıq edirdi. O, Qaytaqlı Əhməd xan və Qazıqumuqlu Surxay xanla ittifaq yaradaraq Şirvanın inzibati mərkəzini tutmağı planlaşdırmışdı. Şirvana göndərilən şah qoşunları yerli hakimlərin qüvvələri ilə birləşərək üsyanın qarşısını almağa və Hacı Davudu həbs etməyə nail oldu. Lakin tezliklə Dərbənd həbsxanasından qaçan Hacı Davud Rusiyadan hərbi yardım istədi. O, Rusiya hakim dairələrinə məktub yazaraq Şirvanı Səfəvilərdən azad etmək və Rusiyanın himayəsi altında müstəqil Şirvan dövlətinin başçısı olmaq arzusunu gizlətmirdi. Səfəvi dövlətinin mərkəzində baş verən hadisələri yaxından izləyən Rusiya hökuməti Hacı Davudun təklifini rədd etdi. Hacı Davudun istəkləri Xəzərsahili bölgələri ələ keçirməyə hazırlaşan Rusiya hakimiyyətinin maraqlarına uyğun deyildi. Yenidən Qazıqumuqlu Surxay xanla ittifaqı bərpa edən Hacı Davud tezliklə Şirvanın inzibati mərkəzi olan Şamaxını tutdu. Şəhərdə olan qarətlər zamanı rus tacirlərinin də bir neçəsi öldürüldü, malları qarət olundu. Rusiyanın mümkün müdaxiləsindən narahat olan Hacı Davud himayə məqsədilə Osmanlı Sultanı III Əhmədə müraciət etdi. I Pyotrun Xəzərsahili bölgələrə yürüşündən narahat olan Sultan III Əhməd Hacı Davudun himayə təklifini qəbul etdi. Şirvan Osmanlı himayəsi altında yarımmüstəqil xanlıq kimi tanındı. Beləliklə, Hacı Davudun hərəkətləri Rusiya və Osmanlı dövlətinin Azərbaycana müdaxiləsinə bəhanə verdi, Rusiya ilk dəfə Azərbaycan uğrunda rəqabətə qoşuldu.

1722-ci ilin martında əfqanlar Səfəvilərin paytaxtı İsfahanı tutub Şah Sultan Hüseyni və sülalə üzvlərini əsir götürdülər. Yalnız şahın oğullarından biri – Təhmasib Astarabada qaça bildi və burada özünü II Təhmasib adı ilə şah elan etdi.

1. *Şah Süleyman nə üçün rus tacirlərinə geniş imtiyazlar vermişdi?*
2. *Sizcə, XVIII əsrdə baş verən üsyanların qarşısını almaq mümkün idimi?*
3. *Rusiyanın Qafqazda fəallaşmasının hansı səbəbləri vardı?*
4. *II Abbas və Şah Süleymanın fəaliyyətləri arasındakı oxşar cəhətləri müəyyən edin.*
5. *XVII əsrdə Səfəvilər dövlətinin hansı səbəblərdən zəiflədiyini araşdırın, bununla bağlı sxem tərtib edin.*
6. *Səfəvi dövlətinin xəritəsində XVIII əsrin ilk rübündə üsyanların baş verdiyi əraziləri müəyyən edin.*
7. *“Səfəvilər dövləti XVIII əsrin əvvəllərində” adlı referat hazırlayın.*



LAYİHƏ



34

## AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

*XI–XVII əsrlərdə baş verən siyasi hadisələr zəngin tariximizə yeni sosial-iqtisadi xüsusiyyətlər də gətirmişdi. Xalqımızın formalaşması, İntibah dövrü, monqol yürüşləri, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər dövlətlərinin yaranması məhz bu dövrə təsadüf edir. Bu dövlətlərə başçılıq edən hökmdarlar həyata keçirdikləri islahatlarla Ərəb Xilafəti dövründən formalaşmağa başlayan torpaq mülkiyyəti sahibliyi və vergi sistemini daha da inkişaf etdirmişlər.*

*"uc torparları", bayrat, soyurqal, tiyul, tamğa, Qanunnamə, malcəhət, bəhrə, çobanbəyi*

**Torpaq mülkiyyəti formaları.** XI əsrdə Mərkəzi Asiyadan Aralıq dənizinə, Dərbənddən İran körfəzinədək geniş əraziləri əhatə edən Səlcuq imperiyası dövründə islam idarəetmə ənənələri türk dövlətçilik elementləri ilə zənginləşdirildi. Geniş əraziyə malik imperiyanı əldə saxlamaq üçün Səlcuq hökmdarları iqta paylanılmasını daha da genişləndirdilər. Bir qayda olaraq, xidmət müqabilində hərbçilərə verilən bu torpaq mülkiyyəti, xüsusilə Məlikşahın hakimiyyəti illərində daha çox paylanılmış, aparıcı torpaq mülkiyyətinə çevrilmişdi. İqta torpaq mülkiyyət forması Azərbaycan Atabəylər dövləti və Hülakülər səltənətinin hakimiyyəti illərində də geniş yayılmışdı. Səlcuq imperiyası dövründə "*uc torpaqları*" adlanan torpaq mülkiyyət forması da meydana gəldi. Xüsusiyyətlərinə görə iqtanı xatırladan bu torpaqlar imperiyanın ucqar sərhədlərini qoruyan əmirlərə verilir və irsən keçmirdi.

? *Xilafət dövründə hansı torpaq mülkiyyəti formaları var idi?*



***Elxani Qazan xan***

XIII əsrdə Azərbaycanı mərkəz seçən Hülakülər səltənətinin hakimiyyəti illərində mövcud torpaq mülkiyyəti formalarına yeniləri də əlavə olundu. Monqol yürüşləri zamanı əhalinin qırğınlara məruz qalması, həmçinin qonşu ərazilərə köç etməsi nəticəsində əkinə yararlı böyük torpaq sahələri sahibsiz qalmışdı. İstifadəsiz qalan bu torpaqlar bayrat adlandırılırdı. Elxani Qazan xanın islahatları nəticəsində onların xeyli hissəsi siyahıya alınaraq əhaliyə paylanıldı. Elxanilər dövründə incu adlandırılan torpaqlar isə xan və xan ailəsinə məxsus idi.

? *İncu torpaqları əvvəllər mövcud olmuş hansı torpaq mülkiyyəti ilə oxşarlıq təşkil edirdi?*



LAYİHƏ

XIII–XIV əsrlərdə torpaq mülkiyyəti formalarında başqa dəyişikliklər olmamışdı. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin hakimiyyəti illərində geniş yayılan torpaq sahibliyi formalarından biri *soyurqal* (monqolca – ehsan, bəxşiş mənasını verir) idi. Qaraqoyunluların hakimiyyəti dövründən başlayan iqta əvəzinə soyurqal paylanılması ənənəsini Ağqoyunlular daha da genişləndirmişdilər. Dövlətə xidmət müqabilində verilən bu torpaqlar iqtadan fərqli olaraq, irsən keçir, sahibi isə dövlətə vergilərdən azad edilirdi. Soyurqal paylanılması siyasəti hər iki türk dövlətini zəiflətmiş, mərkəzləşdirmə prosesini ləngitmişdi. XVI əsrdə hakimiyyətə gələn Səfəvi hökmdarları soyurqalın mənfi fəsadlarını düzgün qiymətləndirmişdilər. Səfəvilər dövründə soyurqal məhdud şəkildə məşhur seyidlərə, dərvişlərə, elm xadimlərinə və s. verilirdi. Əvəzində Səfəvi şahları *tiyul* paylanılmasına üstünük verdilər. Tiyul dövlətə xidmət müqabilində verilir, irsən keçmirdi. Tiyul sahibi *tiyuldar* adlanırdı. Onlar yığılan vergilərin bir qismini özünə götürür, əsas hissəsini isə dövlət xəzinəsinə verirdilər. Tiyul istisna hallarda və yalnız şahın razılığı ilə irsən keçə bilərdi. XVII əsrdə Səfəvilər dövlətində aparıcı torpaqlar *divani* və *xassə* idi. Divanidən gələn gəlirlər bütünlüklə dövlət xərclərinin ödənilməsinə sərf edilir, şaha məxsus xassə gəlirləri isə ya xəzinəyə göndərilir, ya da şahın razılığı ilə konkret məsələlərin həllinə yönəldilirdi.

**Vergilər.** Səlcuq imperiysı dövründə əvvəlki vergilərə yeniləri də əlavə olunmuşdu. Bunlardan biri *üşr* (ondabir) idi. Xərac ilə yanaşı yığılan bu vergi xass torpaqlarından və iqta sahiblərindən alınırdı. *Alaf* (ərəbcə ulufə sözündən olub *"qida"*, *"yem"* mənasında işlədilir) qarovulda duran dəstəni və ya rəsmi şəxsi təmin etmək üçün alınırdı. Əhalidən toplanan *silah bahası*, *nal bahası* adlı vergilər ordunun ehtiyaclarına sərf olunurdu. Hülakülərin hakimiyyəti zamanı sənətkarlardan *tamğa*, tacirlərdən isə *bac* adlanan vergi yığılırdı. Monqol işğalı dövründə tətbiq edilən vergilərdən biri də *qopçur* idi. İlk monqol işğalı dövründə köçəri maldarlardan alınan bu vergi sonralar oturaq əhalinin ödədiyi can vergisinə çevrildi. Qazan xanın dini islahatından sonra bu vergi tədricən aradan qalxdı. Qazan xan həmçinin vergi islahatı keçirməklə bu sahədə məmur özbaşınalıqlarının və rəiyyətdən qanunsuz vergilərin yığılmasının qarşısını almağa nail oldu.

Səlcuq və Hülakülər dövlətlərinin tətbiq etdiyi vergilərin əksəriyyəti dövlət idarəçilik sistemini onlardan əxz etmiş Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hakimiyyəti dövründə də qüvvədə qaldı. Vergi işləri Ağqoyunlu Həsən padşahın tərtib etdiyi "Qanunnamə" ilə nizama salınmışdı.

M

*"Uzun Həsən ədalətli və xeyirxah idi. O bütün dövləti ərazisində tamğanı ləğv etmək istəyirdi. Lakin əmirləri onunla razılaşmadılar. Sultan tamğanı yarıbayarı azaldaraq iyirmidə bir dirhəmə çatdırmışdı... O bütün ölkədə yığılan vergilərin həcmini dəqiqləşdirdi. Uzun Həsən əhali arasındakı mübahisə və şikayətlərə aid "Qanunnamə" də tərtib etmişdi. O, günahkarları sərt şəkildə cəzalandırmağı tələb edirdi. Sultan "Qanunnamə"ni icra edilmək üçün dövlətin bütün vilayətlərinə göndərmişdi... O, ölkəsində toplanmaqda olan torpaq vergisini azaldaraq məhsulun həcminin ⅙-i qədər müəyyən etdi... Gücü çatdıqca ədalət prinsipindən heç zaman uzaqlaşmadı.*

***"Tarixi-Qiyasi"***

?

*Sizcə, Uzun Həsənin verdiyi "Qanunnamə" hansı məqsəddən irəli gəlirdi?*

LAYİHƏ

Ağqoyunluların hakimiyyəti dövründə əhalidən *malcəhət*, *bəhrə* və *çobanbəyi* adlandırılan vergilər də yığılırdı. Malcəhət əldə edilən məhsuldan, bəhrə isə suvarma suyundan istifadəyə görə alınan gəlir vergisi idi. Çobanbəyi vergisi isə otlaqlardan istifadəyə görə köçəri maldarlıqla məşğul olan elatlardan alınırdı. Uzun Həsənin "Qanunnamə"si "Həsən padşahın qanunları" adı ilə Səfəvilərin XVI əsr hakimiyyəti dövründə də qüvvədə olmuşdur. XV əsrin sonlarında hakimiyyətə gələn Ağqoyunlu hökmdarı Gödək Əhməd vergi islahatı keçirməyə cəhd göstərmişdi. O, 1474-cü ildə atasına qarşı çıxıb II Mehmetə sığınan və onun qızı ilə evlənən Uğurlu Məhəmmədin oğlu idi. Osmanlı dövlətçilik təcrübəsinə uyğun idarəetmə qurmağa çalışan Gödək Əhməd şəriətdə olmayan 20-dən artıq vergini və bəzi mükəlləfiyyətləri ləğv etməklə bağlı fərman vermişdi. Lakin onun vergiləri ləğv etmək və soyurqalı da məhdudlaşdırmaq siyasəti uğursuzluqla nəticələnmiş, özü də qiyam nəticəsində öldürülmüşdü.

Padşah Uzun Həsənin tamğa vergisini ləğv etmək istəyini Şah I Təhmasib gerçəkləşdirdi. O, 1565-ci ildə tamğa vergisinin ləğv edilməsi ilə bağlı fərman verdi. Monqollar dövründən qalan bu verginin aradan qaldırılması sənətkarlığın və ticarətin inkişafına şərait yaratdı.

**M**

*"Onun (I Təhmasibin – red.) vəkilləri, vəzirləri... və digər məmurlarının vergiləri bir zərrə-cə azaltmağa, yaxud artırmağa haqqı yox idi. O, həftənin hər günü müəyyən işlərin görülməsini əvvəlcədən planlaşdırırdı. Onun fərmanı ilə dəftərxanada toplanmış bütün məsariflər (borclar – red.) ləğv edildi. Hər il təqribən 80 min tümənə çatan vilayətlərdən toplanan tamğanı onlara güzəştə getdi. Rəiyyətdən 10–20 illik vergini almaqdan imtina etdi. Bir sözlə, rəiyyət belə bir dincliyi və əmin-amanlığı heç vaxt görməmişdi. Əgər hər hansı bir rəiyyət saraya hakimdən şikayət edirdisə, sonuncu şikayətə baxıldıqdan sonra vəzifəsindən azad edilirdi".*

***"Venesiyalılar Şah I Təhmasibin sarayında" əsərindən***

**?**

*Nə üçün padşah Uzun Həsəndən fərqli olaraq, Şah I Təhmasib tamğa vergisini ləğv edə bilmişdi? Mənbələrə əsasən fikirlərinizi bildirin.*

Şah I Abbasın hakimiyyəti illərində də vergi siyasəti diqqət mərkəzində idi. Şah I Abbas bu sahədə özbaşınalıqların qarşısını almış, bəzi şəhərləri vergilərdən azad etmişdi.

Səfəvilər dövlətində növbəti islahat cəhdi Şah Sultan Hüseynin dövrünə aiddir. 1699–1702-ci illərdə əhalinin və əmlakının siyahıya alınması ilə həyata keçirilən islahat gözlənilən nəticəni vermədi. Vergilər artırılsa da, xəzinənin gəlirləri artmadı. Əksinə, şah hakimiyyətinin ağır vergi siyasəti və məmur özbaşınalığı xalq üsyanlarına səbəb oldu.

**Şəhər həyatı. Sənətkarlıq və ticarət.** XI əsrdə Azərbaycanın geniş əraziyə malik Səlcuq imperiyasının tərkibinə daxil olması, vahid pul, ölçü və çəki sistemlərinin tətbiqi şəhər həyatının canlanmasına, sənətkarlıq və ticarətin inkişafına müsbət təsir göstərdi. Şəhərlərin inkişaf xüsusiyyətləri xeyli dərəcədə onların coğrafi mövqeyi ilə bağlı idi. Beynəlxalq ticarət yolları üzərində yerləşən şəhərlər sabitlik dövründə daha sürətlə inkişaf edirdi. Təbriz, Gəncə, Şamaxı, Dərbənd, Naxçıvan və Beyləqan belə şəhərlərdən idi. Yerli xammalın zənginliyi, ənənəvi sənət sahələrinin varislik prinsipi əsasında ötürülməsi şəhər həyatına təsir göstərən iqtisadi amillər sırasında idi. Azərbaycan şəhərləri ixtisaslaşma sayəsində qonşu ölkələrdə yaxşı tanınırdılar. Məsələn, Təbriz toxuculuq məmulatları, yun və ipək xalçaları, pərdələri ilə məşhur idi. Gəncə ənənəvi ipəkçiliyi və silah istehsalı, Dərbənd kətanı və pambıq parçaları, Beyləqan və Naxçıvan dulusçuluq



LAYİHƏ



*Şamaxı şəhərinin görüntüsü. XVII əsr*

məhsulları, Şamaxı isə yüksək keyfiyyətli ipəyi ilə xarici ölkə tacirlərinin diqqətini cəlb edirdi. Metalişləmə, daşişləmə və şəbəkə məmulatları da sənətkarlığın mühüm sahələrindən idi.

Siyasi amillər də şəhərlərin inkişafına təsir göstərirdi. Gəncə əvvəlcə Şəddadilərin paytaxtı, sonralar isə Səlcuq canişinliyinin mərkəzi olmuşdu. Klassik feodalizm dövrünün əvvəllərində burada 500 min əhali yaşayırdı. Bizans, erməni və gürcü feodallarının hədəfində olan Gəncə o dövrdə islam dünyası ilə xristian dünyası arasında mühüm strateji qala idi. Buna görə feodal hakimlər və dövlətlər Gəncənin möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdilər. Lakin 1139-cu ildə baş verən dəhşətli zəlzələ, 1235-ci ildə isə monqolların şəhəri dağıtması Gəncənin inkişafına mənfi təsir göstərdi. Gəncə Səfəvilər dövründə Qarabağ bəylərbəyliyinin mərkəzi olduğu üçün yenidən möhkəmləndirilmiş şəhərə çevrildi.

Şamaxı şəhəri Şirvanşahların ənənəvi paytaxtı, Səfəvilər dövründə isə Şirvan bəylərbəyliyinin mərkəzi olmuşdu. Şamaxı ipəyi bütün Avropada məşhur idi. Müharibələr və tez-tez baş verən zəlzələlər Şamaxının inkişafına mənfi təsir göstərdi.

Təbriz şəhəri ilk dəfə Rəvvadilərin, sonralar isə Azərbaycanda yaranan dövlətlərin paytaxtı olduğundan hökmdarlar bu şəhərə xüsusi diqqətlə yanaşmış, burada geniş abadlıq işləri aparmışdılar. Ağqoyunlu hökmdarı Həsən padşahın əmri ilə burada Qeysəriyyə bazarı inşa edilmişdi. Bu bazar sonrakı dövrlərdə Yaxın və Orta Şərqin ən iri bazarlarından birinə çevrilmişdi. Lakin Səfəvi–Osmanlı müharibələri, paytaxtın köçürülməsi Təbrizin ictimai-iqtisadi həyatına mənfi təsir göstərdi.

Naxçıvan şəhəri Azərbaycan Atabəylər dövlətinin paytaxtı idi. Atabəy Şəmsəddin Eldənizin dövründə çiçəklənən şəhərlərimizdən birinə çevrilmişdi. Səfəvi–Osmanlı müharibələri Naxçıvanın da taleyindən yan keçmədi. Şəhər dəfələrlə dağıdıldı, əhalisi isə I Abbasın hakimiyyəti dövründə ölkənin içərlərinə köçürüldü.



LAYİHƏ



***Bakı qalasının görüntüsü. XVII əsr***

Beyləqan şəhəri Bərdənin slavyanlar tərəfindən dağıdılmasından sonra dirçəlməyə başlamışdı. Bir müddət Səlcuq canişinliyinin də mərkəzi olan Beyləqan monqol yürüşləri nəticəsində dağıdıldı və bir daha özünə gələ bilmədi.

Dərbənd XV əsrə qədər Azərbaycanın ən iri liman şəhəri, eyni zamanda mühüm strateji qalası idi.

Səfəvilərin dini-siyasi mərkəzi olan Ərdəbil şəhəri Səfəvilər dövləti yarandıqdan sonra daha da abadlaşdırıldı.

Göründüyü kimi, şəhərlərin inkişafına coğrafi, iqtisadi və siyasi amillər mühüm təsir göstərmişdir.

Şəhər həyatında sənətkarlar və tacirlər mühüm rol oynayırdılar. XIII–XIV əsrlərdə sənətkarlar *"əxilik"* (qardaşlıq) adlanan sənətkar birliyi yaradırdılar. Əxilik monqol işğalı dövründə sənətkarların iqtisadi zərurətdən yaranan mənəvi-siyasi birliyi idi. Bu yolla sənətkarlar özlərini əyanların, feodalların təzyiqindən qorumağa çalışırdılar. XVII əsrdə yaradılan sənətkar birlikləri isə *"əsnaf"* adlanırdı.

? *Əvvəllər siyasi və inzibati mərkəz olmuş başqa hansı Azərbaycan şəhərlərini tanıyırsınız?*

*XVII əsrin ikinci yarısında sənətkarlar üç qrupa bölünürdü:*

1. Sənətkar təşkilatlarında (əsnaflarda) birləşənlər;
2. Müstəqil fəaliyyət göstərənlər;
3. Feodal emalatxanalarında çalışanlar.

3-cü qrupa aid olan sənətkarların güzəranı daha ağır idi. Onlar həm feodala, həm də dövlətə vergilər ödəyirdilər. Şəhərlərdə, adətən, tacirlərə məlik-üt-tüccar adlı ən varlı və adlı-sanlı tacir başçılıq edirdi. O, tacirlər arasında sağlam rəqabət mühitinin yaradılmasına nəzarət edir, dövlət vergilərini bölüşdürürdü.

LAYİHƏ

 

***Sənətkarlıq məmulatları***

Klassik feodalizm dövründə Azərbaycan hökmdarları dövlət xəzinəsinin əsas gəlir mənbələrindən olan ticarətin qayğısına qalır, ticarət əlaqələrini genişləndirməyə çalışırdılar. Səlcuq hökmdarı I Məlikşah tacirlər üzərinə qoyulan vergi və rüsumları azaltmış, Hülakü hökmdarı Qazan xan isə ticarət sahəsində islahat keçirmişdi. Ağqoyunlu hökmdarı Uzun Həsən də ticarəti xüsusi diqqət mərkəzində saxlayırdı. O bu məqsədlə Avropa ölkələri ilə diplomatik münasibətləri genişləndirmiş, sənətkar və tacirlər üzərinə qoyulan vergiləri azaltmışdı.

Səfəvi şahları I Təhmasib, I Abbas, II Abbas və Şah Süleyman da ticarətə böyük önəm verirdilər. Onların hakimiyyətləri dövründə Venesiya, Almaniya, İspaniya, İngiltərə, Rusiya və d. Avropa dövlətləri ilə ticarət əlaqələri inkişaf etdirilmiş, eyni zamanda Hindistan, Çin, Misir məmlükləri ilə ticarət əlaqələri gücləndirilmişdi. Şah I Təhmasibin hakimiyyəti dövründə Səfəvi ipəyinin satışı ilə bağlı ingilislər "Moskva" şirkəti ilə müqavilə imzalamışdılar. Lakin rus tacirlərinin maraqlarına cavab vermədiyindən IV İvan ingilislərin "Moskva" şirkətinin fəaliyyətini dayandırmışdı. XVII əsrin ikinci yarısında Böyük İpək yolu əhəmiyyətini itirdikdən sonra Azərbaycanın Avropa ilə ticarət əlaqələri zəifləmiş, yerli məhsulların ixracatı kəskin surətdə aşağı düşmüşdü.

*1. Azərbaycan hökmdarlarının "Qanunnamə"ləri xalqın təsərrüfat həyatında hansı əhəmiyyətə malik idi?*
*2. Sizcə, sənətkarlığın və ticarətin inkişafı daha çox nədən asılı idi?*
*3. Elxani hökmdarı Qazan xan və Ağqoyunlu padşahı Uzun Həsənin arasında hansı oxşarlıqlar vardır?*
*3. Azərbaycan hökmdarları nə üçün sənətkarlıq və ticarətin inkişaf etdirilməsinə xüsusi diqqət göstərirdilər?*
*4. Uzun Həsən və Şah I Təhmasiblə bağlı mətndə verilmiş mənbələri təhlil edin, nəticə çıxarın.*
*5. "İslahatçı hökmdarlar" adlı referat hazırlayın.*
*6. XVI əsrdə mövcud olan torpaq mülkiyyət formaları ilə bağlı sxem hazırlayın.*
*7. Şəhərlərin inkişafına təsir göstərən amillərlə bağlı cədvəl tərtib edin.*
*8. Azərbaycanda sənətkarlıq və ticarətin inkişafına mane olan səbəbləri müəyyən edin.*

LAYİHƏ



35

## SƏFƏVİLƏR DÖVRÜNDƏ MƏDƏNİYYƏT

*Səfəvilər dövrü nəinki Azərbaycanın, ümumiyyətlə, Orta və Yaxın Şərq tarixinin ən parlaq səhifələrindən biridir. Mərkəzləşmiş dövlətin meydana gəlməsi Azərbaycan mədəniyyətinin də inkişafına müsbət təsir göstərmişdir. O dövrdə yaradılan mədəniyyət nümunələri dünyanın ən məşhur muzeylərində sərgilənir.*

*Həqiri, Oruc bəy Bayat, Şeyx Cüneyd məqbərəsi, "Koroğlu", "Aşıq Qərib"*

**Elm, təhsil.** XVI–XVII əsrlərdə Azərbaycanda böyük məktəb və mədrəsə şəbəkələri var idi. Bu dövrdə coğrafiya, fəlsəfə, tarix, riyaziyyat, məntiq, qrammatika və başqa fənlərə aid bir sıra elmi əsərlər yazılmışdı. Həsən bəy Rumlu I Təhmasibin tarixçisi olmuşdur. Onun on iki cildlik "Əhsən-üt-təvarix" əsərindən bizə yalnız on ikinci cild gəlib çatmışdır. Bu cildlərdə I Təhmasiblə Şah II İsmayılın hakimiyyət illəri təsvir olunur.



***Oruc bəy Bayat***

Oruc bəy Bayat tanınmış Səfəvi diplomatı kimi bir çox Avropa dövlətlərində səfərdə olub. Səfəvi elçiliyinin tərkibində İspaniyaya gəlmiş Oruc bəy burada qalmış, öz səyahəti və Səfəvilər dövləti haqqında kitab yazmışdır.



***Oruc bəy Bayatın iştirak etdiyi səfirlik***

İsgəndər bəy Münşi Şah I Abbasın hərbi yürüşlərində, ovlarında, saraydakı qəbullarında iştirak edib. Onun şah əsəri olan "Dünyanı bəzəyən Abbasın tarixi" dövrü öyrənmək baxımından önəmli mənbədir.

*Azərbaycanda elmin, təhsilin inkişafına təsir edən amilləri qeyd edib fikrinizi əsaslandırın.*

XVII əsrin ikinci yarısında ölkəmizdə elmin inkişafında müəyyən canlanma yaranmışdı.

Bu dövrdə təkcə Şamaxıda 40 məktəb, 7 mədrəsə, Təbrizdə 600 məktəb, 47 mədrəsə fəaliyyət göstərirdi. Şərq ölkələrində, o cümlədən Azərbaycanda ali ruhani mədrəsəsini bitirmiş müəllim "müdərris" adlanırdı.

Mirzə Məhəmməd Şirvani fəlsəfə, astronomiya və riyaziyyata aid əsərlər yazmışdı. Tarixi əsərlər içərisində II Şah Abbasın baş tarixçisi Məhəmməd Tahir Vahidin "Tarixi-vahid" ("Abbasnamə") əsəri dövrü öyrənmək üçün çox əhəmiyyətli əsərdir.

LAYİHƏ

Şah I İsmayıldan başlayaraq Səfəvi şahları elm və incəsənətə hamilik edirdilər. Onların sarayında ən yaxşı əlyazmaların saxlanıldığı kitab evləri var idi. Xüsusilə Təbriz və Ərdəbildə olan şah kitabxanaları çox zəngin idi.

Şah II Abbasın vaxtında kitab çap etmək üçün Avropadan ölkəyə mətbəə avadanlığı gətirilməsinə təşəbbüs göstərilmişdi.

? *Yadınıza salın: yığma şrifti ilə çap harada icad olunmuşdur?*

**Memarlıq, incəsənət.** 1522-ci ildə Şah I İsmayıl rəssam Kəmaləddin Behzadı Təbrizdəki saray kitabxanasına rəis təyin etmişdi. Sadıq bəy Əfşar XVI əsrin məşhur naturalist rəssamı idi. Mədəniyyətə həmişə qayğı göstərən Səfəvi hökmdarı Şah I İsmayıl Marağa rəsədxanasını bərpa etdirmişdi.

**XVI əsr Azərbaycan memarlıq abidələri**

**1544-cü ildə Qusarın Həzrə kəndində tikilmiş Şeyx Cüneyd məqbərəsi**



**Naxçıvanda Əlincə çayı üzərində körpü**



**Bakının Şərq darvazaları**



? *Naxçıvanda Əlincə çayı üzərindəki körpüdən başqa hansı tarixi körpüləri tanıyırsınız?*

Səfəvi hökmdarlarının, xüsusilə Şah Sultan Hüseynin musiqini qadağan edən fərmanlarına baxmayaraq, XVII əsrin ikinci yarısında musiqi sənəti inkişaf etməkdə idi.

? *Səfəvi dövlətində musiqinin qadağan edilməsinin səbəbi nə idi?*

Fransız səyyahı Şarden XVII əsrin ortalarında İrəvanda xan sarayında üç hissəli tamaşaya baxmış və onu "Şərqin operası" adlandırmışdı.

Səfəvilər dövründə incəsənətin qədim növlərindən biri olan xalçaçılığa xüsusi diqqət yetirilirdi.

1539-cu ildə Səfəvi hökmdarı I Təhmasibin sifarişi ilə Şeyx Səfi məscidi üçün xüsusi bir xalça toxunmuşdur. Həmin xalçanı 1893-cü ildə ingilislər satın alaraq Londona aparmışdılar və hal-hazırda o, "Viktoriya və Albert" muzeyində saxlanılır.

*1893-cü ildə ingilislərin Şeyx Səfi xalçasını kimdən satın aldığını araşdırın.*



LAYİHƏ



*Şeyx Səfi xalçası*

Səfəvilər dövründə yaradılmış qiymətli xalça nümunələrimizə Avropa müəlliflərinin əsərlərində də müraciət olunmuşdur.

İtaliyalı rəssam (XVI əsr) Lorenso Lotto "Ailə" adlı tablosunda Quba-Şirvan tipli xalçalarda tez-tez təsadüf olunan "kaşı" adlı bəzək ünsüründən istifadə etmişdir. Bundan başqa, bir sıra Avropa rəssamlarının əsərlərində Quba-Şirvan, Mərəzə-Qobustan, Talış-Muğan və Borçalı bölgələrinə aid xalça nümunələrindən istifadə edilmişdir.

**XVII əsr Azərbaycan memarlıq abidələri**

| 1663-cü ildə Nardaran kəndində inşa edilmiş məscid | Gəncədəki Şah Abbas (Cümə) məscidi | Suraxanıda hind atəşpərəstlərinin tikdirdiyi məbəd | Təbrizdə Şibli karvansarası | 1663-cü ildə Sərkar Əbdüləzimin rəhbərliyi ilə Şamaxının Kələxana kəndində tikilmiş məqbərə |
|---|---|---|---|---|
|  |  |  |  |  |

? *Hind atəşpərəstləri məbədi nə üçün məhz Suraxanıda tikdirmişdilər?*

**Ədəbiyyat.** Azərbaycan ədəbiyyatı XVI əsrdən etibarən müstəqil bir ədəbiyyat kimi öz ənənələrini davam etdirməyə başlayır. Azərbaycan ədəbiyyatında İntibah ideyalarının

LAYİHƏ



***Məhəmməd Füzuli***
***(1494 – 1556)***

Nizamidən sonrakı zirvəsi – Qərb şərqşünaslığında “qəlb şairi” kimi məşhur olan Məhəmməd Füzulidir. O, təkcə Azərbaycanda deyil, türk dilinin, xüsusən oğuz türkcəsinin anlaşıldığı böyük bir coğrafi-etnik məkanda indiyə qədər də sevilə-sevilə oxunan sənətkarlardan biridir. Əsərlərini Füzuli təxəllüsü ilə yazan şair “Bəngü Badə” (“Tiryək və Şərab”) əsərini Şah İsmayıl Xətaiyə ithaf etməsinə, Şah I Təhmasibə və onun sərkərdələrinə, ayrı-ayrı valilərə qəsidələr yazmasına baxmayaraq, saraya meyil etməmişdir. Sultan Süleymana bir neçə qəsidə təqdim etmiş Füzuli Osmanlı ordusu ilə Bağdada gələn türk şairləri Xəyali və Yəhya bəylə görüşmüş, “Leyli və Məcnun” (1537) əsərini də “Rum rəfiqləri” adlandırdığı bu sənətkarların xahişi ilə qələmə almışdır.

? *Sizcə, “Leyli və Məcnun” poeması dövrün tarixi hadisələri ilə necə əlaqələnir?*

Şah İsmayıl Xətai Azərbaycanın ictimai-siyasi tarixində müstəsna rol oynamış bir dövlətin banisidir. Xətai şair-hökmdar kimi öz sələfləri Qazi Bürhanəddin və Mirzə Cahanşah Həqiqinin poetik ənənələrini davam və inkişaf etdirmiş, qısa ömrü ərzində nəinki yeni bir möhtəşəm Azərbaycan dövlətini qurub genişləndirmiş, həm də Azərbaycan ədəbiyyatının ana dilində inkişafında da onun müstəsna xidmətləri olmuşdur.

XVI–XVII yüzilliklər Azərbaycan ədəbiyyatında həm də orta əsr məhəbbət və qəhrəmanlıq dastanlarının formalaşması dövrü kimi tanınır. Füzulinin yazılı poeziyada əldə etdiyi uğurları eyni zamanda şifahi xalq ədəbiyyatının nümayəndələri: Qurbani, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım kimi aşıqların yaradıcılığında da görmək mümkündür. “Aşıq Qərib”, “Abbas və Gülgəz”, “Əsli və Kərəm” kimi mükəmməl məhəbbət dastanları, “Kitabi-Dədə Qorqud”un layiqli varisi olan “Koroğlu” qəhrəmanlıq eposu bu dövrdə formalaşmış və xalq sənətkarlarının repertuarına daxil olmuşdur.

?

1. *Sizcə, XVI–XVIII əsrlərdə Səfəvilər dövlətində heykəltəraşlıq və rəssamlığın Avropadan fərqli olaraq zəif inkişaf etməsinin səbəbi nədir?*
2. *Səfəvilər dövlətində hansı tarixçilər yaşayıb-yaradıblar?*
3. *“Koroğlu” dastanı hansı tarixi hadisənin nəticəsi kimi meydana gəlmişdir?*
4. *Kartli çarı VI Vaxtanqla Səfəvi hökmdarı Şah II Abbasın mədəniyyət sahəsindəki fəaliyyətlərini müqayisə edin.*
5. *İstanbuldakı Sultan Əhməd məscidi ilə Gəncədəki Şah Abbas məscidi arasında müqayisə aparın.*

LAYİHƏ



36

# AZƏRBAYCAN TORPAQLARININ AZAD OLUNMASI UĞRUNDA MÜBARİZƏ. NADİR ŞAH

*XVIII əsrin əvvəllərində iqtisadi və siyasi tənəzzül dövrünü yaşayan Səfəvilər dövlətinin ərazisi qonşu dövlətlər tərəfindən ələ keçirildi və bu dövlət yox olmaq təhlükəsi ilə üz-üzə qaldı. Belə bir şəraitdə Şah II Təhmasibin yanında qulluğa girən Əfşar tayfasından olan Nadir öz hərbi istedadı sayəsində düşmənləri ölkədən qovmuş və Səfəvilər dövlətinin əvvəlki sərhədlərini bərpa etmiş, daha sonra isə bu dövlətə son qoymuşdur.*

*II Təhmasib, I Pyotr, Peterburq sülhü, Kirmanşah sülhü, Rəşt sülhü, Gəncə sülhü, Muğan qurultayı, Nadir şah, Sam Mirzə*

**Azərbaycan torpaqlarının mübarizə meydanına çevrilməsi.** XVIII əsrin əvvəllərindən etibarən Osmanlı imperiyası Azərbaycana gələcəkdə Rusiyaya qarşı mübarizədə istifadə oluna biləcək meydan kimi baxırdı. Eyni zamanda Osmanlı sultanları istəyirdilər ki, öz sərhədlərini Xəzər dənizinə qədər genişləndirsinlər və bununla da, Şərq ölkələri ilə aparılan tranzit ticarət üzərində nəzarəti ələ keçirsinlər, Azərbaycan kimi beynəlxalq ticarətin mühüm və faydalı məntəqəsi üzərində öz ağalıqlarını möhkəmləndirsinlər. Bu dövrdən etibarən Azərbaycan Rusiyanın inkişaf etməkdə olan sənayesi üçün xammal mənbəyi və satış bazarı kimi həmin ölkənin diqqətini cəlb edirdi. O, Şərqlə Qərb arasında ticarətin inkişaf etdirilməsi üçün mühüm vasitə rolunu oynayırdı və işğalçılıq müharibələrinin genişləndirilməsi zamanı mühüm strateji əhəmiyyət kəsb edə biləcəkdi. Buna görə də Rusiya imperatoru I Pyotr **Hacı Davudun** Osmanlı sultanına müraciətini də nəzərə alaraq işğalçılıq planlarında Osmanlı imperiyasını qabaqlamaq məqsədilə 1722-ci il iyunun 18-də Həştərxandan yürüşə başladı. I Pyotr Azərbaycan dilində "Manifest"[1] nəşr etdirərək Şirvana və Xəzərsahili vilayətlərə göndərdi. "Manifest"də çar qoşunlarının yürüşünün əsl səbəbi ört-basdır edilirdi.

*Rusiya ilə Osmanlı dövlətinin Azərbaycana maraqlarında hansı oxşarlığı tapmaq olar?*

*XVIII əsrin 20-ci illərində Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirin.*

1722-ci ildə ruslar Dərbənddən Rəştə qədər ərazini tutdular. 1723-cü ilin iyulunda Bakını və digər Xəzərsahili vilayətləri zəbt etmiş Rusiya Osmanlılarla müharibəyə yol verməməyə çalışaraq bu ərazilərin tutulmasına "qanuni" əsaslar uydurmağa çalışırdı. Buna görə də 1723-cü ilin sentyabr ayında Peterburqa gəlmiş Səfəvi elçisi İsmayıl bəy şahın razılığı olmadan rus hökuməti ilə özbaşına müqavilə imzaladı.

[1] *Manifest* – müstəsna əhəmiyyəti olan bir hadisə münasibətilə ali hakimiyyət orqanının əhaliyə yazılı müraciəti

LAYİHƏ

Bu müqaviləyə görə, Xəzəryanı bölgələr: Dərbənd, Bakı, Gilan, Mazandaran, Astarabad Rusiyaya ilhaq edilirdi. Rusiya isə bunun əvəzində Səfəvilərə əfqanlarla müharibədə kömək edəcəyini vəd edirdi. Lakin II Təhmasib bu müqaviləni təsdiq etmədi.

Rusiya 1724-cü ildə İstanbulda Osmanlı ilə müqavilə bağladı. İstanbul müqaviləsinin şərtlərinə görə, Cənubi Qafqaz faktiki olaraq Osmanlı dövləti ilə çar Rusiyası arasında bölüşdürüldü. Xəzərboyu əyalətlər Rusiyanın tərkibinə, qalan ərazilər isə sultanın ixtiyarına keçdi.

*Azərbaycan torpaqlarının Rusiya ilə Osmanlı imperiyası arasında bölüşdürülməsinə münasibət bildirin.*

1724-cü ildə Osmanlı qoşunu Xoy, Naxçıvan və Ordubadı ələ keçirib Təbrizə doğru irəlilədi. 1725-ci ilin avqustunda mühasirədə olan Təbriz şəhəri süqut etdi. Daha sonra Osmanlılar Ərdəbili, Gəncəni və başqa şəhərləri də ələ keçirdilər. Beləliklə, 1725-ci ilin sonu üçün Azərbaycan bütünlüklə ruslar və Osmanlılar tərəfindən zəbt edildi.

**Nadir xan Əfşarın ölkəni xilas etməsi.** Səfəvilərin ərazisinin çox hissəsi artıq əfqanlar, Osmanlılar və ruslar tərəfindən tutulmuş, II Təhmasib isə yalnız Cənubi Xəzəryanı bölgələr və Xorasanın bir hissəsi ilə kifayətlənməyə məcbur olmuşdu. Belə bir şəraitdə düşmənlərə qarşı mübarizədə daxili qüvvələri birləşdirmək lazım idi. Bu məsul vəzifəni 1726-cı ildə II Təhmasibin yanında qulluğa başlayan Nadir öz üzərinə götürdü. Tezliklə Nadir xan Əfşar bir sıra əyalətləri Səfəvi şahının hakimiyyəti altında birləşdirdikdən sonra əfqanları ölkədən qovmağa müvəffəq oldu. Daha sonra o, Osmanlılara qarşı müharibəyə başladı və tezliklə Həmədanı, Kirmanşahı, Təbrizi, Ərdəbili geri aldı. Lakin başı Xorasandakı üsyanı yatırmağa qarışmış Nadirin olmamasından istifadə edən II Təhmasib şəxsi nüfuzunu qaldırmaq məqsədilə Osmanlılara qarşı müharibəni davam etdirməyi qərara aldı. Nəticədə uğursuzluğa düçar olmuş II Təhmasib 1732-ci il yanvar ayının 16-da **Kirmanşahda** Osmanlı dövləti ilə sülh bağladı. Sülhün şərtlərinə görə, İrəvan, Gəncə, Tiflis, Şamaxı, Şirvan əyalətləri və Dağıstan Osmanlılara verilirdi. Araz çayı hər iki dövlət arasında sərhəd olmalı idi.



***Osmanlı və Nadir şah ordusu arasında döyüş***

*Ruslar və Osmanlıların Səfəvi torpaqlarını belə qısa müddətdə ələ keçirə bilməsinin səbəbi nə ola bilərdi?*

Səfəvi dövlətinin dirçəlməyə başlaması Rusiyanı 1732-ci il yanvarın 21-də səfəvilərlə **Rəştdə** müqavilə bağlayaraq Kürdən cənubda olan Xəzərsahili torpaqları geri qaytarmağa məcbur etdi.

LAYİHƏ

Tezliklə ölkənin Şərqindəki işləri nizama salan Nadir İsfahana döndü. 1732-ci ilin avqustunda II Təhmasibi devirib yerinə şahın 8 aylıq oğlu Abbas Mirzəni “III Abbas” adı ilə şah elan edərək özünü də onun qəyyumu təyin etdi. Bununla da Nadir, əslində, hakimiyyəti ələ aldı.

? *Sizcə, Nadir xan Əfşar nə üçün şah II Təhmasibi hakimiyyətdən devirdi?*

Nadir, ilk növbədə, 1732-ci ildə bağlanmış Kirmanşah müqaviləsini ləğv edərək 1723-cü ildən bəri Osmanlılar tərfindən tutulmuş Səfəvi torpaqlarının geri qaytarılmasını tələb etdi. Sultanın rədd cavabı iki dövlət arasında müharibəyə səbəb oldu. Bütün qışı qoşun yığmaqla məşğul olan Nadir xan üç istiqamətdə Osmanlılar üzərinə hücuma keçdi.

? *Üç istiqamətdə Osmanlılar üzərinə hərəkət etmək Nadir xan Əfşara hansı üstünlüyü verə bilərdi?*

Tezliklə Nadir rəqibini **Bağdad** ətrafında darmadağın edib Bağdad hakimi Əhməd paşa ilə sülh müqaviləsi imzalamağa nail oldu. Sülh müqaviləsinin şərtlərinə görə, Osmanlı imperiyası son 10 ildə Səfəvi irsindən işğal etdiyi torpaqlardan imtina etməli idi. Lakin bu sülhü Osmanlı sultanı təsdiq etmədi. Bu da müharibənin yenidən qızışmasına səbəb oldu. Müharibə meydanını Qərbi Azərbaycan və Gürcüstan ərazilərinə keçirən Nadir xan 1734-cü ildə Şamaxını tutdu. O, Şamaxını ələ keçirəndən sonra şəhərin dağıdılması, əhalisinin isə Ağsu adlı kiçik bir yerə köçürülməsi haqqında əmr verdi.

M *“Şamaxı qədimdən İrana (Səfəvilərə – red.) məxsus olan Şirvan əyalətində yerləşirdi, lakin İran-Türkiyə (Səfəvi–Osmanlı – red.) müharibəsi zamanı onun əhalisi qazıqumuxlu Surxay xanın hakimiyyətini tanımışdı. Nadirlə düşmən münasibətdə olan Surxay İrana birgə hücum etmək üçün Krım tatarlarını (Şirvana) dəvət edirdi. Lakin Nadirin Şirvanda görünməsi ilə bu baş tutmadı. Qışın başlanması ilə bağlı olaraq Dağıstana gedib Surxayı cəzalandırmağa imkanı olmayan Nadir qəzəbini Şamaxıya yönəltdi. Şəhəri tamamilə dağıtdı, daşı daş üstündə qoymadı, əhalisini isə qul edib Orta Asiya və İran bazarlarında satdırdı”.*

***E.İ.Hüseynovun “Azərbaycan Nadir şah Əfşarın hakimiyyəti dövründə” əsərindən***

M *“Şamaxı şəhəri və qalası namünasib bir yerdə yerləşdiyindən düşmən ordusu onu asanlıqla tuta bilərdi... Bu səbəbdən Şamaxının 4 fərsəxliyində, “Ağsu” adlı çayın yaxınlığında... yeni, möhkəm bir qala tikildi və qədim şəhərin əhalisi oraya köçürüldü. Bu qala tezliklə o məkanda sıx məskunlaşmış yerə və Şirvan hakiminin darülmülkünə çevrildi”.*

***M.M.Astrabadinin “Tarixi Cahanquşayı Nadirin” əsərindən***

? *Mənbələri müqayisə edin: sizcə, Şamaxının dağıdılmasının səbəbi hansı mənbədə daha inandırıcı verilmişdir?*

Nadir xan Şimali Azərbaycanda Osmanlıların baş dayaq məntəqəsi sayılan Gəncəni mühasirəyə aldı. Rusiya hökuməti Səfəvi dövlətinin Osmanlılara qarşı mübarizə aparmasına şərait yaratmaq üçün, eləcə də Nadirin tələblərini nəzərə alaraq 1735-ci ilin martında onun **Gəncə** yaxınlığındakı düşərgəsində Səfəvi dövləti ilə sülh danışıqlarına başladı. Sülhə əsasən, Rusiya Terekdən cənubdakı bütün Xəzəryanı torpaqları Səfəvi dövlətinə qaytardı.

? *Gəncə sülhü ilə Rəşt sülhü arasında hansı oxşarlıqlar var?*



LAYİHƏ



Üçmüədzin yaxınlığında döyüş

1735-ci ildə Üçmüədzinin Şimal-Şərqində Səfəvi və Osmanlı qoşunları arasında Nadirin tam qələbəsi ilə nəticələnən döyüş baş verdi. 1735-ci ilin sonuna qədər Osmanlı əsgərləri Cənubi Qafqazdan, o cümlədən Azərbaycandan tamamilə çıxarıldılar. Beləliklə, bu dövrdə Nadir xanın rəhbərliyi ilə, demək olar ki, Səfəvilər dövlətinin əvvəlki sərhədləri bərpa olundu. Bu uğurlarından və xalq arasında artan nüfuzundan istifadə edən Nadir 1736-cı ilin yazında Kürlə Araz çayının qovuşduğu yerdə, Muğan düzündə böyük bir qurultay çağırdı və orada özünü şah elan etdi.

M

*"Gəncə xanları əslən Qacar nəslindən olub, onlara Ziyadoğlu adı da verirdilər... Bunlar Muğan qurultayında, gizlin və aşkar olaraq son dərəcə çalışdılar ki, Səfəvilərdən başqa bir kimsə padşah olmasın və özgə bir şəxs səltənət balışına söykənməsin. Demə ki, bunların bütün fikirlərini Nadir şaha xəbər aparıb və bütün sözlərini onun hüzuruna çatdırırlarmış... Ziyadoğlanları qədim bir ocaq və böyük bir dudman olduqlarına görə Nadir şah onlara özgə bir cəza və başqa bir siyasəti rəva görmədi. Qazax və Borçalı ellərini öz xanları ilə bərabər, Gürcüstan əmirlərinə və uca mərtəbəli valinin hökmünə tabe etdi. Cavanşir, Otuziki və Kəbirlidən ibarət olan Qarabağ elləri haqqında da icrası vacib olan fərman çıxdı ki, onları köçürüb Xorasanın Sərəxs torpağına aparsınlar. ...Xəmsə məliklərinə də əmr verdi ki, Gəncə xanlarının itaət zəncirini mənim möhkəm hökmüm vasitəsilə xas və avam camaatın boynundan kənar edin. Özünüzü tamamilə azad sayın. Bütün ərizələrinizi və vacibli işlərinizi yazıb mənim... hüzuruma göndərin. Beləliklə, Gəncə xanlarının ixtiyarları tamamilə əllərindən çıxdı".*

***"Qarabağnamələr". I kitab. Mirzə Adıgözəl bəy, "Qarabağnamə"***

?

*Sizcə, Nadir şahın bu qərarları müasir dövrdə Azərbaycanın hansı geosiyasi itkilərinə səbəb oldu?*

**Nadir şahın daxili siyasəti.** Nadir xan Əfşar 1736-cı il tarixində rəsmən şah elan olunduqdan sonra İranın idarəsini mərkəzləşdirməyə cəhd etdi. Onun dövləti Məşhəd, Təbriz və Şiraz mərkəz olmaqla 3 bəylərbəyliyə bölündü. Xorasanı onun oğlu Rzaqulu, Azərbaycanı isə qardaşı İbrahim xan idarə edirdi. Hakimlər və digər məmurlar bəylərbəylərə tabe olurdular, onlar bilavasitə şah tərəfindən təyin edilirdilər. Nadirin dövlətdaxili əsas addımlarından biri mərkəzi hakimiyyətin gücləndirilməsinə və feodalların separatizminin aradan qaldırılmasına yönəldilmiş aqrar siyasət idi. Mərkəzi hakimiyyəti gücləndirmək məqsədilə dövlət torpaq fondunu artırmağa çalışan Nadir şah vəqf torpaqlarının böyük hissəsini, eləcə də maldar tayfalara və bəzi iri feodallara məxsus olan torpaqları dövlətin xeyrinə müsadirə etdi. Daha sonra Nadir şah ölkədə bütün vəqf əmlakının dövlət tərəfindən alınması və onların gəlirinin hökumətin xeyrinə zəbt olunması haqqında fərman verdi. Nadirin iri feodalların nüfuzunun sarsıdılmasına



Muğan qurultayı

LAYİHƏ




***Nadir Şah Əfşarın imperiyası. 1736–1747-ci illər***

yönəlmiş digər mühüm tədbiri vilayətin mədaxili və məxaricinə müdaxilənin qarşısını almaqdan ibarət idi. Bunun üçün də o əmr verdi ki, bundan sonra əyalət hakimləri, məmurlar öz maaşlarını torpaq bəxşişi şəklində deyil, pul şəklində alacaqlar. Bu hal həmçinin bəylərbəyilərə də şamil olundu. Taxta çıxdıqdan sonra dövlətin şəhər və kəndlərinin iqtisadi vəziyyətini gözdən keçirməklə məşğul olan Nadir şah xüsusilə becərilməyən və sahibsiz torpaqların abadlığı, becərilməsi, dağılmış suvarma sistemlərinin qaydaya salınması üçün fərmanlar verdi.

**?**

*1. Məmurların öz maaşlarını torpaq bəxşişi şəklində deyil, pul şəklində alması əmri feodalların nüfuzunun sarsıdılmasına necə təsir etdi?*
*2. Nadirin aqrar siyasəti nəyə qarşı yönəlmişdi?*
*3. Vəqf torpaqlarının gəlirinin hökumətin xeyrinə zəbt olunması kimləri hakimiyyətdən narazı sala bilərdi?*

Vergi sahəsində qayda-qanun yaratmağa çalışan Nadir şah hakimiyyətinin ilk illərində daxili və xarici ticarəti canlandırmağa çalışırdı. Ticarətin inkişafına əngəl törədən şəxslər ciddi şəkildə cəzalandırılırdı.

Nadir şahın əmri ilə dövlətin mədaxilinə nəzarət etmək üçün vergilərin yığılması sahəsində intizam artırıldı. XVIII əsrin 40-cı illərinin ortalarında Nadir şah ordusunun böyük hissəsini kəndlilər təşkil edirdi. Bu isə kənd təsərrüfatının inkişafına öz mənfi təsirini göstərməyə bilməzdi. II Təhmasibin dövründə yadellilərin ölkədən qovulması ilə başlanan və Nadir şah Əfşar tərəfindən davam etdirilən aramsız müharibələr böyük məbləğdə vəsait tələb edirdi. Bu isə yeni vergilərin təyin olunmasına və ictimai vəziyyətin daha da ağırlaşmasına gətirib çıxarırdı.

LAYİHƏ

*1. Sizcə, Nadir şahın həyata keçirdiyi hansı islahat doğru deyildi? Fikrinizi əsaslandırın.*
*2. Nadir şahın yerində siz olsaydınız, dövləti daxilən möhkəmləndirmək üçün hansı addımları atardınız?*



***Nadir şah döyüş tapşırıqlarını verərkən***

XVIII əsrin 30–40-cı illərində vergi yükünün çoxluğu, mükəlləfiyyətlərin ağırlığı, daimi müharibələrin aparılması dövlət ərazisində məhsuldar qüvvələrin inkişafına mane olurdu. Bu isə çox zaman üsyanlarla nəticələnirdi.

Nadirə qarşı Azərbaycanda ilk üsyanlar 1734-cü ildə Astarada, daha sonra Car-Balakəndə baş verdi. 1738-ci ildə Nadirin Hindistan istiqamətində hərbi yürüşdə olmasından istifadə edən Car-balakənlilər yenidən üsyan etdilər. Üsyanı yatırmaq üçün Cara səfər edən Nadirin qardaşı İbrahim xan məğlub edilib öldürüldü. Tezliklə Hindistan və Mərkəzi Asiyaya səfərini yekunlaşdıran Nadir şah böyük bir ordu ilə Azərbaycana və Dağıstana hərəkət etdi. Dağıstanı tamamən ələ keçirdiyini və Azərbaycanda asayişi bərpa etdiyini düşünərək 1743-cü ilin yazında ordusunu Cənubi Qafqazdan çıxartdı. Bu, Azərbaycanda yeni üsyan dalğasına səbəb oldu. Özlərini Səfəvi şahzadələri adlandıran I və II Sam Mirzənin başçılığı altında həmin ildə ardıcıl olaraq üsyanlar baş qaldırdı. Hacı Çələbinin rəhbərlik etdiyi üsyan 1743-cü ilin sonunda Şəki xanlığının yaranması ilə nəticələndi. Nadir şah bu üsyanları yatırmağa müvəffəq oldu. 1747-ci ildə Ərdəbildə III Sam Mirzənin rəhbərliyi ilə başlanan üsyan da yatırıldı. 1747-ci ilin iyunun 19-da **"Şərqin sonuncu fatehi"** Nadir şahın sui-qəsd nəticəsində öldürülməsi ilə onun imperiyası dağıldı.

*1. Nadir şahın hakimiyyətinə qarşı baş qaldıran üsyanların səbəbləri hansılar idi?*
*2. Sizcə, Azərbaycan əhalisinin yalançı şahzadələri dəstəkləmələrinin səbəbi nə ola bilərdi?*
*3. XIII, XVI və XVIII əsr Azərbaycanın geosiyasi mövqeyinə dair diaqram tərtib edin.*
*4. XVIII əsrin 20-ci illərində dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edin.*
*5. Nadir şahın dövlətinin yaranması və inkişafında müvafiq dövrün xüsusiyyətlərini dəyərləndirin.*
*6. Verilmiş mənbələr əsasında Azərbaycanın tarixi keçmişini və müasir dövrünü müqayisə edin.*
*7. Verilmiş yazılı mənbə müəlliflərinin mövqeyini müəyyənləşdirin.*
*8. Nadir şah haqqında referat hazırlayın.*



LAYİHƏ



37

# QUBA XANLIĞININ BİRLƏŞDİRMƏ SİYASƏTİ

*Nadir şahın ölümündən sonra xırda dövlətlərə parçalanmış Azərbaycanın vahid dövlətdə birləşdirilməsi uğrunda mübarizə aparan xanlardan biri də qubalı Fətəli xan olmuşdur. Onun fəaliyyəti nəticəsində Şimal-şərqi Azərbaycan torpaqları qısa müddətə də olsa birləşdirilmişdi.*

*Hüseynəli xan, Fətəli xan, Şamaxı xanlığı, Dərbənd xanlığı, Bakı xanlığı*

**Xanlıqlar necə yarandı.** XVIII əsrin ortalarından XIX əsrin I rübünün axırlarına qədər olan dövr Azərbaycan tarixinə xanlıqlar – feodal pərakəndəliyi dövrü kimi daxil oldu. Bu dövrdə Azərbaycan ərazisində 20 xanlıq, 6 sultanlıq, 5 məliklik və 1 camaatlıq mövcud olmuşdur. Azərbaycanda bir çox xanlıq və digər feodal qurumlarının meydana çıxması, ölkənin ayrı-ayrı vilayətləri arasında sabit iqtisadi əlaqələrin olmaması, natural təsərrüfatının hökmranlığı, ayrı-ayrı vilayətlərdə müxtəlif pul, çəki və ölçü vahidlərinin tətbiqi, habelə feodalların bu və ya digər ərazi üzərində öz hakimiyyətlərini quraraq müstəqilliyə can atmaq cəhdlərinin nəticəsi idi. Xanlıqların yaranmasına yardım edən amillərdən biri də Nadir şahın qətli, varisləri arasında gərgin mübarizənin başlanması və bu mübarizənin gedişində mərkəzi hakimiyyətin zəifləməsi idi.




*Azərbaycan xanlıqları*

*Nadir şahın ölümündən sonra Azərbaycanda bu qədər çox feodal dövlətin yaranmasının səbəbləri nə idi? Həmin dövrdə hansı Avropa ölkələrində siyasi pərakəndəlik mövcud idi?*

*Tarixi sənədlər və bunlara müvafiq olan xalq rəvayətləri göstərir ki, istər Zaqafqaziya, istərsə də İran əsrlər boyu xalqların bir yerdən başqa yerə köçürülməsi və arasıkəsilməyən toqquşmalar nəticəsində bu yerlərin mütləq hakimi olan Nadir şahın öldürülməsindən sonra bir-birinə düşmən olan bir çox müstəqil xanlıqlara parçalandı. Bu zaman sahibsiz qalmış taxt-tacı ələ keçirmək iddiasında olan bir çox adamlar meydana çıxmışdı. Lakin əksəriyyət onların heç birinə tərəfdar olmamış və nəticədə hər bir xan bütün qüvvəsi ilə zəif qonşuları özünə tabe etməyə və sonra da İranın şan-şövkətli taxt-tacını ələ keçirməyə çalışırdı.*

***"Qarabağnamələr", I kitab***

LAYİHƏ

*Müəllif xanlıqların yaranmasının əsas səbəbini nədə görür?*



***Fətəli xan***

1726-cı ildə Rus hakimiyyət orqanları Rusiyadan asılı olmaq şərtilə Hüseynəli bəyi Quba xanı elan etmişdilər. Nadir şahın ölümündən sonra qubalı Hüseynəli (1726–1758) xan müstəqil siyasət yeritməyə başlamışdır. Quba xanlığının yüksəlişi Fətəli xanın (1758–1789) hakimiyyətə gəlməsi ilə bağlı idi. Fətəli xanın hakimiyyəti dövrünü təhlil edəndə onun fəaliyyətini 3 mühüm sahəyə bölmək olar:

1. Vergi islahatı;
2. Köçürmə siyasəti;
3. Birləşdirmə siyasəti.

**Vergi islahatı.** Fətəli xan vergi toplanması işini nizama salmaqla xəzinənin gəlirini artırmağa çalışırdı. Bunun üçün də o, vergi islahatı keçirdi. Əvvəllər vergiləri mahal naibləri toplayırdılar. Bu zaman naiblər yığılan verginin bir qismini mənimsəyirdilər. Verginin birbaşa xəzinəyə daxil olmasını təmin etmək məqsədilə Fətəli xan bu qaydanı ləğv etdi. Artıq vergini kəndxuda toplamalı və şəxsən özü xan xəzinəsinə təhvil verməli idi. Eləcə də kəndlilərin vəziyyətini yaxşılaşdırmaqdan ötrü Fətəli xanın göstərişi ilə bəzi mükəlləfiyyətlər yalnız xan yasavullarının tələbi ilə yerinə yetirilməli idi.

*Fətəli xan kəndlilərin vəziyyətini yaxşılaşdırmaqda nə üçün maraqlı idi?*

**Köçürmə siyasəti.** Fətəli xanın köçürmə siyasətinin özünü də 3 yerə ayırmaq olar; 1. Əhalinin sayını artırmaq: Muğan, Gilan, Ərdəbil və digər yerlərdən Quba xanlığı ərazisini özünə daimi yaşayış yeri seçən kəndliləri, sənətkarları və bəzi feodalları bu əraziyə köçürdülər; 2. Müdafiəni gücləndirmək: Fətəli xan öz sərhədlərini möhkəmləndirmək üçün Muğandan cəngavər şahsevənlərin bir hissəsini xanlığın ərazisinə köçürdü; 3. Özünə dayaq yaratmaq: Şamaxı şəhəri ələ keçirildikdən sonra Fətəli xan burada özünə dayaq yaratmaqdan ötrü öz tərəfdarlarını Dərbənd, Quba və Salyandan Şamaxıya köçürdu.

*Xanlığın əhalisinin artırılmasında Fətəli xanın maraqları nə ola bilərdi?*

**Birləşdirmə siyasəti.** Fətəli xanın ən önəmli əhəmiyyət daşıyan siyasəti onun yürütdüyü birləşdirmə siyasəti idi. Məlum olduğu kimi, birləşdirmə siyasəti yeridən Quba xanlığına birləşdirilən ilk ərazi 1757-ci ildə – Hüseynəli xanın dövründə tabe edilmiş Salyan xanlığı olmuşdur. Atasının ölümündən sonra taxta çıxan Fətəli xan birləşdirmə siyasətini davam etdirmiş və tez bir zamanda yerli əhalinin köməyi ilə 1759-cu ildə müqavimətsiz Dərbənd xanlığını Quba xanlığına tabe etmişdi. Növbədə Şamaxı xanlığı dururdu.

Lakin Fətəli xan qonşu xanlıqlardan kömək alan və digər xanlıqlardan iqtisadi və siyasi cəhətdən nisbətən güclu olan Şamaxı xanlığının ələ keçirilməsini bir qədər təxirə saldı. Şamaxı xanlığını tutmağa hazırlaşan Fətəli xan "nikah diplomatiyası" vasitəsilə

LAYİHƏ

Bakı xanlığını özündən asılı vəziyyətə saldı. Bununla da şimal-şərqi Azərbaycan torpaqlarının birləşdirilməsinin birinci mərhələsi başa çatdı.

*Fətəli xanın yürütdüyü birləşdirmə siyasətini vergi islahatını keçirmədən reallaşdırmaq olardımı? Fətəli xanın yürütdüyü siyasətlər arasında hansı əlaqələri görürsünüz?*

*“Fətəli xan öz məqsədindən geri çəkilmədi. Bakı xanı ilə razılığa gəlib özünə tabe hərbçilərdən 12000 nəfər yığıb Şamaxıya istiqamətləndi və Şamaxı yaxınlığında dağda Muci adlı qalanı heç bir çətinlik çəkmədən ələ keçirdi... Şamaxı xanına xəbər yolladı ki, o öz ordusunu hazırlasın və döyüş gününü təyin etsin. Şamaxı xanının hərbçiləri çox idi, lakin 25000-ə qədər nizami ordu yığa biləcəyinə baxmayaraq, Fətəli xanla döyüşə girməyə cürəti çatmadı. Çünki Şamaxı hakimlərinin bir çoxu ona sadiq deyildi...”*

***Rusiyanın İrandakı konsulu M.Sulyakovun Xarici İşlər Kollegiyasına 13 sentyabr 1767-ci il tarixli məktubundan***

*Mənbə əsasında Şamaxı və Quba xanlarının mövqelərini müqayisə edin.*



***Dərbənd şəhəri, 1796-cı il***

**Birləşdirmə siyasətinin ikinci mərhələsi.** Bu mərhələdə Şamaxı və Cavad xanlıqlarını birləşdirmək uğrunda mübarizə getdi. Şamaxını almaq üçün aparılan döyüşlər çox amansız və qanlı oldu. Şamaxı xanlığı həm iqtisadi, həm də hərbi-strateji cəhətdən Fətəli xanının diqqətini cəlb edirdi. Xanlıq şimal-şərqdə Quba, şərqdə Bakı, cənub-qərbdə Qarabağ xanlıqları, cənubda Kür çayı ilə həmsərhəd idi. Əvvəllər Şamaxı xanı onun ərazisini dağıstanlıların hücumlarından qoruduğuna görə hər il Quba xanlığına xərac verirdi. Bir müddət sonra Şamaxı hakimləri Quba xanına xərac verməkdən imtina etdilər və iki xanlıq arasında münasibətlər pisləşdi. Nəticədə 1765-ci ildən Quba–Şamaxı mübarizəsi başladı. Mübarizənin ilk dövründə şəkili Hüseyn xanın Şamaxı xanına kömək etməsi Fətəli xanın uğur qazanmasına mane olurdu. Yaranmış vəziyyətdən çıxış yolu arayan Fətəli xan Hüseyn xanı öz tərəfinə çəkdi. Beləliklə, Şamaxı xanlığının

LAYİHƏ

taleyi həll olundu. Əvvəlcə Şamaxı xanlığı Quba ilə Şəki xanlıqları arasında bölüşdürülsə də, 1768-ci ilin avqustunda Fətəli xan Hüseyn xanı məğlub edib Şamaxını tamamilə Quba xanlığına tabe etdi. Şamaxının tutulmasının ardınca Kürlə Araz çaylarının qovuşduğu yerdə yerləşən Cavad xanlığı da şimal-şərqi Azərbaycan dövlətinin tərkibinə daxil edildi. Bu xanlıqlarla yanaşı, 1785-ci ildə Lənkəran (Talış) və Şəki xanlıqları da Quba xanlığından asılılığı qəbul etdi.

?

*Şamaxı xanlığının tutulması Quba üçün hansı strateji əhəmiyyət daşıya bilərdi?*

M

*“Quba xanlığı güclü xanlıqlardan sayılır, lazımi qədər varlıdır. Onun daimi qoşunu 3 000 adamdan ibarətdir, lakin öz qonşuları – Nuxa (Şəki), Şirvan və Şuşa (Qarabağ) xanlıqları əleyhinə çıxdıqda Dağıstan hakimlərini və ləzgiləri köməyə çağırırdı”.*

***XVIII əsr mənbəsi.***

***Qarayev E. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində***

?

*Quba xanlığı Şəki, Şamaxı və Qarabağ xanlıqları əleyhinə çıxdıqda Dağıstan hakimlərindən kömək istəməsini nəzərə alsaq, bu xanlığı güclü xanlıq adlandırmaq olarmı?*

Fətəli xan yalnız qonşu torpaqları birləşdirməklə kifayətlənmək niyyətində deyildi. Bütün Azərbaycanı, hətta İranın bəzi yerlərini ələ keçirmək də onun planlarına daxil idi. Bu məqsədini reallaşdırmaq üçün Fətəli xan hətta 1784-cü ilin yayında Cənubi Azərbaycana (bu zaman o, Ərdəbili və Meşkini ələ keçirmişdi) hücum etmişdi. Lakin Azərbaycana dair öz planları olan Rusiya və onun Cənubi Qafqazdakı əlaltısı Kartli-Kaxetiya çarlığı hər vasitə ilə buna mane olurdu.

1789-cu ildə Fətəli xan vəfat etdi. Hakimiyyətə gələn oğlanları atasının nailiyyətlərini möhkəmləndirə bilmədilər. Tezliklə asılılıqda olan xanlıqlar Qubanın tabeçiliyindən çıxdılar.

*Tarixdə bacarıqsız varislərlə bağlı buna oxşar hadisələri xatırlayın.*

**QUBA XANLARI**

**Hüseynəli** → **Fətəli** → **Əhməd** → **Şeyxəli**

?

*1. İnternet resurslardan istifadə edərək Quba xanları haqqında əlavə məlumat toplayıb referat hazırlayın.*

*2. Quba xanlığının qonşu dövlətlərlə əlaqələrini əks etdirən aşağıdakı cədvəli 8-ci sinifdə öyrəndiyiniz biliklər əsasında doldurun.*

| Quba xanlığının münasibətdə olduğu dövlətlər | **Münasibətin tipi** | | Fikrinizi bir faktla əsaslandırın. |
|---|---|---|---|
| | dostluq | düşmənçilik | |
| | | | |
| | | | |
| | | | |

LAYİHƏ



38

## ŞƏKİ XANLIĞI. CAR-BALAKƏN CAMAATLIĞI

*“Mənim hüzurumda bir kəsin həddi yoxdur ki, nəfəs çəkə. Şəkili Çələbi nə cürət sahibi imiş ki, boğazında kəndir cürət eləyib bu ərzləri mənə elədi. Heç sözündə yanılmadı. Əlbəttə, bundan bir xəta əmələ gələcək. Mənim zənnim xəta olmaz”.*

***Nadir şah***

*Hacı Çələbi, Car-Balakən camaatlığı, Kartli-Kaxetiya çarlığı, Bayat savaşı*



***Hacı Çələbi xan***

**Şəki xanlığının yaranması və möhkəmlənməsi.** Azərbaycanın şimalında yerləşən Şəki xanlığının əsasını Hacı Çələbi qoymuşdur. Hacı Çələbi hələ Nadir şahın sağlığında üsyan qaldıraraq özünü müstəqil xan elan etsə də, onun əsas fəaliyyəti Nadir şahın qətlindən sonrakı dövrə təsadüf edir. 1747-ci ilin yayında Nadir şah öldürüldükdən sonra İranda mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində digər Azərbaycan xanlıqları kimi Şəki xanlığı da özünü müstəqil aparmağa başlamışdı. Bu zaman Hacı Çələbi əlverişli vəziyyətdən istifadə edib qonşu əraziləri xanlığa qatmağı qərarlaşdırdı. Hacı Çələbi, ilk növbədə, qonşuluğunda yerləşən Qəbələ və Ərəş sultanlıqlarını özünə tabe etdi. Daha sonra təzəcə müstəqilliyini əldə etmiş Qarabağ xanlığına hücum etdi. Qarabağın bəzi ərazilərini ələ keçirsə də, Pənahəli xan Bayat qalasına çəkilərək ona ciddi müqavimət göstərdi. Hacı Çələbi öz müttəfiqi Şamaxı xanı ilə bir aydan artıq Bayat qalasını mühasirəyə alsa da, heç bir uğur əldə edə bilmədi. Böyük itkilər verib geri qayıdaraq Pənahəli xanın müstəqilliyini tanıdı.

?

*Hacı Çələbi qonşu əraziləri xanlığa qatmaq üçün hansı əlverişli vəziyyətdən istifadə etməyi qərarlaşdırdı?*
*Sizcə, Hacı Çələbinin Bayat qalasını tuta bilməməsinin səbəbi nə ola bilərdi?*

M

*“Hacı Çələbi gəldi və mühasirə ilə məşğul oldu. Hər gün mübahisə edir, didişib-döyüşməkdən əl çəkmirdilər. Axırda Hacı Çələbi məqsədinə çatmadan külli zərərlə qayıtmaq təbilini vurdurdu. O, yolda gedərkən dedi: “Pənah xan bu vaxtacan bir sikkəsiz gümüş idi, biz gəldik, ona sikkə vurduq və qayıtdıq”. Bu söz xalqın dilində və camaatın ağzında bir məsəl olaraq qalmışdır”.*

***“Qarabağnamələr“, II kitab***

LAYİHƏ

*Hacı Çələbinin "Pənah xan bu vaxtacan bir sikkəsiz gümüş idi, biz gəldik, ona sikkə vurduq və qayıtdıq" sözlərini necə başa düşürsünüz?*

**Kartli-Kaxetiya çarlığı ilə mübarizə.** Şəki xanlığının belə aktivlik göstərməsi qonşu xanlıqları, eləcə də Kartli-Kaxetiya çarlığını[1] narahat edirdi. İranda şah hakimiyyəti uğrunda gedən mübarizədən istifadə edən Kartli-Kaxetiya çarları Qazax və Şəmsəddil sultanlıqlarını ələ keçirmiş Car-Balakən camaatlığını, Gəncəni, hətta Qarabağı tutmağa çalışırdı. Kartli-Kaxetiya çarlarının 1751-ci ilin fevralında Car torpaqlarına etdiyi hücumunun qarşısı Hacı Çələbi tərəfindən alındı. Belə bir şəraitdə gürcü çarları Hacı Çələbiyə qarşı mübarizədə Azərbaycan xanlarının qüvvələrindən istifadə etməyi düşündülər. Gəncə, Qarabağ, Qaradağ, Naxçıvan və İrəvan xanlıqları 1752-ci ilin martında Kartli-Kaxetiya çarları ilə ittifaq bağlamaq üçün Gəncə yaxınlığında bir araya gəldilər. Lakin bu görüş heç də xanların gözlədiyi kimi nəticələnmədi. Gürcü çarları danışığa gələn Azərbaycan xanlarını əsir alıb özləri ilə Gürcüstana aparmağı qərara aldılar. Bundan xəbər tutan Hacı Çələbi vaxt itirmədən düşməni təqib edərək Qızılqaya adlanan yerdə gürcüləri məğlubiyyətə uğratdı. Hacı Çələbi xan əsirlikdən qurtardığı xanlarla görüşmədən düşməni təqibə davam etdi, nəticədə Borçalı və Qazax mahallarını ələ keçirdi. Həmin mahalların idarəsini oğlu Ağakişiyə tapşırıb Şəkiyə döndü.



***II İrakli***

*Gürcü çarının danışığa gələn Azərbaycan xanlarını əsir alıb özləri ilə Gürcüstana aparmaqda məqsədi nə idi?*

**Xanlığın zəifləməsi.** Gürcülər üzərində qələbədən ruhlanan Hacı Çələbi diqqətini Şərqə yönəltdi və Ağsunu mühasirəyə aldı. Lakin birləşmiş Quba və Şamaxı xanlıqları tərəfindən məğlub edilib geri çəkildi. 1755-ci ildə Hacı Çələbidən sonra hakimiyyəti oğlu Ağakişi ələ aldı. Çox keçməmiş Ağakişini qayınatası qazıqumuxlu Məhəmməd xan qətlə yetirdi və hakimiyyətə gəldi. Qırx gündən sonra Quba xanı Fətəli xanın köməyi ilə Hacı Çələbinin nəvəsi Hüseyn xan onu taxtdan saldı və hakimiyyəti ələ aldı. Hüseyn xan hakimiyyətinin ilk dövrlərində Quba xanlığı ilə müttəfiq münasibətləri saxlayırdı. Lakin Şamaxı xanlığı uğrunda mübarizə zamanı bu ittifaq pozuldu və keçmiş müttəfiqlər rəqiblərə çevrildilər. Tezliklə bu mübarizədə məğlub olan Hüseyn xan 1769-cu ildə Fətəli xanla müqavilə bağladı. Bu müqavilə ilə Hüseyn xan Fətəli xana lazım olduqda qoşun verməyi və Şamaxının işlərinə qarışmamağı öhdəsinə götürdü.



***Şəki xanlığının ordusu döyüşdə. Miniatür***

[1] *Kartli-Kaxetiya çarlığı* – 1744-cü ildə Nadir şah II Teymurazı Kartli çarı, onun oğlu II İraklini isə Kaxetiya çarı təyin etdi. 1762-ci ildə Teymurazın ölümündən sonra II İrakli atasının taxtına da sahib çıxdı və çarlığı birləşdirdi.



LAYİHƏ

M

*“Məhəmməd xan... Nuxada zülmlər edib, qırx gün Nuxada qalıb. Qırx gündən sonra Şəki əhli dönüb Hüseyn xanı Şirvandan gətirib, Məhəmməd xanı Şəkidən qovub, Hüseyn xanı Şəkidə xan edibdirlər. Ərəş sultanı Məlik Əli Hüseyn xana qulaq asmayıb. İki il Hüseyn (xan) olandan sonra İranda bir Əfşar Fətəli xan varmış, sərdar imiş, Qarabağa gəlir. Məlik Əli Fətəli xan(ın) yanına gedər ki, Şəkidə onu xan eləyə. Hüseyn xan bunu eşidib, bu da peşkəşlə sərdarın yanına gedər. Sərdar Fətəli xan bir para kəslərdən və böyüklərdən xəbər alır ki, Şəki vilayətinin əsl bəyzadəsi Məlik Əlidir, yoxsa Hüseyn xandır? Ərz elərlər ki, Hüseyn xandır. Onların övladı bunların nökərləridir. Həmişə bunlara qulluq edibdirlər. Sonra sərdar Fətəli xan Məlik Əliyə naxoş olub (acığı gəlib) ki, ağanın yüzünə nəyçün durursan, deyib, tutub Hüseyn xana verib. Hüseyn xana xələt verib ki, mən də səni xan elədim. Hüseyn xan Məlik Əlini alıb, Şəkiyə gəlir və Məlik Əlini öldürür və Şəkidə hakim olur”.*

***Kərim Ağa Fatehin “Şəki xanlarının müxtəsər tarixi” əsərindən***

*Bu mənbə ilə mətndəki müvafiq yerləri uzlaşdırın və fikrinizi bildirin.*



***Karvansara, Şəki XVIII əsr***

İyirmi ildən artıq Şəkidə hökmran olmuş Hüseyn xan hakimiyyət uğrunda öz qohumları və əmirləri ilə gərgin mübarizə apardı. 1779-cu ildə sui-qəsd nəticəsində öldürüldü, hakimiyyətə Hacı Çələbinin oğlu Əbdülqadir xan gəldi. Bununla da, Şəkidə hakimiyyət uğrunda mübarizə bir qədər də qızışdı. Bu da Şəki xanlığını həm siyasi, həm də iqtisadi cəhətdən sarsıtdı.

?

*Hakimiyyət uğrunda mübarizə dövlətin zəifləməsinə necə təsir göstərirdi?*



LAYİHƏ

*"...Şəki xanı, Şirvan və Qarabağ sərkərdələri, Məhəmməd Səid xan, İbrahim xan, Ağası xan sözlərini bir ediblər ki, əgər müsəlman tərəfinə kafirlərdən hücum olarsa və hadisə üz verərsə, onlara qarşı birləşib mübarizə aparsınlar. Sizdən istədikləri də budur ki, belə vəziyyətdə sizlər də bu tərəfdən islama kömək edəsiniz..."*

**Çıldır valisi Süleyman paşanın Osmanlı sultanına 1784-cü ildə göndərdiyi məktubundan**

*Məktub əsasında Şəki xanlığı ilə Osmanlı dövlətinin münasibətləri haqqında nə deyə bilərsiniz?*

*Şəki xanı Məhəmməd Həsən xan 1784-cü ildə Osmanlı sarayına göndərdiyi növbəti məktubunda isə yazırdı: "...İrakli xanın Rusiyanın təşviqi ilə Azərbaycan mülklərinə, o cümlədən İrəvan qalasına təcavüzünə qarşı Azərbaycan və Dağıstan xanlarının birlikdə hərəkət etmələri barədə əmrinizə riayət etməklə Dövləti Aliyyənin xidmətində olduq.*

*... Gəncə qalası bir neçə ildən bəri Rusiyanın yardımı ilə İrakli xanın işğalında ikən əhali, ətraf hakimlərin və Osmanlı ordusunun gücü ilə o geri alınmışdır. Sonradan İrakli xanın oğlu Almas Mirzə, yeznəsi (kürəkəni) Davud bəy və Şəmsəddinli Əli Sultan xeyli əsgərlə buraya hücum etmişlər. Qala əhalisinin xahişi ilə biz də Allahu Təalanın yardımı, əhali və digər ümməti Məhəmmədin köməyi nəticəsində düşmənin təcavüzünü dəf etmişik".*

*Məktub əsasında Məhəmməd Həsən xanın siyasətini qiymətləndirin.*
*Bu iki ayrı-ayrı məktubları müqayisəli formada təhlil edin.*

**Car-Balakən camaatlığı.** Azərbaycanın şimal-qərbində yerləşən Car-Balakən camaatlığı Car, Balakən, Katex, Tala, Muxax və Cənik adlı azad cəmiyyətləri özündə birləşdirən sosial-siyasi qurum idi. Hər bir cəmiyyət camaat adlandırılan bir neçə kənd icmasından ibarət idi. Hər bir icma kəndxuda və qazı tərəfindən idarə olunurdu. İdarəetmə şəriət qaydalarına əsaslanırdı. Cəmiyyətdə ruhanilərin də nüfuzu yüksək idi. Camaatlığın ali orqanı xalq yığıncağı idi. Burada yalnız yetkinlik yaşına çatmış kişilər iştirak edə bilərdilər. Yığıncaqlarda camaatın bütün vacib məsələləri müzakirə edilir və qəbul olunan qərarlar qanun qüvvəsini alırdı. XVIII əsrin 50-ci illərində Car-Balakən camaatlığı Şəki xanlığından asılı vəziyyətə düşmüşdü. Camaatlıq XVIII əsrin sonlarında müəyyən müstəqillik əldə edə bilmişdi.

*Car-Balakən camaatlığında hansı demokratik təsisatları sezmək olar? Fikrinizi əsaslandırın.*

*1. Birləşdirmə siyasəti yürüdən xanlıqların fəaliyyətinə 5-7 cümləlik esse ilə haqq qazandırın.*
*2. Mətndə verilmiş mənbələrdən istifadə edərək təqdimat hazırlayın.*
*3. Hacı Çələbinin birləşdirdiyi torpaqları, hücum etdiyi əraziləri xəritədə göstərin.*

LAYİHƏ




39

# QARABAĞ XANLIĞI

*Mən aşiqəm qara bağ,*
*Qara salxım, qara bağ,*
*Tehran cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ.*

***İbrahimxəlil xanın qızı Ağabəyim ağanın şeiri***

*Ziyadoğlular, Kəbirli eli, Pənahəli, İbrahimxəlil, Şahbulaq qalası, Şuşa*

**Qarabağ xanlığının yaradılması.** Qarabağ xanlığı Səfəvilər dövlətində mövcud olan Qarabağ bəylərbəyliyi ərazisində yaranmış iki xanlıqdan (Gəncə və Qarabağ) biri idi. Xanlığın əsasını Cavanşirlər nəslindən olan Pənahəli xan qoymuşdu. Xanlığın əhalisinin əksəriyyətini Cavanşir, Ziyadoğlular, İyirmidördlər, Otuzikilər, Kəbirli tayfaları təşkil edirdi. 1736-cı ildə Muğanda keçirilən tacqoyma mərasimi zamanı Nadir şah elan olunmasına etiraz etdiyinə görə Qarabağ bəylərbəyliyini cəzalandırdı. O, Qazax, Borçalı və Şəmsəddil ərazilərini Qarabağ bəylərbəyliyinin tabeliyindən çıxarıb Kartli çarının ixtiyarına verdi. Qarabağ elatlarının bir hissəsini Xorasan istiqamətinə sürgün etdi. Eləcə də Qarabağ bəylərbəyliyinə tabe olan beş Qarabağ məlikliyini tabeçilikdən çıxarıb sərbəstlik verdi.




**Qarabağ xanlığı**

*Nadir şahın Qarabağ bəylərbəyliyini cəzalandırmaq üçün gördüyü tədbirlər sonradan hansı mənfi fəsadlara yol açdı?*

1748-ci ildə Qarabağın bir hissəsində hakimiyyəti ələ alan Pənahəli xan xanlıq ərazisində hakimiyyətini möhkəmləndirməkdən ötrü Nadir şah tərəfindən sürgün edilmiş tayfaları geri qaytardı. Eləcə də düşmənlərindən və qonşu xanlıqların hücumlarından



LAYİHƏ

qorunmaq üçün Kəbirli mahalında Bayat qalasını tikdirdi. Bayat qalası xanlığın sərhədinə yaxın ərazidə yerləşdiyindən qonşu xanlıqların hücumu üçün açıq idi. Bu səbəbdən də Pənahəli xan xanlığın mərkəzini xanlığın içərilərində yeni tikdirdiyi qalalara – əvvəlcə Şahbulaq, daha sonra Şuşa qalasına köçürtdü. 1756–1757-ci illərdə tikilib başa çatdırılan Şuşa qalası əvvəllər onun banisinin adı ilə Pənahabad adlandırılmışdı.



***Şahbulaq qalası***

*Pənahəli xan xanlığı möhkəmləndirmək üçün hansı tədbirləri gördü?*

**Pənahəli xanın mərkəzləşdirmə siyasəti.** Pənahəli xan xanlığı daxilən möhkəmləndirməkdən ötrü Qarabağ ərazisindəki məlikləri mərkəzi hakimiyyətə tabe etmək qərarını verdi. Nadir şahın dövründən özlərini müstəqil aparan Qarabağın xristian məlikləri Pənahəli xana tabe olmaq istəmir, əksinə, separatçılıq siyasəti yürüdərək qonşu xanlıqları Qarabağa hücumlar təşkil etməyə səsləyirdilər. Pənahəli xan, ilk növbədə, məliklərin birliyini pozmaq üçün onlar arasında nifaq saldı. Tezliklə digər məliklər tərəfindən təklənən Vərəndə məliyi onun hakimiyyətini qəbul etdi. Pənahəli xanın məliklərə təzyiqini artırması Xaçın məliyinin ciddi müqavimətinə səbəb oldu. Ballıqaya yaxınlığında baş verən döyüşdə məğlub olan Xaçın məliyi Pənahəlinin hakimiyyətini tanıdı. Tezliklə Dizaq, Çiləbörd, Talış (Gülüstan) məlikləri də Pənahəli xana tabe olduqlarını bildirdilər. Lakin məliklər zahirən Qarabağ xanlığının ali hakimiyyətini tanısalar da, müxtəlif yollarla gürcü çarları və Rusiya hakimiyyət orqanları ilə gizlicə əlaqə saxlayır, Qarabağda bir xristian dövləti yaratmağa kömək etmələrini xahiş edirdilər.



***Pənahəli xan***

*1. Sizcə, xanlığı daxilən möhkəmləndirməkdən örtü Pənahəli xanın atdığı ən əhəmiyyətli addımı hansıdır?*
*2. Qarabağ xanlığının separatçı qüvvələri kimə və nəyə güvənirdilər?*

Pənahəli xan xanlığı daxilən möhkəmləndirdikdən sonra diqqətini qonşu xanlıqlara yönəltdi. Tezliklə Gəncə, İrəvan və Naxçıvan xanlıqlarının bəzi torpaqları Qarabağ xanlığına birləşdirildi, Pənahəli xanın Qarabağı belə böyük ərazisi olan güclü xanlığa çevirməsi İranda mərkəzi hakimiyyət uğrunda mübarizə aparan qüvvələrin diqqətini cəlb etdi.

Belə qüvvələrdən biri olan Məhəmmədhəsən xan Qacar 1757-ci ildə Qarabağa hücum etdi. Şuşanın bir aylıq mühasirəsi heç bir nəticə vermədi və Məhəmmədhəsən xan geri qayıtmağa məcbur oldu. Bir qədər sonra bir sıra Cənubi Azərbaycan xanlıqlarını öz ətrafında birləşdirmiş Fətəli xan Əfşar Pənahəli xanın yanına elçilər göndərərək tabe olmasını tələb etdi. Pənahəli xanın rədd cavabından sonra – 1759-cu ildə Fətəli xan Əfşar böyük bir ordu ilə Qarabağ üzərinə hücuma keçdi. Şuşa qalası altı ay müha-



LAYİHƏ



***Şuşa qalası***

sirədə qaldıqdan sonra Pənahəli xan oğlu İbrahimxəlili girov verməklə şəhəri azad etdi.



***İbrahimxəlil xan***

**İbrahimxəlil xan.** İbrahimxəlil xanın (1763–1806) dövründə xanlıq daha da gücləndi. İbrahimxəlil xan məlikliklərin xəyanətinə, qonşu xanlıqların hücumlarına son qoymaqdan ötrü Avar xanlığı, Gürcü çarlığı və Şəki xanlığı ilə qohumluq əlaqələri yaratdı. Öz qohumu Əsədulla bəy Təbrizini xan taxtına çıxartdı. Tezliklə Naxçıvan, Qaradağ və bəzi digər xanlıqlar Qarabağ xanından asılı vəziyyətə düşdülər. İbrahimxəlil xan 1780-ci ildə müttəfiqi Kartli-Kaxetiya çarlığı ilə birlikdə Gəncəyə hücum edib xanlığı bölüşdürdü. İbrahimxəlil xanın belə güclənməsi bütün Azərbaycanı birləşdirməyi qarşısında məqsəd qoyan qubalı Fətəli xanın planlarına uyğun deyildi. Bu da öz növbəsində iki Azərbaycan xanlığının toqquşmasına gətirib çıxardı. Bu qarşıdurmada üstünlük Quba xanlığının tərəfində olsa da, Kartli-Kaxetiya çarlığının yaxından köməkliyi Qarabağı Quba təhlükəsindən qurtarmış oldu.

M

*"Mən İbrahimxəlil xan Şuşalını itaətə yaxınlaşdırmaq haqqında... göstəriş verdim. Əlverişli halda Şuşalı İbrahimxəlil xanın ... xalqlarından ibarət vilayətini Milli idarəyə vermək və onun vasitəsilə Asiyada ... dövlətini bərpa etmək lazımdır. Bu Siz imperator həzrətlərinin mənim vasitəmlə xristian məliklərinə verdiyiniz vədlərə uyğundur".*

***Knyaz Q.Potyomkinin II Yekaterinaya məktubundan***

?

*Bu mənbə ilə Rusiyanın Qarabağ xanlığına münasibətini necə xarakterizə etmək olar? Fikrinizi əsaslandırın.*

LAYİHƏ

1. Kartli-Kaxetiya çarlığının Qarabağ xanlığına köməklik göstərməkdə marağı nə ola bilərdi?
2. Sizcə, Qarabağ xanlığı hansı xanın dövründə daha qüvvətli idi – Pənahəli xanın, yoxsa İbrahimxəlil xanın? Fikrinizi əsaslandırın.

*"Pənah xan ölüb Allah-taalanın rəhmətinə getdikdən sonra böyük və igid oğlu İbrahimxəlil xan 1173-cü ildə (1759-cu il) Qarabağ vilayətinə hakim oldu. Xalqın işini nizama salmağa başladı. İran, Rum (Türkiyə) padşahlarına və sair ölkələrin hökmranlarına boyun əyməyərək Qaradağ, Şəki, Şirvan, Gəncə, Təbriz, Naxçıvan, Ərdəbil, Xoy, Marağa, İrəvan və hətta İraqla Azərbaycan hüdudunda olan Qaplankuya qədər hökmran oldu. Bu vilayətlərin hakimlərini işdən götürmək və yenisini təyin etmək də onun hökm və fermanı ilə icra edilirdi. Bundan başqa, o, Dağıstan ölkəsinin Avar vilayəti hakimi Nüsal xan oğlu Ümmə xanla da qohum olmuşdu".*

***Mirzə Adigözəl bəyin "Qarabağnamə" əsərindən***

*"Beləliklə, İbrahim xan müstəqil xan olaraq Kərim xanın, Mehrəlinin, eləcə də Gəncəni ələ keçirdikdən sonra qəflətən vəfat etmiş Fətəli xanın ölümü nəticəsində yaranan fürsətdən istifadə etdi. Bu məqsədlə İbrahim xan əksərən ləzgilərdən ibarət çoxlu qoşun düzəldib Gəncə, Şamaxı, Nuxa xanlıqlarını və Rəşti özünə tabe etdi. İrəvan və Naxçıvan tərəfindən sərhədləri genişləndirdi. Təbrizi döyüşsüz tutdu və bacısı oğlu Əsədulla bəyi oraya hakim təyin etdi".*

***Əhməd bəy Cavanşirin***
***"Qarabağ xanlığının 1747–1805-ci illərdə siyasi vəziyyətinə dair" əsərindən***

Yuxarıda təqdim edilən mənbələrdəki məlumatı mövzuda verilən dəqiq faktlarla tutuşdurun və uyğunsuzluğun olub-olmamasını aşkar edin.

*"İrakli İbrahimxəlil xanla birləşərək Gəncəni ələ keçirmiş, orada hərəsi bir canişinlik yaratmış və vergilər yığırlar. Onlar Naxçıvanı, İrəvanı və Car-Balakəni də ələ keçirmək fikrindədirlər. Onlar Bakı xanını da dostluq pərdəsi altında Qarabağa apararaq əsir etmişlər. Mən son iki ildə dəfələrlə İrakliyə müraciət edərək onun azad olunmasını istəmişəm. O isə mənim xahişimi eşitmək istəməmişdir. Onlar bütün Azərbaycanı ələ keçirmək istəyirlər".*

***Qubalı Fətəli xanın II Yekaterina hökumətinə etdiyi müraciətindən***

Fətəli xanın məktubu əsasında İbrahimxəlil xanın xarici siyasətini səciyyələndirin.

1. Qarabağ xanlığına münasibətdə Mirzə Adıgözəl bəylə Əhməd bəy Cavanşirin mövqeyini müəyyənləşdirin.
2. İbrahimxəlil xan haqqında topladığınız materiallara əsasən referat hazırlayın.
3. Birləşdirmə siyasəti yürüdən xanlıqları (birləşdirdiyi əraziyə görə) diaqram vasitəsilə göstərin.

LAYİHƏ



40

## NAXÇIVAN VƏ İRƏVAN XANLIQLARI

*İndiki Ermənistan ərazisi e.ə. VIII–VII əsrlərdən başlayaraq, əsasən, türk mənşəli etnosların yaşadığı və idarə etdiyi ölkə olmuş və sonralar – XIX əsrin əvvəllərinə qədər burada türklər aparıcı rol oynamışlar.*

*Heydərqulu xan, Dərələyəz, Göyçə , Üçkilsə, Mir Mehdi xan*

**Naxçıvan xanlığı.** Səfəvilər dövləti vaxtında mövcud olan Çuxursəəd bəylərbəyliyi ərazisində Nadir şahın ölümündən sonra iki xanlıq – Naxçıvan və İrəvan xanlıqları yarandı. Nisbətən kiçik bir əraziyə malik olan Naxçıvan xanlığının əsasını Kəngərli tayfasının başçısı Heydərqulu xan qoymuşdu. Öz hakimiyyətini gücləndirmək və təcavüzlərdən qorunmaq üçün Heydərqulu xan (1747–1763) daha qüdrətli sayılan Qarabağ xanlığına arxalanmaq qərarına gəlmişdi.



***Naxçıvan xan sarayı***

Bu məqsədlə də o, Pənahəli xanla görüşmüş, hətta onun məsləhəti ilə Şəki xanına qarşı yaradılmış ittifaqa da qoşulmuşdur. Heydərqulu xanın ölümündən sonra onun varislərinin dövründə xanlıq nisbətən zəiflədi. Əvvəlcə Kərim xan Zəndin təsirinə düşdü, sonra isə Xoy, İrəvan, Qarabağ xanlıqları və Gürcü çarları Naxçıvanda özlərinə münasib adamı taxta çıxartmağa səy göstərdilər. Bu da öz növbəsində hakimiyyət uğrunda gedən mübarizənin daha da qızışmasına şərait yaratdı.

? *Heydərqulu xanın Qarabağ xanlığına arxalanmaq qərarını Naxçıvan xanlığının Qarabağ xanlığından asılılığı kimi qiymətləndirmək olarmı?*

M *"II İrakli ... İbrahim xanın Naxçıvanı tutduğu xəbərini eşidib knyaz İvan Baqrationu göndərmişdi ki, ... o nəyin bahasına olursa-olsun, İbrahim xanın Naxçıvanda möhkəmlənməsinə yol verməsin".*

***F.Əliyev, M.Əliyevin "Naxçıvan xanlığı" əsərindən***

? *II İraklinin İbrahim xanın Naxçıvanda möhkəmlənməsini istəməməsi nə ilə bağlı ola bilərdi?*

LAYİHƏ

**M** *"...Belə hesab edirəm ki, Azərbaycana sahib olmaq Rusiya üçün əlverişlidir. Sonra isə həmin torpaqların bir hissəsini mənə güzəştə gedərsiniz".*

***II İraklinin Rusiya hakimiyyət dairələrinə göndərdiyi məktubundan***

**?** *Azərbaycana sahib olmaqla Rusiya nə "qazana" bilərdi?*

**İrəvan xanlığı.** İrəvan xanlığının əsasını Mir Mehdi xan qoymuşdu. Əhalisinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edən xanlıq Ağrı vadisi, Dərələyəz və Göyçə gölü arasındakı torpaqlarda yerləşirdi. İrəvan şəhərinin əhalisinin yalnız cüzi hissəsini ermənilər təşkil edirdi.



*İrəvan qalası. 1796-cı il*

Xanlığın ərazisində erməni dini mərkəzi Üçkilsə[1] yerləşirdi. Kilsənin başçısı – katolikos İrəvan xanı tərəfindən təyin olunurdu. Xanlıq nisbətən zəif olduğundan qonşuların diqqətini cəlb edirdi. 1749-cu ildə İrəvan Qarabağ xanı Pənahəlinin, daha sonra isə Kaxetiya çarı II İraklinin hücumuna məruz qaldı və bir müddət gürcü çarlığından asılı vəziyyətə düşdü. İrəvan xanlığını zəbt etməyə çalışan Kartli və Kaxetiya çarları Üçkilsə monastırının katolikosu ilə əlaqə saxlayır, İrəvan xanlarına onun əli ilə zərbə endirməyə çalışırdılar.

**?** *Üçkilsə monastırı ilə Gürcü çarlarını birləşdirən nə ola bilərdi?*

1765-ci və 1769-cu illərdə Kartli-Kaxetiya çarının İrəvana hücumları nəticəsində xan onlara müəyyən qədər bac verməyə məcbur oldu. Lakin mərkəzi İranda hakimiyyəti ələ almış Kərim xan Zəndin tələbi ilə o vaxt İrəvanda xan olan Hüseynəli xan gürcü çarı II İrakliyə bac verməkdən imtina etdi. 1779-cu ildə Kərim xan Zəndin vəfatından sonra II İrakli İrəvan xanlığından bac tələb etdi. Azərbaycan xanlıqlarına güvənən Hüseynəli xan gürcü çarının tələbini rədd etdi. Buna görə II İrakli iyirmi minlik qoşunla qəflətən İrəvana hücum etdi, lakin güclü müqavimətə rast gəlib geri çəkilməli oldu. İrəvanı tuta bilməyib bir çox kəndi qarət edən gürcü çarı geri qayıdan zaman 2500-ə yaxın ailəni də Hüseynəli xanın vermədiyi bac əvəzinə özü ilə apardı. Osmanlı dövlətinə arxalanan Hüseynəli xan II İraklidən İrəvan xanlığından zorla Gürcüstana köçürdüyü ailələrin geri qaytarılmasını tələb etdi. Hüseynəli xanın belə



*İrəvan xanlığının bayrağı*

[1] 1441-ci ildə Cahanşah Qaraqoyunlu erməni katolikosluğunun mərkəzinin Kilikiyadan İrəvan yaxınlığındakı Üçmüəzzin (Üçkilsə) monastırına köçürülməsinə icazə vermişdi.



LAYİHƏ



***Sərdar sarayının daxili görünüşündən bir hissə***

müstəqil siyasət yürütməsi, hətta bir ara Naxçıvanı özündən asılı hala salmaq cəhdi II İraklini çox narahat edirdi. Tezliklə gürcü çarlarının təhriki ilə İrəvanda hakimiyyət uğrunda mübarizələr qızışdı və xanlıq xeyli zəiflədi.

?

*1. Hüseynəli xanın II İraklinin Gürcüstana apardığı 2500-ə yaxın ailəni qaytarmaq istəyi nə ilə bağlı idi?*
*2. Sizcə, II İrakli nə üçün Hüseynəli xanı tam özünə tabe edə bilmədi?*
*3. Naxçıvan və İrəvan xanlıqlarında gedən siyasi proseslərdə hansı oxşarlığı görmək olur?*

M

*"Bizə gəlib çatıbdır ki, Tiflis çarı Rusiya ilə birləşərək Azərbaycan xanlarının arasını vurmağa, onların arasında Rusiyaya təmayül yaratmağa çalışır... Siz bizimlə birləşməyə səy edin. Bizim məqsədimiz odur ki, çar İrakli sizə zərər verə bilməsin. Düşməni dəf etmək üçün birləşin, onu öldürün, dağıdın və güllələyin".*

***Osmanlı sultanının İrəvan xanına göndərdiyi məktubdan***

?

*Sizcə, çar İraklinin Azərbaycan xanlıqlarına zərər vermәsinin qarşısını almaq Osmanlı dövlətinin həqiqi məqsədi idi, yoxsa bunun arxasında başqa maraqlar gizlənirdi? Fikrinizi əsaslandırın.*

M

*"Yeni məlumatlar əldə etmək məqsədilə İrana göndərdiyim knyaz Çavçavadze bildirmişdir ki, Türkiyədən Azərbaycan xanlarına göndərilən fərmanda sultan onları həmişə müdafiə edəcək, İrəvan şəhəri Azərbaycana mənsub olduğu üçün onun heç zaman Gürcüstanın tabeliyində olması ilə razılaşmayacaq. Sultan Ərzurum paşası və digər sərhəddə yerləşən paşalara tapşırmışdır ki, nəyin bahasına olursa-olsun rus qoşunlarının qarşısına çıxsınlar. ...Umma xan, İbrahim Xəlil xan və digər Azərbaycan xanlıqları əbədi olaraq İrəvanı Kartli-Kaxetiya çarlığının təqibindən azad etmək üçün birləşmişlər".*

***1787-ci il iyul ayının 8-də polkovnik S.Burnaşovun P.S.Potyomkinə göndərdiyi məktubdan***

*Mövzuya dair verilmiş mənbələri uzlaşdırıb təhlil edin.*

?

*1. Mövzuya aid mənbələrin müəlliflərinin mövqeyini müəyyənləşdirin.*
*2. Xanlıqlar dövrünə dair əvvəlki mövzuları bir də nəzərdən keçirin və gürcü çarlarının Azərbaycan xanlıqlarına qarşı yürütdüyü siyasəti təhlil edin.*



LAYİHƏ



41

## CƏNUB XANLIQLARI

*"Necə ki biz izah edirdik, Türkmanlar (Azərbaycan türkləri – red.) ölkəsi nə İran dövlətinin əyaləti deyil, nə də onun şəhərlərindən biri deyil, buna görə biz onun haqqında əyalət kimi danışmırdıq. Lakin onlar başqa İran xanədanı xalqları arasında çox böyük əhəmiyyətə malikdirlər, çünki onlar ən igid xalqdırlar və yetərincə çoxsaylıdırlar".*

***Oruc bəy Bayat (XVI əsrin tarixçisi)***

*Əmiraslan xan, Fətəli xan Əfşar, Qacarlar, Qaraçəmən döyüşü, Şiraz qonaqlığı*

Nadir şahın ölümündən (1747) sonra İranda Nadirin varisləri arasında mərkəzi hakimiyyət uğrunda mübarizə qüvvətləndi.

1747–1751-ci illər arasında şah hakimiyyəti beş dəfə əldən ələ keçmişdi. Şah hakimiyyəti uğrunda belə gərgin mübarizənin qızışması və bu mübarizənin Azərbaycandan uzaqda Xorasanda getməsi Cənubi Azərbaycanda da bir sıra feodal hakimlərinin özlərini müstəqil aparmasına şərait yaradırdı.



***Azərbaycan xanlıqları***

**Təbriz xanlığı.** 1747-ci ildə Əmiraslan xan Təbrizdə özünü müstəqil hakim elan edərək Təbriz xanlığının əsasını qoydu. Əmiraslan xan tezliklə Ərdəbili, Qaradağı və bir sıra Cənubi Azərbaycan torpaqlarını özünə tabe etdi. Lakin bu uğur müvəqqəti oldu. Döyüşlərin birində Əmiraslan xan öldürüldü. Bundan sonra Cənubi Azərbaycanda Fətəli xan Əfşarın başçılığı ilə Urmiya xanlığı qüvvətlənməyə başladı.

**Urmiya xanlığı.** Fətəli xan Əfşar (1747–1763) fəaliyyətinin ilk günlərindən qonşuluğundakı pərakəndə xanlıqları birləşdirib vahid dövlət yaratmağa təşəbbüs etmişdir. Fətəli xan öz arzusunu həyata keçirmək üçün hərbi qüvvəsini artırmaq məqsədilə



LAYİHƏ

Nadir şahın sabiq sərkərdəsi Azad xanla ittifaq bağladı. Fətəli xan Əfşar həmçinin Xoy xanlığının hakimi Şahbaz xanı da öz tərəfinə çəkməyə nail oldu. Bundan sonra Fətəli xan Əfşar Azərbaycanın digər xanlıqlarını özünə tabe etmək məqsədilə geniş fəaliyyətə başladı və buna Cənubi Azərbaycan çərçivəsində qismən nail oldu. Az müddət ərzində Qaradağ, Marağa, Təbriz xanlıqları, habelə bir sıra xırda feodal malikanələri Urmiya xanlığına tabe edildi.



*Təbriz. XVIII əsr*

? *Fətəli xan Əfşarın Azad xanla ittifaq bağlamasının səbəbi nə idi?*

Bu dövrdə İranda mərkəzi hakimiyyət uğrunda mübarizə, əsasən, astrabadlı Məhəmmədhəsən xan Qacar və şirazlı Kərim xan Zənd arasında gedirdi. Bu mübarizənin gedişində Məhəmmədhəsən xan hətta bir ara Cənubi Azərbaycanın əksər ərazisini özünə tabe edərək 1757-ci ildə Qarabağ xanlığına hücum etdi. Məhəmmədhəsən xanın Şimali Azərbaycanda olmasından istifadə edən rəqibi Kərim xan Zənd Astrabada hücum etdi. Bu xəbəri alan Məhəmmədhəsən xan Şuşa qalasının mühasirəsindən əl çəkməyə məcbur oldu. Geri qayıdanda Urmiya xanlığını da özünə tabe edən Məhəmmədhəsən xan Şiraza, Kərim xan Zənd üzərinə hücum etdi. Lakin yolda sui-qəsd nəticəsində öldürüldü.

Bu hadisədən sonra yenidən fəallaşan Fətəli xan Əfşar qısa müddətdə Cənubi Azərbaycanda itirilmiş mövqeyini bərpa edib 1759-cu ildə Qarabağ xanlığına hücum etdi. Tezliklə Şuşanı mühasirəyə alan Əfşar qoşunlarına məliklər də öz dəstələri ilə qoşuldular. Müqavimət göstərməyi lüzumsuz hesab edən Pənahəli xan oğlu İbrahim ağanı Fətəli xan Əfşara girov verməklə Şuşa qalasını mühasirədən azad etdi.

? *Pənahəli xanın oğlu İbrahim ağanı Fətəli xan Əfşara girov verməsini Qarabağ xanlığının asılılığı kimi dəyərləndirmək olarmı?*

M *"Azərbaycanda Təbriz, Xoy və Urmiya xanlıqları arasında müharibələr davam etməkdədir. ...Azərbaycan hakimləri bir-birinə ziyan verməkdən çəkinmirdilər. Zərrə qədər xeyir üçün aralarındakı müqavilələri pozur, bir-biri ilə birləşərək üçüncünü qarət edirdilər".*

***Fuad Əliyev, Urfan Həsənov, "İrəvan xanlığı"***

M *"Xanlıqların vəziyyəti, sərhədləri, aralarındakı münasibətlər, ittifaq və müharibələr, qonşularına nisbətən yerləşməsi sabit deyil. Sərhədlər fasiləsiz müharibələr nəticəsində daim dəyişirdi".*

***E.Qarayev, Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində***

? *Verilən bu iki mənbə arasında hansı oxşarlığı görmək olur?*

LAYİHƏ

**Fətəli xan Əfşar və Kərim xan Zənd rəqabəti.**

Fətəli xanın belə uğurlar qazanması ilə barışmaq istəməyən Kərim xan Zənd 1760-cı ilin payızında Cənubi Azərbaycana hucum edərək Təbrizi mühasirəyə aldı. Lakin tezliklə Fətəli xan Əfşarın təzyiqi ilə geriyə – Şiraza doğru çəkilməli oldu. Məğlubiyyətinə baxmayaraq Kərim xan daha böyük qüvvə yığaraq yenidən Cənubi Azərbaycana hücum etdi. Kərim xan 1761-ci ilin yayında Azərbaycana hücum etdiyi zaman Fətəli xan onu Ucan düzündə, Qaraçəmən kəndi yaxınlığında qarşıladı. Baş verən döyüşdə üstünlük əvvəlcə Fətəli xanın tərəfində olsa da, müttəfiqi xoylu Şahbaz xanın xəyanət edərək düşmən tərəfə keçməsi onu çətin vəziyyətə saldı. Buna görə Fətəli xan Urmiya qalasına çəkilməli oldu.



*Fətəli xan Əfşar*

1762-ci ilin may ayında Marağa şəhərini tutan Kərim xan burada düşərgə salıb Urmiya qalasına həmlə üçün hazırlığa başladı. Kərim xan vaxtilə Fətəli xanla toqquşmuş müxtəlif Azərbaycan xanlıqlarına məktub göndərərək onları Fətəli xanla mübarizə üçün birləşməyə çağırdı. Kərim xanın çağırışını qəbul edən Pənahəli xan kiçik oğlu Mehrəli bəyi Qarabağa müvəqqəti hakim qoydu, bir sıra başqa Azərbaycan xanları kimi Kərim xanın Urmiya yanındakı düşərgəsinə gəldi. Xanların da qüvvələrini özünə birləşdirən Kərim xan Urmiya qalasını dövrəyə aldı. Doqquz aylıq mühasirədən sonra Urmiya qalası təslim oldu. Kərim xan Fətəli xanı ailəsi ilə birlikdə götürərək Şiraza yola düşdü. O eyni zamanda köməyinə gəlmiş Azərbaycan xanlarını: Pənahəli xanı, qaradağlı Kazım xanı, xoylu Şahbaz xanı, naxçıvanlı Hacı xan Kəngərlini, sərablı Əli xan Şəqqaqini və başqalarını da Fətəli xan üzərində qələbə münasibətilə Şirazda keçiriləcək şənliklərdə iştirak etmək üçün özü ilə apardı. Kərim xan, əslində, onları orada girov kimi saxladı. Fətəli xan Əfşar üzərində çaldığı qələbə sayəsində Kərim xan Zənd öz hakimiyyətini Cənubi Azərbaycanda yaymağa müvəffəq oldu.



*Kərim xan Zənd*

?

*1. Kərim xan Zəndin Fətəli xan Əfşarı məğlub edə bilməsinin səbəbi nə ola bilərdi?*
*2. Bir sıra Azərbaycan xanlarını Şiraza aparıb orada girov kimi saxlaması Kərim xan Zəndə nə verə bilərdi?*

*Urmiya xanlığından asılı olan xanlıqları sadalayın.*

LAYİHƏ

**Xoy xanlığı.** Xoy xanlığı da Nadir şahın imperiyasının dağılması nəticəsində yaranan xanlıqlardan biri idi. Xanlığın ilk hakimi Şahbaz xan olmuşdur. O, Nadir şah dövründə Xoy vilayətinin hakimi təyin edilmişdi. Nadir şahın ölümündən sonra isə özünü Xoy xanlığının müstəqil hakimi elan etmişdi. Mülayim siyasət yeridən Şahbaz xan Fətəli xan Əfşarla dostluq münasibətləri saxlayır, hətta bəzi yürüşlərdə ona köməklik göstərirdi. Lakin Kərim xan Zəndin 1762-ci il hücumu zamanı Şahbaz xan Kərim xanın vədlərinə aldanaraq Fətəli xana qarşı çıxmış, nəticədə girov kimi Şiraza aparılmışdır. Kərim xan Zənd bir neçə Azərbaycan xanlarını qeyd edilən şəhərdə saxlamaqla öz hakimiyyətini Cənubi Azərbaycanda yaymağa müvəffəq olsa da, tezliklə burada Əhməd xanın (1763–1786) başçılığı ilə Xoy xanlığı qüvvətlənməyə başladı. Əhməd xan Azərbaycanın bir neçə xanı, həmçinin Kartli-Kaxetiya çarları ilə diplomatik münasibətlər saxlamış, bir müddət İrəvan, Naxçıvan, Təbriz və Qaradağ xanlıqlarını da özündən asılı vəziyyətə salmışdı. 1786-cı ildə Əhməd xanın yaxın qohumları onu qətlə yetirdilər. Bununla da, hakimiyyət uğrunda başlanan mübarizə xanlığı zəiflətdi.



*Əhməd xan*

M

*"Urmiya xanının şəxsində Cənubi Azərbaycan hüdudlarında özünə rəqib görən Əhməd xan Xoylu ona sarsıdıcı zərbə endirmək qərarına gəldi. Bu məqsədlə də Urmiya xanlığına birgə hücum haqqında Təbriz xanlığı ilə müqavilə bağladı. Bundan xəbər tutan İmamqulu xan bu yürüşü qabaqlamaq qərarına gəldi və 1783-cü ilin payızında Təbrizə hücum etdi. Döyüş Urmiya qoşunlarının məğlubiyyəti ilə nəticələndi və İmamqulu xan həlak oldu".*

***N.Mustafayevanın "Cənubi Azərbaycan xanlıqları" əsərindən***

?

*Mənbəyə əsaslanaraq Xoy xanlığının güclü olduğunu demək olarmı? Fikrinizi əsaslandırın.*

M

*"İrandakı başsızlıq ucbatından Tiflis valisi [II İrakli] rusları Azərbaycanı və bizim torpaqları qarət etməyə yardım göstərmək üçün dəvət etmişdir. Lakin o unutmuşdur ki, bizim hakimi olmayan dövləti qorumağa ixtiyarımız var. Biz heç zaman İranın tar-mar olunması ilə razılaşa bilmərik. Odur ki Bağdad, Van və Muşun rəislərinə əmr etmişik ki, sizə qoşun gərək olsa, göndərsinlər, əgər Tiflis valisi sərhədi keçmək fikrinə düşsə, o zaman Ərzurum paşası Mustafa kömək edəcəkdir".*

***1787-ci ilin iyununda Sultandan Xoy xanlığının yeni hakimi Hüseynqulu xana göndərilən fərmandan***

?

*Sizcə, Osmanlı sultanının Xoy xanlığına kömək etməkdə məqsədi nə idi?*

?

*1. Xanlıqlar dövrünə dair xronoloji cədvəl hazırlayın.*
*2. XVIII əsrdə Azərbaycanda gedən ara müharibələrinə münasibətdə yazılı mənbə müəlliflərinin mövqeyini müəyyənləşdirin.*
*3. XVIII əsrin ikinci yarısındakı Azərbaycan ərazisini və onun qonşuluğunda olan dövlətləri kontur xəritədə göstərin.*
*4. Xanlıqlar dövrü mənbələrinə əsaslanaraq qonşu dövlətlərin Azərbaycan xanlıqlarına münasibətini şərh edin.*

LAYİHƏ



42

## AĞAMƏHƏMMƏD ŞAH QACARIN MƏRKƏZLƏŞDİRMƏ SİYASƏTİ

*XVIII əsrdə Azərbaycanda tarixin gedişatında mühüm rol oynayan görkəmli şəxsiyyətlər yetişmişdir. Nadir xan hərb sənətinin yenilməz bir sərkərdəsi olaraq sarsılmış Səfəvi dövlətini dağılmaqdan xilas edə bilmişdi, Ağaməhəmməd xan isə sərkərdəlik istedadı ilə yanaşı, dərin ağla, strateji düşüncəyə malik dövlət xadimi olduğunu nümayiş etdirib parçalanmış imperiyanı birləşdirərək İranda yeni Azərbaycan sülaləsinin hakimiyyətini yaratmışdı.*

*Qacarlar, Ziyadoğlular, Məhəmmədhəsən xan Qacar, Kərim xan Zənd, Ağaməhəmməd xan Qacar, II Yekaterina*

**Qacar tayfaları.** Oğuz tayfalarından olan Qacarlar Bayat boyunun bir qolu olmuşlar. Monqol yürüşləri dövründə digər oğuz tayfaları kimi, Azərbaycanda yaşayan Qacar tayfalarının da bir hissəsi qərbə doğru çəkilərək Şərqi Anadoluda və Suriyada məskən salmışdılar.

?

*Hansı qədim Azərbaycan şəhərinin qapılarından biri "Bayat qapısı" adlandırılmışdır? Bayat tayfasının ən məşhur nümayəndəsi kim olmuşdur?*

XIV əsrdə Şərqi Anadoluda formalaşan Ağqoyunlu tayfa birliyinə Qacar tayfası da daxil idi. Ağqoyunlu Uzun Həsənin hakimiyyəti dövründə Diyarbəkirdə yaşayan Qacar tayfaları yenidən Azərbaycana qayıdaraq Gəncə, Bərdə və İrəvan ətrafında məskunlaşdılar. Hələ Diyarbəkirdə olduqları vaxtlarda Ərdəbil şeyxlərinin apardığı təbliğat nəticəsində digər oğuz tayfaları ilə birlikdə Qacar tayfası da şiə məzhəbini qəbul etmişdi. Səfəvi sülaləsinin hakimiyyətə gəlməsində mühüm rol oynayan yeddi qızılbaş tayfasından biri də Qacarlar olmuşdur. I İsmayılın müridləri arasında "Tozqoparan" ləqəbli Qara Piri bəy Qacar bir sıra döyüşlərdə igidliyi ilə fərqlənmişdi.

M

*"Qara Piri bəy Qacar İsmayılın Ağqoyunlu Əlvəndə qarşı göndərdiyi qoşuna başçı təyin edilmişdi".* ***Zeynalabdin Əlinin "Təkmiətul əxbar" əsərindən***

Azərbaycan Səfəvi dövlətinin möhkəmlənməsində Qacar əmirlərinin böyük xidmətləri olmuşdur. Səfəvi şahlarının hakimiyyəti dövründə Qacar tayfasının bir qolu olan Ziyadoğlu nəsli mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyinin irsi hakimləri sayılırdı.

?

*Qızılbaş tayfalarından daha hansılarını tanıyırsınız? Bu tayfaların belə adlandırılmasının səbəbi nə idi?*

Şah I Abbas Ziyadoğlu nəslindən olan Hüseyn xan Qacarı Astarabad vilayətinin hakimi təyin etmişdi. Bundan sonra Azərbaycanda yaşayan qacarların böyük bir hissəsi Astarabada köçmüşdülər. Burada qacarlar iki yerə – Qovanlı və Dəvəli qacarlarına bölündülər. 1742-ci ildə dünyaya gələn Ağaməhəmməd xanın atası Məhəmmədhəsən xan Qovanlı, anası Ceyran xanım isə Dəvəli qoluna mənsub idi. Ağaməhəmməd xan ilk təhsilini anasından almışdı.



LAYİHƏ




***Qacarlar dövləti***

**Girovluqdan şahlığa.** Nadir şahın öldürülməsi imperiyanın dağılmasına gətirib çıxardı. Hakimiyyət uğrunda başlanan mübarizədə Məhəmmədhəsən xan Qacar da əsas simalardan biri idi. Məhəmmədhəsən xanın apardığı döyüşlərdə onunla çiyin-çiyinə böyük oğlu Ağaməhəmməd xan da iştirak edirdi. Astarabadda möhkəmlənən Məhəmməd Həsən xan Gilan, Qəzvin, İsfahanı və Cənubi Azərbaycanın bir hissəsini öz hakimiyyəti altına alsa da, 1759-cu ildə Zəndlərlə döyüşdə həlak oldu. Ağaməhəmməd xan türkman və qacarlardan topladığı qoşunla mübarizəni davam etdirdi. Döyüşlərin birində Ağaməhəmməd xan Kərim xan Zəndə əsir düşdü. Qacar tayfaları ilə münasibəti yaxşılaşdırmaq istəyən Kərim xan onu öldürməyib yanında girov saxladı. Şirazda qaldığı 16 ildə Ağaməhəmməd xan təhsilini mədrəsədə davam etdirib o dövrün məşhur alimlərindən elm, fəlsəfə və din tarixindən dərs aldı. Onun savad və məntiqi düşüncəsini görən Kərim xan Ağaməhəmməd xanı öz müşaviri təyin edərək mühüm dövlət işlərində onunla məsləhətləşirdi.



***Ağaməhəmməd şah Qacar***

1779-cu ildə Kərim xanın vəfatından sonra Ağaməhəmməd xan Şirazı tərk edib özünü Astarabada çatdırdı. Burada bir-biri ilə düşmənçilik edən Qovanlı və Dəvəliləri barışdırıb öz ətrafında cəmləşdirərək ölkəni yenidən vahid dövlət daxilində birləşdirmək üçün mübarizəyə başladı. Əsas rəqibi zəndlərlə aparılan döyüşlərdə Ağaməhəmməd xan qalib gələrək Gilanı, Mazandaranı, Xorasanın böyük bir hissəsini öz hakimiyyəti altına aldı.

*Qacarın elmi biliklərinin onun hərbi uğurlarındakı rolu barədə fikir yürüdün.*

LAYİHƏ

1786-cı ildə zəndlərin qoşunlarını məğlub edən Qacar İsfahan və Tehranı tutdu. Tehranı dövlətinin paytaxtı elan edən Ağaməhəmməd xan şah titulu götürərək öz adına Aslan və Günəş (Şir-u-Xurşid) təsvirli qızıl pul kəsdirdi. Amma tacqoyma mərasimini imperiyanın tam bərpa olunmasınadək təxirə saldı.

Cənubi Azərbaycanın birləşdirilməsinə başlayan Qacar Sərab, Qaradağ, Xoy, Urmiya xanlıqlarını özünə tabe etdi. 1790-cı ildə Təbriz Qacar vəliəhdlərinin oturduğu "dar-üssəltənə" oldu. Bundan sonra keçmiş Səfəvi imperiyasını tamamilə bərpa etmək üçün Qacarın qarşısında Cənubi Qafqazda yerləşən Şimali Azərbaycanın və Şərqi Gürcüstanın birləşdirilməsi vəzifəsi dayanırdı.

?

*XVIII əsrdə Azərbaycan torpaqlarının birləşdirilməsində müəyyən uğurlar qazanmış hansı xanları tanıyırsınız?*

**Cənubi Qafqaz uğrunda mübarizə.** Qacar Cənubi Qafqaza yürüşü bir qədər ləngitməli oldu. Bunun əsas səbəbi Rusiyanın Cənubi Qafqazı ələ keçirmək üçün fəaliyyətini artırması idi. 1783-cü ildə Kartli çarlığını öz himayəsinə götürən Rusiya Şimali Azərbaycan xanlarına da təzyiqlərini gücləndirmişdi. Cənubi Qafqaza daxil olacağı təqdirdə Rusiya ilə toqquşmanın qaçılmazlığını bilən Qacarın müttəfiqə ehtiyacı var idi. Bu məqsədlə o öz elçilərini Osmanlı sarayına göndərib danışıqlar aparmışdı. Rusiyanın Cənubi Qafqaz və Mərkəzi Asiya istiqamətində irəliləməsindən narahat olan İngiltərə və Fransa dövlətləri də Qacar dövləti ilə yaxınlaşmağa çalışırdı. 1795-ci ildə Qacar altmış minlik ordu ilə Cənubi Qafqaz üzərinə yürüşə başladı. Onun bu yürüşdə əsas hədəfi Qarabağ xanlığını tabe edib itaətdən boyun qaçıran, Rusiya ilə yaxınlaşan gürcü çarlığını cəzalandırmaq idi. Amma Qacar ordusu Qarabağ xanlığının mərkəzi sayılan Şuşanı bir ay mühasirədə saxlasa da, ala bilmədi. Buna görə də mühasirəni dayandırıb Tiflis üzərinə yürüş etdi. Bu yürüşdə Qacarlarla eyni kökdən olan Cavad xanın başçılığı ilə Gəncə Ziyadoğluları da iştirak edirdilər. Gürcü qoşunlarını darmadağın edən Qacar ordusu Tiflisi tutdu. Şahın icazəsi ilə şəhər qarət edilib dağıdıldı. Tiflisin tutulmasından sonra İrəvan, Dərbənd, Bakı xanları Ağaməhəmməd xanın hakimiyyətini tanıdıqlarını bəyan etdilər. Gürcüstanı tamamilə özündən asılı vəziyyətə salan Qacar qoşunlarını Muğanda cəmləşdirib burada qışlamağa qərar verdi. Şah hələ də ona tabe olmayan Şəki, Şamaxı və Qarabağ xanlıqlarına qarşı hərbi əməliyyatları növbəti ilin yazına saxladı. Lakin Nadir şahın nəvəsinin Xorasanda qiyam qaldırması xəbərini aldığı üçün Qacar təcili İrana qayıtmalı oldu. Dövlətin vahidliyini təmin etməyənə qədər rəsmi tacqoymanı gecikdirən Ağaməhəmməd xan saray əyanlarının və yaxınlarının təkidi ilə bu mərasimi 1796-cı il 21 martda – Novruz bayramı günündə keçirdi. Bundan sonra böyük qoşunla yürüş edərək Xorasanı bütünlüklə Qacarlar dövlətinə birləşdirdi. Qacarın Rusiyanın himayəsində olan Gürcüstanı tutması II Yekaterinanın əvvəlcədən planlaşdırdığı kimi Cənubi Qafqazın işğalına başlaması üçün bəhanə oldu.



*Cavad xan Ziyadoğlu*

1796-cı ildə Rusiya Qacar dövlətinə rəsmən müharibə elan edib general Zubovun başçılığı altında Cənubi Qafqaza ordu yeritdi. Rus ordusu Dərbəndi, Qubanı və Bakını tutub oktyabrda Gəncə xanlığını da tabe edərək Qacar dövlətinə qarşı müharibəyə hazırlaşmağa başladı.



LAYİHƏ

*Rusiyanın XVIII əsrdə işğal etdiyi əraziləri xəritədə göstərin.*



***Qacarların gerbi***

Xorasanda olduğu zaman bu hadisələrdən xəbər alan Qacar Tehrana qayıdıb Rusiya ilə uzun sürəcək müharibə hazırlığına başladı. Bu zaman Rusiyada hakimiyyət dəyişikliyi baş verdi. II Yekaterinanın yerini tutan yeni rus çarı Cənubi Qafqazdakı ordularını geri çağırdı. Qacar isə nəzərdə tutduğu yürüşü 1797-ci ildə həyata keçirdi. Bu dəfə əsas hücum hədəfi Qarabağ xanlığı idi. Şuşanı mühasirəyə alan Qacar ordusu şəhəri top atəşinə tutdu. İbrahimxəlil xan hücum edib topları sıradan çıxarsa da, şəhərə qayıda bilməyib Dağıstana getdi. Şuşalılar bundan sonra şahla danışıq aparıb bac vermək şərtilə müqaviməti dayandırdılar. Ağaməhəmməd şah şəhərin qarət olunmasına, əhalinin incidilməsinə yol verməmək üçün qoşuna şəhərdən kənarda dayanmaq əmri verdi. Bundan sonra Şamaxıya hücum etdi. Şah burada da alicənablıq göstərib şəhər əhalisinin qarət olunmasına imkan vermədi. Hətta qoşuna çatacaq qənimətin pulunu öz xəzinəsindən ödədi. Yenidən Şuşaya qayıdan Qacar Şimali Azərbaycanın bütün xanlarının hüzuruna gəlmələri barədə əmr verdi. Şuşaya gələn bakılı Hüseynqulu xanı, gəncəli Cavad xanı rus ordusuna müqavimət göstərmədiklərinə görə həbs etdirdi. Tutulanlar arasında İbrahimxəlil xanın baş vəziri Molla Pənah Vaqif və xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşir də (Batmanqılınc) var idi. 1797-ci ilin 17 iyununda Ağaməhəmməd şah saray xadimlərinin sui-qəsdi nəticəsində öldürüldü. Görkəmli dövlət xadimi Ağaməhəmməd şah qarşısına qoyduğu bütün məqsədlərə nail olmasa da, mərkəzləşmiş dövlət yarada bilmişdi.

*Sizcə, Qacarın ölümündə hansı qüvvələr maraqlı idi? Fikrinizi əsaslandırmağa çalışın.*

Ağaməhəmməd şahın yenidən bərpa edib gücləndirdiyi hökmranlıq taxtına vəliəhd təyin etdiyi qardaşı oğlu Baba xan gəldi. O özünü Fətəli şah elan edərək (1797–1834) hökmdarlığa başladı. Qacarlar dövləti İranda və Cənubi Azərbaycanda 1925-ci ilə kimi mövcud oldu. Amma Qacarlar sülaləsinin sonrakı hökmdarlarından heç biri Ağaməhəmməd şahın səviyyəsinə qalxa bilmədi.



***Qacarların paytaxtı Tehran şəhəri***

*1. Nadir şahın ölümündən sonra hakimiyyət uğrunda mübarizənin kəskin xarakter alması nə ilə bağlı idi?*
*2. Ağaməhəmməd xan Qacar nə üçün Şərqi Gürcüstanı tutmağa çalışırdı?*
*3. Nadir şahla Ağaməhəmməd xan şahın fəaliyyətini müqayisə edin.*

LAYİHƏ



# 43

## XANLIQLAR DÖVRÜNDƏ SOSİAL-İQTİSADİ HƏYAT

*XVIII yüzilliyin ikinci yarısında Azərbaycan feodal pərakəndəliyinin hökmranlıq etdiyi bir ölkə idi. Pərakəndəliyin səciyyəvi xüsusiyyəti ayrı-ayrı feodalların, o cümlədən xanların öz müstəqilliklərinin qoruyub saxlamağa çalışdıqları üçün mərkəzləşdirmə siyasətinə qarşı maneçilik yaratmaları idi. Bu da, öz növbəsində, Azərbaycanda iqtisadi inkişafı ləngidirdi.*

*çəltik, rəiyyət, rəncbər, darğalıq, çöpbaşı, maaf*

**Kənd həyatı.** Bəhs olunan dövrdə Azərbaycanın bütün xanlıqlarının iqtisadiyyatı üçün natural təsərrüfatın mövcudluğu səciyyəvi hal idi. Burada əsas rolu feodal istehsal münasibətləri oynayırdı. Bu dövrdə, əvvəllər də olduğu kimi, yenə əhalinin başlıca məşğuliyyəti əkinçilik və maldarlıq idi. Əsas şum və biçin torpaqları, yaylaqlar, qışlaqlar, suvarma qovşaqları feodalların şəxsi mülkiyyəti idi.

?

*Feodal pərakəndəliyi və natural təsərrüfatının hökmranlığı iqtisadi inkişafa necə təsir göstərə bilərdi?*

Əlverişli iqlim xüsusiyyətləri və torpaqların münbitliyi Azərbaycanda müxtəlif bitkilər, o cümlədən kətan, küncüd, buğda, arpa, çəltik və s. yetişdirmək üçün əlverişli şərait yaradırdı. Xanlıqların təsərrüfat həyatı bir-birinə oxşar olsa da, təbii-coğrafi şərait və tarixi ənənələrə bağlılıq əhalinin məşğuliyyətində müəyyən fərqliliklərin olmasını labüd edirdi. Əhalinin ərzaq tələbatını ödəmək üçün, demək olar ki, xanlıqların hamısında taxıl əkilirdi. Pambıqçılıq daha çox Şirvan, Gəncə, Qarabağ, Naxçıvan və Cənubi Azərbaycanın əksər xanlıqlarında yayılmışdı. Əgər əvvəlki dövrlərdə pambıq ancaq toxuculuqda daxili ehtiyaclar üçün becərilirdisə, XVIII əsrdən başlayaraq ölkəyə əcnəbi tacirlərin marağının çoxalması ona xammal kimi tələbatı artırmışdı. Feodal çəkişmələri bu məhsuldar sahə ilə məşğul olmağa imkan vermirdi. Pambıqçılıqda becərmə texnikası aşağı səviyyədə idi. Onun təmizlənməsi və çiyiddən çıxarılması ibtidai üsulla aparılırdı.



***Gəncə XVIII əsrdə***

?

*XVIII əsrdə İngiltərə ilə Azərbaycanın toxuculuq sahələrində hansı fərqlər var idi?*



LAYİHƏ

**M** *“Aramsız müharibələr və əhalinin narahatlığı əkinçiliyə mənfi təsir göstərsə də, kəndlilər torpaqları becərməyə məcbur olurdular”.*

***Səyyah Marşal fon Biberşteynin məlumatlarından***

**?** *Kəndlilər nə üçün hətta müharibələr zamanı torpaqları becərməyə məcbur olurdular?*

Ölkə iqtisadiyyatında mühüm yer tutan ipəkçilik Şamaxı, Şəki, Qarabağ, Lənkəran, Naxçıvan və digər xanlıqlarda inkişaf etmişdi. Kənd təsərrüfatında arıçılılq, üzümçülük, bostançılıq, xüsusilə bağçılıq müəyyən rol oynayırdı. Bunlar, əsasən, Qarabağ, Təbriz, Marağa, Gəncə, Şəki, Quba, Urmiya, Naxçıvan və s. xanlıqlarda yayılmışdı. Abşeron özünün ətirli zəfəranı ilə məşhur idi. Burada bostançılıq da inkişaf etmişdi. Lənkəran xanlığında çəltik və şəkər çuğunduru yetişdirilirdi. Xəzər dənizi və Kür çayı sahillərində yaşayan əhali balıqçılıqla məşğul olurdu.

Kənd təsərrüfatının mühüm sahələrindən biri də maldarlıq idi. Maldarlıqla, əsasən, yarımköçəri həyat sürən tayfalar məşğul olurdular. Qışlaqlarda və yaylaqlarda xırda və iribuynuzlu mal-qara bəslənilirdi. Qarabağ xanlığında atçılığın inkişafına xüsusi əhəmiyyət verilirdi.

**?**
1. *Sizcə, Lənkəran xanlığında çəltikçiliyin, Abşeronda zəfərançılığın inkişafı hansı amillərlə bağlı idi?*
2. *Sizcə, nə üçün xanlıqlar dövründə də təsərrüfatın aparıcı sahələri heyvandarlıq və əkinçilik idi?*

**Şəhər həyatı və sosial zümrələr.** XVIII əsrin ikinci yarısında Azərbaycanın hər xanlığında əsas etibarilə bir mərkəzi şəhər mövcud idi. Təbriz, Şamaxı, Ərdəbil, Dərbənd, Urmiya, Xoy, Gəncə kimi qədim şəhərlər əvvəlki kimi yenə də mühüm ticarət və sənətkarlıq mərkəzləri idilər. Bununla yanaşı, Şuşa, Yeni Şamaxı kimi şəhərlər də meydana gəlirdi. Şəhərlərdə toxuculuq, xalçaçılıq, misgərlik, silahişləmə, dabbaqlıq, xarratlıq, dulusçuluq və s. kimi sənət sahələri inkişaf etmişdi. Ölkənin iqtisadi və siyasi pərakəndəliyi, tez-tez baş verən ara müharibələri onlarca şəhərin xarabalığa çevrilməsinə, yüzlərlə sənətkarın, şəhər əhalisinin yurd-yuvasını tərk etməsinə səbəb olmuşdu.



*Təbrizdə istehsal olunmuş qalxan*




LAYİHƏ

**M** *"Şəhər bazarı genişdir və burada Asiya məhsullarından başqa xeyli Avropa məsulları da vardı; ipək, kağız, yun materiallar çoxdur; ingilis və holland mahudu, əla şallar və xalçalar, şüşə və çini qablar, bəzi polad əşyalar, onların zövqüncə xırdavat mallar, müxtəlif daş-qaş, ...; fars qəndi, qəhvə, ətirli ədviyyat, göy-göyərti, saç qaraltmaq üçün rəng, ... və s."*

***Təbriz bazarı haqqında XIX əsr aid mənbə***

*Azərbaycanın ənənəvi istehsal sahələrini yada salın və Təbriz bazarında olan bu malları Azərbaycan və xaricdən gətirilən mallar kimi qruplaşdırın.*

**Vergi və mükəlləfiyyətlər:** Azərbaycan xanlıqlarında əsas vergi *malcəhət* idi. Müxtəlif xanlıqlarda onun həcmi məhsulun 1/10-i ilə 1/3-i arasında dəyişirdi. Feodallar otlaqlardan istifadə müqabilində rəiyyətdən *çöpbaşı* adlı əlavə vergi alırdılar. Bağlardan toplanan *bağbaşı* adlı vergi məhsulun 1/10-ni təşkil edirdi. Bayram günlərində rəiyyət "hədiyyə" olaraq feodala *bayramlıq* gətirməli idi. Kəndli xanın atları üçün arpa vermək məcburiyyətində qalırdı. Bu vergi *at arpası* adlanırdı. Rəiyyət tez-tez xanın muzdlu əsgərlərini də öz hesabına saxlamalı olurdu. Bu mükəlləfiyyət *dişkirəsi* adlanırdı. Rəiyyətdən həmçinin xan dəftərxanasının və inzibati idarəetmənin digər qurumlarının xərclərini ödəmək üçün *mirzəyanə*, *kələntərlik* və digər vergilər də toplanılırdı. Vergiyığanlar xanın əmrinə əsasən öz xeyirlərinə *dargalıq* adlı vergi də toplayırdılar. Beləliklə də, kəndlilərin gəlirinin çox hissəsi müxtəlif vergi və mükəlləfiyyətlərin ödənilməsinə sərf olunurdu.



***Gəncə pulları. XVIII əsr***

**?** *Sizcə, nəyə görə kəndlilər vergini pulla deyil, əsasən, məhsulla ödəyirdilər?*

**M** *"Xanlıq dövründə bir rəncbər məşhur şəxsə nəslən verilir, digər rəncbərlər isə bu şəxsin ömrünün sonunadək verilir, üçüncülər isə hər hansı bir vəzifəliyə məxsus olurdular. Vəzifədəki şəxs dəyişdikdə rəncbərlər ona xidmət edirdilər".*

***N.Mustafayevanın "Cənubi Azərbaycan xanlıqları" əsərindən***

**?** *Yadınıza salın, rəncbərlər kimlər idi? Onları qulla müqayisə etmək olarmı? Fikrinizi əsaslandırın.*

Kəndli feodalın xeyrinə olaraq bir sıra mükəlləfiyyətlər – biyar və əvrəz yerinə yetirməli idi. Biyar ildə 3 gündən 6 günədək, əvrəz isə 2 gün olurdu. Əvrəz zamanı kəndin bütün əhalisi ya qala divarı hörməli, körpü çəkməli, ya da feodalın təsərrüfat və ev işlərində birlikdə çalışmalı idi. Bu isə kəndlilərin öz təsərrüfatları ilə məşğul olmağa olmasına maneçilik törədirdi.



***Xarrat dəzgahı. XVIII əsr***

LAYİHƏ

**Xanlıqların idarə edilməsi.** Hər bir xanlığın başında qeyri-məhdud səlahiyyətlərə malik olan xan dururdu. İstər qanunverici, istər məhkəmə, istərsə də icraedici hakimiyyət xanın əlində cəmləşmişdi. Xanlığın idarə edilməsində xanın ən yaxın köməkçisi *vəzir* sayılırdı. Xanlıqlar inzibati cəhətdən mahallara, mahallar da kəndlərə bölünürdü. Mahalları *naiblər*, kəndləri isə *kəndxudalar* və ya *yüzbaşılar* idarə edirdi. Şəhər məmurları – canişinlər naib vəzifəsi daşıyırdılar. Bunlardan başqa, şəhər məmurlarına *qalabəyi*, *darğalar* və *əsasbaşı* daxil idilər.

? *“Qeyri-məhdud səlahiyyətlərə malik” ifadəsini necə başa düşürsünüz?*

Darğalar şəhər daxilində, əsasən, fəal ticarət aparılan yerlərdə qayda-qanuna nəzarət edirdilər, əsasbaşı isə şəhərin gecə qaravuluna cavabdeh idi. Naib təsərrüfatı idarə edir, vergilərin vaxtında yığılması üçün xanın qarşısında məsuliyyət daşıyırdı, mükəlləfiyyətlərin yerinə yetirilməsini təmin edirdi. Sənətkarlara qoyulan vergilərin təyin edilməsi və toplanması da naibin vəzifəsinə daxil idi. Kəndliləri itaətdə saxlamaq üçün xanlar maaflardan ibarət xüsusi dəstələr yaradırdılar. Bu maaflar xüsusi imtiyazlara malik olur, vergi və rüsumlardan azad edilirdilər. Onlar xana hərbi xidmət göstərməli, onun çağırışına əldə silah gəlməli idilər. Xanın sosial dayağını darğalar, yüzbaşılar, kəndxudalar və naiblər təşkil edirdilər. Onların heç biri xandan əməkhaqqı almır və ancaq zəhmətkeş xalqın hesabına yaşayırdılar.

? *Xanların mərkəzləşdirilmiş dövlət yaradılmasına qarşı çıxış etmələri nə ilə bağlı idi?*

M *“Bütün bu məhkəmə yerləri yalnız kasıblar üçün ciddidir. Avropada olduğu kimi, İranda (Cənubi Azərbaycanda – red.) da pulun hökmü böyükdür. Bu metalın parıltısı qanunları susdurur, ədalət məhkəməsinin gözlərini tutur, hakimiyyət öz hüquqlarından imtina edir. Buna görə də varlı cinayətkar başını dik tutub gedir; yoxsul təqsirkar isə öz yoxsulluğu və cinayəti üçün cəzanın bütün əzablarına dözür”.*

***N.Mustafayevanın “Cənubi Azərbaycan xanlıqları” əsərində***
***Fransız səyyah Abbat de la Portun yazılarından***

*Fransız səyyahın yazdıqlarını təhlil edin.*

1. *XVI –XVIII əsrdə Azərbaycanın sosial-iqtisadi inkişafına dair diaqram tərtib edin.*
2. *Xanlıqlar dövründəki vergi və mükəlləfiyyətləri Səfəvilər dövlətində mövcud olmuş vergi və mükəlləfiyyətlərlə müqayisə edin.*
3. *Xanlıqlar dövründə mövcud olan vəzifələri cədvəl formasında qurun.*
4. *Xanlıqlar dövrü və Səfəvilər dövlətindəki inzibati idarə sistemini müqayisə edin.*

LAYİHƏ



# XANLIQLAR DÖVRÜNDƏ MƏDƏNİYYƏT

*Nadir şahın ölümündən sonra Azərbaycan ərazisi müstəqil xanlıqlara bölündü. Vahid dövlətin olmaması, natural təsərrüfatın və feodal qaydalarının hakimliyi mədəniyyətin inkişafına mənfi təsir göstərirdi.*

*Göy məscid, Şəki xan sarayı, Molla Pənah Vaqif*

**Elm, təhsil.** Qərb ölkələrində elm və texnika inkişaf etdiyi halda Azərbaycanda, digər Şərq dövlətlərində olduğu kimi, həyatın bütün sahələrində ənənəvi üsul və avadanlıqlardan istifadə olunurdu.

? *Qərbdə elm və texnikanın inkişaf etdiyi bir dövrdə Azərbaycanın bu sahədə geri qalmasının səbəbi nə idi?*

Xanlıqlarda ədəbiyyat və memarlıq sahəsində mədəni inkişaf hiss olunurdu.

Bu dövrdə kitabxanalar əhəmiyyətli rol oynayırdı. Ərdəbildəki Şeyx Səfi kitabxanası öz şöhrətini qoruyub saxlamışdı.

Keçən əsrlərdə olduğu kimi, bu dövrdə də təlim-təhsil məsələlərinə din xadimləri rəhbərlik edirdilər. Tələbələr yenə də məscidlərdə, şəxsi evlərdə təşkil edilən məktəb və mədrəsələrdə təhsil alırdılar. Uşaqlar burada əvvəlcə ana dilində, sonralar isə ərəb və fars dillərində təhsillərini davam etdirirdilər. Əlifbanı tamam öyrəndikdən sonra "Quran"ı əzbərləyirdilər. Təhsil ocaqlarında, əsasən, ilahiyyat dərsi geniş tədris edilsə də, bəzən təbiət elmləri də keçilirdi.



**Mədrəsədə dərs**



**Şeyx Səfi məqbərəsi.**
**Boston kitabxanasının arxivindən**

? *Xanlıqlar dövründə dini dərslər nə üçün öz üstünlüyünü saxlayırdı?*



LAYİHƏ

**Memarlıq, incəsənət.** Şəki xanlarının yay sarayı Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi Hüseyn xanın dövründə tikilmişdir. Qala divarları ilə əhatə olunan ikimərtəbəli Xan sarayı altı otaqdan, dörd dəhlizdən, iki güzgülü eyvandan ibarətdir.



*Şəki Xan sarayı*

Binanın baş fasadı dünyada analoqu olmayan ən xırda, həndəsi fiqurlara bölünmüş, ağac parçaların aralarına müxtəlif rəngli şüşələr geydirilmiş şəbəkə pəncərə və qapılardan ibarətdir. Şəbəkələrin hər bir kvadrat metrində, orta hesabla, 5000, mürəkkəb yerlərində isə 14000 ağac və şüşə şəbəkədən istifadə olunmuşdur.

Binada mismar və yapışqandan istifadə edilməmiş, ağac və şüşə parçaları bir-birinə keçirilmişdir. Saray divarının ornamentləri, naxışlı şəbəkələr, müxtəlif naxışlar, gəc üzərində oymalar məharətlə işlənmişdir. Binanın daxilində həndəsi naxışlara, nəbatat rəsmlərinə, süjetli və quş rəsmlərinə, döyüş və ov səhnələrinə daha geniş yer verilmişdir. Zövqlə işlənmiş taxçalar, güzgülü buxarılar əsl sənət nümunəsidir.

**XVIII ƏSR MEMARLIQ ABİDƏLƏRİ**

- **Şəkidə 1763-cü ildə usta Abasqulu tərəfindən inşa edilmiş Xan sarayı**



- **İrəvanda 1764-cü ildə inşa edilmiş Göy məscid**



- **İrəvanda baş memarı usta Mirzə Cəfər olan Sərdar sarayı**



- **İrəvanda Sərdar sarayının 1791-ci ildə tikilmiş Güzgülü salonu**



*Xəritədə hansı şəhərlərdə Göy məscidlərin inşa edildiyini göstərin.*
*XVIII əsr memarlıq abidələrinin özünəməxsus xüsusiyyətlərini təhlil edin.*

Qədim tarixə malik olan Azərbaycanda xalçaçılığın inkişafı haqqında Herodot, Klavdi Elian, Ksenofont və başqa qədim dünya tarixçiləri məlumat vermişlər. XVIII əsrin ikinci yarısında, xanlıqlar dövründə xalça istehsalı xeyli genişlənmiş, hər xanlığın özünün xalçaçılıq karxanası olmuş və bu da müxtəlif məktəblərin yaranmasına zəmin yaratmışdır.

*Şəki xan sarayının tarixi əhəmiyyətini dövr baxımından dəyərləndirin.*

M

*"Əgər Azərbaycanın başqa qədim tikililəri olmasa idi, təkcə Şəki xan sarayını dünyaya göstərmək bəs edərdi".*

***Türk şairi Nazim Hikmət***

XVIII əsrdə Qarabağ xalçaçılıq məktəbləri Şuşada cəmlənmişdi. Bu əsrdə Şuşada klassik çeşnili xalçalarla yanaşı, Rusiyadan, eləcə də Avropadan gətirilmiş məcməyi, ətirli sabun, çit və digər müxtəlif məişət əşyalarının üzərindən götürülmüş naxışlardan yeni xalça kompozisiyaları – "Bağçadagüllər", "Saxsıdagüllər", "Bulud" və s. toxunurdu.

LAYİHƏ

Qarabağ xalçalarının rəng-boyaq palitrası olduqca zəngin olmuşdur.

Bu palitra Qarabağ təbiətinin bütün rənglərinin ən zərif çalarlarını özündə əks etdirir. Qədim dövrlərdən Azərbaycan xalçalarının ara sahə yerliyi ənənəvi olaraq qırmızı rəngdə işlənmişdir. Orta əsrlərdən etibarən burada rənglər müxtəlif bitkilərlə yanaşı, cürbəcür həşəratlardan da alınmışdı. Onların içərisində qırmızı rəng almaq üçün ən geniş yayılmışı koşenildir. Xalq arasında ona “qırmızböcəyi”, “qurd qırmız”, “palıd cücüsü” deyilirdi. Naxçıvan xanlığı dövründə bu gözəl və füsunkar təbiətli yurdumuzda vaxtilə evlərdə palaz, kilim, sumax, vərni, şəddə, zilli və cecim kimi xalça növləri toxunub, xalçatoxuma sənəti inkişaf etdirilib.

Xanlıqlar dövründə diqqəti cəlb edən xalçaçılıq məktəblərindən biri də Təbrizdə yerləşirdi. Azərbaycan mədəniyyət tarixinin ən qiymətli inciləri silsiləsinə daxil olan Təbriz xalçaları, Quba, Şəki xalıları və xalçaları bu gün də öz dəyərini qoruyub saxlayır. Azərbaycan xalçaçılıq sənəti sahəsində dünyanın aparıcı ölkələrindən biridir.



***Bağçadagüllər xalçası***



***Saxsıdagüllər xalçası***



***Bulud xalçası***

? *Ölkəmizdə xalçaçılığın inkişafının səbəblərini nədə görürsünüz?*

**Ədəbiyyat.** XVII–XVIII əsrlərdə Azərbaycan ədəbiyyatı şifahi xalq yaradıcılığının, əsasən, aşıq nümayəndələrinin əsərlərinin təsiri altında canlı həyata, xalq dilinə daha da yaxınlaşır. Bununla yanaşı, Azərbaycan poeziyasında realizmə keçid dövrünün təməli qoyulur. Bu dövrdə poeziyada Füzuli ənənələri hələ kifayət qədər güclü olsa da, artıq bu cazibədən çıxmaq cəhdləri **Saib Təbrizi**, **Qövsi Təbrizi** kimi sənətkarların yaradıcılığında özünü büruzə verir. **Molla Vəli Vidadi** və **Molla Pənah Vaqif** kimi sənətkarlar sadə, canlı dildə yazdıqları əsərlərlə poeziyanı xalqa daha da yaxınlaşdırmışlar. Vaqif öz dövrünün görkəmli siyasi xadimi olmuş, uzun müddət Qarabağ xanlığının xarici siyasətini müəyyənləşdirmişdir. XVIII əsr Azərbaycan ədəbiyyatında orta əsrlərin son, yeni dövrün isə başlanğıc mərhələsi kimi keçid xarakteri daşıyır.

1. *İrəvandakı Göy məscid və Sərdar sarayının Güzgülü salonunun taleyi necə olub?*
2. *Paraqrafdakı faktlar əsasında XVIII əsr mədəniyyətinə dair xronoloji cədvəllər hazırlayın.*
3. *İnsanların həyat tərzindəki dəyişikliklərin xalçalarda əks olunduğunu nümunələr əsasında təqdim edin.*
4. *Xalça nümunələrinə əsasən Azərbaycan xalçaçılıq tarixinin keçmişini və müasir dövrünü müqayisə edin, təqdimatlar hazırlayın.*

LAYİHƏ

# ƏLAVƏ MƏNBƏLƏR

**II Sarqonun Urartu ilə mübarizəsi haqqında ilahi Assura məktub (e.ə. 714-cü il) "Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə" əsərindən**

Parsuaşdan çıxıb Mannalılar ölkəsinin Missi vilayətinə yaxınlaşdım. Ullusunu qəlbən qulluq etməyə hazır, öz ölkəsinin əyanları ilə birlikdə, mənim gəlişimi öz Sirdakka qalasında gözləyirdi. O mənim inandığım Assur canişinləri kimi, qoşunumun təmini üçün un və çaxır anbarları hazırladı, öz böyük oğlunu hədiyyələr və mehriban sözlərlə mənə tapşırdı və öz hökmranlığını möhkəmləndirmək naminə mənə stela həsr etdi. İri qoşqu atlarını, mal-qaranı bac aldım. Mən onlara mərhəmət göstərdim, onların dualarını qəbul etdim, yalvarışlarını eşitdim və dedim: Əfv olsun ... Assurun və Mardukun mənə bəxş etdikləri qüdrətə və bütün dünyanın hökmdarları arasında mənim silahımı yüksəltdiklərinə görə, Urartu ölkəsini məğlub etməyə, onların sərhədlərini bərpa etməyə, Mannalılar ölkəsinin məzlum əhalisinə dinclik yaratmağa söz verdim və onların ürəkləri ümidlə doldu. Onların hakimi, hökmdar Ullusunuya fəxri süfrə açdım, taxtını onun atası, onu yaradan İranzunun (taxtından) hündür yüksəltdim, assuriyalılarla birlikdə masa arxasında oturtdum, onlar da mənim səltənətimə Assurun və öz ilahilərinin qarşısında xeyir-dua verdilər.

**Herodot. "Tarix"**

Deyok möhkəmləndirilmiş şəhəri – indiki Aqbatananı ucaltdı; [orada] şəhər divarının biri digərini dairəvi şəkildə əhatə edirdi. Qala divarları elə tikilmişdi ki, bir [divarın] dairəsi o birinin üstündən bürcün hündürlüyünə qədər ucalırdı. Şəhərin təpədə yerləşməsi qalanın belə quruluşu üçün əlverişli şərait yaradırdı, buna baxmayaraq, həmin yer süni şəkildə bir qədər dəyişdirilmişdi. Divar dairələrinin sayı yeddi idi: sonuncu dairənin daxilində hökmdar sarayı və xəzinə yerləşirdi. Ən böyük divar dairəsinin uzunluğu təxminən Afina dairəvi divarının uzunluğu ilə eynidir. Birinci divar dairəsinin bürcləri ağ, ikinci – qara, üçüncü – sarımtıl-qırmızı, dördüncü – tünd-göy, beşinci – narıncı-qırmızı rənglərdə idi. Beləliklə, bütün bu beş dairənin bürcləri əlvan şəkildə rənglənmişdi. Sonuncu iki dairədən biri gümüşü, digəri isə qızılı rəngdə idi.

**M.Kalankatuklu. I kitab. 4-cü fəsil. Albaniya ölkəsinin bolluğu və bərəkətliliyi və bu torpaqdan insanlar necə faydalanırlar**

Uca Böyük və Kiçik Qafqaz dağlarının qoynunda yerləşən Alban ölkəsi öz saysız-hesabsız təbii sərvətləri ilə həddindən artıq gözəl və heyranedici bir məmləkətdir. Böyük Kür çayı sakit-sakit bu ölkənin düz ortasından axır, iri və xırda balıq gətirib sularını Xəzər dənizinə tökür. Çayın sahilləri boyu münbit çöllərində külli miqdarda taxıl və üzüm, neft və duz, ipək və pambıq, çoxlu zeytun ağacları var. Onun dağlarında qızıl, gümüş, mis və oxra çıxarılır. Vəhşi heyvanlara gəldikdə isə, burada şir, bəbir, çöləşşəyi, çoxlu quşlardan isə qartallar, qırğılar və bunlara bənzərlər var.

Ölkənin paytaxtı əzəmətli Bərdə şəhəridir.

LAYİHƏ

**M.Kalankatuklu. “Albanların tarixi”**

...Şöhrətli hökmdar Cavanşir ... [ikinci dəfə] Dəməşqə gəldi. Xəlifə onun üçün öz doğma qardaşının sarayını hazırlamağı əmr etdi; o, axşam yeməyinə onunla birlikdə otururdu. Sonra o, Konstantinopoldan gəlmiş əsilzadə ərlərlə sülh danışığı aparmağı Cavanşirə təklif etdi. Xəlifə onun dərin biliyinə heyrət etdi. Bizans elçiləri də ondan çox razı idilər, çünki o hər vəchlə xəlifənin fikrini onların xeyrinə yönəltməyə çalışırdı.

Bunlardan sonra onun şöhrəti daha çox artdığı üçün Cənub hökmdarı Şərqin knyazına başına tac qoymuş bir hökmdar kimi ehtiram göstərməyi əmr etmişdi.

...Bundan əlavə, xəlifə ona başqa hədiyyələr də bəxş etdi: qızıl qınlı polad qılınc, mirvari ilə süslənmiş geyim və parçalar... xəlifənin özünün mindiyi 52 iti yerişli at... O, Sünik vilayətini Cavanşirin ixtiyarına verib təkid etdi ki, Araz çayının o biri sahilində yaşayan Atropatena əhalisini də özü idarə etsin. Lakin Cavanşir dünyanın dörd tərəfinə hakim olub özünü hakimi-mütləqə çevirmək istəmədi. Bunlardan sonra o öz ölkəsinin üzərinə qoyulmuş ağır verginin yüngülləşdirilməsini xahiş etdi. Cənub hökmdarı buna razı olub əmr etdi ki, vergi onun üçdəbiri qədər yüngülləşdirilsin.

**Ət-Təbəri. "Tarix ər-rusul və-l-müluk"**

Deyirlər ki, 218-ci (833) ildə əl-Cibəldə Həmədan, İsfahan, Masabazan, Mihricanqazaq şəhərlərindən külli miqdarda adam xürrəmilərin etiqadını qəbul etdi. Onlar bir yerə yığılıb Həmədan yaxınlığında düşərgə saldılar. Əl-Mütəsim onlara qarşı qoşun göndərdi və onun sonuncu dəfə göndərdiyi ordu İshaq ibn İbrahim ibn Musabın başçılığı altında idi. Həmin ilin Şəvval ayında (xəlifə) onu Cibəlin hakimi təyin etmişdi. Zülqədə ayında o onlara doğru yola düşdü və qələbə haqqında onun verdiyi xəbər [Bağdadda] tərviyə günündə (25 dekabr 833-cü ildə) oxundu. Həmədan yanında o, 60 min adamı qırdı, qalanları isə Bizans ərazisinə qaçdı.

**Sədrəddin Əli əl-Hüseyni. “Əxbar əd-dövlət əs-Səlcuqiyyə”**

...Sultan Arslan şah ibn Toğrulun yalnız adı hökmdar idi, atabəy Eldənizin isə özü əmrlər verir, iqta torpaqları paylayır, xəzinələri sərəncamında saxlayır, onları ölkənin istənilən yerinə köçürürdü. Sultan isə onunla bu məsələlər barədə münaqişəyə girə bilmirdi; atabəy Eldənizin idarə işlərindəki özbaşınalığından, əmrlər verməsindən və istədiyi adamlara iqta paylamasından bəzən onun ürəyi sıxılırdı.

**İbn əl-Əsir. “Əl-kamil fit-tarix”**

Sonra [tatarlar] Reyə, Həmədana, əl-Cibəl ölkəsinə soxulub İraq sərhədlərinə qədər gəldilər. Sonra Azərbaycana və Arrana daxil olub, bir ildən az müddətdə ölkələri xarabaya çevirib əhalinin əksəriyyətini qırdılar. Yalnız qaçanlar özlərini xilas edə bildilər. Bu misli görünməmiş bir əhvalatdır.

Azərbaycanla Arranın işini bitirib tatarlar Şirvanın Dərbəndinə tərəf gedərək buraların şəhərlərini zəbt etdilər... Buradan Allan və Ləzgilər ölkələrinə soxulub o yerlərdə yaşayan müxtəlif xalqları qırır, qarət və talan edirdilər. Sonra türklərdən sayca ən çoxu olan qıpçaqların üstünə hücum edib rastlarına gələnlərin hamısını qılınclardan keçirdilər, qalanları isə meşələrə və dağlara sığındılar.



LAYİHƏ

Bütün bu işləri tatarlar ən qısa vaxt ərzində, necə deyərlər, bir səfərin cərəyan edən günlərində gördülər. Tarixçilərin dediyi kimi, bütün dünyanı zəbt edən İsgəndər heç tatarlar kimi belə tezliklə işlərini bitirməmişdi.

**Əbd ür-Rəşid əl-Bakuvi. "Kitab təlxis əl-əsər və əcaib əl-malik əl-qəhhar"**

5-ci iqlim. BAKUYƏ... Əl-Xəzər dənizi üstündə, Dərbənd vilayətlərinin birində, Şirvan yaxınlığında daşdan tikilmiş şəhər. Dəniz onun divarlarını yalayır; dəniz bir çox qala bürclərini basıb örtmüş, məscidə yaxınlaşmışdır. Oranın yeri qayalıqdır, evlərinin çoxu qaya üzərində tikilmişdir. Havası yaxşı, suyu şirin, qayalardan qaynayan bulaq suyu isə çox dadlıdır. Orada yığılan taxıl məhsulu azdır, buna görə də taxılın çoxunu buraya Şirvandan gətirirlər. Əncir, nar və üzüm burada boldur. Bağlar şəhərdən uzaqdır, buna görə şəhər əhalisinin çoxu yay vaxtı oraya köçür, bir müddət orada yaşayır, sonra isə geri qayıdırlar. Və onlar hər il belə edirlər.

Şəhərin son dərəcə möhkəmləndirilmiş iki alınmaz daş qalası var, onlardan biri, böyüyü dəniz yaxınlığındadır. Bu tatarların ala bilmədiyi qaladır. O biri qala birincidən yuxarıda dayanır, onun yuxarı hissəsinin bir yanı qurğulardan atılan daşlarla dağıdılmışdır. Burada qətran və neft yataqları bəllidir; hər gün 200 dəvə yükündən çox neft çıxarılır...

**“Tarix-i Şah İsmayıl Səfəvi” (Britaniya muzeyində saxlanılan əlyazma)**

...[İsmayıl] dövlətin sütunlarını – Hüseyn bəy Lələni, Məhəmməd bəy Ustaclını, Əbdi bəy Şamlını, Xadim bəy Xüləfanı, Qarapiri bəy Qacarı yanına çağırdı və onlardan soruşdu: “Siz Azərbaycan taxtgahını, yoxsa Gülüstan qalasınımı istəyirsiniz?” Onlar cavab verdilər: “Azərbaycanı!”

**Şah I İsmayılın Musa Durğut oğluna Fərmanı. Bismillahir-rəhmanir-rəhim Əbülmüzəffər İsmayıl Bahadura Sözümüz**

Əmiri-əzəmi-əkrəm Musa Durğut oğlı inayət və şəfqətimizə ümidvar öləndən sonra şöylə bilsün kim, iftixar ül-əazim vələyan Əhməd Ağa Qəramanlu ol tərəfə göndərdük və ol hər nə ki ixtiyarligini kendünə şəfqət etdük. Gərək kim müşarinileyh sözündən və məsləhətindən çıxməsün və mütabiət və yardım ona qılsun kim, inşaallahi-təala hər nə kim onun müradi və istəki olsə, hasildir. Gündəngünə nə iş vaqe bulsa, Əhməd Ağa ittifaqi ilə dərgahi-müəllamizə bildürsünlər kim, hər növ buyuruğımız olsə, əməl etsün, gönlünü xoş tutub, mərhəmətimizə isdar olsun.

**Mirzə Adıgözəl bəy. “Qarabağnamə”. Şuşa qalasının bina olunması**

...Pənah xan ...Şuşa şəhərini bina etdi. Şəhərin bina olunacağı yerdə axar su və bulaq yox idi. Sınaq üçün bir neçə quyu qazdılar. O quyulardan su çıxandan sonra, 1170-ci (1755) ildə Şuşa şəhərinin binasını qoydular.

Şah bulağında sakin olanları, bir para kənd əhalisi ilə köçürüb buraya gətirdilər. Hər bir şəxsə yurd və yer verib xalqı sakin etdilər. Sonra Pənah xan öz ailəsi üçün uca imarətlər və geniş binalar saldırdı. Hünərli ustalar, sənət sahibi və iş bilən memarlar barı, hasar, bürc və divar çəkdilər. O divarların hasarı bəzi yerlərdə indi də durur...



LAYİHƏ

# TERMİNOLOJİ LÜĞƏT

| | |
|---|---|
| Alaf | Səlcuq imperiyası dövründə qarovulda duran dəstəni və ya rəsmi şəxsi təmin etmək üçün alınan vergi |
| Amil | Ərəb xilafəti dövründə vergilərə nəzarət edən məmur |
| Azat | Sasanilər dövlətində orta və xırda feodal |
| Bac | Hülakülər dövlətində tacirlərdən alınan vergi |
| Basilevs | Hökmdar (yunanca) |
| Bayrat | Hülakülər dövründə istifadəsiz qalan torpaqlar |
| Bəhrə | Ağqoyunlu dövlətində suvarma zamanı sudan istifadəyə görə alınan gəlir vergisi |
| Bürokratiya | Hökumət strukturlarının nümayəndələrindən, dövlət məmurlarından ibarət olub, səlahiyyətləri və imtiyazlarına görə cəmiyyətin digər hissəsindən fərqlənən təbəqə |
| Cecim | xalça növü |
| Çərik | Səfəvilər dövlətində Azərbaycan tayfalarından yığılan qızılbaş qoşunu |
| Çobanbəyi | Ağqoyunlu dövlətində otlaqlardan istifadəyə görə köçəri maldarlıqla məşğul olan elatlardan alınan vergi |
| Çöpbaşı | Azərbaycan xanlıqlarında otlaqlardan istifadə müqabilində rəiyyətdən alınan vergi |
| Darğa | Şəhər daxilində qayda-qanuna nəzarət edən məmur |
| Daruxana | aptek |
| Darüşşəfa | müalicə evi (xəstəxana, şəfa evi) |
| Dastakert | Sasanilər dövründə irsi torpaq mülkiyyəti |
| Dinar | Yaxın Şərqin bəzi ölkələrində qızıl pul |
| Dirhəm | bəzi ərəb ölkələrində gümüş pul vahidi |
| Dişkirəsi | Azərbaycan xanlıqlarında rəiyyətin öz hesabına xanın muzdlu əsgərlərini saxlamasından ibarət mükəlləfiyyət |
| Divani | Ərəb xilafətində dövlətə məxsus torpaqlar |
| Drahma | pul vahidi |
| Eşikağası | Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində saraydakı vəzifə |
| Əxilik (qardaşlıq) | XIII–XIV əsrlərdə sənətkar birliyi |
| “Əl-müxəmmirə” (qırmızı geyinənlər) | xürrəmilərin ərəbdilli mənbələrdəki adı |
| Əmir | Ərəb xilafətində hərbi başçı |
| Əmir-ül-üməra | Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində, adətən, sülalə üzvlərindən və yarımköçəri türk əyanlarından təyin olunan qoşun başçısı |
| Əvrəz | Azərbaycan xanlıqlarında kəndlilərin mükəlləfiyyəti |



LAYİHƏ

| | |
|---|---|
| Fels | pul vahidi |
| Fərsəx | uzunluq vahidi |
| Fitrə | islamiyyətdə ailə üzvlərinin sayına görə orucluq ayında yoxsullara, yetimlərə verilməli olan sədəqə |
| Gezit | Sasanilər dövründə can vergisi |
| Heroqlif | ideoqrafik yazı sistemində heca və ya səs bildirən fiqurlu işarə |
| Xalisə (xass) | hökmdara və onun ailəsinə məxsus torpaqlar |
| Xaraq | Sasanilər dövründə torpaq vergisi |
| Xostaq | Sasanilər dövründə şərti torpaq mülkiyyəti |
| Xüms | islam dinində varlı adamın öz gəlirinin, qazancının beşdəbir hissəsi miqdarında kasıblara verməli olduğu vergi |
| Xütbə | xətibin minbərdən camaata xitabən söylədiyi nəsihətamiz sözlər, nitq |
| İncu | Elxanilər dövründə xana və xan ailəsinə məxsus torpaqlar |
| Kaşı | adətən, divarların xarici səthinə bəzək üçün vurulan üzü naxışlı çini |
| Katakomba | süni və ya təbii mənşəli yeraltı labirintlər |
| Katolikos | kilsə başçısının (patriarxının) titulu |
| Kələntər | şəhərin inzibati işlərinə baxan vəzifəli şəxs |
| Kələntərlik | Azərbaycan xanlıqlarında alınan vergi |
| Kənqaş | Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində sülalə üzvlərindən və əmirlərdən təşkil olunan qapalı məşvərət orqanı |
| Kust | Sasanilər dövlətində iri canişinlik |
| Qarovul | keşikçi, gözətçi |
| Qavar | Albaniyada inzibati ərazi vahidi, vilayət |
| Qazı | müsəlmanlarda dini məhkəmə işlərinə baxan ruhani, şəriət hakimi |
| Qırmız (koşenil) | qırmızböcəyindən hasil edilən qırmızı boya |
| Qolbəyi | Səfəvilər dövlətində bəylərbəyliyə daxil olan mahalı idarə edən məmur |
| Qrifon | aslan bədənli, qartal başlı əfsanəvi varlıq |
| Qulam | qədimdə qul, kölə, nökər, xidmətçi |
| Lacivərd | daş növü |
| Legion | Qədim Romada qoşun vahidi |
| Ləşkər | qoşun, ordu |
| Malcəhət | Ağqoyunlu dövlətində əldə edilən məhsuldan alınan gəlir vergisi |
| Marena (boyaqotu) | qızılı boyaq maddəsi |
| Maşmaş | Arattada dini idarənin başında duran kahin |
| Mərzban | Sasanilər dövlətində canişin |

LAYİHƏ

| | |
|---|---|
| Mirzəyanə | Azərbaycan xanlıqlarında alınan vergi |
| Monarxiya | Dövlətin başında bir nəfərin – padşahın durduğu idarə üsulu, habelə bu üsulla idarə olunan dövlət; padşahlıq, mütləqiyyət |
| Möhürdar | Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində saraydakı vəzifə |
| Nəhəng | Sasanilər dövlətində əyalət |
| Noyon | monqollarda qoşun başçısı |
| Orden | dini icma, təriqət |
| Ramik | Erkən Orta əsrlərdə Albaniyada qara camaat |
| Rəncbər | taxıl əkib-becərməklə məşğul olan kəndli, əkinçi, taxılçı |
| Satrap | Əhəmənilər dövlətində canişin |
| Sədr-əzəm (baş sədr) | Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində müsəlmanların ruhani başçısı |
| Siklopik tikili | |
| (“təpəgöz qalası”) | Son Tunc – İlk Dəmir dövründə iri qaya parçalarından inşa edilən müdafiə tikilisi |
| Soyurqal | Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində irsən keçən torpaq sahibliyi forması |
| Sufi | təsəvvüflə məşğul olan adam; dindən, dini göstərişlərdən əsla kənara çıxmayan adam; zahid |
| Sumax | xalça növü |
| Şəbəkə | ağacdan, metaldan, daşdan, məftildən düzəldilmiş tor hörgü, barmaqlıq; ornament |
| Şəddə | xalça növü |
| Tamğa | Hülakülər dövlətində sənətkarlardan alınan vergi |
| Təvaçi | Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində müharibə ərəfəsində vilayətlərdən qoşun toplayan və onların sayını dəqiqləşdirən məmur |
| Tiyul | Səfəvilər dövlətində şərti torpaq mülkiyyəti |
| Türbə | qəbir, məzar: böyük, yaxud müqəddəs sayılan şəxslərin qəbirləri üzərində tikilən və sonradan çox vaxt ziyarətgah olan bina |
| Ulus | el, oba, yurd, kənd; monqollarda dövlətin inzibati vahidi |
| Üşr | IX–XI əsrlərdə torpaqdan istifadə müqabilində kəndlidən alınan vergi (ondabir) |
| Vərni | xalça növü |
| Yepiskop | xristian dinində yüksək ruhani rütbə və bu rütbəni tutan şəxs |
| Zilli | xalça növü |

LAYİHƏ

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


***Azərbaycan dilində***

1. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. “Azərbaycan” cildi. Bakı, 2007.
2. Azərbaycan Respublikası. Milli atlas. Bakı, 2014.
3. Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Bakı, 2014.
4. Azərbaycan tarixi. 7 cilddə. I–III cildlər. Bakı, 1998–1999.
5. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
6. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, 2006.
7. Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 2010.
8. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136–1225). Bakı, 1985.
9. Bünyadov Z. Azərbaycan VII–IX əsrlərdə. Bakı, 1989.
10. Əbdülrəşid əl-Bakuvi. Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzəsi. Bakı, 1992.
11. Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Bakı, 2007.
12. Əliyev K., Əliyeva F. Azərbaycan antik dövrdə (e.ə. IV – b.e. III əsrləri) Bakı, 1997.
13. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993.
14. Əliyev F., Həsənov İ. İrəvan xanlığı. Bakı, 1997.
15. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, 1996.
16. Əliyev F.M. XVIII əsrin II yarısında Şimali Azərbaycan şəhərləri. Bakı, 1960.
17. Göyüşov R.B. Azərbaycan arxeologiyası. Bakı, 1986.
18. Herodot. Tarix. Bakı, 1998.
19. Həsən bəy Rumlu. Əhsən ət-təvarix. Bakı, 1983.
20. Hüseynov E.İ. Azərbaycan Nadir şah Əfşarın hakimiyyəti dövründə. Bakı, 2013.
21. İbn-əl-Əsir. Əl-kamil fi-t-tarix. Bakı, 1959.
22. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2009.
23. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixi-aləmaraye-Abbasi). Bakı, 2010.
24. Qaşqay S.M. Manna dövləti. Bakı, 1993.
25. Qarabağnamələr. I–III kitablar. Bakı, 2006.
26. Qarayev E. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində. Bakı, 2005.
27. Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə. Bakı, 2006.
28. Qiyasi C. Nizami dövrünün memarlıq abidələri. Bakı, 1991.
29. Lokkart L. Nadir şah. Bakı, 2013.
30. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV–XVII yüzilliklər). Bakı, 1996.
31. Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, 2006.
32. Məmmədova A.Ə. Car-Balakən camaatlığı (XVII əsrin sonu – XIX əsrin 30-cu illəri). Bakı, 2009.
33. Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı, 2006.
34. Mustafayeva N. Cənubi Azərbaycan xanlıqları. Bakı, 1995.
35. Mustafazadə T.T. Qarabağ xanlığı. Bakı, 2009.
36. Mustafazadə T.T. Quba xanlığı. Bakı, 2005.




LAYİHƏ

37. Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı–Azərbaycan münasibətləri. Bakı, 2002.
38. Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, 2012.
39. Nəcəfli T.H. Səfəvi–Osmanlı münasibətləri. Bakı, 2016.
40. Nizaməddin Şami. Zəfər-namə. Bakı, 1992.
41. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Bakı, 2005.
42. Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV – b.e. III əsrləri). Bakı, 1982.
43. Piriyev V.Z. Azərbaycan XIII–XIV əsrlərdə. Bakı, 2003.
44. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996.
45. Şərifli M.X. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, 1978.
46. Şükürov K.K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları. (Qədim zamanlardan müasir dövrədək). Bakı, 2004.
47. Venesiyalılar Şah I Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri). Bakı, 2005.
48. Vəlixanlı N.M. Ərəb Xilafəti və Azərbaycan. Bakı, 1993.

***Rus dilində***

49. Алиев И. История Мидии. Баку, 1960.
50. Алиев К. Античная Кавказская Албания. Баку, 1992.
51. Алиев К. Античные источники по истории Азербайджана. Баку, 1987.
52. Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII–XIV веков. Баку, 1956.
53. Ашурбейли С.В. Очерк истории средневекового Баку. Баку, 1964.
54. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э. Баку, 1990.
55. Гафуров Б.Г. Александр Македонский, М., 2007.
56. Гусейнов М.М. Древний палеолит Азербайджана. Баку, 1983.
57. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV века до н. э. М.-Л., Изд. АН СССР, 1956.
58. Искендерова М. Бакинское ханство. Баку, 2000.
59. История Древнего Востока. Часть 1. Месопотамия (под ред. И.М.Дьяконова). Москва, 1983.
60. Книга Орудж-бека Байата-Дон Жуана Персидского (Историко-географический трактат). Баку, 1988.
61. Мамедов Т.М. Кавказская Албания в IV–VII вв. Баку, 1993.
62. Николле Д., МакБрайд А. Армии мусульманского Востока. VII–XI века. Москва, 2003.
63. Петрушевский И.П. Азербайджан в XVI–XVII вв. Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949.
64. Путешественники об Азербайджане, том I. Баку, 1961.
65. Халилов Дж.А. Материальная культура Кавказской Албании. Баку, 1985.

***İnternet resursları***

66. www.history.az
67. www.history.ru
68. http://www.britishmuseum.org/
69. http://hermitagemuseum.org/wps/portal/hermitage/
70. http://collections.vam.ac.uk/



LAYİHƏ

## Buraxılış məlumatı

**AZƏRBAYCAN TARİXİ 10**

*Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün*
*Azərbaycan tarixi fənni üzrə*

**DƏRSLİK**

**Tərtibçi heyət:**

Müəlliflər: **Təvəkkül Əliyev**
**Pərviz Ağalarov**
**Niyaməddin Quliyev**
**Elşən Qasımov**
**Faiq Babayev**
**Elnur Hüseynov**
**Kamran Əsədov**
**Rafiq Məmmədov**

İxtisas redaktoru **Nərgiz Qasımzadə**

Buraxılışa məsul **Sevil İsmayılova**
Baş redaktor **Ülkər Məmmədova**
Üz qabığının dizaynı **Zaur Abbasov**
Dizayner və səhifələyici **Eldəniz Xocazadə**
Redaktor **Nərgiz Cabbarlı**
Korrektor **Nübar Qarayeva**
Texniki redaktor **Fəridə Səmədova**
Texniki direktor **Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru **Eldar Əliyev**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:*
*2017-098*

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi. Fiziki çap vərəqi 12,5. Formatı 70x100 1/16.
Səhifə sayı 200. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tiraj 15000. Pulsuz. Bakı – 2018.

**“Şərq-Qərb” ASC**
**AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17.**

LAYİHƏ

Pulsuz

## Əziz məktəbli!

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!

LAYİHƏ